# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nın Araşdırmaları

№ 4(4)
2020

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

№4(4) 2020

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

***II Dünya müharibəsində faşizm üzərində qələbənin 75 illik yubileyinə həsr olunur***

# 4

**Bakı - 2020**

№4(4) 2020

*Tarix fakültəsi Elmi Şurasının 22 may 2020-ci il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №6).*

<u>*Baş redaktor:*</u> Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaktor müavini:*</u> Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaksiya heyəti:*</u>

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / İgbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kərəm Məmmədov / Karam Mammadov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan / L.N.Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya / Saratov State University, Russia*

© Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
Bakı Dövlət Universiteti, Azərbaycan

# Redaksiyadan

Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir. Türk xalqları tarixi kafedrasının və Tarix fakültəsi Elmi Şurasının qərarları alınmaqla, ildə 1 sayı nəşr olunur. Jurnalda yalnız tələbə məqalələri nəşr edilir. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyasının gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir.

**2020-cu il tarixli 4-cü sayımız II Dünya müharibəsində faşizm üzərində qələbənin 75 illik yubileyinə həsr edilir.**

*Hazırki sayımız qlobal pandemiya dövründə hazırlanaraq nəşr etdirilir. Bu sayımızda məqaləsi nəşr olunan bakalavr və magistrantlara, onlara rəhbərlik etmiş professor-müəllim heyətinin üzvlərinə xüsusi şəraitdə yorulmadan çalışmaları ilə növbəti sayımızın vaxtında dərc edilməsinə yardım etdiklərinə görə təşəkkür edirik.*

Türk Dünyası
Gənc tədqiqatçılar dərnəyi

# MÜNDƏRİCAT / CONTENTS

*Культура древнетюркской письменности*
Айсулу Дукенбаева (ЕНУим.Л.Н.Гумилева, Казахстан) ...... 7

*PKK: İşçi partiyası və ya terrorçu təşkilat*
Bahar Rüstəmova (Bakı Dövlət Universiteti) ............................ 14

*Almaniyanın Polşaya hücumu və II dünya müharibəsinin başlanması*
Balamirzə Məmmədli (Bakı Dövlət Universiteti) …………….. 31

*XIX əsrin əvvəllərində Osmanlıda Yunan üsyanları və Böyük dövlətlər*
Əli Novruzov (Bakı Dövlət Universiteti) .................................. 41

*Türk xalqlarının musiqi mədəniyyəti haqqında*
Əsmər Sərkərova (Bakı Dövlət Universiteti) ............................. 60

*II Dünya müharibəsinə fərqli rakurslardan baxış*
Fatimə Carullazadə (Bakı Dövlət Universiteti) ......................... 74

*Dünyanın mədəniyyət mərkəzlərindən biri - Osmanlı imperiyası*
Fəxrəndə Məmmədova (Bakı Dövlət Universiteti) ................... 89

*"Azadlığa dəstək akti"na 907-ci düzəliş konteksində ABŞ-Azərbaycan münasibətlərinə baxış*
Fidan Gözəlova (Bakı Dövlət Universiteti) ............................... 106

*Türk savaş sənətində psixoloji və hərbi taktikalar*
Fizzə Məmmədova (Bakı Dövlət Universiteti) .......................... 117

*The New Global Order after WWII: Establishment of the International Organizations and Turkey's Cooperation with Democratic West*
Guljannat Huseynli (University of Rome Tor Vergata) ............ 136

*Balfour deklarasyonu sonrası yahudilerin İsrail'e göçü*
Lala Nağıyeva (Ankara Y.Beyazit Üniversitesi, Türkiye) …..... 149

*Prototürklərdə yazı*
Lamiyə Sadıqova (Bakı Dövlət Universiteti) .............................. 164

*“Rəngli inqilablar” kontekstində “Ərəb baharı” və Türkiyə*
Məlahət Eynəlizadə (Bakı Dövlət Universiteti) ........................... 178

*II Dünya müharibəsi sonrası beynəlxalq münasibətlər: “isti müharibə”dən “soyuq müharibə”yə keçid*
Nigar Abbasova (Bakı Dövlət Universiteti) ................................ 188

*Turkish - USSR Relations in the 1970s and 1980s*
Nigar Humbatova (Baku State University) .................................. 203

*“Erməni məsələsi”- “Şərq məsələsi”nin bir qoludur*
Nurtac Süleymanlı (Bakı Dövlət Universiteti) ............................ 216

*Osmanlı tarixində durğunluq dövrünün xüsusiyyətləri*
Təranə Babazadə (Bakı Dövlət Universiteti) ............................... 227

*Sovet dönəmində Ahıska türklərinin deportasiyası haqqında*
Türkan Əlisəfalı (Bakı Dövlət Universiteti) ................................ 237

*Uyğur xaqanlığının tarixinə baxış. Uyğur xaqanları və adlarının onomastikası*
Ülviyyə Həziyeva (Bakı Dövlət Universiteti) ............................ 248

:



**FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN**

**75 İllik YUBİLEYİNƏ**

**HƏSR OLUNUR**

UOT 7(4/9)

**АЙСУЛУ ЕРТАЕВНА ДУКЕНБАЕВА**

***Магистрант 2-курса факультета международных отношений, специальности 6М020500 «Филология:тюркские языки» ЕНУ им. Л.Н.Гумилева, Нур-Султан, Казахстан***
**E-mail: aisulu.ertaevna@mail.ru**

# КУЛЬТУРА ДРЕВНЕТЮРКСКОЙ ПИСЬМЕННОСТИ

*Научный руководитель:*
Доктор философии Талгат Молдабай
Евразийский Национальный Университет им. Л.Н.Гумилева, Казахстан

*Статья представляет собой обобщение мнений и суждений известных историков и наиболее видных представителей науки по вопросу возникновения древнетюркской письменности, комплексному исследованию создания письменности, связанной с культурой, историей, духовными ценностями народов. Руническая письменность является одним из самых важных показателей развития древнетюркской цивилизации. В результате выполненного анализа, был выявлен общий подход по историческому становлению и развитию письменности древних тюрков, высокому уровню языковой культуры тюркских народов данного периода. Данная статья будет интересна для студентов гуманитарных факультетов, изучающих культуру древних тюрков, для учащихся старших классов учреждений образования.*

*Ключевые слова:* древние тюрки, система письменности, культура, рунические письменности.

**«У кочевников письменность возникла гораздо раньше, чем у европейских народов, и была значительно совершеннее, чем, например, китайская иероглифика»**
***А.Оловинцов.***

*Введение.* Вопрос изучения древнетюркской письменности – один из самых сложных и вызывающий много споров и дискуссий. Источников по данной теме мало, и к тому же, мнение

большинства ученых состоит в том, что у кочевников письменной культуры не было. Один из лучших ученых-востоковедов А.Левшин пишет следующее: "Ни образ жизни, ни нравы, ни религия не позволяют киргизам-казахам быть образованными. Все просвещение их состоит из нескольких слабых лучей, почти невольно озаряющих человека, который хотя немного мыслит, имеет воображение и принимает впечатления окружающих его предметов, но и сии познания их обезображены суеверием. Умеющий читать и писать на своем языке почитается ученым, вообще же не знают они грамоты" (1, с.151).

Но еще в древнекитайских летописях есть немало свидетельств о наличии у кочевников древнего письма. Н.Я.Бичурин (о.Иакинф) в своем "Собрании сведений о народах, обитавших в Средней Азии в древнейшие времена" пишет в нескольких местах: «Перед могилами ставят камень с изображением лица покойного и надписью, в которой перечислены все военные подвиги, их надписи, буквы схожи с буквами народа Ху (хунны, гунны)". И там же, на другой странице: "Тюркские надписи напоминают надписи народа Ху" (2, с.230).

*Основная часть*. В 1889 г. русский этнограф и археолог Николай Михайлович Ядринцев обнаружил на берегу р.Кокшин-Орхон в Северной Монголии два больших рунических памятника в честь Бильге кагана (680-734 гг.) и в честь его брата, полководца Культегина (684-731 гг.), воздвигнутые в 732-735 гг. По месту находок письмена были названы «орхоно-енисейскими». Эти памятники Бильге кагана и Культегина, как и памятник советника первых каганов второго Восточнотюркского каганата (689-744 гг.) Тоньюкука (646-731 гг.), созданный вскоре после 716 г. еще при его жизни являются наиболее древними памятниками древнетюркской письменности. Они были изучены финскими (1890 г.) и русскими (1891 г.) учеными, организовавшими специальную научную экспедицию. В результате этой работы созданы два атласа со снимками, схемами и шесть сборников трудов, которые стали настольной книгой последую-

щих поколений тюркологов, историков, востоковедов научных школ различных стран (3, с.265).

Датский ученый, лингвист, филолог, историк, скандинавист по своей основной специальности Вильгельм Томсен первым в мире прочитал слово «тюрк» и «тенгри» из рунических текстов, найденных на берегах Орхона, и доложил о переводе 15 декабря 1893 г. на заседании Датской королевской академии наук. Это было великое научное открытие в мировой лингвистике. Московский исследователь Мурад Аджи называет эту дату – датой второго рождения тюрков. Узнав значения букв, также много сделавший для их дешифровки В.В.Радлов сумел в течение 2 месяцев прочесть один из этих огромных текстов, насчитывавший более 4 тысяч знаков (ныне всемирно знаменитый, он оказалась посвященным тюркскому витязю Культегину). Через 2 года, в 1885 г., российский академик предоставил науке прочтения и переводы всех древнетюркских рунических надписей, известных к тому времени.

Согласно последним исследованиям, руническая письменность зародилась еще до нашей эры, возможно, в сакское время. В III-V в.н.э. – существовало два варианта рунического письма – гуннское и восточное, бытовавшие на территории Жетысу и Монголии. В VI-VII вв. на базе последнего развивается древнетюркская письменность, названная орхоно-енисейской. Гуннское руническое письмо послужило основой для развития булгарского и хазарского письма, а также письменности кангаров и кыпчаков. Существование гуннского алфавита было подтверждено и множеством археологических материалов. Это гуннские руны, идентичные древнетюркским, обнаруженные в 1925 г. П.Козловым в курганах Ноин Ула (Монголия), и аналогичные знаки, найденные в тех же курганах в 1926 г. экспедицией А.Симукова. Гуннская руника была обнаружена известным археологом С.Киселевым в одном из Абаканских курганов (1941 г.), а Л.Кызласовым в другом южносибирском кургане – Таштык (1961 г.) (4, с.54).

Большая группа аналогичных находок была сделана в Монголии. Это курган Доро (Х.Пэрлээ, 1955 г.), гуннская золотая пайцза (паспорт-медальон) нач.I в.н.э., найденная в горах Увгуний (Н.Наван, 1982 г.). Здесь же находка в Дарханском кургане (Х.Пэрлээ, 1985 г.), колчан для стрел с рунами из гуннского могильника Алагтологой, обнаруженный совместной американо-монгольской экспедицией в 2004 г. (Р.Нельсон, Ц.Амгалантогс). Комментируя монгольские рунические находки, наш казахстанский рунолог К.Сарткожа делает заключение: «Вышеизложенные факты указывают, что гунны использовали аналог древнетюркского рунического письма».

Помимо находок, сделанных в Азии, это хронологически параллельные европейские материалы, обнаруженные на Дону и в Кубани, руническое «гуннское» письмо секеев Румынии и Венгрии, руны дунайских «протоболгар» и другие. Еще более древние рунические надписи были обнаружены на своей территории китайскими археологами. В частности, они нашли ножи середины I тыс.до н.э., на которых были нанесены знаки, тоже идентичные дренетюркским рунам (арх.раскопки 1932-1941 гг.). Согласно выводу китайского ученого Синь-Вэя, эти ножи принадлежали прямым предкам гуннов тюркоязычным жунам Северного Китая, известным также как «хиона». Между тем «хиона» - это часть туров ирано-арийской «Авесты», и они же кочевники, известные как саки-массагеты.

Основным материалом для письма у тюркских народов были деревянные дощечки – “жазба”, на них древние тюрки вырезали надписи о количестве людей, лошадей, податей и скота. Но письменность была не только у хуннов, но еще у скифов. Так византийский историк Менандр рассказывает о том, что тюркский посол, согдиец Маниах, привез послание от кагана, написанное «скифскими письменами». К группе образцов туранской руники эпохи бронзы и раннего железа относятся надпись на серебряной чаши из кургана Иссык, так называемые «скифские письмена» из западной части евразийских степей, еще более

древние руноподобные знаки на андроновских сосудах Восточного Казахстана, на сосудах из срубных погребений Волги, Дона, Приазовья и Днепра. Археологи находят керамические и металлические чаши с надписью не только в андроновских и срубных погребениях, но и в сакских и шумерских курганах от Алтая до Месопотамии. Традиция ставить чашу с надписью у руки покойного отммечена у туранцев уже с энеолита (5, с.126).

Прослеженные следы орудий, применявшихся для нанесения букв, свидетельствуют о том, что тексты высекали и вырезали мастера-пофессионалы, каждый из которых обладал набором специальных инструментов. Высокообразованными людьми были и писцы, составлявшие тексты эпитафий.

*Заключение*. Несомненно, что у кочевников было высокое искусство – это подтверждается изделиями из бронзы, железа и золота, сделанных в «зверином стиле», а существование письменности, подтверждается многочисленными надписями на могильных памятниках. Из таких памятников самым известным является Бугутская надпись, водруженная на кургане в честь одного из первых каганов Таспара (572-581 гг.), примерно через 15 лет после посольства Маниаха. Бугутскую надпись можно считать самым древним литературным текстом, поскольку эпитафия – надпись на могильном камне – является литературным жанром.

Таким образом, в XIX в. по принципу – считать главным цивилизационным признаком наличие национальной письменной культуры, выраженной в памятниках письменности, древнетюркская письменность – одно из величайших наследий мировой цивилизации, которое было использовано на обширной территории, занимающей весь Евразийский континет: современная Монголия, Алтай, Тува, Хакасия – реки Енисей, Абакан, Кем; Бурятия и Якутия – озеро Байкал и река Лена; Восточный Туркестан – впадина Турпан, Дунхуань, Миран; Казахстан – реки Иртыш, Талас, Или, Сыр-Дарья, Урал; Узбекистан – Фергана; Северный Кавказ; Восточная Европа – реки Дон, Кубань, Терек.

Древнетюркская письменность является свидетельством развитой духовной культуры и общим наследием всех современных тюркских народов. Следовательно, она является одним из величайших достижений мировой культуры. «Древнетюркское письмо – величайшее наследие древних тюрков не только для нас казахов (их потомков), но и величайшее наследие для всего человечества. Пусть оно остается таковым – великим нашим прошлым» (6, с.18).

СПИСОК ИСПОЛЬЗОВАННЫХ ИСТОЧНИКОВ:

1. Левшин А. Описание киргиз-казачьих или киргиз-кайсацких орд и степей. Алматы, Санат, 1996, 350 с.
2. Бичурин Н. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Москва, Наука, 1950, 382 с.
3. Кызласов Л. Рунические письменности евразийских степей. Москва, «Восточная литература» РАН, 1994, 323 с.
4. Бартольд В. Очерки по истории Семиречья. Фрунзе, Киргизгосиздат, 1943, 175 с.
5. Малов С. Памятники древнетюркской письменности. Тексты и исследования. Москва, АН СССР, 1951, 451 с.
6. Аманжолов А. С. Руноподобная надпись из сакского захоронения близ Алма-Аты // Вестник АН Казахской ССР, 1971 №12 (320), с.66-69.
7. Молдабай Т. Семантические преобразования идеограмм и тамг и развитие рунического письма // Studia Archaelogica. Academiae scientiarum Mongolici, 2018, Tomus XXXV, Fassciculus 1-41, p.421-432.

**AISULU ERTAEVNA DUKENBAYEVA**
***Master of 2-year of the Faculty of International Relations, specialty 6M020500 "Philology: Turkic languages" L.N. Gumilyov Eurasian National University Nur-Sultan, Kazakhstan***

## CULTURE OF ANCIENT TURKISH WRITING

The article is a generalization of the opinions and judgments of famous historians and the most prominent representatives of science

on the issue of the emergence of Ancient Turkic writing, a comprehensive study of the creation of writing related to culture, history and spiritual values of people. Runic writing is one of the most important indicators of the development of ancient Turkic civilization. As a result of the analysis, a common approach was identified for the historical formation and development of the writing of the ancient Turks, a high level of linguistic culture of the Turkic peoples of this period.

This article will be interesting for students of humanitarian faculties studying the culture of the ancient Turks, for high school students of educational institutions.

*Keyword:* Old Turkic, writing system, culture, runic writing system.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT (5-012); UOT 323.28

**BAHAR RÜSTƏMOVA**

***Bakı Dövlət Universiteti,***
***Tarix fakültəsinin tarix müəllimi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: bahar.rustamova@bsu.edu.az**

# PKK: İŞÇİ PARTİYASI VƏ YA TERRORÇU TƏŞKİLAT

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*Günümüzün beynəlxalq münasibətlər sisteminin xarakterik xüsusiyyətlərindən biri, Soyuq müharibə illərindən meydana çıxmağa başlamış, hazırda isə dünya siyasətində artıq özünəməxsus çəkiyə malik olan qeyri-dövlət və ya "dövlət altı" aktorların çoxalmasıdır. Bu aktorların arasında etnik və məzhəb mənsubiyyətinə əsaslanaraq yaradılanları qlobal sülhə və sabitliyə xüsusilə təhlükəli hədə hesab etmək mümkündür. Bu qurumlar beynəlxalq münasibətlər sisteminin təməl aktorları olan dövlətlərin ənənəvi xarakterinə və ən əsası isə dövlətlər arasında mövcud strateji tarazlığa ciddi problemlər yaradırlar. Belə aktorlardan biri, yaradıldığı zaman məqsəd və vəzifələrini "bərabərlik prinsipini" təbliğ edən kommunist ideologiyası ilə pərdələmiş, lakin hazırda bir sıra dövlətlər tərəfindən terrorçu təşkilatlar siyahısına daxil edilmiş PKK-dır. Məqalədə PKK-nın yaradılması, ideologiyaları, fəaliyyət prinsipləri, qarşısına qoyduğu məqsəd və vəzifələrə və digər məsələlərə aydınlıq gətirilməsinə cəhd ediləcək.*

*Açar sözlər:* "Dövlət altı aktorlar", Kürd, PKK (Partiya Karkerên Kurdistan), Kürdüstan Azadlıq və Demokratik Konqresi (KADEK), terrorçu təşkilat

*Giriş.* I Dünya müharibəsi ərəfəsi və illərində bir-birləri ilə savaşan blok dövlətlərinin rəqiblərini zəiflətmək üçün "parçala, hökm sür" taktikasından geniş surətdə istifadə etdikləri məlumdur. Bu məqsədlə Osmanlı təbəəsi olan ermənilərə, ərəblərə, kürdlərə və s. xalqlara müstəqil dövlət yarada biləcəkləri haqda vədlər verərək, onları

üsyanlara qaldırmağa kifayət qədər cəhdlər edilmişdi. Ümumilikdə, Osmanlı imperatorluğu dönəmində bir sıra kürd üsyanları baş versə də bunların heç biri 1920-ci ilə qədər xüsusi etnik məzmun daşımamışdır. Bu üsyanların əsas səbəbləri kürd ağaların bölgədəki nüfuzlarını itirməmək istəməsi ilə bağlı olmuşdur. "Kürd problemi" adlandırılan məsələnin təməli isə 1920-ci ildə Sevr müqaviləsilə qoyulmuşdur (19, s.85). Müharibənin bitməsindən və verilən vədlərdən bir qisminin yerinə yetirilməməsindən sonra, dağılan imperiyaların yerində milli dövlətlərin yaradıldığı bir şəraitdə kürdlər də özlərinin milli dövlətlərini qurmaq uğrunda mübarizəyə başladılar. Onların bu cəhdləri müasir İraq ərazisində daha intensiv olmuşdur. Kürdlərin də yaşadığı Bəsrə, Mosul və Bağdad vilayətləri XVI – XX əsrlərdə Osmanlı hakimiyyəti altında olmuş, I Dünya müharibəsi illərində İngiltərə mandatına daxil edilmiş və son olaraq 1932-ci ildə bu ərazidə müstəqil İraq dövləti yaradılmış, bu dövlət Millətlər Cəmiyyətinə üzv qəbul edilmişdir. Lakin müstəqil dövlət idarəçilik təcrübəsi olmayan bu ərazidə müxtəlif səbəblərdən bir-birinin ardınca etirazlar, narazılıqlar özünü göstərməyə başladı ki, bunların arasında kürdlərin də çıxışları var idi.

Qəbilə əsaslı həyat tərzi yaşayan və ona bağlı dünyagörüşünə sahib kürdlər daim mərkəzi hakimiyyətə müxalif mövqe tutdular və müharibədən sonra silahlı mübarizəyə üstünlük verdilər. Onlar bu mübarizələrində bölgədə marağı olan müxtəlif xarici qüvvələrdən yardımlar aldılar. Bu dövrdə kürdlərin mərkəzi hakimiyyətə qarşı mübarizəsində Bərzani qəbiləsi önə çıxan qəbilələrdən oldu. Qəbilənin lideri Molla Mustafa digər kürd qəbilələrini Bərzani qəbiləsinin ətrafında toplaya bildi. II Dünya müharibəsi illərində İran ərazilərinin İngiltərə və SSRİ nəzarətində olmasından istifadə edən kürdlər, SSRİ-nin yardımı ilə 1946-cı il yanvarın 22-də İranın şimal-qərb bölgəsində Qazi Məhəmmədin başçılığı ilə mərkəzi Mahabad olan Kürd Respublikasını – Məhabad Cümhuriyyətini elan etdilər (2, s.649). İraqdan İrana keçən Molla Mustafa Bərzani öz qəbiləsinin üzvləri ilə birlikdə yeni qurulmuş dövlətin silahlı dəstələrinə qatıldı. 1946-cı ilin mart-may aylarında SSRİ silahlı qüvvələri İrandan çıxarıldıqdan

sonra, 17 dekabr 1946-cı ildə bölgə İran hökumətinin nəzarətinə qaytarıldı, respublikanın rəhbəri Qazi Məhəmməd və onun ətrafında olanlar həbs edilərək edam edildilər. 1947-ci ilin mart ayında respublikanın varlığına son qoyuldu. Bərzani İraqa geri qayıtdı, daha sonra isə SSRİ-yə köçdü.

1958-ci ildə İraqda monarxiyanın devrilməsi, respublika quruluşunun elan edilməsindən sonra Molla Mustafa Bərzani və onun ardıcıllarının müstəqil kürd dövləti yarada biləcəklərinə ümidləri artdı. Belə ki, İraq çevrilişinin lideri polkovnik Abdulkərim Qasım kürdlərlə barışıq yolunu seçdi. Bu məqsədlə, son 11 ilini SSRİ-də yaşayıb fəaliyyət göstərən Molla Mustafa Bərzanini İraqa dəvət etdi və qəbul olunacaq İraq Konstitusiyasında kürdlərə müəyyən haqq və hüquqların veriləcəyini vəd etdi. Lakin bütün bu vədlərə və yaxınlaşma istiqamətində göstərilən cəhdlərə baxmayaraq, Bağdad hökuməti ilə kürdlər arasında arzu olunan kompromisi eldə etmək mümkün olmadı. 1975-ci ildə İraq hökumətinin İranla Əlcəzair müqaviləsini imzalamasından sonra xarici yardımlardan məhrum olduğunu görən Bərzani silahlı mübarizəni dayandırdığını elan etdi. Lakin buna baxmayaraq, İraq kürdləri müstəqil dövlət yaratmaq arzularından əl çəkmədilər və onların bu istəklərindən öz xeyirlərinə faydalanmağa çalışan qüvvələr hər zaman bu məsələni diqqət mərkəzində saxladılar. Nəticədə, az sonra, bu dəfə fərqli coğrafiyada, PKK-nin yaradıldığını görürük.

*PKK: yaradılması, ideologiyası və məqsədləri*. 1958-ci il İraq çevrilişindən sonra Bərzaninin ölkəyə qayıtması ilə burada kürd hərəkatının yenidən fəallaşdığını qeyd etmişdik. Türkiyənin sərhədləri boyunca bəzi dağlıq bölgələrdə nəzarətin zəif olması nəticəsində yayılan qaçaqmalçılıq, təbii şəraitin əlverişsiz olması, Ankaradan uzaq məsafədə olduğu üçün bölgənin problemlərinin gündəmdən kənarda qalması nəticəsində İraqdakı Bərzani hərəkatı Türkiyədə də kürdlər arasında özünə xeyli tərəfdar toplaya bildi. Bu proseslərin davamında 1961-ci ildə yenilənən konstitusiya ilə Türkiyədə nisbətən azad şərait meydana gəldi. Türkiyəyə təhsil almaq üçün gəlmiş kürd əsilli iraqlı tələbələrin bundan istifadə edərək İstanbulda "Avropa kürd tələbə cəmiyyəti" yaratmaq istəmələrinin qarşısı alınsa da, Bərzaninin yarat-

mış olduğu "Kürd Demokrat Partiyası"nın bir qolu 1963-cü ildə Silopda illegal şəkildə fəaliyyətə başladı. Bərzaninin Türkiyədəki kürd hərəkatına rəhbərlik etməsi ABŞ, İran, İraq və hətta Türkiyə üçün belə problem yaratmırdı. Çünki bu dövrdə SSRİ də neft-qaz yataqlarına nəzarəti öz əlində cəmləmək üçün Türkiyədə yeni bir kürd qruplaşması yaratmağa çalışırdı (8, s.15-20).

Həm Türkiyə, həm də kürdlərin çoxluq təşkil etdiyi İraqda yeni və güclü kürd hərəkatının yaradılma mərhələsində Türkiyədə 1971-ci ildə baş verən hərbi çevriliş ölkədə terror və sağçı-solçu çıxışlara qadağa qoyduğu kimi, kürd milliyətçilərinin də arzularını puça çıxardı. Lakin 1974-cü ildə Türkiyə ilə Yunanıstan arasında yaşanan Kipr böhranının daha da kəskinləşməsi nəticəsində Türkiyənin beynəlxalq aləmdə təklənməsindən faydalanan erməni daşnakları 1975-ci ilin yanvar ayında ASALA adlı terrorçu təşkilatı yaratdılar. Bunun ardınca Abdulla Öcalan başda olmaqla kürd millətçiləri də erməni daşnaklarının və yunan faşistlərinin yardımına arxalanaraq 1978-ci ildə Diyarbəkirin Lice mahalının Fis kəndində sol sosialist partiya olan PKK – Kürdüstan İşçi Partiyasını yaratdılar.

Bu təşkilatın fəaliyyət proqramında deyilirdi ki, PKK marksist partiya olub "kürd xalqının arzu və istəklərini həyata keçirməyi" özünün əsas vəzifəsi hesab edir. PKK-ya görə kürd xalqının arzu və istəyi nə az, nə çox, Türkiyənin şərq və cənub-şərqində yerləşən 18 vilayəti əhatə edəcək ərazidə "Müstəqil Kürdüstan" dövləti yaratmaqdan ibarətdir. Müqayisə üçün deyək ki, 1920-ci il Sevr müqaviləsinə görə Anadolunun cənub-şərqində cəmi dörd vilayətdə Kürdüstan dövləti yaratmaq nəzərdə tutulmuşdu (19, s.86-87).

Türkiyədə "Kürd hərəkatı" adlandırılan problemin və ya PKK kimi terror təşkilatının mövcud olması Rusiya, ABŞ və Avropa ölkələri üçün əlverişli bir vəziyyətin yaranmasına xidmət edirdi. Çünki bu problem Türkiyənin bölgədə güclənməsinin qarşısını alırdı. Türkiyəni bu problemlə zəiflətmək, onu öz təsir dairələrinə salmaq və dünyada gedən proseslərə müdaxiləsinin qarşısını almaq, bir növ Osmanlı imperiyası dövründən mövcud olan "Şərq məsələsi"nin davamı idi. "Kürdüstan İşçi Partiyası" adı ilə yaradılan, Türkiyədəki kürdlərin si-

yasi hüquqları və Türkiyə daxilindəki kürd muxtariyyətinin yaradılması uğrunda mübarizə apardığını bildirən təşkilatın əsas məqsədi Türkiyənin şərq və cənub-şərq, İraqın şimal, Suriyanın şimal-şərqi və İranın şimal-qərbini əhatə edən torpaqlarda "Müstəqil Kürdüstan" yaratmaqdır. Məqsədini reallaşdıra bilməsi üçün, PKK həm Türkiyədə, həm də Avropada yaşayan kürd icmalarını nəzarətdə saxlayır.

PKK-nın fəaliyyətində bu və ya digər dərəcədə rəhbər tutduğu ideologiyalar aşağıdakılardır:



- ✓ *Marksizm-leninizm* – kommunist ideologiyasıdır. İdeologiyanın məqsədi kapitalist cəmiyyətlərini devirərək kommunizm cəmiyyəti qurmaqdır. Bu inqilabı həyata keçirmək üçün lazım olan mübarizə qanunlarını özündə birləşdirən sosial-siyasi və fəlsəfi təlimdir. Kapitalizmə, faşizmə, imperializmə qarşı olan, sinifsiz cəmiyyət qurmağı hədəfləyən, xüsusi mülkiyyətin əleyhinə olan və s. dəyərlərə əsaslanan ideologiyadır.
- ✓ *Maoçuluq (maosizm)* – Çin Kommunist Partiyasının Baş Katibi Mao Tsedonun adı ilə bağlıdır. Uzaq Şərq ölkələrinin inkişaflarındakı özünəməxsusluqları nəzərə alaraq inkişaf yolu müəyyənləşdirən marksizm nəzəriyyəsidir. Maoçuların minimum proqramında feodalizmin ləğvi və müstəqillik uğrunda mübarizə hədəf olaraq göstərilir.
- ✓ *Kürd millətçiliyi* – kürdlərin xalq olaraq formalaşması üçün mədəni-siyasi fəaliyyətlərə yönəlmənin vacibliyini ehtiva edən düşüncə tərzi və anlayışdır.
- ✓ *Apoçuluq* - PKK lideri A.Öcalanın adının qısa deyilişi "Apo"-dan düzəldilib, onun ideyalarının ardıcıllarını birləşdirir.
- ✓ *Demokratik konfederalizm* – PKK lideri A.Öcalanın İmralı həbsxanasında olduğu müddətdə marksizm-leninizm nəzəriyyəsinə kommunalizm, ekologiya və feminizm kimi məsələləri də əlavə edərək yaratdığı neoliberal sosial-siyasi nəzəriyyədir. Bu nəzəriyyə görə, hər bir cəmiyyət və ya millət özü üçün öz daxilində konfederativ quruluş seçə bilər (14).

Yeri gəlmişkən qeyd edək ki, Abdulla Öcalan PKK-nın mübarizəsinin "inqilabi kürd işçi hərəkatı və milli azadlıq mübarizəsi" olduğunu iddia edir. Partiyanın Kandil dağları və Şimali İraqda mərkəzləri mövcuddur. Terror əməliyyatlarını həyata keçirdikləri ərazilər əsasən Türkiyə, İran, İraq və Suriya əraziləridir.




*PKK-nın fəaliyyəti*. Təşkilatın fəaliyyəti məktəblərə, təcili-tibbi yardım maşınlarına hücum etmək, səhiyyə və gömrük əməkdaşlarını qaçırmaq, tələ qurmaq, sui-qəsdlər hazırlamaq və şəhər mərkəzlərində kamikadzelərdən istifadə etməklə terror aktları törətməklə xarakterizə olunur (21, s.4). PKK qarşıya qoyulan məqsəd uğrunda mübarizəyə lazım olacaq qədər iqtisadi və insan qaynağı olmadığına görə, ilk başlarda qızıl mağazalarını soymaq və narkotik qaçaqmalçılığı ilə iqtisadi güc qazanmağa çalışırdı. Bu güc qismən əldə olunduqdan sonra təşkilatın Türkiyəyə yönəlmiş ilk silahlı hərəkatı 15 avqust 1984-ci ildə baş tutdu (4, s.108). Siyirtin Eruh və Hakkarinin Şəmdinli rayonunda baş verən bu terror aktı zamanı bir əsgər şəhid olmuş, 9 əsgər və 1 siravi vətəndaş yaralanmışdır (16). Ümumiyyətlə, PKK terroru nəticəsində bu günə qədər təşkilatın terror aktları zamanı on minlərlə (bəzi məlumatlara görə, 40 minə qədər) insan həyatını itirmişdir.

PKK-nın törətdiyi cinayətlərin əsas qurbanları, özlərinin də etiraf etdiyi kimi, "Kürdüstanda kamalizmi təbliğ edən müəllimlər" idilər. Kürd millətçilərinə görə müəllimlər yetişməkdə olan gənc kürd-

ləri milli ruhda deyil, ancaq türkçülüyü təbliğ edən kamalçı prinsiplər əsasında tərbiyə edirlər. Kürd terrorçuları bir qayda olaraq terror tədbirlərini ilk növbədə müəllimlərə və “kamalçı” təbliğatın yuvası olan məktəblərə qarşı yönəldirlər. Kürd terrorçuları 1984-1987-ci illərdə 436 terror cinayəti törətmişlər ki, həmin hadisələrdə 219 nəfər dinc əhali, 147 nəfəs isə əsgər və polis həlak olmuşdur. Bu toqquşmalarda 245 nəfər terrorçu məhv edilmişdir. PKK quldurları ilə mübarizənin bütün ağırlığı yerli polis orqanlarının üzərinə düşdüyü üçün bir nəticə vermirdi. 1987-ci ildə PKK-ya qarşı xüsusi təyinatlı korpus yaradıldı (19, s.89).

Türkiyədəki 1980-ci il 12 sentyabr çevrilişdən sonra PKK-nın demək olar ki, bütün rəhbərləri həbs edildilər, yalnız A.Ocalan bir qrup partiya üzvü ilə birlikdə Suriyaya keçdilər. Bu dövrdə İran inqilabı və SSRİ-nin Əfqanıstanı işğal etməsi ilə gərginləşən ABŞ-SSRİ mübarizəsində Orta Şərqdə müttəfiqini itirən ABŞ Türkiyə ilə münasibətlərə öncəkindən daha çox önəm verməyə başladı. Türkiyə-ABŞ münasibətlərinin yeni formatda davam etməsi SSRİ və müttəfiqlərinin də PKK-ya yeni rollar verməsinə səbəb oldu (8, s.324).

SSRİ-nin dağılmasından sonrakı dövrdə PKK terror təşkilatı özünə tərəfdar toplamağa, beynəlxalq arenada dəstək qazanmağa və xarici ölkələrdəki fəaliyyətlərə ağırlıq verməyə başladığı dönəmdə bu təşkilatın ideologiyasının əsasında marksist-leninçi nəzəriyyənin durması ona ən böyük dəstəyin eyni ideologiyanın daşıyıcısı olmuş SSRİ-nin xələfi Rusiyadan və onun müttəfiqlərindən gəlməsi ilə nəticələndi Beləliklə, 1993-cü ildən PKK-ya Rusiyada fəaliyyət göstərməyə icazə verilmişdir. Bundan əlavə Rusiyanın PKK-ya dəstək verməsinin aşağıda qeyd olunan daha əsaslı səbəbləri vardır:

1. Türkiyənin Rusiya-Çeçenistan münasibətlərində Çeçenistanı müdafiə etməsi. Belə ki, Rusiyaya görə kürd və çeçen problemi eyni dərəcədə əhəmiyyətli olduğuna görə, Rusiya Türkiyənin çeçenlərə yardımının qarşısını almaq üçün PKK-dan istifadə edir.

2. Rusiya və PKK-nı yaxınlaşdıran digər bir səbəb isə geopolitik rəqabətdir. Türkiyənin Qafqazda və Orta Asiyadakı nüfuzunun artmasından narahat olan Rusiya PKK vasitəsilə bunun qarşısını almağa ça-

lışır. Özünün bu ölkələrdəki nüfuzunu itirmək istəmir deyə, Türkiyənin bu bölgələrdəki nüfuzunun artmasını təhlükə olaraq görür.

3. İqtisadi səbəb olaraq isə Bakı-Tbilisi-Ceyhan boru xəttinin inşa edilməsidir. BTC boru xəttinə qədər Azərbaycan nefti 1996-ci ildə Rusiya ilə imzalanan Bakı-Novorossiysk boru xəttilə daşınırdı. BTC boru xəttinin inşası ilə petrolun dünya bazarına çıxarılması və Rusiyanın bundan kənarda qalması yenidən PKK problemini gündəmə gətirdi və hətta, Abdulla Öcalan 1998-ci ildə rus jurnalistlərə açıqlamasında təşkilat nümayəndələrinə boru xəttinə hücum təşkil etmək barədə əmr verdiyini açıqladı.

4. Daha mühim bir səbəb isə, Rusiyanın əsrlərdir problemi olan "Boğazlar məsələsi"dir. Çünki boğazlar Rusiyanın geopolitik mənafeyi üçün xüsusi əhəmiyyət daşıyır (10, s.5).

Rusiya ilə yanaşı PKK-ya dəstək verən ölkələr arasında ilk sıralardan birini Suriya tutur. 1980-1990-cı illərin əvvəllərində Suriya özünə qonşu olan Türkiyə və İraqı zəiflətmək məqsədilə bu ölkələrdəki kürdlərdən istifadə etməyə çalışır, bu məqsədlə PKK-nın Türkiyə əleyhinə fəaliyyətini dəstəkləyir, onun silahlanmasına yardım edir, təşkilatın üzvlərinin Suriya orduları tərəfindən işğal edilmiş Livan vadisi Bekaada təlim keçməsinə şərait yaradırdı. Suriya həmçinin suriyalı kürdlərin PKK-ya üzv olmasına da göz yumurdu. 1980-ci illərin ortalarında PKK-nın artıq "Kürdüstan xalqlarının azadlıq ordusu" (Artêşa Rizgariya gelên Kurdistan - ARGK) adlandırılan çoxminlik partizan ordusu vardı. Lakin Türkiyə və Suriya arasında 22 oktyabr 1998-ci ildə imzalanan Adana razılaşması ilə Suriya dövlətinin PKK-ya verdiyi dəstək dayandırıldı və Abdulla Öcalan Suriyadan çıxarıldı. Bundan sonra partiya mümkün olan bütün vasitələrdən istifadə etməklə fəaliyyətini artırmağa çalışdı. Lakin 1999-cu il fevralın 15-də Abdulla Öcalan həbs edildi. Bundan sonra PKK-nın adı bir neçə dəfə dəyişdirilsə də (yanvar 2000-ci ildə "Demokratik Xalq İttifaqı", yanvar 2002-ci ildə "Kürdüstan Azadlıq və Demokratik Konqresi" (KADEK), aprel 2005-ci ildən etibarən yenidən "Kürdüstan İşçi Partiyası"), mahiyyətində xüsusi bir dəyişiklik olmamışdır.

A.Öcalanın həbsindən sonra PKK-ya Murat Karayılan rəhbərlik edir. O, hələ gənclik illərindən kürdləri Türk ordusunda xidmət etməməyə, Türkiyə dövlətinə vergi ödəməməyə, həmçinin Türk dilində danışmamağa çağışları ilə tanınırdı. Bundan əlavə, 1999-cu ildə ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlərə nəzarət İdarəsinin məlumatında bildirilirdi ki, Murat Karıyılan, həmçinin PKK-nın daha 2 lideri Əli Rza Altun və Zubayir Aydar narkoticarətlə əlaqəlidirlər (24). Murat Karayılanın rəhbərliyi dövründə, PKK-nın Türkiyəyə olan siyasi tələbləri azaldıldı, artıq müstəqil dövlət deyil, Türkiyə daxilində də, 2003-cü ildə ABŞ müdaxiləsindən sonra İraqda qurulmuş muxtariyyət tipli muxtariyyət təklifi irəli sürüldü. Bir qədər sonra, 2002-ci ildə, Türkiyənin məlumatına görə, PKK dağıldı, bir sıra PKK yönümlü qurumların və dövlətlərin məlumatlarına görə isə "PKK atəşkəs elan etdi" və özünü Kürdüstanı öz aralarında bölən dövlətlərin bir hissəsi olaraq yaradılmalı olan "Kürd Müxtar Respublikalarını" birləşdirən qeyri-dövlət qurumu olan Kürdüstan Demokratik və Azadlıq Konqresi (KADEK) adlandırmağa başladı. M.Karayılan eyni zamanda dünya dövlətlərini də PKK-nı terrorçu təşkilat olaraq görməyəyə, onların fəaliyyətini "millətin öz müqəddəratını təyin etmə hüququ" uğrunda mübarizə kimi qəbul etməyə çağırdığını bildirdi (20). Lakin bütün bunlara və həbs edilmiş olmasına baxmayaraq, A.Öcalan hələ də vəkilləri vasitəsilə təşkilatın strategiyası ilə bağlı təlimatlar verməyə davam edir və onların xüsusilə Suriyada təşkilatlanmalı olduqlarını bildirir. Bunun nəticəsində Suriyada PKK-nın müxtəlif qolları yaranmağa başlamışdır.

*PYD (Partiya Yekitiya Demokrat/Demokratik Birlik Partiyası).* PKK-nın 2002-ci il 20-24 aprel tarixləri arasında baş tutan VIII konqresində Türkiyə ilə yanaşı İraq, İran və Suriyada yeni təşkilatlanmalara gedilməsi yönündə qərarlar qəbul edildi. Bundan sonra A.Öcalanın təlimatları və təşkilatın gələcək hədəfləri nəzərə alınaraq, varlığını Suriyada davam etdirmək məqsədilə 17 oktyabr 2003-cü ildə PYD yaradılmışdır (15, s.10). Mərkəzi Kamışlı olan təşkilat Afrin, Ayn əl-Ərəb və Hasəkə bölgəsində daha aktiv şəkildə fəaliyyət göstərir. Şimali Suriyada "Apoculuq" ideologiyasını mənimsəyən PYD, nizam-

naməsində Kongra-Gel-i "Kürdüstan xalqı üçün yüksək qanunverici orqan" olaraq təsvir etmişdir (6, s.12-13). Bu gün Salih Müslim hər nə qədər PYD-nin iki həmsədrindən biri olaraq görünsə də, əslində təşkilatın PKK-nın yüksək rütbəli şəxslərindən biri olan Cəmil Bayık tərəfindən idarə edildiyi düşünülməkdədir (3, s.16).

Suriya rejimi Türkiyə ilə arasındakı Hatay məsələsi və su probleminə əsaslanaraq PKK terror təşkilatından Türkiyəyə qarşı istifadə etmək məqsədilə bu təşkilata dəstək vermişdir və bunun nəticəsində Suriya ərazisi yaradılışından etibarən PKK terror təşkilatının fəaliyyətində logistik və maliyyə təminatı, təşkilati və işçi təchizatı cəhətdən açar rola sahib olmuşdur. Suriyanın PKK-ya dəstəyinin səbəbi sadəcə bu təşkilatdan Türkiyəyə qarşı istifadə etmək deyil, həm də ölkədəki kürd etnik köklü əhalinin diqqətini Suriyadan yayındırmaq idi. Lakin PKK terror təşkilatı PYD yaranana qədər Suriya rejiminin Türkiyəyə qarşı vəkili rolunda çıxış edirdisə, PYD yarandıqdan sonra artıq Suriya rejiminə qarşı da fəaliyyət göstərməyə başladı (4, s.3-15).

*YPG (Yekîneyên Parastina Gel/Xalq Qoruma Dəstələri) və YPJ (Yekîneyên Parastina Jin/ Qadın Qoruma Birlikləri).* 2010-cu ildə ömürlük həbs ilə cəzalandırıldıqdan sonra İraqın şimalındakı PKK-nın qərargahı Kandil dağlarına qaçan PYD həmsədri Saleh Müslümün Suriyaya qayıtmasından sonra 2011-ci ilin oktyabr ayında Suriya həbsxanalarında olan PYD-li məhbuslar azadlığa buraxılmışdır. Bundan əlavə sayı 2000-ə qədər olan PKK terrorçüsunun Suriyaya gəlməsinə icazə verilərək PYD-nin silahlı qanadı olan YPG-nin (Xalq Qoruma Dəstələri) təməli qoyulmuşdur. Bununla da, PKK terrorçuları 1998-ci il Adana razılaşmasından sonra ilk dəfə Suriya torpaqlarında yenidən sərbəst fəaliyyət göstərmək imkanı əldə etmiş oldular (4, s.18).

PYD-nin silahlı qolu olan YPG həmçinin təşkilatın qadın qolu olan YPJ-ni də öz tərkibində təşkilatlandırır. Fərqli mənbələrə görə, 30 minə qədər hərbçisi olan (10 mini YPJ-li) YPG/YPJ təşkilatı öz nizamnaməsinə əsasən Şimali Suriyada elan edilən "Rojova muxtariyyatındakı" kantonların təhlükəsizliyindən və torpaq müdafiəsindən məsuldur.

PKK-nın ən vacib uzantılarından biri də *TAK* (Teyrebazen Azadiya Kurdistan - Kürdüstan Azadlıq Şahinləri) adlanır. TAK 2004-cü ildə yaradılmışdır. TAK-ın Hüseyin (Bahoz Erdal) tərəfindın idarə edildiyi fikri irəli sürülmüşdür. Ən əsası isə, 2016-ci il fevralın 17-də Ankarada törədilən terror aktından da görüldüyü kimi, TAK Türkiyədə törətdiyi hadisələrdə suriyalı üzvlərindən istifadə edir.

TAK-dan əlavə Türkiyədə fəaliyyət göstərən radikal sol partiyaların da PKK ilə iş birliyi qurduğu da deyilir. PKK 1990-cı illərdə İnqilabçı Xalq Azadlıq Partiyası Cəbhəsi (DHKP-C) və Marksist-Leninçi Kommunist Partiyası (MLKP) ilə ittifaqa girdi. 1996-cı ildə aralarında imzalanan protokola görə, özünün də silahlanması şərtilə DHKP-C PKK-ya Qaradəniz bölgəsində yeni bazalar yaratmağa icazə verdi. Lakin 1998-ci ildə DHKP-C ilə aralarındakı razılaşamanı ləğv etdikdən sonra PKK Türkiyədəki digər solçu qruplarla yeni əlaqələr yaratmağa başladı (3, s.26-28).

*DHKP-C (İnqilabçı Xalq Qurtuluş Partiyası-Cəbhəsi).* Bu təşkilat 1994-cü ildə marksist-leninçi ideologiya əsasında yaradılmışdır. Təşkilatın fəaliyyət üsullarına sui-qəsd, kamikadze, bombalı və silahlı hücumlar daxildir və təşkilatın əsas məqsədlərindən biri Türkiyədəki ABŞ və NATO qurumlarına zərər verməkdir. DHKP-C Türkiyə, ABŞ və Avropa Birliyi tərəfindən terror təşkilatı olaraq qəbul edilmişdir (7).

*PJAK (Partiya Jiyana Azad a Kurdistanê/ Kürdüstan Azad Həyat Partiyası).* 2004-cü ildə qurulan Kürdüstan Azad Həyat Partiyası (PJAK) Türkiyədə PKK vasitəsilə mövcud olan kürd milliyətçiliyi hədəflərinin izindən gedərək İran İslam Respublikasına qarşı silahlı mübarizəyə başlamışdır. Təşkilati və ideologiya cəhətdən yaxınlığa əsaslanaraq Türkiyə və İran bu iki təşkilatın (PKK və PJAK) eyni olduğunu iddia edir (14). Təşkilatı və ideoloji yaxınlıqdan əlavə 2006-ci ildə ölənədək PJAK-ın rəhbəri olan Akif Zagros, həmçinin PJAK-ın qadın qolun olan Şərqi Kürdüstan Qadın Birliyinin (YJRK) rəhbəri olan Gülüstan Doğan da PKK-nın keçmiş üvzləri idilər (3, s.23).

Kürdüstan Azad Həyat Partiyası (PJAK) qruplaşması 2011-ci ildə İran ordusu ilə bir tərəfli atəşkəs elan etmişdi, lakin İnqilabın

Keşikçiləri Korpusu bu atəşkəsi naməlum səbəblərdən rədd etmiş və PJAK qrupunun tamamilə İran ərazisindən çıxarılmasını tələb etmişdilər (12).

1949-cu ildə imzalanmış "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevre konvensiyasına, 1989-cu ildə imzalanmış BMT-nin Uşaq hüquqları Konvensiyasına və digər beynəlxalq razılaşmalara görə uşaq yaşdakıların müharibələrə cəlb edilməsi qadağan olunsa da, PKK-nın Suriya qanadı olan PYD/YPG bu qadağanı da pozaraq uşaqlardan savaşçı kimi istifadə edir. Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Müstəqil Suriya Araşdırma Komissiyası 2013-cü il avqustun 16-da dərc etdirdiyi hesabatında Afrin və Hasəkədə PYD/YPG-nin 12 yaşındakı qız və oğlan uşaqlarını sıralarına qatdığını açıqlamışdır (15, s.58).

*Nəticə.* Göründüyü kimi, kürdlərin hüquqlarının müdafiəsi məqsədi daşıdığını iddia edərək İşçi Partiyası adı altında yaradılmış, marksist-leninçi ideologiyanı özünə əsas götürmüş olan PKK terrorçu təşkilat kimi fəaliyyət göstərir. PKK həm iqtisadi, həm sosial və həm də digər sahələrdə ən böyük zərəri Türkiyəyə vurmuş olsa da (PKK-nın dağıdığı və ya "atəşkəş elan etdiyi" deyilən 2004-2018-ci illərdə, təkcə Türkiyədə 1.940 hədəfə yönəlik 1.855 terror aktı gerçəkləşdirmişdir (11, s.32)), son illərdə bu təşkilatın digər dünya ölkələrində törətdiyi terror aktları onun yalnız Türkiyənin problemi olmadığını, eləcə də artıq onu dəstəkləyən dövlətlər üçün də bir təhdid olduğunu görürük. PKK yarandığı gündən bir neçə dəfə adını dəyişməsinə baxmayaraq (yanvar 2000-ci ildə "Demokratik Xalq İttifaqı", yanvar 2002-ci ildə "Kürdüstan Azadlıq və Demokratik Konqresi" (KADEK), aprel 2005-ci ildən etibarən yenidən "Kürdüstan İşçi Partiyası"), mahiyyəti dəyişməmişdir və təsadüfi deyil ki, dünyanın bir sıra ölkələri artıq PKK-nı terrorçu təşkilat olaraq tanıyırlar. 1993-cü ildə Almaniya (25), 1997-ci ildə ABŞ (22), 2001-ci ildə Böyük Britaniya (17), 2002-ci ildə Kanada (13) və Avropa Birliyi, 2005-ci ildə Avstraliyada (23) PKK-nı terrorçu təşkilat olaraq tanıdılarını elan ediblər. PKK-nın fəaliyyəti Türkiyə ilə bərabər bütünlükdə Avropa Birliyi ölkələrində, həmçinin Azərbaycanda, Avstriyada, İraqda, Qa-

zaxıstanda, Moldovoda, Hollandiyada, Yeni Zellandiyada, Fransada və Filippində qadağan edilib. Burada maraqlı 1 faktı da nəzərə çatdırmağı lazım bilirik. Avropa Məhkəməsi 2008-ci ildə AB-nin PKK-nı terrorçu təşkilat olaraq tanıması haqda 2002-ci il tarixli qərarı "PKK üzvlərinə xəbər verilmədiyinə" və onlara "öz müdafiələrinə çıxış etmək üçün imkan yaradılmadığına" görə, yəni prosedur qaydalar pozulduğuna görə qeyri-qanuni hesab etdi. Lakin buna baxmayaraq, Avropa Məhkəməsi özü də PKK-nı terrorçu təşkilatlar siyahısından çıxarmaq niyyətində olmadığını, qərarının sadəcə formal xarakter daşığını bildirdi (9). Nəticədə, AB-nin 2016-cı ildə yenilənmiş terrorçu təşkilatlar siyahısında PKK özünün KADEK və KONGRA-GEL "bölmələri" ilə birlikdə 13-cü sırada, TAK (Teyrebazen Azadiya Kurdistan - Kürdüstan Azadlıq Şahinləri) isə 22-ci sırada yer almaqdadırlar (5, s.3). Lakin bu da faktdır ki, Rusiya, Çin, Hindistan, İsveçrə, Misir, İsrail, Tunis, Səudiyyə Ərəbistanı, Ukrayna, Birləşmiş Əmir Əmirlikləri kimi digər dövlətlər də PKK-nı terrorçu təşkilat olaraq tanımayan ölkələrdəndirlər ki, bu da fikrimizcə, beynəlxalq münasibətlər sistemində mövcud olan "ikili standartlar" yanaşmasının növbəti təzahürlərindən biridir.

## ƏDƏBİYYAT:

1. Andrew Self, Jared Ferris. Ölüler Yalan Söylemez: PKK-nın bölgesel kılıf oyununu açığa çıkarmak için "çatışmada ölüm" verilerini kullanmak // ORSAM Bölgesel Gelişimler Değerlendirmesi, No57, Ocak 2017, s.40. Mənbə: https://www.orsam.org.tr/d_hbanaliz/57tr.pdf [Müraciət tarixi: 20.05.2020]

2. Baskın Oran. Türk Dış Politikası. 1919-1980. Cilt 1. 15.Baskı. İstanbul, İletişim Yayınları, 2009, s.900.

3. Bayram Ali Soner, Ömer Aslan, Hakan Kıyıcı. PKK-nın Bölgesel Terör Ağı Yapılanması. Rapor. Ankara, Polis Akademisi yayınları, 2017, s.57. Mənbə: https://www.pa.edu.tr/Upload/editor/files/pkk-bolgesel-teror-agi-yapilanmasi.pdf [Müraciət tarixi: 20.05.2020]

4. Buğra Sarı. Vekillikten Çatışmaya, Çatışmadan ortaklığa: PKK-Suriye ilişkilerinin değişen karakteristiği // Güvenlik Bilimleri Dergisi, Yıl: 2019, Cilt:8, Sayı:1, s.107-132. Mənbə: https://dergipark.org.tr/tr/pub/gbd/issue/45072/562981 [Müraciət tarixi: 20.05.2020]
5. Beschluss (GASP) 2016/1136 Des rates Vom 12. Juli 2016 // Amtsblatt der Europäischen Union, L 188/21, p.4. Mənbə: https://eur-lex.europa.eu/legal-content/de/TXT/PDF/?uri=CELEX:32016D1136&qid=1474969819578&from=EN [Müraciət tarixi: 20.05.2020]
6. Can Acun, Bünyamın Keskin. PKK'nın Kuzey Suriye Örgütlenmesi PYD-YPG. Ankara, SETA Vakfı, 2016, s.250. Mənbə: https://setav.org/assets/uploads/2016/12/20160222181213_pkknin-kuzey-suriye-orgutlenmesi-pyd-ypg-pdf.pdf [Müraciət tarixi: 20.05.2020]
7. DHKP-C / TC Dış İşleri Bakanlığı resmi veb sayfası. Mənbə: http://www.mfa.gov.tr/dhkp-c.tr.mfa [Müraciət tarixi: 20.05.2020]
8. Dr.Nihat Ali Özcan. PKK (Kürdistan İşçi Partisi). Tarihi, İdeolojisi ve Yöntemi. Ankara, ASAM Yayınları, 1999, s.424. Mənbə: https://www.tepav.org.tr/upload/files/1556263371
9.PKK_KURDISTAN_ISCI_PARTISI__TARIHI__IDEOLOJISI_VE_YONTEMI.pdf [Müraciət tarixi: 20.05.2020]
9. EU was wrong to include PKK on terror list / Reuters, April 3, 2008. Mənbə: https://uk.reuters.com/article/uk-eu-turkey-idUKL0367279920080403 [Müraciət tarixi: 20.05.2020]
10. Fatima Mirzaliyeva. Türkiyenin PKK sorunu ve Rusyanın rolu. İstanbul. İnsamer nəşriyyatı. 2016, 14 s. Mənbə: https://insamer.com/rsm/files/Turkiyenin-PKK-Sorunu-ve-Rusyanin-Rolu.pdf [Müraciət tarixi: 20.05.2020]
11. Hüseyin Alptekin. PKK Terörünün Analizi: Türkiye Terör Olayları Veri Tabanı. 1.Baskı, İstanbul, SETA, 2019, s.280. Mənbə: https://www.researchgate.net/publication/338778621_PKK_Terorunun_Analizi_Turkiye_Teror_Olaylari_Veri_Tabani_TTOV [Müraciət tarixi: 20.05.2020]

12. İran: PJAK ve Sepah araslnda olan yoqquşmada "4 nəfər həlak olub". BBC News / Azərbaycanca, 8 sentyabr 2015. Mənbə: https://www.bbc.com/azeri/international/2015/09/150908_iran_pjak_clashe [Müraciət tarixi: 20.05.2020]
13. Listed Terrorist Entities / Public Safety Canada. Mənbə: https://www.publicsafety.gc.ca/cnt/ntnl-scrt/cntr-trrrsm/lstd-ntts/crrnt-lstd-ntts-en.aspx#2035 [Müraciət tarixi: 20.05.2020]
14. Öcalan'ın demokratik konfederalizm ve komünalizmi-2 / Devrimci Proletarya 06 Nisan 2015. Mənbə: https://devrimciproletarya.net/ocalanin-demokratik-konfederalizm-ve-komunalizmi/ [Müraciət tarixi: 20.05.2020]
15. PKK/KCK Terör Örgütünün Suriye Kolu: PYD-YPG. YC İç İşleri Bakanlığı, Mayıs 2017, 68s. Mənbə: https://www.icisleri.gov.tr/kurumlar/icisleri.gov.tr/IcSite/strateji/deneme/YAYINLAR/%C4%B0%C3%87ER%C4%B0K/pyd_arapca.pdf [Müraciət tarixi: 20.05.2020]
16. PKK'nın Siirt Eruh'takı ilk hain saldırısı unutulmuyor / TRT Haber, 13 Ağustos 2018. Mənbə: https://www.trthaber.com/haber/turkiye/pkknin-siirt-eruhtaki-ilk-hain-saldirisi-unutulmuyor-379886.html [Müraciət tarixi: 20.05.2020]
17. Proscribed terrorist groups or organisations. List of terrorist groups or organisations banned under UK law, and details of proscription criteria. Policy paper, s.19. Published 12 July 2013, Last updated; 28 February 2020. Mənbə: https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/869496/20200228_Proscription.pdf [Müraciət tarixi: 20.05.2020]
18. Sani Hacıyev. Müasir Türkiyədə terror. Bakı, Adiloğlu, 2005, s.340.
19. Sani Hacıyev. Türkiyə Respublikası və PKK terroru // Tarix və onun problemləri, №3 1998, s.83-91.
20. Steven Lee Myers. Kurdish PKK rebel leader, Karayilan, softens tone in Turkish conflict / The New York Times, Dec.31, 2010. Mənbə:

https://www.nytimes.com/2011/01/01/world/middleeast/01kurd.html [Müraciət tarixi: 20.05.2020]
21. Türkiye'nin Terörle Mücadelesinde Zeytun Dalı Harekatı. Ankara, Anadolu Ajansı, 2018, s.69. Mənbə: https://www.aa.com.tr/uploads/userFiles/79121245-49cb-4f77-bd45-d9d308a833b3/08_2019%2F11_subat%2F03%2FAA-ZEYTINDALI-.pdf [Müraciət tarixi: 20.05.2020]
22. Terrorist Designations and State Sponsoros of Terrorism. Bureau Of Counterterrorism U.S. Department of State. Mənbə: https://www.state.gov/foreign-terrorist-organizations/ [Müraciət tarixi: 20.05.2020]
23. Terrorist organizations. Kurdistan Workers' Party (PKK) / Australian National Security. Mənbə: https://www.nationalsecurity.gov.au/Listedterroristorganisations/Pages/KurdistanWorkersPartyPKK.aspx [Müraciət tarixi: 20.05.2020]
24. Treasury Designates Three Leaders of the Kongra-Gel as Significant Foreign Narcotics Traffickers / U.S. Department of The Treasury, 10.14.2009. Mənbə: https://www.treasury.gov/press-center/press-releases/Pages/tg318.aspx [Müraciət tarixi: 20.05.2020]
25. Verbotene ausländer extremistische Organisationen / Bundesamt für Verfassungsschutz, Tabelle "Verbotene ausländerextremistische Organisationen", Stand: 20. Juni 2019. Mənbə: https://www.verfassungsschutz.de/de/arbeitsfelder/af-auslaenderextremismus-ohne-islamismus/verbotene-organisationen-auslaenderextremismus [Müraciət tarixi: 20.05.2020]

**Bahar RUSTAMOVA**
***2nd year student of the Faculty of History of Baku State University***

# PKK: WORKERS' PARTY OR TERRORİST ORGANİZATİON

One of the characteristic features of today's international relations system is the proliferation of sub-state actors which began to emerge during the Cold War years and now has a special place in

world politics. Among these actors, those created based on ethnicity and religion can be considered a particularly dangerous threat to global peace and stability. These institutions pose serious problems for the traditional character of the states that are the main actors in the system of international relations and, most importantly, for the existing strategic balance between the states. One of these such actors is PKK that covered its goals and objectives with a communist ideology promoting the"principle of equality" when it was created, however, it is currently added to the list of terrorist organizations by several states. The article will try to clarify the establishment of the PKK, its ideologies, principles of activity, goals, and objectives, and other issues.

*Keywords:* Non-state actors, Kurds, PKK (Karkerên Kurdistan Party), Kurdistan Freedom and Democratic Congress (KADEK), terrorist organization.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94; UOT 94“19/...”

**BALAMİRZƏ MƏMMƏDLİ**

***Bakı Dövlət Universiteti***

***Tarix fakültəsinin tarix ixtisası üzrə III kurs tələbəsi***

**E-mail*:* balamirza.mammadli@bsu.edu.az**

# ALMANİYANIN POLŞAYA HÜCUMU VƏ II DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Aydın Məmmədov
Bakı Dövlət Universiteti

*İkinci dünya müharibəsində Qələbə bayrağının Reyxstaq üzərində dalğalanmasından artıq 75 il keçir. Bəs azərbaycanlılar da daxil olmaqla çoxmilyonlu dünya xalqlarının XX əsrin taununa – Hitler faşizminə qarşı öz miqyasına və amansızlığına görə misli görünməyən müharibəsi necə başladı? Bildiyimiz kimi, müharibə Nasist Almaniyasının Polşaya hücumu ilə başlanmışdı. Bəs niyə məhz Polşaya? Bir çox tarixçilərin də göstərdiyi kimi bunun sadə bir əsası var idi: əvvəlcə daha zəif bir düşmənə sürətli və güclü zərbə endirməklə Üçüncü reyxin şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək və eyni zamanda qətiyyətli bir qələbə ilə, digər Avropa dövlətlərinə Almaniyanın “son dərəcə güclü olduğuna” dair işarə vermək. Bu baxımdan Nasist Almaniyasının Polşaya hücumunu tədqiq etmək II dünya müharibəsinin tarixini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə Almaniyanın hücum planları, hücumun başlanmasından sonrakı hadisələr, Polşanın məğlub olması səbəbləri və hücumun gedişində əsas hərbi əməliyyatlar tədqiq olunmuşdur.*

*Açar sözlər:* İkinci dünya müharibəsi, nasist Almaniyası, Polşaya hücum, Varşavanın mühasirəsi, Polşanın işğalı.

*Giriş.* İki böyük hərbi-siyasi koalisiya arasında baş vermiş, bəşər tarixində ən böyük hərbi münaqişə olan və tam 6 il davam etmiş İkinci dünya müharibəsində o zaman dünyada mövcud olan 74 dövlətdən 62-si iştirak etmiş, hərbi əməliyyatlar Avropa, Asiya və Afrika

ərazilərində və bütün okean sularında aparılmışdır. Məlum olduğu kimi, bu böyük müharibə nasist Almaniyasının Polşaya hücumu ilə başlanmışdır.

30-cu illərdə dünya iqtisadi böhranı müharibə ərəfəsində beynəlxalq münasibətlərin gərginləşməsi ilə müşahidə olunurdu. Nasist Almaniyası və Yaponiya kimi bir sıra dövlətlər beynəlxalq münasibətlərin Versal-Vaşinqton sistemi üzrə nizamlanmasından razı deyildilər və onlar mövcud xammal mənbələrini, nüfuz dairələrini, satış bazarlarını yenidən bölüşdürməyə cəhd edirdilər. Yeni dünya müharibəsinin başlanmasında burjua demokratik dövlətlərin, o cümlədən Sovet İttifaqının faşizm təhlükəsini lazımınca qiymətləndirməməsi, ABŞ-ın “qarışmama” siyasəti kimi amillər də mühüm rol oynamışdır. Beləliklə, “dünyada demokratiya ilə sağ yönümlü nasional sosializm və sol yönümlü bolşevizm ideyalarının daşıyıcısı olan dövlətlərin maraqlarının toqquşması müharibəyə gətirib çıxardı” (3, s.328).

*Almaniyanın Polşaya hücum planı*. Nasist Almaniyasının Polşaya hücum əməliyyatı 1939-cu ilin aprel-iyun aylarında hazırlanmış “Vays” planına (“Ağ plan”) əsaslanırdı. Plan müharibə elan etmədən, Almaniyanın Fransa və Benilüks ölkələri ilə sərhədlərində yerləşdirilmiş qoşunların zəiflədilməsi hesabına maksimum qüvvə ilə sürətli hücum əməliyyatlarının başladılmasını nəzərdə tuturdu. Alman qoşunlarının Polşa ərazisinə qəfil girməsi Polşa ordusunun mütəşəkkil səfərbərliyini və vahid cəbhədə birləşməsini əngəlləməli idi.

Üçüncü Reyx komandanlığı “Blitskriq” (ildırımsürətli müharibə) konsepsiyasına əsasən iki həftə ərzində Polşa ordusunu tamamilə məhv etməyi və bütün ölkəni işğal etməyi planlaşdırırdı. Zirehli texnikanın demək olar ki, hamısı beş korpusda - 14-cü, 15-ci, 16-cı motorlaşdırılmış, 19-cu tank və 18-ci dağ korpuslarında cəmlənmişdi ki, bu da qarşı tərəfin müdafiəsində zəif nöqtələri tapmalı, Polşa ordularının cinahlarını qıraraq onu hərbi əməliyyatlar meydanından uzaqlaşdırmalı, daha sonra isə onu mühasirəyə almalı və həlledici döyüşdə məhv etməli idi. Plan aviasiyadan, xüsusilə də şığıyıcı bombardmançılardan geniş surətdə istifadə edərək mexanikləşdirilmiş birləşmələrin irəliləməsinə havadan dəstək verməyi nəzərdə tuturdu (7, s.23-24).

Alman qoşunları Polşaya üç istiqamətdə hücum etməli idi:

1) Əsas zərbə Almaniyanın Polşa ilə olan qərb sərhəddindən vurulmalı idi;

2) Şimaldan zərbə Qərbi Prussiya ərazisindən vurulmalı idi;

3) Alman və slovak müttəfiq qoşunları isə, Slovakiya ərazisindən zərbə vurulmalı idi. Hücumun hər üç istiqaməti Vislanın qərbində Polşa ordusunun mühasirəyə alınmasına və Varşavada məhv edilməsinə yönəlmişdi.

General-polkovnik Gerd fon Rundştedtin komandanlıq etdiyi 8-ci, 10-cu və 14-cü ordulardan ibarət olan "Cənub" ordu qrupu əsas zərbəni Sileziya və Slovakiyadan endirməli idi. 10-cu ordunun zərbə qrupu Varşavaya ümumi istiqamətdə irəliləməli, Visla çayına çıxmalı, daha sonra "Şimal" ordu qrupu ilə birlikdə Qərbi Polşada yerləşən Polşa qoşunlarını məhv etməli idi. 8-ci və 14-cü ordulara zərbə qrupunun cinahlarını müdafiə etmək tapşırılmışdı (6).

General-polkovnik Fyodor fon Bokun komandanlıq etdiyi "Şimal" ordu qrupunun ən əsas vəzifəsi Pomeraniya (4-cü ordu) və Şərqi Prussiya (3-cü ordu) ərazilərindən irəliləmək, "Polşa dəhlizi"ni işğal etmək, Almaniya ilə Şərqi Prussiya arasında quru əlaqələrini təmin etmək və Visla çayının şərqində "Cənub" ordu qrupu ilə birləşib Polşa qoşunlarını məhv etmək idi. "Şimal" və "Cənub" ordu qrupları arasında olan böyük bir sahədə azsaylı ordu hissələri yerləşdirilmişdi. Həmin ordu hissələrinin vəzifəsi düşməni əsas zərbə istiqamətlərindən yayındırmaq idi (2, s.16-17).

Nasist Almaniyası rəhbərliyi 1939-cu ilin yayında Polşa ilə gələcək müharibənin, yerli qarşıdurma səviyyəsindən kənara çıxmamasına səy göstərdi. Bunun üçün Böyük Britaniya və Fransa rəhbərliyinin Polşaya olan ictimai rəyini dəyişdirmək, Almaniyanın hərəkətlərinin təcavüzkar deyil, "özünümüdafiə" olduğunu və Polşa tərəfinin Almaniyanı müharibəyə təhrik etməsinə inandırmaq lazım idi (8, s.39).

"Vays" planının icrasına başlamaq üçün Almaniya dünya birliyinə müharibə üçün formal da olsa bir səbəb göstərməli idi. Bu məqsədlə, admiral Vilhelm Kanarisin rəhbərlik etdiyi nasist hərbi kəşfiy-

yatı və əks-kəşfiyyatı (Abver), Təhlükəsizlik xidməti (SD) ilə birlikdə Polşa, Almaniya və Slovakiya arasındakı sərhəddə bir sıra provokasiyalar hazırladı. Provokasiyaların xarakteri eyni idi: SS xüsusi təyinatlı agentlərinin alman obyektlərinə hücumları və bu hücumlarda Polşa tərəfinin günahlandırılması.

Avqustun 31-i axşamı, SS şturmbannfüreri Alfred Nauyoksun komandanlığı altında olan qrup tərəfindən Polşa-Almaniya sərhədindən 10 km məsafədə yerləşən Qlayvits alman şəhərindəki yardımçı radiostansiya üzərinə hücum həyata keçirildi. Onun vəzifəsi Polşa ordusunun Almaniya sərhəddini keçməsi barədə xəbər yaymaq və Almaniyadakı polyakları almanlara qarşı üsyan etməyə çağırmaq idi. Hücumdan sonra radiostansiyanın binasında alman və xarici mətbuata təqdim edilə bilən dəlillər qalmalı idi. Radiostansiyasını "ələ keçirdikdən" sonra, canlı efirdə polyak dilində "Qlayvits radiostansiyası Polşanın əlindədir!" deyə tamaşaçılara elan verildi. Daha sonra, avtomatlardan divarlara və pəncərələrə atəş açdıqdan sonra, keçmiş Sileziya üsyançısı yerli sakin Frantişek Xonyokun cəsədini binanın girişində saxlayan qrup binanı tərk etdi (5, s.224).

Bir qədər sonra, həmin vaxta qədər cinayətə görə edam cəzasına məhkum edilmiş bir neçə dustaq konslagerdən Qlayvitsə gətirildi. Onlar polyak hərbi forması ilə geyindirilib, ineksiya yolu ilə huşsuz vəziyyətə salındılar və güllələndilər. Bunda məqsəd, Almaniyaya hücum edən polyak hərbi hissələri ilə döyüşün olduğunu iddia etmək idi. Beləliklə, SS-çilərin əlində ölən həmin dustaqlar, alman qoşunlarının Polşaya hücumunun ilk qurbanları oldular.

*Almaniyanın Polşaya hücumunun başlanması.* 1 sentyabr 1939-cu ildə, səhər saat 4:30-da, Almaniya Hərbi Hava Qüvvələri ("Lüftvaffe") Polşanın hava limanlarına kütləvi zərbələr endirdilər, saat 4:45-də "Şlezviq-Holşteyn" zirehli gəmisinin Polşanın Dansiq şəhəri yaxınlığındakı Vesterplatte hərbi-dəniz bazasına atəş açması ilə Vesterplattenin yeddi günlük müdafiəsi (1-7 sentyabr 1939) başlandı (1, s.12). Saat 4:40-da kapitan Valter Zigelin komandanlığı altında Maks İmmelman adına 1-ci bombardmançı diviziyası Velun şəhərini bombardman etməyə başladı. Yarım saat sonra Xoynits, Staroqard və

Bıdqoş şəhərləri üzərinə də bombalar yağdırıldı. Velun şəhərinin bombalanması əsasən, dinc vətəndaşlar olmaqla 1200 nəfərin ölümünə səbəb oldu, şəhərin 75%-i dağıdıldı. Saat 4:45-də Vermaxt qoşunları da "Vays" planına əsasən, müharibə elan etmədən bütün Almaniya-Polşa sərhədi boyunca, habelə Moraviya və Slovakiyadan hücuma keçdilər.




*Almaniyanın Polşaya hücumu xəritəsi*

Vermaxt generalı və hərbi tarixçi Kurt fon Tippelskirxin yazdığı kimi, hücumun elə ilk günündə alman aviasiyası Polşa təyyarələrinin əksəriyyətini hava limanlarındaca məhv etdi ki, bu da quru qüvvələrinin sürətlə irəliləməsinə şərait yaratdı. Hava zərbələri Polşa silahlı qüvvələrinin səfərbərliyini və dəmir yolu ilə operativ şəkildə daşınmasını qeyri-mümkün etdi, polyak ordusunun idarə olunmasını və onlar arasındakı əlaqələri ciddi şəkildə pozdu (9, s.38)

Dansiq şəhərində, Yan Hevel meydanında Polşa poçt binasına hücum edən almanlar yalnız 14 saatdan sonra binanı ələ keçirə bildilər. Sentyabrın 1-də Senatın hələ 23 avqust 1939-cu ildə verdiyi qərarı ilə "Dansiq azad şəhərinin başçısı" (reyxştathalter) elan edilən Albert Forster, Dansiqin Üçüncü Reyxə birləşdirilməsi haqqında bəyanat verdi. Elə həmin gün Millətlər Liqasının baş komissarı Karl Yakob Burkhardt və onun komissiyası Dansiqi tərk etdi. Günortadan

sonra almanlar, 2 sentyabrda Dansiqdə yaradılan Ştutthof konslagerinə həbs edilmiş ilk 250 polyakı yerləşdirdilər.

1 sentyabrda Klobutsk şəhərindən 5 km şimalda yerləşən Mokra kəndində baş verən döyüşdə polyak ordusu almanların 4-cü tank diviziyasının 50-yə yaxın tankını məhv etməyi bacardılar. Lakin, almanlar polyak mövqelərinə ciddi zərbələr endirdilər.

1939-cu ilin 1 sentyabrında SSRİ-də ümumi hərbi mükəlləfiyyət tətbiq edildi. Eyni zamanda, çağırış yaşı 21 yaşdan 19 yaşa, bəzi kateqoriyalar üçün 18 yaşa endirildi. Qanun dərhal qüvvəyə mindi və qısa müddət ərzində ordunun sayı 5 milyon nəfərə çatdı ki, bu da bütün əhalinin təxminən 3% -ni təşkil edirdi.

3 sentyabr, səhər saat 9-da İngiltərə, saat 12:20-də Fransa, həmçinin Avstraliya və Yeni Zelandiya Almaniyaya müharibə elan etdi. Bir neçə gün ərzində Kanada, Nyufaundlend, Cənubi Afrika İttifaqı və Nepal da onlara qoşuldu. Beləliklə, ikinci dünya müharibəsi başladı. Həmin hadisələr zamanı Herman Görinq demişdir: "Əgər biz bu müharibədə məğlub olsaq, yalnız Tanrının mərhəmətinə sığına bilərik".

*Varşavaya hücum və Polşanın işğalının başa çatması.* Sentyabrın 3-də Polşa hərb naziri Alman ordusunun Çenstoxovaya irəliləməsi ilə əlaqədar olaraq sərəncam verdi. Yazılı göstərişlərdə paytaxt Varşavanın müdafiəsinin hazırlanması, almanların buraya hücum etdiyi təqdirdə körpülərin müdafiəsinin təşkil edilməsi və ya onların məhv edilməsi məsələlərinə toxunuldu. O zaman Varşavanın müdafiəsinə briqada generalı Valerian Çuma rəhbərlik edirdi. O, sentyabrın 5-də general Kutşeba və Bortnovskinin gəlişinə qədər Varşava körpülərini müdafiə etmək əmri aldı. Körpülər ətrafında beş artilleriya batalyonu, həmçinin aviasiya briqadası yerləşdirildi. Elə həmin gün, 5 sentyabr 1939-cu ildə Varşavada Qırmızı Xaç könüllülərindən, yanğınsöndürmə briqadaları və fəhlə batalyonlarının yaradılmasına başlanıldı (2, s.30).

8 sentyabrda Varşava uğrunda döyüşlər başladı. Həmin gün almanların 10-cu ordusunun və 4-cü tank diviziyasının qoşunları təqribən 17 saata şəhərin cənub hissəsinə girdilər. Lakin polyak qoşunla-

rının qüvvələri onların hücumlarını dəf etdilər. Hücum cəhdləri 9 və 10 sentyabrda yenidən təkrarlandı. Şəhərin müdafiəsinin güclü olduğunu nəzərə alan alman komandanlığı, sentyabrın 12-də Varşavanı almaqdan imtina etdi və şəhəri mühasirəyə almaq üçün 4-cü tank diviziyasını 31-ci piyada diviziyası ilə əvəz etdi. 14 sentyabrda 3-cü alman ordusunun irəliləməsi nəticəsində Varşavanın müdafiəçiləri ətrafındakı mühasirə tamamlandı.




9 sentyabrda Polşanın "Poznan" və "Pomorye" orduları ilə almanların "Cənub" ordu qrupunun 8-ci və 10-cu orduları arasında Bzur çayı yaxınlığında döyüş başlandı. Gərgin döyüşlərin getdiyi bir vaxtda, sentyabrın 17-də Polşaya sovet müdaxiləsi başlandı. 17 sentyabr, saat 22:40-da Polşa qoşunlarının baş komandanı Rıdz-Smiqlı radio ilə "Sovetlərlə hərbi əməliyyatların aparılmaması" əmrini verdi, qoşunların Rumıniya və Macarıstana geri çəkilməsi haqqında di-

rektiv imzaladı. Elə həmin gün gecə Polşa rəhbərliyi sərhədi keçdi (4, s.367-368). Bzur döyüşü zamanı hər iki polyak ordusu 21 sentyabra kimi almanlara ciddi müqavimət göstərdilər. Lakin, sentyabrın 21-i almanlar onların müqavimətini tamamilə qırdılar, həmin gün 120 min nəfər polyak əsir düşdü (5, s.263-265).

Sentyabrın 19-da 8-ci alman ordusunun komandanı Yohannes Blaskoviç Varşava üzərinə ümumi hücum əmri verdi. 22 sentyabrda hücum hava dəstəyi ilə başladı. 25 sentyabrda Lüftvaffenin 1150 təyyarəsi hücumda iştirak etdi. 28 sentyabrda Polşa komandanlığı təslim olmaq aktını imzalamağa məcbur oldu. Bir həftə sonra Polşada hərbi əməliyyatlar başa çatdı (8, s.75).

*Nəticə.* Polşa torpaqları Almaniya və SSRİ arasında bölündü. Yeni sərhədlər 28 sentyabr 1939-cu ildə Moskvada SSRİ ilə Almaniya arasında bağlanmış "dostluq və sərhəd haqqında müqavilə" ilə möhkəmləndi. Qərbi Buq və San çaylarından şərqdəki ərazilər Ukrayna SSR və Belorus SSR-ə birləşdirildi. Nəticədə, SSRİ-nin ərazisi 196 min $km^2$, əhalisi isə 13 milyon nəfər artdı. Almaniya, Şərqi Prussiyanın sərhədlərini Varşavaya qədər genişləndirdi və köhnə Poznanşina ərazisini işğal edərək Lodz şəhərinə qədər ərazini Litsmanştadt adlandırılan Vart vilayətin daxil etdi. Hitlerin 8 oktyabr 1939-cu il tarixli dekreti ilə təxminən 9,5 milyon insanın yaşadığı Poznan, Pomeraniya, Sileziya, Lodz və d. ərazilər alman torpaqları elan edildi və Almaniyaya birləşdirildi. Polşanın qalan ərazilərində paytaxtı Krakov olmaqla general-qubernatorluq yaradıldı. Hans Frank onun general-qubernatoru (1939-1945) oldu.

Hazırki məqalənin əsas tədqiqat obyekti Nasist Almaniyasının Polşaya hücum planları, Polşaya hücumla II dünya müharibəsinin başlanması, Polşanın məğlubiyyətinin səbəbi və nəticəsidir. Bu tədqiqatdan belə bir nəticəyə gəldik ki, Nürnberq tribunalının qərarlarında olduğu kimi, Nasist Almaniyasının Polşaya qarşı başladığı müharibə heç bir əsası olmayan, təcavüzkar və qeyri-qanuni xarakterə malik olmuşdur. Müharibənin gedişində alman hərbi və siyasi rəhbərliyi beynəlxalq hüquq qaydalarını kobud şəkildə pozmuş, işğal edilmiş

ərazilərdə insanlıq əleyhinə cinayətlər işlənmişdir ki, bu da əsassız olaraq çoxlu insan itkisinə, tələfata və dağıntılara səbəb olmuşdur.

ƏDƏBİYYAT:

1. Беккер К. Блицкриг в Польше // Военные дневники Люфтваффе. Хроника боевых действий германских ВВС во Второй мировой войне 1939-1945. Москва, Центрполиграф, 2005, с.544.
2. История Второй мировой войны в 12 томах. Том 3. Москва, Воениздат, 1974, с.498.
3. Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. I hissə (1918-1945-ci illər). Ali məktəblər üçün dərslik. Bakı, Bakı universiteti nəşriyyatı, 2003, s.370.
4. Мельтюхов М. 17 сентября 1939. Москва, Вече, 2009, с.620.
5. Мельтюхов М. Советско-польские войны. Военно-политическое противостояние 1918-1939 гг. Москва, Вече, 2001,с.464.
6. Мельтюхов М. Упущенный шанс Сталина. Москва, Вече, 2000, с.537.
7. Переслегин С. Вторая мировая: война между реальностями. Москва, Яуза Эксмо, 2006, с.544.
8. Steven J. Zaloga. Poland 1939: The Birth of Blitzkrieg, Osprey Publishing, 2002, p.96.
9. Типпельскирх К. История Второй мировой войны. Санкт Петербург, Полигон, 1998, с.796.

**BALAMIRZA MAMMADLİ**
***3rd year student of the Faculty of History of Baku State University***

# GERMAN ATTACK ON POLAND AND THE OUTBREAK OF WORLD WAR II

The German attack began on September 1, 1939, a week after the signing of the Molotov-Ribbentrop Pact between Germany and the Soviet Union and a day after the Supreme Council of the Soviet Union approved the pact. The Soviets invaded Poland on September 17th. On October 6, 1939, the last units of the Polish troops surrendered. The territory of Poland after its surrender was divided

between Germany and the Soviet Union. Some territories were transferred to Lithuania and Slovakia. In the article, the theme of the German attack on Poland and the beginning of World War II is devoted to the context of history and historiography.

*Keywords:* The Second World War, Nazi Germany, Attack on Poland, Siege of Warsaw, Occupation of Poland.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94"16/18"

**ƏLİ NOVRUZOV**

***Bakı Dövlət Universiteti***
***Tarix fakültəsinin tarix ixtisası üzrə III kurs tələbəsi***
**E-mail: ali.novruzov@bsu.edu.az**

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ OSMANLIDA YUNAN ÜSYANLARI VƏ BÖYÜK DÖVLƏTLƏR

Elmi rəhbər:
Tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*Yunan üsyanı və yaxud digər adı ilə Rum üsyanı, yunanların Osmanlı hakimiyyətinə qarşı başlatdığı, 1821-1829-cu illərdə davam edən və Yunanıstanın müstəqilliyi ilə nəticələnən XIX əsrin ən mühüm siyasi hadisələrindən biridir. Bu siyasi hadisə nəticəsində Avstriya kansleri Klimment Metternixin 1815-ci ildə böyük dövlətlərlə (Rusiya, İngiltərə və Fransa) birlikdə qurduğu Vyana sisteminə böyük zərbə dəymiş, həçminin Osmanlı dövləti Aralıq dənizinə çıxışı olan mühüm strateji ərazilərini itirimişdir. Balkan millətçiliyi içərisində önəmli yer tutan yunanların müstəqil dövlət qurmasının digər Balkan millətlərinin də dini və siyasi tarixinə mühüm təsiri oldu. Məqalədə Osmanlı imperiyasında yaşayan yunanların vəziyyəti, onların müstəqil dövlət qurmalarına səbəb olan əsas amillər: yunan qiyamını hazırlayan səbəblər, yunan millətçi hərəkatı, Eflak-Boğdanda və Mora yarımadasında baş verən qiyam, Yunan üsyanları nəticəsində Balkanlarda türk müsəlman əhaliyə qarşı törədilmiş qətliamlar, böyük dövlətlərin Yunan məsələsi ilə bağlı siyasəti, Yunanıstanın müstəqillik qazanması kimi əsas məsələlərə toxunulmuşdur.*

*Açar sözlər*: Yunan üsyanları, Fener Rum Patrikliyi, Eflak-Boğdan üsyanı, Mora üsyanı, Yunan millətçiliyi, Filiki Eteriya təşkilatı, Aleksandr İpsilanti, etnik təmizləmə siyasəti



*Giriş.* 1453-cü ildə İstanbulun türklər tərəfindən fəthi və Bizans imperiyasının davamçısı olan dövlətlərin süqutu nəticəsində Yanya dağları, Ağrafa dağları, İsfakiye, Suli və Mani ərazilərində müstəqil yaşayan az sayda yunanlar istisna olmaqla, bütün yunan xalqları Osmanlı dövlətinin hakimiyyəti altında düşdülər. Yunanlar Osmanlı dövlətinin əsasən Mora, Teselya və Egey adalarında üstünlük təşkil edirdilər. Yunanların mədəniyyət mərkəzləri isə İstanbul, Saloniki, Adalar və Osmanlı dövlətinin ərazisi olmayan Venesiya, Vyana və Odessada yerləşirdi. Osmanlı idarəçiliyi rumların mədəniyyətinə, təhsilinə heç vaxt maneə olmadı. Çünki XVII əsrdən etibarən getdikcə varlanan rumlar sadəcə Mora və Epirdə deyil, Qara dəniz sahillərində və Qərbi Anadoluda da, Kritdə və Epirdə çox sayda məktəblər açmışdılar. Ayrıca İyoniya adaları Osmanlı hakimiyyəti altında olmadığından, İtaliya və Fransanın mədəni təsirinə məruz qalan bu ərazilərdə klassik yunan mədəniyyəti və yunan humanizmi yerli rum əhalisinin də düşüncəsinə öz təsirini göstərirdi. Osmanlı dövlətində yaşayan yunanlar Fənər Rum Ortodoks patriarxına bağlı olaraq qismən muxtar hüquqlara sahib olan topluluq idi. Dini, iqtisadi və mədəni baxımdan müəyyən hüquqlara malik olsalar da, hüquqi baxımdan müsəlman əhalidən aşağı statusda idilər. Reaya[*] olduqlarına görə, Osmanlı dövlətinə cizyə və xərac kimi vergilər ödəyirdilər. Bütün qeyri-müsəlmanlar kimi, yunanlar da Osmanlı dövlətinin devşirmə sisteminə əsasən uşaq vaxtında ailələrindən alınır və müsəlmanlaşdırıldıqdan sonra dövlətin rəhbər vəzifələrinə təyin edilirdilər (8, s.7; 12, s.4). Osmanlı imperiyasının ticari

[*] *Reaya, rəiyyət – İslam dünyasında idarəedici siniflər olan hərbiçilər və üləmalar istisna olmaqla, vergi ödəyən əhaliyə, Osmanlıda dövlətə vergi ödəyən qeyri-müsəlman əhaliyə deyilirdi* – Mənbə: Türkiye Dinayet Vakfı İslam Ansiklopedisi, 34.Cilt. 2007, s.490-493. - https://islamansiklopedisi.org.tr/reaya

həyatında da önəmli rola malik olan yunanlar Balkan yarımadasında, ticarət yollarının üzərində yerləşən inkişaf etmiş şəhərlərdə də sayca üstünlüyə malik idilər. İmperiyadan başqa digər dövlətlərlə də əlaqələrinin olması, iqtisadi cəhətdən üstün olmaları, təhsilə böyük əhəmiyyət vermələri yunanları Balkan yarımadasında üstün vəziyyətə gətirmişdi.

Osmanlı dövləti rum əhalisinin və digər millətlərin vergi verdiyi və dövlətə qarşı çıxmadığı müddətdə rumların yerli idarəetmə şəklinə çox da müdaxilə etməmişdir. Bundan əlavə, İstanbuldakı Fənərli rumlar dövlət idarəçiliyində imtiyazlı hüquqlara sahib olmuşlar. Xarici dil bildiklərinə görə, Divani-Humayunda tərcüməçi işləyə bilirdilər. Hətta, XVIII əsrdən etibarən Fənərli rumlar Eflak və Boğdan voyevodalıqlarına vali də təyin edilməyə başladılar. Beləcə, rumlar Osmanlı dövləti içində vacib etnik ünsür vəziyyətinə gəlib çatmışdılar (1, s.XVI; 3, s.166-167).




*Yunan üsyanlarının səbəbləri.* Osmanlı tarixinin "ən uzun yüz ili" deyilən XIX əsrin əvvəllərinin ən ağrılı hadisələrindən biri 21 fevral 1821 – 12 sentyabr 1829-cu illəri əhatə edən yunan üsyanlarıdır. Bu üsyanların daxili və xarici olmaqla müxtəlif səbəbləri vardır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- XVIII əsr Fransa Burjua inqilabının meydana çıxardığı millətçilik cərəyanlarının təsiri;
- Ortodoks birliyi qurmağa çalışan Rusiyanın yunanları dəstəkləməsi;
- Yunan burjuaziyasının Yunanıstan dövləti qurmaq istəyi;
- Filiki-Eteriya cəmiyyəti və onun fəaliyyətləri;
- Yanya valisi Tepedelenli Ali Paşa ilə Osmanlı dövləti arasındakı mübarizə, Ali Paşanın vəzifədən uzaqlaşdırılması (1, s.XVII-XVIII).

Belə ki, XVIII əsr Fransa burjua inqilabının təsiri ilə millətçilik hərəkatları meydana çıxmağa başladı. Osmanlı ticarətində mühüm

rol oynayan yunan tacirlər Avropa ilə sıx təmasda idilər və onlar Avropada cərəyan edən hadisələrin təsiri ilə yunanlar üçün təhsil qurumları açmaları ilə, yunan ziyalıları isə mətbuatı inkişaf etdirmələri ilə yunan milli şüurunun formalaşmasına təsir edirdilər. Həmçinin təşkilatlanma prosesi gedirdi. Təməl hədəfi – müstəqil Yunan dövlətinin qurulması olan Filiki Etereya (1814) təşkilatı yaranmışdı. Fener Rum Patrikliyi, bir çox zəngin yunan tacirlər bu cəmiyyətin üzvləri idilər. Filiki Eteriyanın bir çox yerlərdə fəaliyyət göstərən şöbələri üsyanı hazırlayırdılar. Lakin bu üsyanlar müxtəlif səbəblərdən bir çox hallarda baş tutmurdular. Bu səbəblərdən biri də, bəzi Osmanlı məmurlarının hadisələrə müdaxiləsi, sərt idarəçilik üsulları hesab edilirdi. Belə məmurlardan biri olan Yanya valisi Tepedelenli Ali Paşa bölgədə nəzarəti əlində toplamışdı. Dövlətə qarşı çıxdığına görə onun edam edilməsi yunan üsyanları üçün bir fürsət oldu. Ondan çəkinərək üsyan qaldıra bilməyən qüvvələr, yoxluğundan istifadə edərək üsyana başladılar.



*Filiki Eteriya cəmiyyəti və Yunan üsyanlarının başlanması.* Ümumilikdə üsyanlar, inqilablar üçün lazımlı zəminin formalaşdırılmasında cəmiyyətlərin fəaliyyətləri böyük önəm kəsb etməkdədir. Yunanların Osmanlı dövlətinə qarşı başladacaqları üsyanı idarə etmək məqsədilə 1814-cü ildə Emmanouil Ksantos, Nikolaos Skoufas ve Athanasios Tsakalof adlı üç yunan gənc tərəfindən Odessada Filiki Eterya (yunanca: Φιλική Εταιρεία) cəmiyyətinin əsası qoyuldu. "Dostlar cəmiyyəti" mənasını verən Filiki Eterya cəmiyyəti Qərbi Avropadakı bütün masson təşkilatlarının quruluş və işləyiş üsullarını mənimsəmişdi (1, s.57). Yunan tarixçisi Vasili Panagiotopoulos, Filiki Eterya cəmiyyətini Yunan inqilabını təşkil etmək üçün köləliyə məruz qalmış Ellinizmin ən vacib siyasi hərəkatı kimi qiymətləndirirdi (11, s.1).

Filiki Eteriyanın birinci məqsədi rumları Osmanlı dövlətinə qarşı qiyama hazırlamaq və qiyam olarsa Balkanların bütün xristian əhalisini bu üsyana qoşmaqdı. Təşkilat maliyyə problemini həll etmək üçün tacirlərdən, əhali arasında təbliğat aparmaq üçün isə din xadimlərindən

istifadə edirdi. Filiki Eteryanın hədəfi ilk mərhələdə Mora yarımadasında Yunan dövləti qurmaq, sonra Orta Yunanıstanı, Qərbi Trakiyanı, Saloniki şəhərini, Egey adalarını, On İki Adanı, Kipri və Qərbi Anadolunu Yunanıstana birləşdirmək, nəhayət İstanbulu ələ keçirərək Bizansı yenidən qurmaq olmuşdur (1, s.57). 12 aprel 1820-ci ildə keçirilən iclasda əslən İstanbullu olan Fənərli Rum İpsilanti ailəsinin nümayəndəsi, rus ordusunda yüksək rütbəli zabit olan və çar I Aleksandrın köməkçisi olan Aleksandr İpsilanti cəmiyyətin rəhbəri təyin edildi.




*Eflak-Boğdan üsyanı.* Eflak-Boğdan[1] üsyanı Filiki Eteriya cəmiyyətinin planladığı və Rusiyanın dəstək verdiyi birinci yunan üsyanıdır. Filiki Eteriya cəmiyyətinin üzvləri üsyanı uğurla nəticələndirmək üçün Eflak-Boğdan voyevodolarını öz tərəflərinə çəkmək istədilər, ancaq bacarmadılar. Aleksandr İpsilanti Rusiyanın köməyi ilə Eflak-Boğdan xalqını və digər ortodoks xalqları qiyama çağıraraq, Balkan yarımadasında ümumi qiyam qaldırmağı planlayırdı. Cəmiyyətin rəhbəri Aleksandr İpsilanti Eflak və Boğdan voyevodolarını Filiki Eteriya cəmiyyətinə üzv olmağa dəvət etdi. Bundan sonra Boğdan voyevodası Mixail Sturdza İpsilantinin təklifini qəbul edərək Filiki Eterya cəmiyyətinin üzvü oldu. Eflak voyevodası Sucu Aleko cəmiyyətə üzv olmaq istəmirdi. O öldükdən sonra isə əvvəlcədən Filiki Eterya cəmiyyətinin üzvü olan Kalimaki Beğ-zade Sarı Bey adlanan Ekserlet voyevoda oldu. 1821-ci ildə Silistrya valisi Mehmet Selim paşa, İbrail, Yerköy, Niqbolu, Vidin hakimlərinə məktublar göndərərək üsyanlar haqqında onları xəbərdar etdi. Ayrıca Eflakda başverən üsyanın Boğdana yayılmaması üçün Boğdan voyevodası Mixailə də xəbər verildi. Bu sırada Aleksandr İpsilanti də İbrail qalasını və Dunay sahillərindəki qalaları ələ keçirməyi planlayırdı. Həmçinin İpsilanti Kişinyov qəsəbəsində kömək üçün hazır vəziyyətdə gözləyən rus generalı İnziftən Boğdan voyevo-

[1] *Eflak – indiki Valaxiya, Rumıniya; Boğdan – Moldovanın 1 hissəsi* – müəllif.

dasına məktub yazmasını, məktubda Eteris adlanan 3000 rum qiyamçının Boğdana keçərək əhalini hökumətə qarşı qoyacağı xəbərinin doğru olmadığını, sərhədlərin qorunmasının əhəmiyyətini qeyd etməsini istəmişdir. Eflak və Boğdan vilayətlərinə istədiyi voyevodları təyin etdirən Aleksandr İpsilanti, 6 mart 1821-ci ildə 3000 hərbçi ilə Prut çayını keçərək rum xalqını silaha sarılmağa çağırdı və heç bir müqavimət görmədən Buxarestə daxil oldu. Beləcə, Rum üsyanı da başlanmış oldu (9, s.2847).

Rus çarı I Aleksandr 1821-ci ilin martından Metternixin ona Vyana sisteminə uymasını tələb etməsi ilə yunan üsyanını dəstəkləmək fikrindən daşındı və İpsilanti rus köməyindən və dəstəyindən məhrum oldu (1, s.57). İpsilantinin Boğdandakı qiyamı uğurla nəticələnmədi. Bir səbəb, Eflak və Boğdan bəyləri olan Fənərli rumların rumınlarla problemlərinin olması, digər səbəb isə rumınların üsyana qoşularaq Osmanlı dövləti ilə problem yaratmaq istəməməsi idi. Bununla da rumlar rumın dəstəyindən məhrum oldular (3, s.170). Bundan sonra Aleksandr İpsilanti serblərdən kömək istədi, lakin serblər də öz maraqlarını təhlükə altına qoymamaq üçün bu üsyana qoşulmaq istəmədilər (9, s.2847). Yaşt şəhərindəki rus konsulu da İpsilantiyə Rusiyanınköməyə gəlməyəcəyini bildirmişdi. Üsyan Osmanlı dövləti tərəfindən yatırıldı və Eflak-Boğdan vilayətləri ciddi nəzarətə götürüldü. Məğlub olaraq Avstriyaya qaçan Aleskandr İpsilanti Metternix hökuməti tərəfindən həbs edildi (3, s.170).




*Mora (Peloponnes) üsyanı.* Aleksandr İpsilantinin Eflak-Boğdan vilayətində üsyan başlatması ilə eyni vaxtda, yəni 1821-ci ilin mart ayında onun qardaşı Dmitri İpsilanti də Mora yarımadasında qiyam qaldırdı. Martın 23-də Kalamata şəhərində, martın 24-də də Patra şəhərində yunanlar üsyan qaldırdılar. Mora üsyanı ilk vaxtlar uğurla nəticələnirdi. Çünki yunanlar Morada kompakt şəkildə yaşayırdılar. Digər tərəfdən də üsyanı idarə etmək üçün yaxşı təlim keçilmiş yunan partizan qrupları da yaradılmışdı. Bu dövrdə Moranın vəziyyəti rumların qi-

yamı üçün əlverişli idi. Çünki 1788-ci ildən Yanya valisi olan, sərt və amansız idarəçiliyi ilə rumları qızışdıran Tepedelenli Ali paşanın İstanbulla da arası dəymişdi. Tepedelenli Ali paşa rum partizan hərəkatını daima təqib edir və Filiki Eterya təşkilatının hər planının İstanbula çatdırırdı. Bu zaman sultan II Mahmudun ən yaxın məsləhətçisi əslən yunan mənşəli Halet Efendi, şəxsi qısqanclıq səbəbilə, Ali paşaya qarşı cəbhə almışdı. Halet Efendinin oyunları nəticəsində Tepedelenli Ali paşa valilik vəzifəsindən çıxarılandan sonra, bu dəfə o qiyam qaldırdı. Tepedelenli Ali paşanın bu qiyamı rumlara sərf edirdi. Çünki Mora yarımadasında olan türk qüvvələri Ali paşanın üsyanını yatırmaq üçün Yanyaya göndərilmiş və bunun nəticəsində də Mora yarımadasında olan türk qüvvələrinin sayı yox dərəcəsinə qədər azalmışdı. Bundan yararlanan rum qiyamçılar Moranın minlərcə yerli türk əhalisini qətlə yetirdilər. Bu arada Egey dənizində yerləşən rum döyüş gəmilərinin də köməyi ilə Egey adalarında rumlar qiyam qaldırdılar. Nəticədə, Mora yarımadasında və Egey adalarında ümumi formada yunan üsyanı başlanmış oldu (3, s.170).

Moradakı üsyan 1821-ci ilin aprelində rum adalarına da yayıldı və 1821-ci ilin 3, 10 və 16 aprel tarixlərində Speses, Psara və İdra adalarında üsyan başladı. Rum üsyanının uğurla nəticələnməsi üçün adaların da üsyana qoşulması əsas şərt idi. Rum partizan dəstələri Korint Kanalının şimalında qalan bölgənin böyük bir hissəsini nəzarət altında saxlayırdılar. Aleksandr İpsilantinin Eflak və Boğdanda qiyam qaldırması xəbəri İstanbula çatanda, Osmanlı dövlətində yaşayan bütün rum əsilli əhalinin silahını təslim etmələri əmr edildi. Sultan II Mahmud 1821-ci ilin martında bütün müsəlmanları birliyə çağırdı. M.Simith Andersona görə, Moradakı türklərin qətlə yetirilməsinə cavab olaraq, müsəlmanlar da rumlara qarşı eyni hərəkəti etdilər və bu hadisə patriarx Qreqoryusun asılmasına qədər davam etdi (9, s.2847). Bu üsyan İstanbulda böyük həyəcana səbəb oldu və böyük dövlətlər də öz diqqətlərini bu hadisəyə çevirdilər. Üsyanda iştirak etdiyi bilinən Fənərli rumlar vətən xaini elan edildilər. Rusiya 28 iyun 1821-ci ildə Osmanlı dövlətini verdiyi ultimatumda Kiçik Qaynarça müqaviləsinin şərtlərinə əməl edəcəyini və ortodoks xristianları

himayə edəcəyini bildirmişdi. Böyük dövlətlər 1822-ci ildə Verona konqresində Yunanıstanın müstəqilliyinə qarşı olsalar da, 1824-cü ilin əvvəllərindən Avropa ictimaiyyəti yunan üsyanına rəğbət bəsləyir və bəzi avropalı zabitlər və könüllü dəstələr Mora yarımadasına gələrək yunan partizan dəstələrinə qoşulurdular. Mora qiyamının davam etdiyi dövrdə Filiki Eteryanın üzvü Dimitri İpsilanti konstitusiyalı və mərkəzi dövlət qurmaq üçün məclisin çağırılmasını təklif etdi. 1821-ci ilin dekabrında Epidovrum şəhərində Filiki Eterya cəmiyyətinin üzvləri Müssislər Məclisini elan etdilər. Zadəganlar tərəfindən idarə olunan Məclis hökumətin bir adamın əlində cəmləşməsini istəmirdi. Bu səbəblə də Fənərli rum Aleksandr Movrakordatonun təsiri ilə hökumət 1795-ci il Fransa konstitusiyasının əsasında yeni konstitusiya layihəsi hazırladı və 5 nəfərdən ibarət olan İcraedici hakimiyyət orqanı yaradıldı. İcraedici hakimiyyətin yanında 59 nəfərdən ibarət olan və qanunverici hakimiyyəti əlində cəmləşdirən Məclis yaradıldı ki, onun rəhbəri Dimitri İpsilanti təyin edildi. Beləcə, ilk Yunan hökuməti Missolonki şəhərində quruldu. Hökumətin başçısı Aleksandr Movrakordato 13 yanvar 1822-ci ildə Yunan respublikasının qurulduğunu elan etdi. 22 yanvar 1822-ci ildə isə Epidovrumda Yunan hökuməti “İstiqlaliyyət Bəyannaməsi” və daha sonralar “Epidorvrum konstitusiyası” adı verilən konstitusiyanı qəbul etdi. Yunanıstanda hakimiyyət bölgüsü, azad seçkilər, din azadlığı, mülkiyyət qarantiyası və vətəndaşların təhlükəsizliyi kimi demokratik prinsiplərə söykənən bir respublika elan edildi (1 s.59; 3, s.173; 9, s.2847).




*Böyük dövlətlərin Yunan üsyanlarına münasibəti və Yunanıstan dövlətinin qurulması.* Böyük dövlətlər, Dördlü və Müqəddəs İttifaqın ümumi prinsipləri çərçivəsində, yunan üsyanın əvvəlindən bu üsyan ilə bağlı tərəfsiz siyasət yeritmiş və bu üsyanı Osmanlı dövlətinin daxili məsələsi kimi qəbul etmişdilər. Bunun digər səbəbi də Avstriya kansleri Klimment Meternixin 1815-ci ildə qurduğu Vyana sistemi idi və həmin sistemə görə Avropanın hər hansı bir bölgəsində

inqilabi hərəkat baş verərsə, bu hərəkat Müqəddəs İttifaq tərəfindən yatırılmalı idi. Metternixin bu sistemi qurmasının digər səbəbi də Avstriyanın çoxmillətli imperiya olması və baş verəcək inqilabların Avstriyanın parçalanmasına səbəb ola biləcəyi qorxusu idi. Rusiya isə I Aleksandrın dövründə Vyana sisteminin qərarlarına uysa da 1825-ci ildən etibarən xarici siyasətində dəyişiklik etdi, yunan üsyanına dəstək verməyə, Vyana sisteminə qarşı əks mövqedə çıxış etməyə başladı. Bu dövrdə Rusiyanın yunan üsyanına dəstək verməsi iki səbəblə bağlı idi. Birincisi, yunan üsyanı Rusiyaya imkan verirdi ki, o özünü bütün ortodoks xristanların himayəçisi kimi aparsın. İkincisi, Rusiya yeni qurulacaq Yunanıstan dövlətini nəzarət altında saxlamaqla Aralıq dənizinə çıxış əldə etmək və Hindistana gedən yolu öz nəzarəti altında almaq istəyirdi. Rusiya Osmanlı dövlətinin mövcud vəziyyətindən istifadə edib onu müqavilə imzalamağa məcbur etmək istəyirdi. Çünki 1826-cı ildə sultan II Mahmud 1826-cı ildə Asakir-i Mansure-i Muhammadiye adlı müasir ordu qururdu və bu ordunun tam qurulması üçün vaxt lazım idi. Eyni zamanda Osmanlı ordusu döyüşəcək vəziyyətdə deyildi (1, s.178). Buna görə də Yunan məsələsini Rusiyanın xeyrinə həll etmək üçün Rusiya hökuməti 17 mart 1826-cı ildə Osmanlı dövlətinə ultimatum verərək Osmanlının 1812-ci il Buxarest müqaviləsini yenidən gözdən keçirməsini istədi. Ruslarla aparılan danışıqlar nəticəsində 7 dekabr 1826-cı ildə Rusiya və Osmanlı arasında Akkerman müqaviləsi imzalandı. Bu sənəddə Yunan məsələsindən bəhs olunmurdu, fəqət Rusiya bu müqavilə ilə Balkanın ortodoks əhalisi üzərində bəzi üstünlüklər əldə etdi və Qara dənizdə donanma yerləşdirimək hüququnu aldı (3, s.60). Metternix isə Osmanlı dövlətinin üsyanı yatırmaqda çətinlik çəkdiyini gördükdə, ona Misir valisi Mehmet Ali paşadan kömək almağı məsləhət gördü. Mehmet Ali paşa yardımın müqabilində Mora və Krit adalarını istədiyini bildirdi. Osmanlının başqa çıxış yolu olmadığına görə, tələbi qəbul etdi və üsyanın yatırılması müqabilində Moranın və Kritin Mehmet Ali paşaya veriləcəyini qəbul etdi. Aralıq dənizində donanmasını gücləndirmək istəyən Mehmet Ali paşa oğlu İbrahim paşanı Mora yarımadasına gön-

dərdi və İbrahim paşa tərəfindən 1825-ci ildə mühasirəyə alınan Misolongi şəhəri 1826-cı ilim aprelində təslim oldu (3, s.174).

İngiltərənin isə 1822-ci ilə qədər olan siyasəti Osmanlı imperiyasının ərazi bütövlüyünü qorumaq və Rusiyanın Aralıq dənizinə çıxmasına mane olmaq olsa da, 1822-ci ildə İngiltərənin xarici işlər naziri Lord Kanning olduqdan sonra İngiltərə Yunan məsələsinə başqa mövqe ilə yanaşdı. Kanningə görə, Yunan məsələsi bütün xristian dünyasının məsələsi idi və bu məsələdə lider Rusiya idi. Osmanlı dövləti isə yunan üsyanını yatıra bilmir. Belə olduğu təqdirdə, yunanlar tez və ya gec müstəqilliklərini qazanacaqlar və bunun üçün Rusiyaya təşəkkür edəcəklər. Bu isə, Yunanıstanın Rusiyanın təsiri altına düşməsinə və Rusiyanın Yunanıstan vasitəsilə Aralıq dənizinə çıxış əldə etməsinə səbəb olacaqdır. Bunun qarşısını almaq üçün, İngiltərə yunanları dəstəkləməli və qurulacaq olan müstəqil Yunanıstan Rusiyaya deyil, İngiltərəyə təşəkkür etməlidir. Bu formada həm Osmanlı dövlətinə kömək etmək olar, həm də İngiltərə gələcəkdə qurulacaq Yunanıstan dövlətini nəzarətdə saxlayaraq imperiya yolunu (Hindistana gedilən yol nəzərdə tutulur), yəni Aralıq dənizinə çıxışı olan strarteji məntəqəni öz nəzarətində saxlayardı. Bununla da İngiltərə 1823-cü ildən etibarən Moradakı rum partizan dəstələrinə maliyyə yardımı etməyə başladı. İngiltərə 1825-ci ildə Osmanlı dövlətinə nota verərək Mehmet Ali paşanın oğlu İbrahim paşanın qüvvələrinin Missolongi şəhərinə olan hücumu dayandırmağı tələb etdi, əks halda İngiltərə müdaxilə edəcəkdi. Osmanlı dövləti məcbur olub hərbi qüvvələrin irəliləməsini dayandırmaq məcburiyyətində qaldı. Rusiyanın da öz növbəsində 17 mart 1826-cı ildə Osmanlı dövlətinə ultimatum verməsi İngiltərəni narahat etdi. İngiltərə, Rusiyanın Osmanlı dövlətinə müharibə elan edərək, Yunan məsələsini öz xeyrinə həll edəcəyindən qorxdu. İngiltərə I Nikolaya, həm Rusiya ilə Osmanlı dövləti arasında və həm də Osmanlı dövləti ilə yunanlar arasında birlikdə vasitəçilik təklif etdi. Bundan sonra 4 aprel 1826-cı ildə Rusiya ilə İngiltərə arasında Akkerman müqaviləsindən əvvəl Peterburq protokulu imzalandı. Yunan inqilabının ilk diplomatik sənədi olan bu protokola görə, Yunanıstan, Osmanlı dövlətinə bağlı,

hər il vergi ödəyən, daxili işlərini tamamilə özü idarə edən, muxtar dövlət olacaqdı. Peterburq protokolu Yunanıstan dövlətinin qurulması yolunda ilk protokoldur. Avstriya və Prussiya bu protokolu rədd etsə də, Fransa qəbul etdi. Rusiya ilə İngiltərə protokolun maddələrini Osmanlı dövlətinə bildirərək icra edilməsini istədilər. Osmanlı dövləti isə yunan məsələsini özünün daxili məsələsi olduğunu bildirdi və bu istəyə rədd cavabını verdi.

Bu vəziyyətdən sonra, Rusiya, İngiltərə və Fransa yenidən hərəkətə keçdilər. İngiltərə, bir general və bir admiralını yunan üsyançılarının xidmətinə vermək üçün yunanlarla danışıqlar apardığı müddətdə, Rusiya da öz adamı Kapodistriyanı Epidovrumda elan edilən respublikanın rəhbəri təyin etdi. Lakin yunanların hərbi vəziyyəti pisləşdiyindən onlar Osmanlı dövlətinə təzyiq etmələri üçün, İngiltərə və Rusiyanı sıxışdırırdılar. Bu səbəbə görə İngiltərə, Rusiya və Fransa 6 iyul 1827-ci ildə Londonda Peterburq protokolunun eyni maddələrini əks etdirən protokol imzaladılar. London protokoluna görə əgər türklərlə yunanlar arasında bağlanan atəşkəsdən sonra, Osmanlı dövləti Yunanıstan dövlətinin qurulmasını qəbul etməzsə, ona qarşı tədbirlər görüləcəkdir. Osmanlı dövləti London protokolunu da rədd etdikdən sonra ingilis, fransız və rus donanmaları Mora yarımadasını və Çanaqqala boğazını blokadaya aldılar. Navarində lövbər salmış Osmanlı-Misir birləşmiş donanması 20 oktyabr 1827-ci ildə ingilis-fransız-rus donanması tərəfindən yandırıldı. Navarin dəniz döyüşündən sonra üç dövlət Osmanlı ilə diplomatik əlaqələri kəsdilər.

Osmanlı donanmasının darmadağın edilməsindən sonra Rusiya Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başlamaq qərarına gəldi və 1828-ci ilin aprelində Rusiya Osmanlı dövlətinə müharibə elan etdi. Rusiyanın Osmanlıya müharibə elan etməsi İngiltərə və Fransanı narahat edirdi. Beləliklə, Fransa və İngiltərə Mehmet Ali paşanın əsgərlərini Mora və Kritdən çıxarmaq üçün aralarında protokol imzaladılar. Paşanın Moradakı əsgərləri çıxdıqdan sonra iki tərəf arasında 6 avqust 1828-ci ildə danışıqlar oldu. Sentyabrda Mora fransızlar tərəfindən işğal edildi. Ruslar şərqdə Ərzuruma qədər, qərbdə isə Ədirnəyə qədər gəlib çatdılar. Ədirnənin işğalından sonra Osmanlı sülh

təklif etdi və 14 sentyabr 1829-cu uldə Rusiya ilə Osmanlı dövləti arasında Ədirnə müqaviləsi imzalandı.

Kiçik Qaynarça müqaviləsindən sonra imzalanan ən ağır müqavilə olan Ədirnə müqaviləsi ilə Osmanlı dövləti Yunanıstan dövlətinin qurulmasını qəbul etdi. Ədirnə müqaviləsindən 5 ay sonra 3 fevral 1830-cu ildə İngiltərə, Fransa və Rusiya arasında imzalanan yeni London protokolu ilə müstəqil Yunanıstan dövlətinin qurulduğu elan edildi. Həmin gün imzalanan ikinci bir protokola görə də Yunan krallığına Saksen-Koburq sülaləsindən olan knyaz Leopold gətirilməli idi. Knyaz Leopold isə verdiyi cavabda Yunanıstanın şimal sərhədinin genişləndirilməsi və bəzi adaların Yunanıstana verilməsi, Yunanıstanın xarici müdaxilədən himayə ediləcəyi təqdirdə krallığı qəbul edəcəyini bildirmişdi. 24 aprel 1830-cu ildə Osmanlı dövləti də Yunanıstanın müstəqilliyini qəbul etmək məcburiyyətində qaldı.

Bu dövrdə 1822-ci ildə qurulan Yunan respublikasını 1827-ci ildən bəri Kapodistriya diktatura idarəçiliyi formasında idarə etdiyindən 1831-ci ildə düşmənləri tərəfindən öldürüldü. Bu hadisədən sonra Yunanıstanda bir müddət qarışıqlıq oldu. Nəhayət, 13 fevral 1832-ci ildə Londonda imzalanan protokola əsasən, İngiltərə, Fransa və Rusiyanın himayəsi altında, şimal sərhədi Arta-Volos xətti olan, Krit və Samos istisna olmaqla bəzi Egey adalarını əhatə edən və paytaxtı Nauplion, 1834-cü ildən isə Afina şəhəri olan müstəqil Yunan krallığının yaradılması haqqında qərar qəbul edildi. Qərbi Ellada, Şərqi Ellada, Attika, Pellopones (Mora) və Kiklada ərazilərini əhatə edən Yunan respublikasının Milli Məclisi London protokolunu tanımaqla yeni yaradılmış Yunanıstan krallığını tanıdı və bu krallığa birləşdiyini elan etdi. 1832-ci ildə imzalanan London protokoluna görə böyük dövlətlər belə qərara gəldilər ki, Yunanıstan krallığına hərbərliyə gətirilən sülalə İngiltərə, Rusiya və Fransa sülalə üzvlərindən olmamalı idi. Nəhayət böyük dövlətlərin razılığı ilə Yunanıstan dövlətinin kralı Alman konfederasiyasının tərkibinə daxil olan, Bavariyanın Vittelsbax sülaləsindən olan kral I Luinin oğlu şahzadə Otto elan edildi. Beləliklə, Yunanıstan İngiltərənin nəzarəti altında alman sülaləsi tərəfindən idarə olunan krallığa çevrildi (1, s.176; 3 s.62; 9, s.2847).

*Yunan üsyanının nəticələri*. 10 ildən artıq davam edən Yunan üsyanlarının Osmanlı üzrə nəticələri aşağıdakılar olmuşdur:

1. Osmanlı donanması yandırıldı. III Səlim dövründən (1767-1808) başlayaraq donanmanın gücləndirilməsi üçün görülmüş bütün işlərin üzərindən xətt çəkilmiş oldu.

2. Osmanlının məğlubiyyəti və torpaq itirməsi ilə nəticələnən Rusiya ilə 1828-1829-cu illər müharibəsi baş verdi.

3. İlk dəfə Osmanlı təbəəsi olan milli azlıq müstəqillik əldə etdi və bu digər azlıqlar üçün də bir nümunə oldu.

4. Günümüzdə də davam etməkdə olan Egey problemi meydana çıxmış oldu. Yunanıstanın müstəqillik əldə etməsinə qədər Egey tam bir türk dənizi idi. Yunanıstanın müstəqillik əldə etməsi ilə yeni 1 dəniz dövləti də meydana çıxmış oldu.

5. Haqqında çox da danışılmayan 1 məsələ: Yunan üsyanları dönəmində türk müsəlman əhaliyə qarşı kütləvi qətliamlar törədildi və amerikalı tədqiqatçı Justyn McCarthynin sözləri ilə desək, XIX əsrin sonu – XX əsrin əvvəllərində digər milli azlıqların da bu taktikadan istifadə edəcəyi pis nümunə oldu.



*Yunan üsyanlarının gedişində türk müsəlman əhalinin qətliamı*. Amerikalı tarixçi demoqraf, Osmanlı imperiyası, Balkanlar və Orta Şərq tarixi üzrə tədqiqatçı Louisville Universitetinin professoru Justin McCarthy araşdırmalarında qeyd edir ki, XIX əsrdə Rusiya Balakanları öz təsir dairəsinə daxil etmək məqsədilə Osmanlının xristian millətlərindən istifadə etməyə başlamış, nəticədə onlar mütəmadi olaraq üsyanlar və qiyamlar qaldırmış, dövlət də onların qarşısını almaq üçün güc tətbiq etmək məcburiyyətində qalmışdır. Bu üsyanlar zamanı həmçinin milyonlarla müsəlman yaşadığı ərazilərdən qovulmuş, qətl edilmişdir (Ətraflı bax: 6; 7).

J.McCarthi hesab edir ki, XIX əsrdə yeni millətçilik axınlarının meydana çıxmasının təsiri ilə 1821-ci il yunan üsyanları ilə müsəlmanların “itki hekayəsi” başlayır. Belə ki, bu üsyanlar zamanı türklə-

rə müsəlmanlara qarşı həyata keçirilən sürgünlər və qətliamlar, onlardan sonrakı vaxtlarda özlərinə "dövlət qurmaq" istəyən bolqar, ruslar və ermənilər üçün də bir nümunə oldu. Balkanlarda, Anadoluda və Qafqazda özlərinə dövlət qurmaq istəyən "yeni millətçilərin yolunun üstündə dayanmaları" türklərin müsəlmanların talesizliyi idi. Onların talesizliyi bir də onda idi ki, təbəəsi olduqları dövlətin – Osmanlı imperatorluğunun onları qorumağa, mühafizə etməyə gücü çatmadı (5;6).

Osmanlı arxiv sənədlərində qeyd olunur ki, rum üsyanlarının başlanması ilə Mora, Attika, Teselya, Krit və digər Egey adalarında say etibarilə rum əhalidən çox olan türk əhali yaşadığı yerlərdən qovulmuşdur. Qətllər, məcburi köçlər, əhali dəyişimi olmasaydı, bu günki Yunanıstanda türk əhalinin sayı yunanların sayından üstün olacaqdı (1, s.XIX).

Yunan üsyanları 1821-ci il fevral ayının sonu – mart ayının əvvəllərində bəzi Osmanlı məmurlarının, xüsusilə də vergi məmurlarının öldürülməsi ilə başlasa da, bunun ardınca aprel ayında Mora türkləri üzərinə ümumi bir hücum edildi. Bu hücumda yunan quldurları və hətta kəndliləri rastlarına çıxan hər türkü qətl edtilər. Hətta Osmanlı əsgərlərinin də üzərinə hücumlar edilirdi. Bəzi bölgələrdəki müsəlmanlara (məsələn, Kalavryta, Kalamata) öldürülməyəcəkləri ilə bağlı vəd verilsə də, yunanlara təslim olduqdan sonra onların da hamısı qətl edildilər. Lakoniya bölgəsindəki türk əhali qaçmağa cəhd etdi, lakin onları da yolda qətl etdilər (5).

Egey dənizi, Egey adaları və Türk-Yunan münasibətləri tədqiqatçı Türkiyəli Ali Fuat Örenc araşdırmalarında qeyd edir ki, üsyanın başlanğıcında ən az təxminlərə görə, 90 mindən artıq arnavut (alban), pomak və türkdən ibarət müsəlman yaşayırdı. Müstəqillik elan olunanda bu rəqəmdən əsər-əlamət qalmamışdı. Üsyanın gedişində qətliamdan qurtara bilənlərin isə müstəqilliyin elanından sonra malları mülkləri əllərindən alındı. Ali Fuat Örenc bu insanları "ilk Yunanıstan göçmenleri" adlandırır (2).

Tarixçi George Finiay 1861-ci ilə aid məlumatlarında bildirir ki, üsyanın başlamasından 2 ay keçməmiş Yunanıstanda yaşayan müsəlmanlar qırğınlara məruz qaldılar: kişilər, qadınlar, uşaqlar acıma-

sız şəkildə qətl edildilər. Qaçıb canını qurtara bilənlərin geri qayıda bilməmələri üçün evləri dağıdıldı, əmlakları məhv edildi. Yalnız 26 mart – 22 aprel tarixində 15.000 müsəlman qətl edildi, 3.000-ə yaxın türk yaşayış yeri yararsız hala gətirildi (5).

Üsyanın şüarlarından biri Patras Yepiskopu Germanosun söylədiyi; "Xristianlar üçün sülh! Konsullara hörmət! Türklərə ölüm!", digəri "Heç bir Türk qalmayacaq: nə Morada, nə dünyada!" idi. İzah edilməsi çətin olan məsələlərdən biri də o idi, ki, müsəlmanlar "sadəcə" qətl edilirdilərsə, türklərə işgəncələr verilirdi. Hətta türk qadınların müxtəlif məqsədlərlə Yunanıstana kölə kimi aparıldığı da məlumdur (1, s.251-258, 270-277). Bu fikirlərlə razılaşmaq olar ki, Yunan üsyanları zamanı türklərin müsəlmanların qətli sadəcə müharibə şəraiti ilə izah edilə biləcək tələfat deyildi. Törədilən qətllər sadəcə "nifrət partlaması" da deyildi. Yalnız yunanlara aid olacaq Yunanıstanın qurulmasına hesablanmış çox dəqiq siyasi hərəkətlər idilər. Yunanıstan qurulduqdan sonra Osmanlının "yardımına gələ biləcəyi 5-ci kolonna" olaraq görülən türklər məhv edilirdilər.

McCarthy hesab edir ki, türklərin başlarına gələnlər çox ağır xəyanət idi, çünki onlar güclü olduqları zamanlarda XIX əsrin yunan və digər "millətçilərinin" etdikləri kimi hərəkət etsəydilər, o zaman həmin dövrlərdə ələ keçirdikləri bütün torpaqlarda yaşayan xristianları sürgün edəcəkdilər. Lakin Osmanlılar bunu etmədilər. Xristianlar yaşadıqları yerlərdə yaşamağa davam etdilər. Osmanlı idarəçiliyi zamanı xristian təbəələrinə yaxşı münasibətində yaxşı və pis deyilə biləcək çox hadisələrin ola biləcəyi mümkündür, lakin heç nəyə baxmayaraq Osmanlı onlara dillərini, dinlərini, adət-ənənələrini yaşatmağa imkan verdi. Belə etmələri insanlıq və ədalət baxımından doğru idi. Lakin nə yazıq ki, bununla özlərinə zərər etmiş oldular: əgər XV əsr türkləri o qədər xoş niyyətli olmasaydılar, XIX əsr türkləri öz yurdlarında yaşamağa davam edə bilərdilər (5).

*Nəticə.* Yunan üsyanları, və ya yunanların dediyi kimi yunan milli-azadlıq hərəkatı, XIX əsrin ən böyük siyasi hadisələrindən biri idi. Bu hadisə nəticəsində həm Metternixin 1815-ci ildə qurduğu Vyana sistemi ağır zərbə almış, həm Osmanlı dövləti Aralıq dənzinə

çıxışı olan mühüm strateji ərazisini itirmiş, həm də 1830-cu ildə Yunanıstan müstəqil dövlət olmuşdur.

Yunan üsyanı birdən-birə meydana gələn bir üsyan deyildi. Bu üsyan o dövrün ən böyük inqilabi hadisələrindən biri idi. Yunan üsyanlarının başlanğıcdakı səbəblərinin həqiqətən də millətçilik olmadığı görünməkdədir. Üsyanın hərəkətverici qüvvəsi dini idi. Üsyanın rəhbərləri sıralarında yepiskoplar və keşişlər də vardı. Üsyançılar bütün ortodoks rumların üsyana qatılacağını və qurulacaq dövlətdə yer alacağını hesab edirdilər.

Yunan üsyanı Balkanlardakı sonrakı qiyamlar və üsyanlar üçün də bir model hazırlmış oldu – etnik təmişləmə siyasəti. Bu model, yəni özünün milli müstəqilliyini əldə etmək üçün bölgənin türk müsəlman əhalidən təmizləmə siyasəti 1877-78, 1912-13 və 1919-23 müharibələrində yenidən meydana çıxdı. Bu modelin məqsədi - yol üzərində maneə olaraq görülən etnik və ya dini toplumu məhv edərək, özünə bir dövlət yaratmaq idi. Türklərə nifrət qırğınların törədilməsi üçün əsaslı faktor idi, lakin bu faktordan müstəqillik və millətçilərinə çatmaq üçün istifadə edildi. Burada türklərin mal-mülklərinə sahib olmaq istəyini də diqqətdən kənarda qoymamaq lazımdır. Yunan üsyanlarının nəticəsi olaraq meydana çıxmış və günümüzdə belə Türkiyə ilə Yunanıstan arasında davam etməkdə olan digər bir məsələ olaraq Egey problemini qeyd edə bilərik.

Lakin bütün bunlara və tökülən qanlara baxmayaraq, yunan üsyanları həm də yunan millətçiliyinin formalaşmasına və müstəqil dövlətin yaranmasına səbəb oldu. Qeyd edilməlidir ki, araşdırmaçılar arasında bu məsələyə də münasibət birmənalı deyil. Belə ki, bu millətçiliyin əsas prinsipəri: sadəcə milli dövlət qurmaq deyil, eyni zamanda hələ də qurtarılmamış bölgələrin qurtarılması, paytaxtı İstanbul olacaq daha böyük Yunanıstan qurulması (Meqali İdeya), başqa sözlə Bizans imperiyasının bərpası idi (1, s.VI). Bu imperiya üçün “qurtarılacaq” bölgələrin çoxunda isə, xüsusən də Trakiyada və Qərbi Anadoluda xalqın əksəriyyəti müsəlmanlar idilər. Yunan millətçiliyi bu müsəlmanların həmin bölgələrdən qovulmasına başladı. Bütün deyilənləri yekunlaşdıraraq qeyd edə bilərik ki, Yunan üsyanları

sadəcə baş verdiyi dövrün tarixini dəyişmədklə yekunlaşmadı, müəyyən məsələlərdə təsiri hətta günümüzə qədər davam etməkdə olan özündən sonrakı bir sıra hadisələrin də başlanğıcı oldu.

ƏDƏBİYYAT:

1. Arşiv Belgelerine Göre Balkanlarda Ve Anadolu'da Yunan Mezalimi. I Balkanlarda Yunan Mezalimi. TC Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Bakanlığı. Yayın No:22. Ankara, 1995, s.735 (LIII+685+X). Mənbə: https://www.devletarsivleri.gov.tr/varliklar/dosyalar/eskisiteden/yayinlar/osmanli-arsivi-yayinlar/arsiv_belgelerine_gore_balkanlarda_ve_anadoluda_yunan_mezalimi_1_balkanlarda_yunan_mezalimi-111.pdf [Müraciət tarixi: 18.05.2020]

2. Doç.Dr. Ali Fuat Örenç. 26 Mart Mora İsyanı ve sonuçları // Bosnak Medya,12 Eylül 2017. Mənbə: https://www.bosnakmedya.com/26-mart-mora-isyani-ve-sonuclari/ [Müraciət tarixi: 18.05.2020]

3. Farih Armaoğlu. 19.Yüzyıl Siyasi Tarixi (1789-1914). Ankara, Türk Tarih Kurumu Basımevi,1997, s.821. Mənbə: https://b-ok.asia/book/3657003/b33581?regionChanged [Müraciət tarixi: 18.05.2020]

4. Исторический Обзор Грецеской Национально-Освободительной Революции 1821 г. – ΣΥΝΤΟΜΗ ΙΣΤΟΡΙΚΗ ΕΠΙΣΚΟΠΗΣΗ ΤΩΝ ΓΕΓΟΝΟΤΩΝ ΤΗΣ ΕΘΝΙΚΟΑΠΕΛΕΥΘΕΡΩΤΙΚΗΣ ΕΠΑΝΑΣΤΑΣΗΣ ΤΟΥ 1821 / Греческий Культурный Центр-Κεντρο Ελληνικου Πολιτισμου, 12 марта 2014. Mənbə: http://www.hecucenter.ru/ru/greece/istoricheskij_obzor__grecheskoj_nacionalnoosvoboditelnoj_revolyucii.html [Müraciət tarixi: 18.05.2020]

5. Justin McCarthy. Ölüm ve Sürgün. Çeviren: Bilge Umar. İstanbul, İnkilap Yayınları, 1998, s.8-12 / Osmanlı Tarihi Sayfası. Mənbə: http://www.akintarih.com/turktarihi/osmanli/yunanisyani/isyan.htm [Müraciət tarixi: 18.05.2020]

6. Justin McCarthy. The Armenian Rebellion at Van. Salt Lake Sity, Utah: The University of Utah Press, 2006, p.296. Mənbə: https://fatsr.org/wp-content/uploads/2019/04/The-Armenian-Rebellion-at-Van-Justin-McCarthy-East-Arslan-Cemalettin-Ta%C5%9Fk%C4%B1ran-%C3%96mer-Turan-2006.pdf [Müraciət tarixi: 18.05.2020]
7. Justin McCarthy. Death and Exile: The Ethnic Cleansing of Ottoman Muslims, 1821-1922. New Jersey, Darwin Press, İncorporated, 1995, p.502
8. Оттоманский (османский) период. Греки в Оттоманской Порте / Grekomania, путеводитель по Греции. Mənbə: https://www.grekomania.ru/articles/greek-history/14-ottoman-period [Müraciət tarixi: 18.05.2020]
9. Serap Toprak. 19.Yüzyıl Milliyetçilik Çıkmazında Rumlar *// Yeni Türkiye Dergisi,* Yıl: 2015, *Sayı*: 68, *s*.2841-2864. Mənbə: http://www.yeniturkiye.com/samplechapters/216.pdf [Müraciət tarixi: 18.05.2020]
10. Stefanie Chan. The Regeneration of Hellas: Influences on the Greek War for Independence 1821-1832. CMC Senior Theses. Paper 188. Claremont Colleges, 2011, p.133. Mənbə: https://scholarship.claremont.edu/cgi/viewcontent.cgi?referer=https://www.google.com/&httpsredir=1&article=1115&context=cmc_theses [Müraciət tarixi: 18.05.2020]
11. Stefanos Kavallierakis. Αφιερωμα Φιλικιη Εταιρεια: Οι Ανησυχοι "Συνωμοτες". Σαββατοκυριακο 21-22 μαρτιου 2020 / σαββατοκυριακο 21-22 μαρτιου 2020 (Посвящается Дружественному Обществу: Тревожные «Заговорщики». Роль секретной организации в подготовке греческой революции, на основе классики и доступ к учебникам истории / Выходные 21-22 марта 2020 г.), с.4-5. (Online) Mənbə: https://www.academia.edu/42377383/ΦΙΛΙΚΗ_ΕΤΑΙΡΕΙΑ [Müraciət tarixi: 18.05.2020]

12. Yunan İsyanı // Devlet-i Aliyye-i Osmaniyye 27.05.2014. Mənbə: https://www.devletialiyyei.com/yunan-isyani-sayfa-186.html [Müraciət tarixi: 18.05.2020]

**ALİ NOVRUZOV**
***3rd year student of the Faculty of History of Baku State University***

## GREEK UPRISINGS IN THE OTTOMAN EMPIRE AT THE BEGINNING XIX CENTURY AND THE GREAT POWERS

Greek uprisings reffered to by greeks in the 19th century was a succesful war of independence waged by Greek revolutionaries againts the Ottoman Empire between 1821 and 1830. At the same time, the Greek uprising was in the spotlight of countries such as Britain, Russia, France and Austria. The main reasons for the revolt were the weak Ottoman rule in the areas where the Greeks lived compactly, the pre-organization of the Greeks, and the difficult situation of the Ottoman army. Taking advantage of this difficult situation of the Ottoman state, Britain and Russia intervened in the Ottoman state and supported the Greek revolutionaries. As a result, the Greeks established their own state with the help of Britain, and Britain, through Greece, gained a dominant position on the Mediterranean coast. According to Turkish, Greek, English and Russian sources, the situation of Greeks living in the Ottoman Empire, the main factors that led to their establishment of an independent state: the reasons for the Greek uprising, the Greek nationalist movement, the uprising in Eflak-Bogdan and Mora Peninsula, massacres against the Turkish Muslim population in the Balkans as a result of the Greek uprising, the policy of the major powers on the Greek issue, and the independence of Greece were touched upon.

*Keywords*: Greek uprising, Fener Greek Patriarchate, Eflak-Bogdan uprising, Mora uprising, Greek nationalism, Filiki Ether society, Alexander Ipsilanti.

*Daxil olma tarixi*: 18.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

№4(4) 2020

UOT 7 (4/9)

**ƏSMƏR SƏRKƏROVA**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: esmers19113@sabah.edu.az**

# TÜRK XALQLARININ MUSİQİ MƏDƏNİYYƏTİ HAQQINDA

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sənubər İsmayılova
Bakı Dövlət Universiteti

*Məqalədə mədəniyyətin bir xalqın dünyada mövcudluğunu qoruya bilməsi üçün çox vacib amillərdən biri olmasından, türk xalqlarının qədim köklərə dayanan zəngin və rəngarəng musiqi mədəniyyətinin ümumi quruluşundan bəhs olunur. Odur ki, məqalədə azərbaycanlı, Türkiyə türkləri, türkmən, qırğız, özbək kimi türk xalqlarının xalq mahnıları və tar, kamança, ney, çəganə, ud və s. kimi musiqi alətləri haqqında məlumatlar öz əksini tapmışdır. Məqalədə həmçinin türk xalqlarının musiqi mədəniyyətində ortaq dəyərlərin olmasından və türk musiqisinin digər xalqların musiqi mədəniyyətinə təsirindən bəhs olunur.*

*Açar sözlər: Türk xalqları, musiqi, mədəniyyət, musiqi alətləri, xalq mahnıları*





*Turana qılıncdan daha kəskin, ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*
****H.Cavid****

***Giriş.*** Dünya millətlərin mövcudluğu uğrunda savaşdır. Tarix boyu bu savaş silahla aparılmışdır. Lakin düşünürəm ki, bu savaş silahla deyil, mədəniyyətlə da aparıla bilər. Mədəniyyət çox geniş bir anlayışdır və özündə muxtəlif sahələri birləşdirir. Məsələn, musiqi, kino, teatr, xalq yaradıcılığı, ədəbiyyat və s. Bu sahələrin hər biri istər qədim dövrdə, istərsə də müasir dövrümüzdə insanların həyatında böyük rol oynamışdır. Bu məqalədə öz mədəniyyəti ilə, demək olar ki, tarixin bütün dövrlərində seçilən Türk xalqlarının musiqi mədəniyyətindən bəhs olunur. Türk xalqlarının mədəni mirasının kökləri onların tarixi ilə sıx bağlıdır. Türklər hələ qədim zamanlardan eyni torpaqlarda yaşamaqla, eyni bir dilin müxtəlif ləhcələrində danışmışlar, eyni Tanrıya ibadət etmişlər və eyni həyat tərzinə malik olmuşlar. Tarixin sonrakı dönəmlərində türk xalqları da digər xalqlar kimi müxtəlif ərazilərə yayılmış və özlərinin müxtəlif dövlətlərini qurmuşlar. Lakin türk xalqları arasındakı iqtisadi və mədəni əlaqələr hər zaman davam etmişdir. Qədim dövrdə bu əlaqələrin daha da möhkəmlənməsində mühüm tarixi əhəmiyyəti olan Böyük İpək Yolunun da həlledici rolu olmuşdur. Türk xalqlarının musiqi mədəniyyətindən danışarkən ilk olaraq belə bir sual yaranır: ümumiyyətlə, musiqi dedikdə nəyi başa düşürük? Bu sual əsrlər boyu insanları düşündürmüşdür və indi də düşündürür. Cavablar da müxtəlifdir. Məsələn, qədim yunanlar musiqini Allahın töhfəsi kimi qiymətləndirir, ona insanın qəlbini fəth edən, qeyri-adi qüvvə kimi yanaşırdılar. Türk dünyasının görkəmli şəxsiyyəti M.K.Atatürk də musiqiyə böyük əhəmiyyət verirdi. O, deyirdi: “Musiqi həyatın nəşəsi, ruhu, sevinci və hər şeyidir”. Beləliklə, ən qədim zamanlardan müasir dövrə kimi musiqinin bir möcüzə olduğunu, onun insanın əhval-ruhiyyəsinə, daxili aləminə böyük təsir göstərdiyini qeyd edən bir çox faktlar mövcuddur.

*Musiqinin türk xalqlarının həyaında yeri.* Türkiyəli tarixçi, türkoloq, eyni zamanda türk milli mədəniyyəti üzrə araşdırmaçı İbrahim Kafesoğlu yazır ki, erkən orta əsrlər dövründə də türklərin həyatında musiqinin mühüm yeri var idi. Böyük türk sərkərdəsi Attilla, səfərdən qayıdanda paytaxta daxil olarkən, sıra ilə düzülmüş gözəl geyimli hun qızlarının oxuduğu mahnılarla qarşılanırdı. Hətta Attilla Bur-

gond padşahına bir Hun orkestri də göndərmişdi. Çin mənbələrində Hun xalq mahnılarının 28 növü qeyd edilmişdir. Çinlilər eramızdan əvvəlki əsrlərdə Çində yayılan Asiya Hun alətlərindən bəziləri haqqında mənbələrdə bəhs etmişlər. Bunlar simli və nəfəssiz alətlər idi. Eyni zamanda Çin mənbələrində türklərin hərbi musiqilərindən də bəhs olunur. Bu və bunun kimi bir çox faktlar türklərin musiqi mədəniyyətinin çox qədim tarixi olduğunu bir daha sübut edir (9, s.342).

*Azərbaycan musiqisi.* Azərbaycan musiqisi çoxəsrlik inkişaf yolu keçmişdir. Çox qədim zamanlardan - Qobustan qayaüstü rəsmlərindən (yallı rəqsi) başlayaraq Azərbaycanda melodiya və ritm zənginliyi ilə fərqlənən çoxlu sayda mahnılar, müxtəlif rəqslər, çobanların tütəkdə çaldığı havalar səslənir.

Azərbaycanda musiqi tədrisinin tarixi isə 1921-ci ildə Ü.Hacıbəylinin Azərbaycan Dövlət Konservatoriyasını yaratdığı vaxtdan hesablanır. Bu zaman kəsiyində musiqişünaslıq, ifaçılıq, bəstəkarlıq və elmi-metodoloji sahədə böyük nailiyyətlər qazanıldı. Tarixin sonrakı dönəmlərində ümummilli lider Heydər Əliyevin də bu sahədə gördüyü işlər, imzaladığı bir sıra fərmanlar milli musiqimizin öyrənilməsi, təbliği və inkişafında nəzərəçarpacaq irəliləyişlər yaratdı (4, s.4).

Azərbaycan xalq musiqisi Azərbaycan xalqının bütün mənəvi dəyərlərini özündə birləşdirir. Azərbaycan xalq musiqisinin ən qədim və geniş yayılmış janrları aşıq musiqisi və muğamdır. Şifahi ənənəli xalq musiqisi olan aşıq musiqisi Azərbaycan mədəniyyətinin ən qədim sahələrindən biri olan aşıq sənətinin mühüm tərkib hissəsidir. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs və teatr sənəti üzvi şəkildə birləşmişdir. Aşıq şeirinin janrları olan qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, qoşmanın təcnis, cığalı təcnis növləri də bu janra aiddir. Aşıq musiqisinin ən geniş yayılmış növlərindən biri sazın müşayiətilə solo oxumaqdır. Onu da qeyd edək ki, 2009-cu ildə Azərbaycan aşıq yaradıcılığı UNESCO-nun Qeyri-maddi mədəni irsinin Reprezentativ siyahısına daxil edilmişdir (13).

Azərbaycan musiqisi dünyada ən çox muğamla tanınır desək yanılmarıq. Lakin bu janr fərqli adlarla bir çox türk xalqlarının musiqi mədəniyyətində də mövcuddur.

Azərbaycanda muğamı adətən, muğam üçlüyünün müşayiəti ilə xanəndə ifa edir. Bu, bütöv muğam dəsgahı adlanır. Dəsgah muğamın küll halında, yəni, onun dəramədinin, bütün şöbə və guşələrinin, eləcə də hər şöbənin təsnif və rəng, yaxud diringələrinin ardıcıl ifa olunması deməkdir.

Hal-hazırda Azərbaycanda xanəndə və sazəndələr muğamı üç hissəyə bölürlər: 1) Əsas muğamlar; 2) Kiçik həcimli muğamlar; 3) Zərbi muğamlar. Əsas muğamlara Rast, Şur, Segah, Cahargah, Bayatı-Şiraz, Şüştər və Hümayun daxildir (3, s.7).

Qeyd edək ki, Azərbaycan musiqisi ilə müqaisədə, Türkiyə musiqisində simfonik muğam, muğam-caz janrları yoxdur, milli opera və baletləri nisbətən azdır. Yeri gəlmişkən, Şərqdə ilk opera yazan Ü.Hacıbəyov və M.Maqomayev kimi sənətkarlar da məhz Azərbaycan musiqisinin dəyərləridir. Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası Şərqdə ilk opera, M.Maqomayevin "Nərgiz" operası isə Şərqdə Avropa stilində yazılmış ilk opera sayılır.

Onu da qeyd edim ki, Azərbaycan xalqının əzəli düşməni olan ermənilər tarixi Azərbaycanın torpaqlarına göz dikdikləri kimi Azərbaycan xalqının musiqi mədəniyyətinə də biganə qalmadılar. Bunu faktlarla göstərsək, ermənilərin Azərbaycan xalq mahnısı olan "Sarı gəlin" mahnısının, milli alətimiz olan Kamançanın ermənilərə aid olması haqqında iddialarını qeyd etmək kifayətdir. Lakin zaman və tarixi faktlar bu nümunələrin Azərbaycan musiqi mədəniyyətinin ayrılmaz bir parçası olduğunu sübut edir.

*Türkiyə türklərinin musiqisi:* Osmanlılar hələ orta əsrlərdə təkcə musiqi sənətinə deyil, musiqi elminə də böyük əhəmiyyət verirdilər. Bəzi mənbələrdə Türk musiqisinin ərəb, Yunan və Bizans mənşəli olduğuna dair iddialar da mövcuddur. Lakin Türk musiqisi ümumi xüsusiyyətləri baxımından Türk mənşəlidir.

Osmanlı türklərinin musiqi mədəniyyətini rəngarəng edən onların xalq mahnıları, rəqsləri və çalğı alətləridir. Türk xalq mahnıları Osmanlı türklərinin musiqi mədəniyyətinin əsas ünsürlərindən biridir. Struktur olaraq folklorun bir hissəsi olan türk xalq musiqisi 2 hissəyə bölünür: şifahi xalq musiqisi və şifahi olmayan xalq musiqisi.

Şifahi xalq musiqisinin ən geniş yayılmış janrı türkülərdir. Şifahi olmayan xalq musiqisinə isə daha sonrakı zamanlarda yaranan yerli musiqilər, eləcə də klassik musiqi aiddir. Şifahi şəkildə yaranan və türk xalq musiqisi sayılan türkülərin tarixi çox qədimdir və türklərin yaşadığı müxtəlif ərazilərdə fərqli ləhcələrdə yaranmışdır. Türkülər ilk növbədə yerli xüsusiyyətlərin birləşdirildiyi bir mədəniyyət ünsürüdür. Onlar xalq oyunları, folklorla sıx bağlıdır və bütöv bir xalqın səsini ifadə edir (5). "A güzel dolan da gel" türküsünün sözlərinə baxaq:

*A güzel dolan da gel*
*Ben mayil oldum sana*
*Çevreni saran da gel*
*Yaramı saranda gel.*

Türk xalq musiqisində 3 cür türkü ayırd edilir: qırıq hava, orta hava, uzun hava. Bu havaların hər birinə də müxtəlif türkülər daxildir. Türkülərdə xalqın yaşadığı yaxşı və pis hadisələr, həsrət, qürbət, sevgi, ölüm kimi hislər öz əksini tapmışdır. Müasir dövrdə də türkülər qorunaraq gələcək nəsillərə ötürülməkdədir (7).

Bundan əlavə türk musiqi mədəniyyətində ninnilər də (laylalar) çox maraq doğuran, məşhur janrlardan biridir. Türkiyənin qədimdən indiki dövrə kimi ucsuz-bucaqsız laylay zənginliyi var. Türkiyənin əksər bölgələrində "ninni", fars yazılı dilində "nanu", italyanca "ninna-nanna", yunanca "nannarismata" kəlimələri məhz bu janr üçün istifadə olunur. Eyni zamanda, Qarsda, Ərzurumda, fars danışıq dilində, eləcə də Azərbaycanda bu janrı ifadə etmək üçün "laylay" sözü işlədilir. Ninnilər və ya laylalar daha çox məişətlə bağlı nəğmələrdir. Məsələn:

*Dandini dandini dastana*
*Danalar girmiş bostana*
*Kov bostancı danayı*
*Yemesin lahanayı.*

*Türkmən musiqisi*: Türkmən musiqisi dedikdə, Türkmənistan Respublikası, Türkmən Səhra və Şimali Əfqanıstan arasında yayılan

musiqidən bəhs olunur. Türkmənistan musiqisi dünyanın ən nəcib musiqilərindən biridir. Çünki başqa xalqların musiqisi ona heç vaxt nüfuz etməmişdir. Hər zaman köçəri həyat yaşamış türkmənlərin musiqisi korlanmamış və özünəməxsus xüsusiyyətlərini qoruyub saxlamışdır. Xüsusilə iki simli "dutar" ilə tanınan türkmən musiqisi türkmən xalqı arasında öz əhəmiyyətini saxlayır və gündən-günə gənc pərəstişkarlarının sayını artırır. İstər rəsmi mərasimlərdə, istərsə də toylarda türkmən ozanı və dutarının səsi hər zaman əks olunur. Bəlkə də buna görə Qərb sənətinin və mədəniyyətinin türkmənlər arasında az yeri var. Bugünkü Türkmənistanda istifadə olunan dutar, çubuq, kötük və qopuz kimi alətlər Türkmən Səhra və Əfqanıstanın şimalında da çalınır. Bu üç bölgənin ləhcələrində və danışma tərzində bir az fərq olsa da, hamısının musiqi mədəniyyəti eynidir (1).

Türkmən musiqisi təsvir olunan bir musiqidir. Dinləyici bir məqamın hekayəsini bilirsə, oynayarkən hadisələri gözündə canlandıra bilir. Məsələn, Göytəpə İdarəsi rusların 1881-ci ildə Göytəpə qalasına necə hücum etdiyini və rusların Türkmənlərin vətənlərinin böyük bir hissəsini ələ keçirdiklərini təsvir edir. Həmin hissələrdə, hətta şir ürəkli türkmən qadınlarının özlərini necə müdafiə etmələri canlanır. Türkmən musiqisi türkmən tarixindən xəbəri olmayanlara o qədər də məna vermir. Türkmən musiqisi digər türk xalqlarının musiqisi ilə müqayisədə daha qəmli musiqidir. Çünki türkmənlər çox zaman düşmən hücumlarının, müharibələrin, qanların və təqiblərin şahidi olmuşlar. Türkmən musiqisi bu millətin tarixini və mədəniyyətini bir güzgü kimi əks etdirir.

Türkmən musiqi mədəniyyətində çox geniş yayılmış terminlərdən biri "Bahşi" sözüdür. Türkmən sazını çalanlar "Bahşi" adlanır. Bahşi sözünün mənası ilə bağlı müxtəlif rəvayətlər irəli sürülmüşdür. Uyğurlar dövründə Uyğur yazılarını oxuya bilən insanlara Bahşi deyilirdi. Bahşilər xalq arasında yazdıqları şeirləri oxuyur, onlara uyğun musiqi düzəldirlər və mərasimlərdə xalq mahnıları kimi təqdim edirdilər. Digər şairlərin yazdığı şeirləri xalqa çatdırmaq da Bahşilərin borcudur (1).

*Qırğız musiqisi:* Qırğızıstan musiqisi qonşu xalqların musiqi mədəniyyətindən özünəməxsus xüsusiyyətləri, ifadə vasitələrinin sadəliyi və sosial demokratik məzmunu ilə fərqlənir. Qədim qırğız mahnılarına kəndlilərin qurban kəsərkən söylədikləri mahnılar, Aydar Külün mahnıları, yəni küləyin dəvəti üçün - Cayı, yay quraqlığı zamanı yağışın dəvət olunması üçün - Çeçen və s. aiddir. Heyvanlarını dağlıq ərazilərdəki yırtıcılardan qorumaq üçün qızların tam ay gecələrində söylədikləri Bekbekey, yaşlı çobanların söylədikləri şən Şırıldan kimi mahnılar qırğız mədəniyyətinin ayrılmaz hissəsidir. Bunlardan başqa qırğızların Beşik İrı, Baldar İrı, Kızdar İrı və Cigitter İrı kimi bir çox mahnıları var. Bir alətlə çalınan qırğız xalq musiqiləri də əsrlər boyu inkişaf etmişdir (10).

Qədim dövrlərdə "Surnay", "Kerney" və "Dool" kimi nəfəs alətləri, "Dobulbas" kimi tanınan zərb aləti və bu musiqi alətlərinin müşayiəti ilə yaradılan orkestr xaqanların hərbi ekspedisiyalarında, böyük toy və şənliklərdə dinlənilirdi. Bununla birlikdə ən geniş yayılmış və qırğız millətinin simvolu sayılan musiqi aləti, əlbəttə ki, "Komuz"dur. Üç simli Komuzun digər alətlərdən fərqi Orta Asiyada əsrlər boyu geniş yayılmış yeganə üsul, pizzikatodır. Kopuz, Altay Türklərindən bəri Türklərin istifadə etdiyi musiqi alətidir. Dastan oxuyarkən qazi və bardın çaldığı bu alət türk ölkələrində tez-tez rast gəlinən bir alətdir. Bir növ sümüyə bənzəyən kopuz 3 və ya 3,5 metrdir. Əslində üç simli bir alət olan kopuza zamanla bəzi dəyişikliklər də edilmişdir.

*Özbək musiqisi:* Özbəkistan musiqisinin coğrafiyasını bu gün Özbəkistanla məhdudlaşdırmaq düzgün yanaşma olmazdı. Özbəkistandan başqa ənənəvi özbək musiqisinin sərhədləri Əfqanıstanın şərqinə, Tacikistanın, Qazaxıstanın, keçmiş Xorasan bölgəsinin, qismən Türkmənistanın və İranın şərqinə qədər uzanır.

Özbək mahnıları və instrumental melodiyalar iki cür olur:

1) müəyyən şəraitdə və ya müəyyən vaxtda ifa olunan musiqilər - bura ailə, mərasim, ovsun mahnıları, əmək və beşik mahnıları, kütləvi tamaşalar zamanı ifa olunan melodiyalar aiddir; 2) hər zaman və hər yerdə ifa olunan musiqilər - bura özbək mahnı janrları olan

terma, koşuk, lapar, yalla və aşula, həmçinin, müxtəlif instrumental pyeslər daxildir (14).

Ənənəvi özbək musiqisini müxtəlif kateqoriyalara ayıra bilərik. Bunlar klassik özbək musiqisi, makam musiqisi, xalq musiqisi və epik musiqidir. Əslində özbək xalq musiqisi haqqında danışmaq asan görünsə də, bu heç də asan deyil. Çünki özbək musiqisinin bir çox nümunələri Uyğur, Türkmən və Qazaxlarda da var. Ona görə bu musiqiləri bir birindən fərqləndirmək lazımdır. Özbək musiqisini Orta Asiyanın digər türk musiqilərindən fərqləndirən cəhət, daha çox nizamlı, ritmik və melodik quruluşa sahib olması, fərdilikdən uzaq olmasıdır. Klassik özbək makam musiqisinə xalq musiqisinin sıx təsiri müşahidə olunur. Özbək musiqisindəki şeşmakam adlanan altı əsas makam bunlardır: "Büzrük", "Rast", "Neva", "Dügah", "Segah" və "İraq" (14).

Özbəkistanın Xarəzm bölgəsi həm musiqi quruluşu, həm də ləhcəsi baxımından Azərbaycan və türkmən musiqisinə yaxındır. Özbəkistanda yaşayan qaraqalpaqların musiqisi də bu cürdür. Xəzər dənizinin şərqində yaşayan qaraqalpaqlar Azərbaycan və özbək mədəniyyətləri arasında ortaq nöqtədədir.

*Türk xalqlarının musiqi alətləri.* Yuxarıda türk xalqlarının istifadə etdiyi bir çox milli çalğı alətlərinin adlarını qısa şəkildə qeyd olundu. Bəzi alətlər var ki, bir çox türk xalqları bəzən eyni, bəzən də fərqli adlarla onlardan istifadə edirlər. Bu alətlərdən bəziləri haqqında məlumatları Azərbaycanın Beynəlxalq Muğam Mərkəzinin rəsmi internet səhifəsində yerləşdirilmiş materiallar (16) və digər mənbələr əsasında nəzərdən keçirək.



***Ud*** – dünya musiqi mədəniyyətinə ən vacib, ən zərif və ən maraqlı alət kimi daxil olan ud, əsasən, Ərəbistan, Türkiyə, İran və bir çox Şərq xalqları arasında geniş yayılmış mizrabla çalınan simli musiqi alətidir. Udun konstruksiyası tez-tez dəyişdirilərək zaman keçdikcə təkmilləşdirilmişdir. Müasir ud 6 simli musiqi alətidir. Bunlardan 5-i qoşa, 6-cı isə tək qoşulur. Simlərin düzülüşü və yerləşdirilməsi çox qəribədir: əvvəl orta melo-

dik, yəni musiqinin əsl havasını çalan simlər, yanlarında isə bəm simlər qoşulmuşdur (16).



***Tar*** - qədim tarixə malik olan çalğı alətlərinin əsasında yaranmış tar XIX əsrin ikinci yarısında tarzən Mirzə Sadıq Əsəd oğlu (Sadıqcan) tərəfindən təkmilləşdirilmişdir. Sadıqcan tarın əldə tutma qaydasını dəyişdi, onu diz üstündən sinəyə qaldırdı və simlərinin sayını 5-dən 11-ə qədər artırdı. Məhz Sadıqcanın təkmilləşdirdiyi tar bu gün Qafqazda, Orta Asiyada da geniş yayılmışdır.



***Kamança*** – Qədim Azərbaycan simli musiqi alətlərindən biridir. Kamança, əsasən, qoz ağacından düzəldilir. Kürəşəkilli çanaqdan, dairəvi qol, “aşıqlar” yerləşən kəllə hissədən və “şiş” adlanan dəmir mildən ibarətdir. Simləri kaman vasitəsilə səsləndirilir (15, s.14). Kaman – uclarına bir çəngə at tükü bağlanmış yay şəkilli ağac çubuqdur. Alətin ümumi uzunluğu 650-900 sm olur. Kamançadan həm solo, həm də ansaml tərkibində musiqi aləti kimi istifadə olunur. Kamança tar və qaval alətləri ilə birlikdə muğam üçlüyünü əmələ gətirir. İnstrumental muğamların kamançada solo ifası geniş yayılmışdır (16).



***Tənbur*** – 3 simli dartımlı musiqi alətidir. Zahiri görünüşü saz alətinə bənzəyir, lakin çanağı saza nisbətən daha xeyli kiçik, qolu isə sazınkından daha uzun olur. Tənburun 1-ci və 3-cü simi eyni yüksəklikdə, ortancıl simi isə bir kvarta aşağı köklənir. Simləri sağ əlin şəhadət barnağına taxılan polad halqa üzərindəki qarmaqla dartılaraq səsləndirilir. Tənburun mizrabı “naxunək” adlandırılır. Yaxın Şərq, Orta Asiya xalqlarıarasında geniş yayılmışdır. Azərbaycanda Şirvan tənburu istifadə olunur (16).



***Ney*** (fars dilində: qarşı, qamış) – ən qədim nəfəsli musiqi alətlərindəndir. Ağacdan, qamışdan ya da bürüncdən hazırlanır. Düz silindr şəklində 60-70 sm uzunluğunda lülədən ibarətdir. Ucunda heç bir çüstük, ya dilçək olmur. Yalnız lülənin aşağı tərəfində 3-6 dəlik açılır ki, bu da səslərin müxtəlif ucalıqda olmasını təmin edir. Neyin səsi olduqca məlahətli, zərif və təsirlidir. Onun xoş səsindən Xaqani, Nizami, Füzuli və başqa şairlərimizin əsərlərində vəsf edilmişdir (16).



***Çəng*** – üçbucaq şəklində simli dartımlı musiqi alətidir. Üst qolu at boyu tərzində hazırlanır və baş tərəfində gözəllik üçün iri ipək qopaz sallanır. Çəngə 24 sim qoşulmuş və bu simlər qoşa bağlandığında alətdən 12 müxtəlif səs əldə etmək mümkün olmuşdur. Yaranma tarixi çox qədimlərə gedib çıxır. Əsasən saray məclislərində istifadə olunan çəngin erkən növləri Misir sivilizasiyalarına aid edilir. Çəng böyük Azərbaycan şairləri Nizami və Füzulinin əsərlərində vəsf olunmuşdur (16).



***Çəganə*** - kamanla çalınan 4 simli çalğı alətidir. XIX əsrin sonlarına kimi Azərbaycan ərazisində mövcud olmuşdur. Müasir dövrdə bərpa olunaraq, qədim musiqi alətləri ansamblında istifadə olunur (16).



***Balaban***. Nəfəslə çalınan qədim Azərbaycan musiqi alətidir. Fındıq, tut, qoz, yaxud ərik ağacından hazırlanır. 28-30 sm uzunluqda silidrik gövdənin üzərində 9 dəlik (səkkiz dəlik öndə, biri arxa tərəfdə) olur. Gövdənin baş tərəfində qamışdan ikiqat dilçəkli yastı müstük taxılır. Ona görə də el arasında balabana “yastı balaban” deyilir. Müstüyün ortasındakı xərək vasitəsilə

alətin kökü dəyişdirilir. Balaban həm solo alət kimi, həm də xalq çalğı alətləri ansambllarında və orkestrlərində, aşıq ansambllarında müşayiətedici alət kimi istifadə olunur (16).

*Nəticə.* Elə bir xalq yoxdur ki, onun özünəməxsus musiqi mədəniyyəti olmasın. Araşdırmalardan da bu nəticəyə gəlmək olar ki, dünyada tarixin bütün mərhələlərində özünəməxsus musiqi mədəniyyəti ilə seçilən xalqlar sırasında türk xalqları hər zaman ən üst pillələrdə durmuşdur.

Özünəməxsus yüksək mədəniyyəti ilə seçilən türk xalqları hər zaman digər xalqların mədəniyyətinin bir çox sahələrinə öz təsirini göstərmişdir. Türk xalqları da tarixin müəyyən dönəmlərində qonşu xalqların musiqi mədəniyyətindən faydalanmışdır. Lakin bu təqlid deyil! Tarixin sonrakı mərhələlərində türk xalqları öz musiqi mədəniyyətini daha da inkişaf etdirərək formalaşdırmışdır.

Bu mövzunu araşdırmağımın əsas səbəbi müasir dövrdə bir çox ölkələrdə, eləcə də Azərbaycanda türk xalqlarının mədəniyyətinin geniş şəkildə öyrənilməməsidir. Araşdırmalar bu fikrin yanlış olmadığını bir daha təsdiqləyir. Düşünürəm ki, Azərbaycanda da bununla bağlı görülən işlərin sayı çoxalsa, türklərin qədim və müasir musiqi mədəniyyəti haqqında kitablar çap olunsa, türk xalqlarının milli çalğı alətlərindən ibarət muzeylər yaradılsa müasir Azərbaycan gənclərinin türk xalqlarının rəngarəng və zəngin musiqi mədəniyyəti haqqında məlumatları və bu sahəyə olan marağı artar.

Ən əsası isə, mənbələrdən də gördüyümüz kimi, bu fikri əminliklə deyə bilərik ki, türk musiqi mədəniyyəti türk xalqlarını bütün dünyada ən yüksək səviyyədə təmsil etmək gücünə malikdir! Eyni zamanda türk musiqisinin digər xalqların musiqi mədəniyyətindən əsas fərqi onun birbaşa bu xalqın milli dəyərlərindən, əsas səciyyəvi xüsusiyyətlərindən xəbər verir. Konfutsinin bu fikirləri də tam yerinə düşərdi: “Bir xalqın xarakterini bilmək istəyirsinizsə, onun muiqisini dinləyin”.

ƏDƏBİYYAT:

1. Abdurrahman Deveci. Türkmen musikisi // Türk Yurdu (E-Dergi), Mayıs 2011, Yıl: 100, Sayı: 285. Mənbə:

Mənbə: https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=1489 [Müraciət tarixi: 21.05.2020]
2. Ali Özdek. Türk müzik kültürünün oluşumuna öncülük eden bileşenlere genel bir bakış // "Batman Üniversitesi Yaşam Bilimleri" jurnalı, 2012, Cild 1, s.29-36 Mənbə: https://dergipark.org.tr/tr/pub/buyasambid/issue/29824/320851 [Müraciət tarixi: 21.05.2020]
3. Axundov İ. Azərbaycan Muğamları. Bakı, "Mürtəcim" nəşriyyatı, 2015, s.96.
4. Azərbaycan Milli Konservatoriyası // "Konservatoriya", Elmi nəşr №1 (31), Bakı, 2016. Mənbə: http://konservatoriya.az/lib/Konservatoriya%202016-1.pdf [Müraciət tarixi: 21.05.2020]
5. Burcu Bölücek. Sosyal Bilgiler Öğretiminde türkülerin yeri ve önemi // Türk Yurdu (E-Dergi), Ocak, 2010, Yıl: 99, Sayı: 269. Mənbə: https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=1843 [Müraciət tarixi: 21.05.2020]
6. Əhmədov Rüstəm. Türk xalqlarının tarixi (XIII - XX əsrin əvvəlləri). Sumqayıt, SDU, 2013, s.294.
7. F.Gülay Mirzaoğlu. Türkülerin işlevleri ve Zeybek türküleri // Türkbilig-2001/2, s.76-91. Mənbə: http://www.turkbilig.com/pdf/200102-294.pdf [Müraciət tarixi: 21.05.2020]
8. Gözde Tekin. Türkiye-Kazakistan ortak müzik etkileşimi projesi // Milli Folklor-Uluslararası Kültür Araşdırmaları jurnalı, 2014, Sayı-102, s.193-196. Mənbə: http://www.millifolklor.com/PdfViewer.aspx?Sayi=102&Sayfa=178 [Müraciət tarixi: 21.05.2020]
9. İbrahim Kafesoğlu. Türk Milli Kültürü. İstanbul, "Ötüken" Nəşriyyatı A.Ş., 1998, s.467. Mənbə: https://www.academia.edu/4754932/Turk_Milli_K%C3%BClt%C3%BCr%C3%BC_-_%C4%B0brahim_Kafeso%C4%9Flu [Müraciət tarixi: 21.05.2020]

10. Kırgızistan Müziği // "Kırgız Müzik Geleneği", 2008/11/11. Mənbə: http://omarkosger.blogcu.com/kirgiz-muzik-gelenegi/4395101 [Müraciət tarixi: 21.05.2020]
11. Mansurov Eldar. Muğam adlarının yaranması // "Qobustan" jurnalı, 04.06.2011. Mənbə: https://gulustan.info/2011/06/mugam-adlarinin-yaranmasi-haqqinda/ [Müraciət tarixi: 21.05.2020]
12. Muğam Ensiklopediyası. Heydər Əliyev Fondu. Bakı, "Musiqi dünyası" nəşriyyatı, 2008, s.215.
13. National Commission of the Respublic of Azerbaijan for UNESCO. Mənbə: http://www.unesco.az/?options=content&id=7 [Müraciət tarixi: 21.05.2020]
14. Özbek Halk Müziği / "Hər şeye dair": Türk Dünyası, Edebiyat, Sanat ve Kültür, 2008/11/12. Mənbə: http://omarkosger.blogcu.com/ozbek-halk-muzigi/4395125[Müraciət tarixi: 21.05.2020]
15. Rəcəbov O., Kazımov N., Qasımov R. Musiqi-9. Ümumtəhsil məktəbləri üçün dərslik. Bakı, "Təhsil" nəşriyyatı, 2016, s.128.
16. Musiqi alətləri / Beynəlxalq Muğam Mərkəzi, Azərbaycan, Bakı. Mənbə: http://www.mugamradio.az/content/11 [Müraciət tarixi: 21.05.2020]

**ASMAR SARKAROVA**
***Baku State University SABAH Groups***
***2nd year student of the specialty of History teacher***

## MUSİCAL CULTURE OF THE TURKİC PEOPLES

Each nation has its own musical culture and instruments. Especially the musical culture of the Turkic peoples has always been distinguished by its diversity and richness. During my research, I came to the conclusion that the musical culture of the Turkic peoples has significantly developed. Also, Turkish music culture has an important role in the formation of the musical culture of other nations. The main reason why Turkish music differs from the music of other nations is that it has a common spirit and is directly related to the history of the people. I think that in modern times the musical

culture of nations is not sufficiently studied. Therefore, I decided to study the musical culture of Turkic peoples such as Azerbaijanis, Turks, Turkmens, Kyrgyz, Uzbeks. Because music is a universal language that unites peoples and ensures their mutual understanding.

*Keywords:* Turkic peoples, music, culture, musical instruments, folk songs.

*Daxil olma tarixi*: 21.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94"19/..."

**FATİMƏ CARULLAZADƏ**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi***
**E-mail: fatima.carullzada@bsu.edu.az**

# II DÜNYA MÜHARİBƏSİNƏ FƏRQLİ RAKURSLARDAN BAXIŞ

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*I Dünya müharibəsinin sonunda imzalanan Versal sülh müqaviləsi özü ilə bərabər bir çox problemləri də gətirmişdir. Bu zaman ortaya çıxan iqtisadi böhran, yaranan siyasi vəziyyət özündən sonra baş verə biləcək yeni dünya müharibəsinin xəbərçisi idi. 30-cu illərdə yenidən silahlanmaya başlayan Almaniyanın 1939-cu ildə Polşanı işğal etməsi ilə II Dünya müharibəsi rəsmən başlanmış oldu. XX əsrin ən qanlı döyüşlərinin yaşandığı, ən yeni texnikaların istifadə olunduğu müharibədə 70 milyondan çox insan həyatını itirdi. Artıq II Dünya müharibəsinin bitməsindən 75 il keçir. Bu yubiley ilində faşizm üzərində qələbə ilə nəticələnmiş müharibə: onu törədən səbəblər, taktiki və strateji gedişlər, müharibənin səbəb olduğu fəlakətlər və s. məsələlər bir daha nəzərdən keçirilir, dərslər çıxarılmasına cəhd edilir. Bu baxımdan hazırki məqalədə də müharibənin başlanmasının ideoloji, iqtisadi, siyasi səbəblərinə, Ox dövlətlərinin (Axis powers) "ikili cəbhə" strategiyasına, əsaslı dönüşlərin yaranmasına səbəb olan nüanslara və s. məsələlərə toxunulmuşdur.*

*Açar sözlər*: II Dünya müharibəsi, Almaniya, SSRİ, İkili cəbhə strategiyası, Ox dövlətləril, "Der Lebensraum" layihəsi

*Giriş*. I dünya müharibəsindən sonra dünyanın bu yaşananlardan daha böyük bir müharibəyə girəcəyinə heç kim inanmazdı. Avropanın xəritəsini yenidən müəyyənləşdirən Versal sülh müqaviləsi özü ilə birlikdə yeni böhranlar və problemlər də gətirmiş oldu. Siyasi, iq-

tisadi və ideoloji cəhətdən təzyiqlərə məruz qalan Almaniya sülh müqaviləsinin şərtlərinin ədalətsiz olduğunu hesab edirdi. Almaniyaya 132 milyard qızıl və 30 milyon dollar təzminat tətbiq edilmişdi ki, bu da müqayisədə, Almaniyanın müharibədən əvvəlki dövrdəki gəlirlərindən iki dəfə çox idi. Almaniya üçün ən dəhşətli olan isə müharibənin səbəbkarı olaraq yalnız onun günahlandırılması idi ki, o da özünə görə haqlı səbəblərinin olduğunu hesab edirdi. Belə ki, müharibə savaşan bloklar arasında tərəflərdən birinin qalibiyyəti, digərinin məğlubiyyəti ilə deyil, atəşkəslə sonlandırılmış və ordu əlində silahla geri dönmüşdü.

*II Dünya müharibəsinin səbəbləri haqqında.* II Dünya müharibəsinin başlanma səbəblərini analiz edə bilməyimiz üçün ilk əvvəl iki müharibə arasındakı zaman kəsimində yaranan sosial-iqtisadi, siyasi vəziyyətə diqqət yetirməyi lazımlı hesab edirik və bunu müəyyən rəqəmlərə aydınlıq gətirməklə edəcəyik. Belə ki, rəqəmlərin araşdırmalar zamanı bir çox məsələlərə aydınlıq gətirilməsində mühüm faktiki mənbə olmaqla, xüsusi əhəmiyyətə malik olması şübhəsizdir. Səbəblərdən danışarkən, ilk olaraq ideoloji, daha sonra siyasi, iqtisadi səbəblərdən bəhs etməyin doğru olacağını hesab edirik.

<u>İdeoloji səbəblər.</u> Avropada elmin, mədəniyyətin, texnologiyaların meydana çıxmasında və inkişafında əsas rol oynayan ölkələrdən biri olan Almaniyada nasizmin meydana çıxması hər zaman böyük maraq doğuran mözvulardan biri olmuşdur. Mübarizə əhval-ruhiyyəsinin artmasına təkan verən ən başlıca ünsürlərdən biri də ideoloji səbəblər olmuşdur (7, s.138-140). I Dünya müharibəsindən keçən qısa bir müddət ərzində nifrət dolu beyinlərdə tədricən, amma qəti şəkildə mübarizə planları hazırlanırdı. Müharibənin günahkarı kimi qələmə verilmələrini, bütün dünyadan özünə alçaldıcı baxışları görən və Versal müqaviləsinin məhvedici şərtlərindən qurtarmağın yollarını axtaran alman xalqı xilaskar axtarışında idi. Belə bir şəraitdə Adolf Hitler təbliğat yolu ilə verdiyi müxtəlif vədlərlə xalqın güvənini qazana bildi (5, s.313). Alman-faşist işğal siyasətinin formalarından biri əhalinin milli əlamətə görə bölünməsi idi. A.Hitlerin müharibəyə başdan-

sonadək ideloji cəhətdən yanaşmasına onun həm ən böyük uğuru, həm də məğlubiyyətinin səbəblərindən biri kimi baxa bilərik.

Siyasi, iqtisadi səbəblər.1929-cu ildə baş vermiş Dünya iqtisadi böhranı (Böyük depressiya) xüsusilə Avropa ölkələrinin iqtisadiyyatını çökdürmüşdü. Avropa ölkələrinin çoxu 1920-1929-cu illər ərzində I Dünya müharibəsinin səbəb olduğu dağıntıları aradan qaldırmağa çalışırdılar. I Dünya müharibəsinin gətirdiyi siyasi disbalans nəticəsində ixracat azalmış, idxalat artmışdı, müharibəyə cəkilən xərclər dövlətlərin ümumi vəziyyətini olduqca ağırlaşdırmışdı. I Dünya müharibəsinin nəticəsi olaraq dəyərləndirilən 1929-1933-cü illər Dünya iqtisadi böhranını, eyni zamanda II Dünya müharibəsinin səbəblərindən biri də hesab etmək olar (2, s.103).

Bu səbəb nasizmin yüksəlişində də əsas amillərdən biri oldu. Belə ki, 1929-cu il də Almaniyada 1600000 işsiz var idisə, bu rəqəm Wall streetin çökməsindən sonra sürətlə artaraq 1933-cü ildə 6 milyona çıxdı. 1933-1935-ci ilin sonlarına qədər olan gizlin silahlanma 30-cu illərin sonlarına doğru sürətlənərək 8 ildə alman ordusunun yenidən inşasına 14 milyon dollar xərcləndi (7, s.221). Versal sülhünə görə saxlanmasına icazə verilmiş 100.000 piyadanın sayı, 1938-ci ilin sonlarında 600.000-ə çatmışdı. Rəqəmlər bizə sadəcə müqayisə üçün lazım deyil, onlar həmçinin dövlətlərin siyasi düşüncəsini anlamağa da kömək edir.

1935-ci ildə Mussolinin başçılığı altında İtaliyanın Efiopiyanı, 1937-də Yaponiyanın Mancuriyanı işğal etməsi və buna böyük dövlətlərin, eyni zamanda da Millətlər Cəmiyyətinin münasibəti, ya da münasibətsizliyi, nasistlərdə öz güclərinə böyük inam qazandırmış oldu. Hitlerin almandilli dövlətləri bir bayraq altına yığmaq məqsədi daşıyan planında ilk hədəf Avstriya, sonrakı hədəf isə Çexoslovakiya idi. Çexoslovakiya eyni zamanda sənaye baxımından da nasistlər üçün xüsusi önəmə malik idi. Beləliklə, 1938-ci ildə "Anşlyüz" başlandı. Almaniyanın bu hərəkətləri cavabsız qaldı. Hətta 30 sentyabr 1938-ci ildə keçirilmiş Münhen sülh konfransında I Dünya müharibəsindən qalib çıxsalar da çox yorulmuş, müharibənin nəticələrini hələ də aradan qaldıra bilməmiş İngiltərə və Fransa "sülhü qorumaq"

istəklərini əsas gətirərək, “bir başqa Avropa torpağına iddia etməmək şərti ilə” Çexoslovakiyanın Sudet vilayətinin Almaniyaya verilməsi ilə razılaşdılar (13, s.1-6). Lakin Almaniya bununla kifayətlənmədi və 6 ay sonra, Hitler Çexoslovakiyanın işğalını tamamladı. Alman dəniz qüvvətlərinin lideri Admiral Ercih Raederin Hitlerə müharibəyə 1943-də girərlərsə böyük müvəffəqiyyət qazanacaqlarını bildirsə də, Hitler İngiltərənin Polşaya hücum etməyəcəklərindən tam əmin olduğunu əsas gətirərək, planlarını dəyişdirmədi (14).

Bir sonrakı hədəfi Polşa olan Hitler Böyük Britaniyanın və Fransanın müdaxilə etməyəcəyindən o qədər əmin idi ki, öz hesablamalarına görə, 1943-cü ilədək onu durdura biləcək güc olmayacağını hesab edirdi. Lakin bununla bərabər, hərəkətə keçməzdən əvvəl şərqdən gələ biləcək Sovet təhlükəsinin qarşısını almalı idi. 1939-cu il 23 avqustda Almaniya ilə SSRİ arasında imzalanmış 10 il müddətinə hücum etməmək haqda Molotov-Ribbentrop paktı ilə şərq cəbhəsinin təhlükəsizliyini təmin etmiş olan Hitler, “saatın əks istiqaməti”ni prioritet seçərək növbə ilə Polşa, Danimarka, Norveç, Hollandiya, Belçika, Fransa, Britaniya, Afrika, Yuqoslaviya, Yunanıstan və ən sonda SSRİ-yə hücum planını həyata keçirməyə başladı (3, s.157). Lakin təbii-coğrafi şəraiti, mövcud vəziyyəti tam nəzərə almadan tərtib edilən planlar müharibənin gedişində bir sıra problemlərin meydana çıxmasına səbəb oldu. Almaniya, İtaliya və Yaponiyadan ibarət Ox dövlətlərinin (Axis powers) seçmiş olduqları yalnız ideologiyaya əsaslanan strategiya ilə hələ mübarizənin əvvəlindən öz sonlarını hazırlamış olduqlarını deyə bilərik.

*Böyük dönüşləri yaradan əsas faktorlar*. II Dünya müharibəsinin rəsmi olaraq 1939-1945-ci illərdə baş verdiyi qəbul edilsə də, əslində münaqişənin 1937-ci ildə Yaponiyanın Mancuriyanı işğalı ilə başlağını da hesab etmək olar. 1945-ci ildə Yaponiyanın “Missuri” xətt gəmisində müqavilə imzalaması ilə başa çatan bu münaqişə “8 illik müharibə” də adlandırılır. Ox dövlətləri (Axis powers) müharibəyə böyük avantaj və müvəffəqiyyətlərlə başlasalar da, SSRİ-Almaniya cəbhəsində 1942-ci ildə Stalinqrad döyüşü ilə başlayıb,1943-cü ildə Kursk döyüşü ilə başa çatan Müttəfiqlərin (Allies) lehinə əsaslı

dönüş nəticəsində bu üstünlüyü sonadək əllərində saxlaya bilmədilər. Qəti dönüşün yaranmasına əsas səbəblər kimi əsasən coğrafi şərait, ABŞ-ın müharibəyə qatılması, sənaye ehtiyacları götürülür ki, ən az bunun qədər mühərəbini istiqamətləndirən digər nüansları da qeyd edə bilərik:

- ✓ İkili cəbhə vəziyyəti və Ox dövlətləri arasında anlaşmazlıqlar;
- ✓ Hərbi strategiyada fikir ayrılıqları;
- ✓ Ideloji mübarizənin gətirdiyi dezavantajlar.

Avropanın mərkəzində yerləşməsi Almanyanı iki cəbhəli müharibə riski ilə qarşı-qarşıya qoyurdu. Rusiya imperatorluğu və Fransa arasında qalan Almaniya XIX əsrin ikinci yarısında Otto Fon Bismarkın tək cəbhəli müharibə yönümlü siyasəti nəticəsində siyasi birliyini tamamlayaraq böyük bir güc halına gəlməyi bacarmışdı (6). Hər iki dünya müharibəsində Almaniyanın "iki cəbhəli müharibə" strategiyasi onun üçün mənfi nəticələnmişdir. Almaniyada nasist rejiminə müxalif olan generallar da Hitlerin siyasi düşüşünün baş verməsini Alman geopolitikasının ənənəvi problemi olan ikili cəbhə strategiyası ilə əlaqələndirirdilər. II Dünya müharibəsinin başlanması ərəfəsində Avropanın tamamının müharibəyə qatılmış olması, burada sülhün avrasiyalı tək güc olan Rusiyanın iştirakı olmadan mümkün olmayacağı ilə bağlı fikirlərin yaranmasına səbəb oldu. "Avropa coğrafiyasının başı Britaniya və Fransa idisə, onurğa sümüyü də Rusiya idi". Bu baxımdan, Hitler iki cəbhə arasında qalmamaq üçün 1939-cü il avqustun 23-də SSRİ ilə 10 il müddətinə hücum etməmək haqda müqavilə imzalayır və nəticə olaraq, müharibə ərəfəsindəki son iki il ərzində Mərkəzi Avropadakı bütün təbii və insan ehtiyatlarını öz əlində cəmləyə bilir. Başqa sözlə, Hitler iki cəbhədə savaşdan "Rusiya ilə ittifaqa girərək, saatın əks istiqamətində hərəkət etməklə" qurtarmağı bacarır.

Hitlerin ən böyük arzusu olan "Lebensraum" layihəsini, yəni Şərqə doğru genişlənmə planını həyata keçirməsi üçün qərb cəbhəsindəki əməliyyatlarda tam qələbə qazanması şərt idi (3, s.160). "Der Lebensraum" – "yaşayış sahəsi" deməkdir. Alman etnoloqu, sosiolo-

qu və coğrafiyaşünaslı Fridrix Ratselin geosiyasi baxışlarına görə, xalqın sağ qalması üçün torpaq sahəsini genişləndirməsi vacibdir. Bu fikri əsas götürərək, Hitler Almaniyanın Şərqə doğru genişlənməsi planını hazırlamışdı. İngiltərənin varlığı şərqdə Sovetlərə açılacaq cəbhəyə qarşı böyük bir təhdid idi. Almanların işğallar nəticəsində Avropada əldə etdiyi təbii ehtiyatlarla ordusunu gücləndirməyə davam etdiyi bir müddətdə, 1939-1940-cı illərdə Finlandiya ilə müharibədə əldə etdiyi "pun qələbəsi" nəticəsində SSRİ də ordusunun yenidən inşasına başlamışdı. Bu hadisələri izləyən Hitler Avropanın mərkəzinə və qərbinə sahib olmanın verdiyi avanatajdan istifadə edərək Sovet gücünün böyüməsini önləmək düşüncəsində idi (6). Lakin İngiltərəyə köməyini əsirgəməyən ABŞ-ın müharibəyə girməsi ilə Almanların iki cəbhə arasında qalması problemi yarana bilərdi.




*Mənbə: Fauke Friederichs. Der Traum vom Lebensraum im Osten / Kanal "Zeit und Geschichte", 06.08.2016 https://www.piqd.de/zeitgeschichte/der-traum-vom-lebenraum-im-osten [06.06.2020]*

SSRİ üzərinə hücuma hazırlaşan Hitler, Yaponiyanın yardımı ilə SSRİ-ni "iki cəbhəli müharibə"yə cəlb etmək istəyirdi. Lakin Almaniyanın planı Yaponiyanın bu strategiyadan uzaqlaşması ilə pozuldu. Belə ki, ABŞ və SSRİ arasında iki cəbhə arasında qalmaq istəməyən Yaponiya 1940-cı ilin aprelində SSRİ ilə "bitərəflik haqda müqavilə" imzaladığı. Bu, əslində müttəfiqi olan Yaponiyanı gücləndirdiyi baxımından, Almaniyanın da lehinə olan bir addım idi. Belə

ki, Almaniya ABŞ-ın İngiltərəyə yardım edə bilməməsi üçün, Yaponiyanın ABŞ-la münasibətlərində gərginliyin, həmçinin Cənub-Şərqi Asiyada İngiltərənin iştirakına təhdidlərini artırmasının tərəfdarı idi. Bundan əlavə, Almaniya SSRİ-ni müharibədən kənarda qoymaq üçün 1941-ci il 1 iyulda Yapon ordusuna Vladivostoku işğal edərək irəliləməsi və Transsibir dəmiryolu üzərində onunla görüşməsini təklif etdi, lakin Yaponiya bu təklifi qəbul etmədi. Səbəblərdən biri, 1937-ci ildən Yaponiyanın quru qüvvələri Çinin işğalını həyata keçirirdi, digəri isə Yaponiya Almaniyanın SSRİ ilə müharibədə "sürətli qələbəsinə" inanmırdı (3, s.173).

Belə hesab olunur ki, II Dünya müharibəsində iki cəbhəli savaş xətasına düşən Almaniya deyil, Yaponiya olmuşdur. Belə ki, Sakit Okeanda müharibə 1937-ci ildə Yaponiyanın Çinə hücumu ilə başlamışdı və 1941-ci ilin dekabr ayında Perl Harborda ABŞ-a hücum edərkən, Yaponiya özü özünü iki cəbhə arasında qoymuş oldu. Belə ki, müharibəyə cəlb edilmiş ABŞ qalan donanması və hava qüvvələrinin dəstəyi ilə hərbi qüvvələrinin bir hissəsi artıq Çin ərazisində olan Yaponyanı Çin və Sakit Okean arasında iki cəbhə arasında qoymuş oldu. Bu xəta ümumilikdə Avropadakı müharibənin də Ox dövlətlərinin əleyhinə (iki cəbhədə savaşa) dönməsinə səbəb oldu, ABŞ-in İngiltərəyə dəstəyi daha da artırdı, həmçinin Fransa ərazisində ikinci cəbhənin açılacağı "Overland planı"nın önşərtləri formalaşdırdı ki, bu da faktiki olaraq Almaniyanın şərq cəbhəsinə ayırmağı planlaşdırdığı qaynaqların bölünməsi demək idi. Bundan sonra Almaniyanın Yaponiyaya münaisbətində də dəyişikliklər özünü göstərməyə başlayır.

Müharibədən sonrakı dövr araşdırmaçılarının fikirlərinə görə, SSRİ-yə hücumun nasistlərin strateji səhvlərindən biri olduğu hesab olunsa da, məsələyə digər tərəfdən yanaşsaq, həmin dövrdə Almaniyanın bunu önləyici bir addım hesab etdiyini görmək mümkündür. Belə ki, SSRİ sürətlə silahlanırdı və 1942-ci ilə qədər bu yeniləmələri tamamlamağı düşünürdü. Hitlerə görə, SSRİ Almaniyanın İngiltərə ilə mübarizəsinin nəticəsini gözləməkdə idi və bu mübarizədə zəifləyəcək Almaniya üzərində qələbə qazanmağa ümid edirdi. Belə bir

ehtimalın qarşısını almaq istəyən Hitler, SSRİ-yə qarşı önləyici hücum planlar həyata keçirməyə çalışırdı (3, s.172-175).

Almaniya 1939-cu ildə "İldirim sürətli müharibə" üçün lazım olan mexanikləşdirilmiş bir orduya sahib deyildi və ordunun böyük bir qismi süvarilərdən ibarət idi. Belə ki, 157 ordu bölüyündən sadəcə 16-sının tam mexaniki bölüyü vardı (14; 9, s.29). Hitlerin hərbi-strateji səhvləri Alman generalları ilə onun arasında fikir ayrılıqlarının yaranmasına səbəb olurdu ki, bu da öz növbəsində müharibənin gedişində Almaniyanın əleyhinə dönüşün yaranmasına təsir edən əsas amil oldu. Britaniya ilə döyüş müharibənin taleyini müəyyən edəcək döyüşlərdən biri idi. Bismarkın Rusiya siyasətinin tərəfdarı olan E.Raeder SSRİ-yə hücum edilməmişdən öncə İngiltərənin işinin tamamilə bitirilməsinin vacibliyini bildirmişdi. Dəniz döyüşləri zamanı coğrafi vəziyyətinə görə Britaniyanın Amerikanın dəstəyi olmadan faşistlərə müqavimət göstərməsi imkansız idi. Həm hərbi texniki vəsait, həm də qida məhsullarının böyük bir qismi Britaniyaya Atlantik okeanı vasitəsi ilə daşınırdı. Almaniya bu dəstəyin qarşısını ala bilsəydi, İngiltərənin tam məğlubiyyətinə nail ola bilərdi (6, s.83; 3, s.178).

I Dünya müharibəsində olduğu kimi II Dünya müharibəsində də U-Botların (sualtı gəmilərin) mübarizənin nəticələrinə böyük təsiri olmuşdur. 1940-cı ildə hələ Britaniya ilə döyüşün əvvələrində Admiral Karl Donits hər ay 600.000 tonluq müttəfiq karqolarının batırılmalı olduğunu hesablayaraq, Hitlerdən 300 U-Botdan ibarət bir donanma istəsə də, onun ixtiyarına sadəcə 43 U-Bot verildi. (14, s.68). Adolf Hitler U-Botların müharibədə əhəmiyyətinə anlaya bilməmiş və bütün diqqətini "Barobarossa" planının hazırlıqlarına yönəltmişdi. Halbuki Almaniya öz gücü ilə bunları çox rahatlıqla istehsal edə bilərdi. Əgər bu detala dəniz döyüşlərinin əvvəlində diqqət yetirilsəydi, müharibənin istiqaməti başqa yönə gedə bilərdi. Xüsusən də nəzərə alınsa ki, hətta az sayda sualtı gəmilərlə əvvəldə uğur qazanmaq mümkün olmuşdu. Alman donanmasının batırdığı gəmilərin 70 faizi U-Botların payına düşürdü. Müharibənin ilk ilində Britaniya karqolarının dörddə birini batırmış və beləliklə Britaniya qırılma nöqtəsinə

çatmışdı. U-Botlar enigma* tərəfindən yönləndirilirdilər. 1941-də Bletçi parkda yerləşən kod və şifrə qırma məkəzində Alan Turinqin icad etdiyi "bombe" aləti sayəsində bu kodlar qırıldı və bundan sonra 1.2 milyon ton karqo gəmisi istiqamətini dəyişdirdi (15, s.142). A.Türinqin icadı dövrünün texnologiyasını çox geridə qoymuşdu. 1942-ci ildə Enigma yenidən güclədirilərək U-Botlara istiqamət verməsi nəticəsində il ərzində səkkiz milyon ton karqonun və 1662 gəminin sonuna çıxacaqdı. Lakin A.Turinq bu kodlarıda qırmağı bacardı. Artıq U-Botların uğursuzluğunu görən K.Donets 24 may 1943-də öz donanmasına geri çəkilməyi əmr etdi və bununla da almanlar müharibənin əvvəlində kiçik bir strateji səhv ilə Atlantik döyüşündə böyük bir avantaji əllərindən vermiş oldular.

1941-ci ildə SSRİ-yə üç istiqamətdə hücum edən ordu Mərkəzi qüvvənin dəstəyi ilə Moskvanı ələ keçirməli idi. Alman generalları Barbarossa planının həyata keçməsinin əsas şərtinin Moskvanın alınması olaraq görsələrdə, Hitler bütün diqqətini Qafqaz neftinə vermişdi. Hitlerin əmri ilə Panzer tank ordularının rəhbəri H.Guderianın cənub cəbhəsinə göndərilməsi ilə məğlubiyyətin bir addımlığında olan Sovetlər Moskvanın müdafiəsini qoruya bilmişdilər. Məhz buraxılan bu səhv dönüşün açar hissəsi idi (10, s.18-30; 14).

Stalinqrad döyüşündə ağır məğlubiyyətə uğradılan faşistlər, Kursk üzərindən böyük miqyaslı hücuma hazırlaşmağa başladılar. E.V.Mainstain "İldırım sürətli" əməliyyatın nəticə verməsi üçün aprel ayında hücuma keçməyi irəli sürsə də, Hitler bölgəyə böyük miqyasda Panzer tanklarını yığmaq fikri döyüşün başlanmasını ləngitdi. Ləngimələr nəticəsində vaxt əldə edərək güclənməsi və müharibə planları haqqında gizli məlumatların sızdırılması nəticəsində SSRİ böyük bir avantaja sahib oldu. Kursk döyüşündən sonra hətta H.Guderian da SSRİ-nin strateji üstünlüyü ələ keçirdiyini etiraf etdi (10, s.34-37). Almanlar Kursk döyüşündə daha böyük məğlubiyyətə

* *Enigma maşınları - diplomatik və hərbi rabitəni qorumaq üçün XX əsrin ortalarına qədər istifadə olunmuş və inkişf etdirilmiş elektromexaniki rotor şifrələyici maşınlar seriyası.*

uğradıldılar və bundan sonra şərq cəbhəsində müdafiə mövqeyinə çəkilməli oldular. Beləliklə, II Dünya müharibəsinin ən qanlı döyüşü olan Kursk döyüşü ilə müharibənin gedişində əsaslı dönüş başa çatmış oldu.

Ideoloji mübarizə. Əvvəldə də qeyd etdiyimiz kimi, Hitlerin müharibəyə başdan-sonadək ideloji cəhətdən yanaşmasını onun həm ən böyük uğuru, həm də ən böyük məğlubiyyəti adlandıra bilərik. Milli məsələ alman faşizminin ideologiyasında ilk günlərdən mühüm yer tuturdu. Müstəsna hüquqlara yalnız alman millətinin malik olması müddəasının əsas yer tutduğu ifrat millətçilik, işğal edilmiş ərazilərdə millətlərarası münasibətlərdəki problemin həllinə münasibətdə nasistlərin riyakar yanaşmasına səbəb olmuşdur. Nasistlərin iqtidara gəlmələri ilə yəhudilərə, qaraçılara, sosial demokratlara, komministlərə, əlillərə, homoseksuallara qarşı başlanılan güclü təqiblər irəliləyən zamanlarda böyük bir soyqırıma çevrildi. SSRİ-nin ərazisinin bir hissəsini işğal etdikdən sonra nasistlər müxtəlif millətlərin nümayəndələri arasında nifaq yaymağa çalışırdılar. Bu bir tərəfdən, işğalçılara qarşı müqavimətin zəifləməsi, digər tərəfdən yerli əhalinin bir hissəsinin fiziki cəhətdən məhv edilməsi məqsədi ilə həyata keçirilirdi. Bütün bunlar, faşistlərin fikrincə, yaradılacaq "Böyük Almaniyanın" "yaşağış sahəsinin" (Der Lebensraum arzu edilməyən milli elementdən azad olmasına imkan yaratmalı idi. Mədəni Avropanın millətin təmizliyi üçün növbəti "səlib yürüşünün" zirvəsi 1942-ci ildə SS-in təbliğat-təşviqat idarəsinin nəşr etdiyi "Untermenş" kitabçası oldu. Bu irqçi kitabça şərqdə bütün xalqlara qarşı nifrətin qızışdırılmasına yönəldilmişdi (16, s.267).

Hərbi vəziyyətin SSRİ-nin xeyrinə əsaslı şəkildə dəyişməsinin səbəbi olaraq əsarət altına alınmış xalqlarla bağlı nasistlərin insanlığa zidd irqçilik və soyqırım ideologiyasına qarşı, SSRİ sözdə də olsa, milli müstəqillik, həmrəylik və xalqların dostluğu, ədalət, humanizm kimi ümumbəşəri ideyaları qoyurdu. SSRİ, məhz xalqlarının millətlərarası birliyinin möhkəmləndirilməsi istiqamətində yürüdülən siyasi xətt nəticəsində Sovet Ordusuna bütün millətlərin vətəndaşlarının çağrılmasını və cəbhədə onların ümumi Vətən üçün vuruşmasını tə-

min etmiş oldu. Baxmayaraq ki, SSRİ-də bu prinsiplərin həyata keçirilməsi praktiki olaraq idealdan xeyli uzaq idi, həmin pafos xaricdəki demokratik ictimaiyyətin də SSRİ-yə qarşı rəğbətinin güclənməsinə zəmin yaradır və faşizmlə mübarizədə onun yardımının genişlənməsini təmin edirdi.

*Nəticə.* II dünya müharibəsində 70 milyondan çox əsgər və dinc əhali öldürülmüşdür ki, bunların da 2/3-si dinc əhalinin payına düşürdü (15). Lakin bu rəqəmlər də dəqiq deyil. Belə ki, o zaman bir çox insanın yaşayış yerində qeydiyyatı aparılmadığından, öldürülənlərin dəqiq sayını hesablamaq da mümkün deyil. Müharibə sonrası yaranan vəziyyət və xəstəliklər nəticəsində ölülərin ümumi sayı 80 milyona yaxınlaşmışdı. İkinci dünya müharibəsinin bitməsindən 75 il keçməsinə baxmayaraq, onun izləri bu günədək davam etməkdədir.

Bunlardan biri müharibə illərində alınmış borclar və təzminat məsələsidir. İngiltərə müharibədə aldığı borcların ən son kreditini 2006-cı ildə ödəmişdir. İki dünya müharibəsinin məğlubu sayılan Almaniya da illərdir bu müharibələrin borcları və təzminatlarını ödəməkdədir. Sadəcə I Dünya müharibəsinin borcunun son kreditini 2010-cu ildə ödəyən Almaniya, II Dünya müharibəsinin həm borc, həm də təzminatını ödəməkdə davam edir. Günümüzdə bir neçə Avropa dövləti Almaniyadan yeni təzminat istəkləri irəli sürmüşdür. Məsələn, Yunanıstan 2017-ci ildə 290 milyard avro tələb etmiş, 2019-cü ildə Polşa Almaniyadan daha 720 milyard avro tələb edəcəyini bildirmişdir (17).

Ümumilikdə müharibələr ölkələrin iqtisadiyyatını alt-üst edən hadisələrdir. Lakin bu dağıntılar, can və mal itkisi ilə bərabər II Dünya müharibəsi həm də elm və texnika sahəsində bir çox kəşflərə də təkan vermiş oldu. Bu müharibəni eyni zamanda V1, V2 raketlərinin, Me-109-G6-ların, ilk müasir vertolyot olan F1-185-lərin, Jet-Me-262-lərin, panzer, "Pələng" tipli tanklarının ilk sınaq meydanı da adlandıra bilərik. Müharibə bitdikdən sonra Almanların ən güclü beyinlərini ələ keçirmək uğrunda SSRİ ilə mübarizəyə girən Amerika, "paperclip" hərəkatı nəticəsində müxtəlif sahələrdən alman alimlərinin Amerikaya gətirilməsinə nail oldu. Bunlardan biri də V1 və V2

raketlərinin ixtiraçısı olan E.V.Braun idi ki, gələcəkdə məhz bu raketlərin əsasında Aya gedən ilk raket - "Saturn V" hazırlandı. Həmçinin ingilis riyaziyyatçısı və kriptoqrafı olan Alan Turingin Enigmanın kodunun oxunması məqsədilə yaratdığı "Bombe" (Christopher) adlı elektron-mexaniki maşın ilə müasir kompüter elminin əsaslarını qoymuş olduğu hesab edilir.

Son olaraq qeyd edək ki, II Dünya müharibəsi bəşər tarixinin ən qanlı müharibəsi olmaqla bərabər, həm də özündən sonrakı bir çox tarixi hadisələrin axarını müəyyənləşdirən hadisə olmuşdur. Müharibənin ən mühüm yekunu faşizm üzərində qələbə olmuşdur. Bunun ardınca, beynəlxalq münasibətlər sistemində beynəlxalq təşkilatların yaranması ilə müəyyən qədər liberallaşma, eynu zamanda dünya sosialist sisteminin yaranması ilə soyuq müharibəyə keçid, Asiya və Afrikanın bir çox müstəmləkə dövlətlərinin müstəqillik əldə etməsi, elm və texnologiyalar sahəsində bir çox kəşflər və s. bu kimi təzadlı hadisələr bir-birini əvəz etməyə başlamışdır. Bu gün, müharibənin başa çatmasından 75 il keçməsinə baxmayaraq, hələ də müharibənin səbəbləri, gedişi, qalibiyyət və digər məsələlər araşdırılır, hadisələrə yeni rakurslardan baxılmasına cəhd edilir. Təəssüf ki, bu araşdırmalar hər dəfə faktlara və dəlillərə əsaslanmır, bir çox hallarda elmi yanaşma deyil, konyuktur yanaşma nümayiş etdirilir. Hesab edirik ki, hadisələrə elmi yanaşma hər zaman prioritet olmalıdır və məqaləmizdə də məsələləri bu yöndən dəyərləndirməyə cəhd edilmişdir.

ƏDƏBİYYAT:

1. Adolf Hitler. Mein Kampf. London-New York-Melbourne, Hurst and Blackett LTD, 1939, p.525. Mənbə: https://onemorelibrary.com/index.php/en/?option=com_djclassifieds&format=raw&view=download&task=download&fid=16908 [Müraciət tarixi: 20.05.2020]
2. Barış Özdal. 1929 Büyük Bunalım'ın Gelişimi // Tarix və onun problemləri, №4 2014, s.98-103. Mənbə: http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2014%20

%204/seh.98-103%20barish%20ozdal.pdf [Müraciət tarixi: 20.05.2020]
3. Burak Çinar. İkinci Dünya Savaşı'nda Almanya'nın İki Cepheli Savaş Sorunu // Güvenlik Stratejileri, Yıl:2014, Cilt:10, Sayı:20, s.149-197. Mənbə: https://docplayer.biz.tr/259398-Ikinci-dunya-savasi-nda-almanya-nin-iki-cepheli-savas-sorunu.html [Müraciət tarixi: 20.05.2020]
4. Christopher Catherwood. World War II. London, One world publications, 2014, p.205. Mənbə: https://oneworld publications.com/media/preview_files/9781780745107.pdf [Müraciət tarixi: 20.05.2020]
5. Czerwińska-Schupp Ewa, Maciej Żurowski. The Spectre of Fascism. In: Otto Bauer (1881-1938). Thinker and Politician. Historical Materialism Book Series, Vol.121. Leiden; Boston, Brill, 2017, p.295-350. Mənbə: https://www.jstor.org/stable/pdf/10.1163/j.ctt1w76v3b.14.pdf?refreqid=excelsior%3Aa078ec9a72b4675504ed00e3b6c9848f [Müraciət tarixi: 20.05.2020]
6. David C. Gompert, Hans Binnendijk, Bonny Lin. Hitler's Decision to Invade the USSR, 1941. İn: Blinders, Blunders, and Wars: What America and China Can Learn. RAND Corporation, 2014, p.81-91. Mənbə: https://www.jstor.org/stable/pdf/10.7249/j.ctt1287m9t.14.pdf?refreqid=excelsior%3Aaf33e5917b7b22313c086f014f5dd1e2 [Müraciət tarixi: 20.05.2020]
7. Dutt R. Palme. Fascism and Social Revolution. Calcutta, National book agency (p) ltd, 1946, p.350. Mənbə: https://archive.org/details/in.ernet.dli.2015.135965/page/n5/mode/2up?q=unemployed [Müraciət tarixi: 20.05.2020]
8. G.Deborin. Secrets Of The Second World War. Moscow, Progress publishers, 1971, p.310. Mənbə: https://archive.org/details/DeborinSecretsOfTheSecondWorldWarProgress1971/page/n1/mode/2up [Müraciət tarixi: 20.05.2020]

9. Harding David P. Heinz Guderian As the Agent of Change: His Significant Impact on the Development of German Armored Forces Between the World Wars // Army History, Summer 1994, No.31, p.26-34. Mənbə: https://www.jstor.org/stable/pdf/26304190.pdf?refreqid=excelsior%3A48a0c5013570f8a965cfce42b010c166 [Müraciət tarixi: 20.05.2020]
10.Judge Sean M. Who Has the Puck? Strategic Initiative in Modern, Conventional War. Air University Press, 2009, p.11-54. Mənbə: https://www.jstor.org/stable/pdf/resrep13942.8.pdf?refreqid=excelsior%3Ace57092b5701ad89b2e6e944a1304102 [Müraciət tarixi: 20.05.2020]
11. Kenney George C. General Kenney Reports: A Personal History Of The Pacific War. New York, Duell, Sloan and Pearce, 1949, p.612. Mənbə: https://archive.org/details/GeneralKenneyReports/page/n1/mode/2up [Müraciət tarixi: 20.05.2020]
12. Knegt Daniel. Facing a Fascist Europe: 1939-1943. In: Fascism, Liberalism and Europeanism in the Political Thought of Bertrand De Jouvenel and Alfred Fabre-Luce. Amsterdam University Press, 2017, p.95-158. Mənbə: https://www.jstor.org/stable/pdf/j.ctt1zkjzhc.8.pdf?refreqid=excelsior%3A48240ac80cf04d0e3a1c7d1eba9019bc [Müraciət tarixi: 20.05.2020]
13. Mędykowski Witold Wojciech. The War against Poland and the Beginning of German Economic Policy in the Occupied Territory. In: Macht Arbeit Frei?: German Economic Policy and Forced Labor of Jews in the General Government, 1939-1943. Brighton, Academic Studies Press, 2018, p.1-17. Mənbə: https://www.jstor.org/stable/pdf/j.ctv75d8v5.5.pdf?refreqid=excelsior%3Abbfe190379116643b2b26e50c67ba189 [Müraciət tarixi: 20.05.2020]
14. Kenneth Macksey. Why the Germans Lose at War. London, Greenhill Books, 2006, p.137. s.240

15. Peter Doyle. World War II in numbers. UK, A&C Black Publisher, 2013, s.223
16. Rovşən Hətəmov. SSRİ-nin işğal olunmuş ərazilərində nasistlərin milli siyasəti // Tarix və onun problemləri, №3 2013, s.265-271. Mənbə: http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2013%20%20%202/seh.265-271.pdf [Müraciət tarixi: 20.05.2020]
17.Nick Squires. Greece repeats claim for war reparations from Germany during Merkel visit to Athens // The Telegraph, 11 January 2019. Mənbə: https://www.telegraph.co.uk/news/2019/01/11/greece-repeats-claim-war-reparations-germany-merkel-visit-athens/ [Müraciət tarixi: 20.05.2020]

**FATIMA JARULLAZADA**
***Baku State University SABAH Groups***
***3rd years student of the speciality of History teacher***

## WORLD WAR II FROM DIFFERENT ANGLES

The Treaty of Versailles that was signed after World War I, brought many problems with it. Great depression and political situation which appeared at this time was the messenger of the second world war. World War II officially began with occupating of Poland by Germany in 1939, which began re-armed again in the 1930s. More than 50 million people lost their lives in the bloodiest wars of the 20th century where the latest technology had been used. At last 75 years passed from the end of World War II. The article touches on the economic and political reasons for the outbreak of the war, the dual front strategy of the Axis powers, and the nuances that led to fundamental changes.

*Keywords*: World War II, Germany, USSR, Dual Front Strategy, Axis powers, “Der Lebensraum” project.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 7(4/9)

**FƏXRƏNDƏ MƏMMƏDOVA**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: fexrendem19113@sabah.edu.az**

# DÜNYANIN MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏN BİRİ - OSMANLI İMPERİYASI

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Səidə Quliyeva
Bakı Dövlət Universiteti




*Dünya mədəniyyətinin inkişafına öz töhfəsini vermiş Osmanlı mədəniyyəti araşdırılması vacib olan əsas mövzulardandır. Osmanlı mədəniyyəti deyildikdə ilk ağla gələn öz unikallığı ilə seçilən Osmanlı ədəbiyyatı, hal-hazırda da öz möhtəşəmliyini qoruyan Osmanlı memarlığı və uzun bir tarixi dövr ərzində sadəliyi və eyni zamanda zənginliyi ilə seçilən Osmanlı geyimləridir. Bu geyimlər uzun müddət Avropa səyahətçilərinin əsərlərində başlıca mövzulardan biri olmuş və onların hər biri Osmanlı geyim tərzinə fərqli münasibət bəsləmişlər.*

*Açar sözlər:* Osmanlı mədəniyyəti, Memar Sinan, ədəbiyyat, Yunis Əmrə, Səlimiyyə məscidi, kaftan, kadife

*Giriş*. Bir dövləti qibtə ediləcək bir dövlət edən həm də onun mədəniyyətidir. Yaxın Şərq mədəniyyətinin, həmçinin dünya mədəniyyətinin inkişafında türk mədəniyyətinin xüsusi rolu və əhəmiyyəti var. Türk mədəniyyəti çox qədim tarixə malikdir. Osmanlı ərazisində tapılan maddi mədəniyyət nümunələri təkcə Türkiyədə deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da məşhurdur. Dövlət qurmaq,

həm də 625 il dünyada söz sahibi olmaq, 3 qitəyə hökm etmək təsadüflərin nəticəsi deyil. Mövcud olduğu tarixi dövrdə Osmanlı imperiyası özünəxas memarlıq üslubu, ədəbiyyatı və geyim tərzi ilə bir çox dövlətin diqqət mərkəzində olmuşdur. Məqalədə bu məsələlərin təhlilinə xüsusi əhəmiyyət verilmişdir.

*Osmanlı dövrü Anadolu türk ədəbiyyatı və onun xarakterik xüsusiyyətləri.* Bəyliklər dövründə Anadolunun müxtəlif bölgələrində mədəniyyət mərkəzləri təşəkkül etmiş, xalq mədəniyyətinin inkişafı özünü aydın göstərmiş, müəlliflər türk dilində əsərlər yazmışlar. XIII əsrlə müqayisədə XIV əsrdən əsərlərin yazılması xeyli artmış, mövzu və növ zənginliyi gözə çarpmışdır. Bu əsrdən etibarən divanlar yazıya alınmış, xüsusilə məsnəvi sahəsində yazılan əsərlər bu dövrün ədəbi həyatına canlılıq gətirmişdir. Yunis Əmrənin 1307-ci ildə yazdığı 562 beytdən ibarət "Risalitün-Nüshiyyə" əsəri əsrin ilk məsnəvisi olmuşdur. Dini məsnəvilər elmi və ədəbi məsnəvələrə nisbətən çoxluq təşkil etmişdir. Bundan başqa bu dövrdə "Maktəli-Hüseyn", "Fəlahnamə", "Təbiatnamə", "Xurşidnamə" və "İsgəndərnamə" kimi məsnəvilər də xüsusi yer tutmuşdur (12). Bu əsrdən etibarən türkçülük şüuru özünü göstərməyə başlamışdır.

XV əsrin başlanğıcında Ankara savaşı Anadolu siyasi birliyini gecikdirdiyi kimi, mədəniyyətdə də tənəzzülə səbəb olmuşdur. Bu dövrün xarakterik xüsusiyyətləri məsnəvilər yazılması, nəsr əsərləri və divanların çoxalması, milliliyə əhəmiyyət verilərək Osmanlı tarixinin yazılmağa başlanmasıdır. XV əsrdə də dini məsnəvilər çoxluq təşkil edirdi. Bunların başında Əhmədinin və Süleyman Çələbinin "Mövlud"u gəlir. Sultan II Muradın dövrünə qədər 20-dən çox məsnəvi yazıya alınmışdır. "Yusif və Züleyxa", "Qiyafətnamə", "Tuhfətül-uşşaq", "Leyla və Məcnun" və "Mövlud" adlı əsərlərdən ibarət meydana gələn xəmsə sahibi Ağşəmsəddinzadə Həmdullah Həmdi məsnəvi yazanların başında yer almaqda idi. Bu dövrdə XII əsrdə yaranmış təsəvvüf ədəbiyyatına aid əsərlərin yazılması çoxluq təşkil edirdi. İslamiyyətin mənimsənilməsindən sonra inkişaf edən bütün ədəbiyyat tərzləri üçün İslam dünyagörüşü əsas olmuş, Təkkə və təsəvvüf ədəbiyyatına aid əsərlər özünəməxsus yer tutmuşdur. Öz için-

də ayrıca təriqət və zümrə tərzlərinə ayrılan Təkkə-təsəvvüf ədəbiyyatı XII yüzillikdə Türküstanda yaşamış və ilk türk təriqəti yəsəviliyin qurucusu olan Əhməd Yəsəvinin “Divani-Hikmət” adlı əsəri ilə başlamışdır (4). Əhməd Yəsəvi Türküstan ellərində doğan bir türk günəşidir. Ərəb və fars dillərini bilməyən köçəri və oturaq türklər arasında İslam dininin bəzən təhrif olunmuş şəkildə təbliğini nəzərə alan Xoca Əhməd Yəsəvi xalqa dini və onun mahiyyətini sadə xalq dilində təbliğ etməyə başladı. “Divani-hikmət” əsərində dinindən, rəngindən, irqindən asılı olmayaraq, bütün insanlara Allah tərəfindən yaradılmışların hamısına bir sevgi və məhəbbət təbliğ edilir. Onun bu fikirləri Yunus Əmrənin “Yaradılanı sev, əməllərinlə, yaşadığın həyatınla ona Haqqa gedən yolu göstər” düşüncəsi ilə vəhdət təşkil edir (9, s.52).

Sultan II Muradın dövründən etibarən mədəniyyət və elmi sahəsində canlılıq yaranmışdır. Dövlətin yaranmasından bəri görülən bütün mədəni fəaliyyətlərin onun dövrünə təsadüf etməsi bunu bir daha sübut edir. Təzkirələrdən alınan məlumata görə, Osmanlı sultanları arasında ilk şeir söyləyən də elə məhz II Murad olmuşdur. Onun dövründə yazılan məsnəvilərin əsas mövzusunu dini, məhəbbət, tarixi, əxlaqi və əfsanəvi, nəsihətamiz, ensiklopedik məsnəvilər təşkil edir (12). Bəyliklər dövründən XVI əsrə qədər demək olar ki, getdikcə inkişaf edən Osmanlı ədəbiyyatında şeir məcmuələri çoxluq təşkil edirdisə, bu əsrdən etibarən təzkirələr yazılmağa başlanmışdır. Osmanlı təzkirəçiləri özlərinə nümunə olaraq “Dövlətşah” və “Nəvai” təzkirələrini seçmişlər və bu klassik tərzin izləyicisi olmuşlar. Bu əsrin təzkirəçilərinin başında divan sahibi olan Sehi “Həşt-Behişt” adlı təzkirəsi ilə ilk sırada yer tutmuşdur. Lətfinin “Lətifi” təzkirəsi, Aşıq Çələbinin “Məsair-üş-şüarası”, Xınalızadə Həsən Çələbinin “Təzkirət-üş-şüarası”, Gelibolu Əli Əfəndinin “Künhul-Anbar” adlı əsərinin son hissəsi “Əhdini-Gülşəni-şüara” bu əsrdə yazılan təzkirələrin başında yer tumaqdadır (12).

XVII əsrin təkkə ədəbiyyatının əsas nümayəndələri Adəm Dədə, Əziz Mahmud Hüdai və Niyazi Misri idi. Bu şairlərin hamısı bir təriqətə mənsub idi və övliyanın böyüklərindən idilər. Onlar öz əsərlərində tərbiyəvi, əxlaqi fikirlərə üstünlük vermiş və təsirli şeirlər söy-

ləmişlər. Osmanlı saz şeirləri isə XVII əsrdə olduqca çoxalmışdır. Saz şairləri arasında başda gələni Qaracaoğlandır. O, şeirlərində ictimai məsələlər, adət-ənənələrlə yanaşı təsvir və məcazlardan da geniş istifadə etmişdir. Gövhəri və aşıq Ömər dövrün xalq şairləridir. Gövhəri dövrün sosial məsələlərinə və cəmiyyət mübahisələrinə çox maraq göstərməmiş, məhəbbət mövzusunda yazdığı şeirləri ilə tanınmışdır. Aşıq Ömər isə müxtəlif döyüşlərə qoşulmuş və bunun nəticəsi olaraq Rusiya, Avstriya və Venesiya hərblərinə aid mənzumələr yazmışdır. Onun şeirlərinə nəzirələr söylənmişdir (12).

XVIII əsrdə Osmanlı ədəbiyyatı dövlətin xarici və daxili sarsıntılarına baxmayaraq qüvvət və qüdrətindən heç nə itirməmişdi. Osmanlı-Türk ədəbiyyatının bu əsrdəki ən tanınmış nümayəndəsi türk divan ədəbiyyatının son nümayəndəsi Şeyx Qalibdir. Onun tarixi mənzumələrindən başqa divanı və "Hüsnü eşq" adlı bir məsnəvisi var. Bu əsrdə səyahət ədəbiyyatında səfarətnamələr meydana çıxdı. Adından göründüüü kimi bu əsərlərin müəllifləri xarici ölkələrdə fəaliyyət göstərmişlər. Çələbi Məhəmməd Əfəndi "Səfarət naməyi Fransa" adlı əsəriylə bu sahədə ön plana çıxır. Əhməd Rəsmi əfəndi (1700-1738) də "Prussiya səfarətnaməsi" əsərini sadə, rəngarəng və real şəkildə yazıya almışdır (12).

XIX əsr Osmanlı ədəbiyyatı bir çox çətinliklərlə qarşılaşsa da, öz qüdrətini artırmaqda davam etmişdir. Bu əsrdə qəzet nəşri dövrə başqa bir istiqamət verirdi. İlk qəzet 1840-cı ildə Villiam tərəfindən nəşr edilmişdir. Bunun ardınca Şinasi və Ağa Əfəndi tərəfindən "Təsviri Əfkar" adlı bir qəzet nəşr olundu. Xalq ədəbiyyatı tarixi və dini ənənələrini bu əsrdə də davam etdirdi. Klassik xalq poeziyasını davam etdirən şairlərin olmasına baxmayaraq əruz vəznində yazılmış qəzəllər, divanlar və müsəddəslər də söylənmişdir. Hətta şeirlərində divan ədəbiyyatı şeirinin dilindən və məzmunundan istifadə edən şairlər də var idi. Mövzuya görə, Krım, Sevastopol kimi ruslarla müharibələrdən tutmuş, Nizip müharibəsinə qədər bütün daxili və xarici hadisələr xalq poeziyasında öz əksini tapmışdır (12). Əsrin ikinci yarısından etibarən bütün sahələrdə olduğu kimi Osmanlı-Türk ədəbiyyatı da qərb təsirinə məruz qalmışdır.

*Osmanlı imperiyasında geyim mədəniyyəti.* Müxtəlif cəmiyyətlərdə və geyim tarixində istifadə olunan geyimlərin dəyişməsi sivilizasiyaların inkişaf prosesi ilə müəyyənləşdirilir. Geyimlər ümumilikdə şəxsi fikirləri və mədəni dəyərləri əks etdirsə də, bəzi cəmiyyətlərdə sabit və bəzən də geyimlərin mədəni dəyişkənliklərdə ən üstün olan mədəniyyətlərin təsiri altında qalır. Hər bir cəmiyyətin özünəməxsus geyim-keçim anlayışı var. Osmanlıda türklərin geyim mədəniyyəti iki min illik keçmişi olan, Mərkəzi Asiyanın şimalında yaşamış türklərin köçəri atalarının geyim mədəniyyətinə əsaslanır. Osmanlıdakı geyimlər cəmiyyət həyatının ifadəsi idi, paltarın parçası olduğu kimi, rəngi də bir məna daşıyırdı və geyinənin cəmiyyətə aid olduğu səviyyəsini əks etdirirdi. Sarayda geyinilən forma, biçim və rəngdə geyimlər geyinilməsi xalqa qadağan edilmişdir. Mərasimdə və səfərdə geyinilən paltarlar günlük geyimlərdən fərqli idi. Geyim haqqında səyahətçilərin topladığı məlumatlar və səyyahların xatirə yazıları əhəmiyyətli məlumatlar verir.





Osmanlı imperiyasında Avstriya səfiri olan Ogier Ghiselin De Busbenc (Ogiher Ghiselin De Busbenk) (1554-1562) müşahidələrini yoldaşına yazdığı məktublarda qeyd edirdi: Türklər fəlakəti xatırlatdığı üçün qaranı sevmirlər və daha çox yaşıl rəngi seçim edirlər. Bundan başqa başları sarıqlı böyük bir kütləyə baxıldığında, dümağ ipək parçalara bürünmüş, bir rəng canlılığı yaşadığını və o zamana

qədər belə bir mənzərəni görmədiyini etiraf etdikdən sonra bu qədər zəngin və göz alıcı görünüşdə belə bir sadəlik və həssaslıq olduğu diqqət çəkmişdir. Ən üst və ən alt təbəqədəki məmura qədər dərhal hər kəsin eyni şəkildə paltar geyindikləri, türklərin paltarlarının boyunun topuğa qədər uzun olduğunu, bunun da onları uzun boylu göstərdiyini, özlərinin isə paltara hesabsız pul xərclədiyini göstərmişdir. (1, s.144). Tho.MC.Leon adlı bir ingilis 1818-ci ildə Londonda "Türk əsgər geyimi" haqqında yazdığı əsərində xüsusilə bunları qeyd etmişdir: "Türkləri gözəl bir xalq adlandırmaq olar. Hündür boylu olanlar xeyli dərəcədə zəriflik sahibidirlər. Təmkinli və ruhlu simaları vardır. Başlarına möhtəşəm bir sarıq bağlayardılar və bu sarıqlarda qiymətli parçalardan istifadə olunardı" (1, s.146).

Osmanlı dövründə kişilərin gündəlik həyatında altda şalvar, üstdə köynək və ya daxili əntarisi üzərinə qısa kaftan (xalat) pencək tərzində və ya uzun kaftanlar geyinərdilər (2, s.231). Kaftan Osmanlı imperiyasında nüfuzun göstəricisi hesab olunurdu (7, s.254). Osmanlı saray həyatının imtina edilməz parçası olan "hilat" kaftan padşahın başda sədrəzəm olmaqla dövlət vəzifəlilərinə və daha alt təbəqədə (addımda) olanlara rütbə aldıqları üçün bir işə təyin ediləndə, ya da etdikləri işin bəyənildiyini göstərmək üçün geydirdiyi qiymətli parçadan və ya kürkdən hazırlanmış geyimlərdir. İstanbulda bu işdə ixtisaslaşmış olan və yalnızca sultanın hesabına çalışan 105 dərzi tərəfindən hazırlanmaqda idi.

Qadınların geyimi şalvar, çəpkən, ayaqqabı və baş geyimlərindən ibarət idi. Geyimlər səyahətdə və döyüşdə dəridən, gündəlik həyatlarında isə parçadan tikilirdi. Küçəyə çıxan qadınlar geyimlərini çarşaf və ya fermene ilə tamamlayırdı. Fermene toz çəhrayı, hava mavisi, açıq yaşıl kimi uçuq rəngdə hazırlanan bol bir geyimdir. Üzlərini də yaşmaq deyilən bir örtük ilə örtərdilər. Osmanlı dövlətində geyim bir qadının cəmiyyətdə hansı millətdən olduğunun göstəricisi idi. Durand De Fontmagne bu haqqda məlumat verərkən söyləmişdir ki,"şərqdə bir qadının hansı millətdən olduğunu başa düşmək üçün üzünü örtüb-örtməməsinə baxmaq kifayətdir. Rumlar ilə firənglərin üzü açıq, yəhudilərlə ermənilərin bir hissəsi qapalı, türklərin isə

üzləri bağlı, yalnız gözləri görünür (14, s.80). Lakin bu fikirlərlə yanaşı Osmanlı dövründə qadınların geyiminə mənfi münasibət göstərən səyahətçilər də olmuşdur. Bunlardan biri Hornbydir. Hornby türk qadınının dəyər qazanmasının tək yolunun gözəlliyi olduğunu, bundan başqa heç nədən xəbəri olmayan "acınılası bir yaratıq" olduğuna dair fikirlər söyləmişdir (14, s.81).

Fatih Sultan Mehmedin hakimiyyəti dövründə əsgərlərin və dövlət qulluqçularının öz ünvanlarına (yerinə) əsasən geyinməyə başlaması, Qanuni Sultan Süleyman tərəfindən də həyata keçirilmiş və digər sultanlar tərəfindən də davam etdirilmişdir. Beləliklə, geyim tərzləri ilə bir iyearxik nizam yaratmışdır.

XVIII və XIX yüzilliklərdə yaşanmış ictimai hadisələr Osmanlı geyim anlayışına əhəmiyyətli dərəcədə təsir etmişdir. Tənzimat elanı ilə xalq sərbəst və ictimai həyata meyl göstərmiş və qadına verilən hüquqlar sayəsində Osmanlı qadınının geyimində də əhəmiyyətli dəyişiklik etmişdir. Bu dövrdən istifadə edilməyə başlayan sintetik boyalar sayəsində rəng və nümunələrdə artım olmuş və dövrün qadınlarının geyimi zənginləşmişdir. Eyni zamanda, xristian əhali arasında Osmanlı geyimlərinin təqlid olunması faktına da rast gəlinir. XVIII əsrdə Osmanlı ictimai həyatına dair vacib məlumatların yer aldığı "Osmanlı imperiyasının ümumi rəsm əsərləri" (Tableau General de I'Empire Ottoman) adlı əsərində Dohsson, ölkədəki xristian qadınların, xüsusilə rumların türk tərzindən təsirləndiyi, onlar kimi qırmızı, ağ rəngləri istifadə etdiyini qeyd etmişdir (11, s.255). Hətta bu səbəbdən müsəlmanlarla xristianların eyni geyinməsini qadağan edən fərmanlar da verilmişdir. Xəlil İnalcıkın verdiyi məlumata görə, qərb XVIII yüzillikdən sonra bəyənilən, təqlid olunan bir mədəniyyət olmuşdur. Osmanlı dövlətində Avropa modasını ilk bəyənən və təqlid edən sarayın müsəlman qadınları olmuşdur. Bu mərhələdən etibarən ölkənin iqtisadi vəziyyəti geriləmiş,dövlət məmurları və zənginlər arasında bahalı paltar geyinmək yarışı sultanın diqqətindən yayınmamışdır. Bu vəziyyət xarici ölkələrdən gətirilən məhsulların azaldılması və yerli məhsulların istifadəsinin artırılması ilə bağlı qərarlar verilməsinə gətirib çıxarmışdır. Bunu III Səlimin sədrəzəmə göndər-

diyi məktub da sübut edir. Məktubda yazılmışdır: "Mən daim İstanbuldaki, Ankaradakı parçalardan geyinirəm, dövlət məmurlarım isə hələ də Hindistan və İrandaki parçadan geyinirlər. Əgər onlar da dövlətin istehsal etdiyi parçalardan geyinsələr, ölkəmizin iqtisadi vəziyyəti inkişaf edər" (5, s.5).

III Səlimin yenilikçi düşüncələrini mənimsəyərək hərbi və ictimai sahələrdə bir sıra islahatlar keçirən II Mahmudun hakimiyyət illərində ənənəvi Osmanlı tərzinin bir qədər dəyişdiyi aydın görünür. İstanbula gələn səyyahlar bu dəyişimi bir az fərqli bir ifadə ilə vurğulayırlar. Yüz illərdir Avropalıların düşüncəsində qorxulu olduğu qədər görkəmli və zəngin geyimləriylə də yer alan Osmanlı ordusunun müasirləşməsi və xüsusilə 1829-cu ildən sonra adi vətəndaşların geyim tərzində edilən dəyişiklik, sarıq və qaftan yerinə şalvar, pencək və fəs geyinilməsi qərbin gözündə şərq obrazını bir qədər zədələmişdir.

*Osmanlı memarlığı.* Bu tarixi dövrün ən aparıcı və inkişaf prosesi keçirən sənət sahələrindən başlıcası memarlıq hesab olunurdu. Xüsusilə, dini memarlıqda məscid tikililəri öz möhtəşəmliyi ilə bu sənətdə yeni-yeni uğurlarla müşahidə edilməkdə idi. Dini memarlığın bir növünü kvadrat və ya düzbucaqlı açıq həyətlərin kiçik gümbəzlərlə bağlanan bir və ya ikimərtəbəli qalereyaları olan mədrəsələr təşkil edirdi. Çox vaxt onlar məscidlərlə vahid kompleksdə tikilirdi. Qalereyaların daxili ümumi eyvana çıxan kiçik otaqlar – hücrələrdən ibarət olurdu ki, burada da softalar, yəni mədrəsə şagirdləri yaşayırdı. İlk belə mədrəsələrdən biri XIV əsrin I yarısına aid olan Süleyman paşa mədrəsəsidir (İznik). Osmanlı memarlığının inkişaf mərhələsi Ədirnə Şərəfəli məscid (1447) ilə başlayır. İstanbulun fəthi və Memar Sinan dövründən əvvəl müxtəlif düşüncə və seçimləri ortaya qoyan bu binada gələcəyin inkişaf hədəfləri aydın görünürdü (15, s.53).

Türk incəsənətinin gələcək inkişafına imkan yaradan başlıca amillərdən biri Bizans bədii mədəniyyətinin mərkəzi olan Konstantinopolun 1453-cü il mayın 29-da II Mehmet tərəfindən fəthi hadisəsi oldu. Dağıdılmış binaların bərpasına xüsüsi diqqət yetirildi. Bir çox Konstantinopol məbəd və kilsələri Qəhriyyə, Fəxriyyə, Zeyrək adlı

məscidlərə çevrildi (3, s.223). Artıq İstanbul şəhəri paytaxt olmaqla yanaşı, həm də öz tarixi abidələri ilə gözəlliklər, incəsənət mərkəzinə çevrilmişdi. Belə bir gözəlliyin ən böyük nümunəsi isə, dünya şöhrətli müqəddəs Sofiya məbədidir. Tikili bir neçə dəfə dağıntı və talana məruz qalmışdır. İlk dəfə Mehmet atı ilə Mehraba gələrək müsəlman ibadətini-duasını icra etmişdi. Sultan abidəyə müraciətlə "Aya, Sofiya" deməklə artıq öz köhnə adının yeni formasının əsasını qoymuş oldu. Bu gün həmin abidəni daha möhtəşəm edən elə həmin illərdə ona edilən yeni memarlıq əlavələri oldu; belə ki, məbədin dörd küncünə hündür əzəmətli minarələr tikilərək mozayka naxışlandı, gümbəzdəki xaçın isə İslam rəmzi olan aypara ilə əvəz olundu (3, s.223).

Qərbin "ekzotik şərq"ə olan marağı təxminən 400 il ərzində Osmanlı imperiyasının idarəçilik mərkəzi və sultanların yaşayış evi olan Topqapı sarayı haqqında çox rəngli bir ədəbiyyatın yaranmasına yol açmışdır. Pillars of Monarcy-da (monarxiyanın sütunları) sitat gətirilən bir XVII əsr atalar sözündə "zənginlik axtarırsansa Hindistana get, elm və savad axtarırsansa Avropaya get, lakin saray görkəmi axtarırsansa Osmanlıya gəl" kimi fikirlər göstərilmişdir (6, s.9). Elə bu atalar sözünün bariz nümunəsini Topqapı sarayında görmək mümkündür. Mixail Kritobulusun verdiyi məlumata görə Topqapı sarayının inşasında nüfuzlu mütəxəssislərdən istifadə olunmuşdur. Bu saray birinci həyət, Salamlama qapısı, ikincihəyət, hərəmxana, divanxana, ədalət qülləsi, xəzinə, Səadət darvazası, saray mətbəxləri, imperiya axurları, zülüflü baltaçılar koğuşu, üçüncü həyət, ərz otağı, Fateh köşkü, III Əhməd kitabxanası, ağalar məscidi, 4-cü həyət, İrəvan köşkü, Bağdat köşkü, başlala qülləsi və həkimbaşı otağı, böyük köşk, sofa məscidi, Topqapı muzeyi və s. kimi hissələrdən ibarət idi.

Osmanlı memarlığının görkəmli nümayəndəsi memar Sinan hesab edilirdi. Milliyətcə yunan olan memar Sinanın layihələri əsasında Osmanlı dövlətində 91 kilsə və 50 kiçik məscid, 55 mədrəsə, 19 mavzoley, 17 imarət, 3 xəstəxana, 8 körpü, 17 karvansaray, 32 saray, 33 hamam tikilmişdi (3, s.226). Bunların əksəriyyətinin inşası ilə memar özü məşğul olmuşdur. Onların sırasında dünyaşöhrətli abidələrdən üçünün – Şahzadə, İstanbulda Haliçi və Boğazı görə bilən bir tə-

pədə yüksəldilmiş Süleymaniyyə məscidi və Ədirnədə bütün görkəmi ilə şəhərin hər yerindən görünə bilən Səlimiyyə məscidlərinin adlarını qeyd etmək vacibdir. Bu abidələrin oxşarlığı ilk baxımdan nəzərə çarpır: gümbəzin kub formasında olan tikili, nazik şəkildə minarələr, fasad ətrafında geniş meydan, saysız tağlar, sütun, oyuqlar memar Sinanın yaradıcılığının başlıca xüsusiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Memarın ilk əsəri olan Şahzadənin tikintisi 1548-ci ildə İstanbulda sona yetmişdir. Həmin məscidin çox kədərli tikilmə tarixi mövcuddur: I Süleyman arvadı Raksolananın intriqalarına uyaraq iki oğlunun ölümünə səbəb olur. Hərəkətindən peşman olan Süleyman hər iki oğlunun şərəfinə Şahzadə məscidini tikdirir (3, s.226). Bu məsciddən sonra Sinan yaradıcılığının digər əsəri ilə – Süleymaniyyə məscidi (1550-1557) inşa edilmişdir. Məscidin gec ərsəyə gəlməsindən yorulan I Süleyman bir vaxt onun tikintisinin dayandırılması haqda əmr vermək qərarına gəlir. Bu faktı qeyd edən XVII əsrin türk tarixçisi və coğrafiyaşünası Övliya Çələbi qeyd edir ki, bu xəbəri eşidən Səfəvi şahı Təhmasib onun səfirliyinə zəngin hədiyyə və qiymətli daş-qaşla dolu bağlama ilə məktub göndərərək yazmışdır ki, "çalış ki, başladığın işi sona yetirəsən. Mən də bu xeyirxah işdə üzərimə düşən haqqı ödəyirəm" (3, s.226). Hədiyyə və daş-qaşlardan hiddətlənən Süleyman hədiyyələri İstanbul tacirlərinə, daş-qaşı isə memar Sinana verərək onların məscidin tikintisi zamanı digər daşlara qatmağı əmr edir. Memar Sinan bu daş-qaşdan minarələrin tikintisində istifadə edir. Şahzadə məscidinin prototipi olan Süleymaniyyə zahirən ona oxşasa da, özünüməxsus cəhətləri ilə fərqlənir. Məscidin bəzək tərtibatında sənətkar və rəssamlar iştirak etmişdir: məşhur kalliqraf Həsən Qara-Hissər Qurandan yazılar işləmiş, usta Sərxoş İbrahim isə, göy qurşağı rənglərindən vitraj yaratmışdır. Memar Sinan Şahzadə məscidini şagirdlik təcrübəsinin, Süleymaniyyəni erkən ustalığa başladığı çağın nümunəsi hesab edirdisə, Səlimiyyə məscidini yaradıcılığının layiqli nümunəsi sayırdı. 1569-1575-ci illərdə tikilən bu məscid Ədirnənin ən baxımlı abidələrindəndir (3, s.226).

XVI-XVII əsrin əvvəllərində mavzoleylərin (məqbərə) memarlığında sərdabələrin ölçüsü böyüdülmüş, gümbəzləri yarımsferik for-

ma, tikilinin silueti nisbətən zərif forma əldə etdi. Belə mavzoleylərdən biri 1559-1560-cı illərdə Sinan tərəfindən tikilən sultan Süleymanın məqbərəsidir. Bu vaxta qədər bir çox tanınmış insanların sərdabələrinin müəllifi öz təcrübəsini məhz bu məqbərədə məqsədyönlü şəkildə tətbiq edə bilmişdi. Məqbərəyə zəngin naxışlarla tərtibat verilmişdir. Məqbərənin interyeri öz gözəlliyi ilə adamı heyran edir. Gümbəz mürəkkəb həndəsi və nəbati naxışlarla bəzədilərək bir-birinə sarınmış toru xatırladır. Yalnız diqqətlə nəzər yetirdikdə, buradakı naxışların ayrı-ayrı elementlərini görmək olur. Qara və ağ mərmərdən düzülmüş tac sırası və onları özündə saxlayan cilalaşmış mərmərdən 49 sayda sütun xüsusi bir möhtəşəmlik yaradır. Divarda haşiyə ilə tamamlanan kaşıdan hazırlanmış panno və onun göy rəngli fonunda Qurandan ağ hərflərlə yazılmış ayə diqqəti cəlb edir. Zalın mərkəzində sultan və onun övladlarının sərdabələri lələk və ipək parçalardan bəzədilmiş və üzərində dini məzmun kəsb edən qızılı yazıdan ibarət əmmamələr yerləşir (3, s.226).

XVIII əsr Osmanlı dövləti və eyni zamanda İstanbul üçün mürəkkəb olduğu qədər köklü dəyişikliklərlə yadda qalan bir dövr idi. Lalə dövründə qərb üslubunu daha yaxşı başa düşmək üçün Avropaya elçilər göndərilmiş, sənətə böyük əhəmiyyət verilmiş, yeni layihələrə başlanılmış, ilk dəfə kağız zavodu və mətbəə qurulmuşdu. Qeyd etmək yerinə düşər ki, Osmanlıların mətbəəsi Sait Çələbi və İbrahim Müteferrika tərəfindən 1729-cu ildə, demək olar ki, mətbəətin kəşfindən 279, İstanbulda açılan ilk mətbəədən 236 il sonra qurulmuşdur. Bu da Osmanlı imperiyası üçün əsas çatışmazlıqlardan biri idi 13, s.28). Aydın Nasuh Paşa Kompleksi (1708), Afyon Yeni Məscidi (Hacı Bakıroğulları) Kompleksi (1711), Şanlıurfa Rizvaniyə Kompleksi (1717), Ərzurum Gömrük (Hacı Dərviş) Kompleksi (1717), Qaziantep Hüseyn Paşa Kompleksi (1719) və Nevşehir Damat İbrahim Paşa Kompleksi (1727) Lalə Dövründə Anadoluda, dövrün qabaqcıl simalarının bayrağı altında inşa edilən komplekslərdir.

XIX əsr Osmanlı memarlığına nəzər yetirdikdə görə bilərik ki, bu dövrdə əvvəki illərdə olan kazarma,təhsil müəssisələri, mədrəsələr, ticarət evləri, tibb mərkəzləri kimi qurumlarla yanaşı yeni struk-

turlu, dövrün şərtlərinə uyğun,müasir formada tikintilər inşa olunmuşdur. Nüsrətiyyə məscidi, Ortaköy məscidi, Sultan Mahmud türbəsi, Dolmabaxça sarayı, Sədullah paşa qəsri qərbliləşmə prosesi ilə paralel bir formada mövcud olan tikililərdir.



*Dolmabaxça sarayı*



*Dolmabaxça sarayı, Muayede (bayramlaşma) salonu*

Abdulməcidin Kərabət Balyan ustaya tikdirdiyi Dolmabahçe sarayı bəzi söyləntilərə görə 70 milyon franka hazır olmuşdur. Sarayın tavan və divar bəzəkləri fransız, italyan rəssamları tərəfindən

naxışlanmışdı. Sarayda Sultan Əbdüləziz tərəfindən Avropa səyahətləri zamanı toplanan və sonradan məşhur rəssamların hazırladığı nadir bir rəsm kolleksiyası var. Sarayda otuz altı böyük çilçıraq və çoxlu Bohem şamdanları, gümüş şamdanlar var. Muayede (bayramlaşma) salonunda dörd ton yarım ağırlığında və yeddi yüz əlli ampul çilçırağın Kraliça Viktoriya tərəfindən hədiyyə edildiyi deyilir (8). Tənzimatı elan edən Əbdülhəmid 6 il bu sarayda yaşamış və burada da dünyasını dəyişmişdir. Xüsusi qeyd etmək lazımdır ki, 1926-cı il 1 iyul tarixində Atatürk bu sarayda olmuş və burada bir neçə siyasi görüş təşkil etmişdir.

XX əsrdən etibarən sultanlar tərəfindən verilən bəzi qanunlar Osmanlı mədəni nümunələrinin Avropaya aparılmasına səbəb olmuşdur. Bu nümunələr içərisində Böyük Britaniyada Nereidlər abidəsi, Pergamon muzeyindəki Bergama qurbangahını və eyni muzeydə Milet cənubi Aqora giriş qapısını göstərə bilərik. Xüsusilə, 1903-cü ildə verilən Avropalıların icazəsiz Anadolu ərazisinə daxil ola bilməsi haqqında qanun abidələrin bir qisminin Avropaya aparılmasına gətirib çıxarmışdır. Lakin acınacaqlı tərəfi də odur ki,abidələrin digər bir hissəsi Avropalılara sultanlar tərəfindən hədiyyə edilmişdir.Amma bütün bunlara baxmayaraq, Osman Həmdi bəyin də dediyi kimi, kəşf edilib-edilməməsindən asılı olmayaraq, Anadolu torpağından aparılan bütün abidələr Osmanlı imperiyasına məxsusdur (10).



*Nereidlər abidəsi, e.ə.IV əsr*



*Zevs (Bergama) qurbangahı e.ə.II əsr*

*Nəticə*. Bir dövlətin digər dövlətlər tərəfindən necə tanınması

onun mədəni həyatı ilə sıx bağlıdır. Bəlkə də elə buna görə Osmanlı imperiyası öz mədəni həyatı ilə Avropanın daim diqqət mərkəzində olmuş, hətta onların qorxulu rəqibinə çevrilmişdir. Osmanlı dövləti mövcud olduğu 623 illik dövr ərzində bir neçə millətə ev sahibliyi etmişdir. Elə bu fakt dövlətin mədəni həyatının zənginlik baxımından necə böyük əhəmiyyətə malik olduğunu aydın göstərir. Osmanlı imperiyasının məhəllə-məktəb təhsil sistemi sahəsindəki çatışmazlıqları, mətbəə sahəsində 279 il gecikdiyini nəzərə almasaq, daim qibtə olunan bir mədəniyyət olduğunu söyləyə bilərik. Tənzimat dövrünə qədər Osmanlı imperiyası öz səltənəti və mədəni həyatı ilə çoxları üçün təhlükəli rəqib olmuşdur. Lakin bu dövrdən etibarən avropalıların rahatlıqla Osmanlı ərazisinə daxil olması maddi-mədəniyyət nümunələrinin onlar tərəfindən çox rahatlıqla aparılmasına şərait yaratmışdır.

## ƏDƏBİYYAT:

1. Ayten Sezer Arığ. Türklerde kiyafetin kısa tarihi // Atatürk Araştırma Merkezi Dergisi, Yıl: 2006, Cilt: 22, Sayı: 64-65-66, s.141-160. Mənbə: https://www.atam.gov.tr/wp-content/uploads/64-65-66.-Say%c4%b1lar-Makaleler-141-160.pdf [Müraciət tarixi: 21.05.2020]
2. Betül İpşirli Argıt. Osmanlı İstanbul'unda Giyim-Kuşam, Merasim ve Eğlence. "Antik cağdan XXI yüzyıla Büyük İstanbul tarihi" Toplusunda. IV cilt. İstanbul, İBB Kültür AŞ, 2015, s.230-263. Mənbə: https://www.academia.edu/25324596/Osmanl%C4%B1_%C4%B0stanbulunda_Giyim_Ku%C5%9Fam [Müraciət tarixi: 21.05.2020]
3. Eyvazova Y. Mədəniyyət tarixi və nəzəriyyəsi.Osmanlı imperiyası dövründə türk mədəniyyəti. Bakı, Sabah nəşriyyatı, 2010, s.359.
4. Əliyev Ramil. Türk ədəbiyyatının 2 zirvəsi. Əhməd Yəsəvi və Yunis Əmrə sufi ədəbiyyatının ən parlaq simalarındandır / Xalq cəbhəsi, 11 iyun 2011, s.14. Mənbə:
http://www.anl.az/down/meqale/xalqcebhesi/2011/iyun/183115.htm [Müraciət tarixi: 21.05.2020]
5. Fatma Koç, Emine Koca, Vural Tuba. Yabancı Kültürlerin Osmanlı Giyim Kuşamına Etkileri / CİEPO-18. Osmanl Öncesi ve Osmanlı Araştrmaları Uluslararası Komitesi Sempozyumu. Zagreb,

2008, 19 s. Mənbə: https://www.researchgate.net/publication/282614073_yabanci_kulturlerin_osmanli_giyim_kusamina_etkileri [Müraciət tarixi: 21.05.2020]
6. Gülru Necipoğlu. 15 ve 16. Yüzyılda Topkapı Sarayı (Mimari, Tören ve İktidar). Çeviren: Ruşen Sezer. 1.Baskı. İstanbul, YKY, 2007, s.398. Mənbə: https://www.academia.edu/37543898/15._ve_16._Y%C3%BCzy%C4%B1lda_Topkap%C4%B1_Saray%C4%B1_Mimari_T%C3%B6ren_ve_%C4%B0ktidar_-_G%C3%BClru_Necipo%C4%9Flu [Müraciət tarixi: 21.05.2020]
7. Gülser Oğuz. Bir Sultanın Giyiminden Kesitler: Fatma Sultan // Akademik Tarih ve Düşünce Dergisi, İlkbahar 2018, 5(14), s.248-274. Mənbə: http://static.dergipark.org.tr/article-download/2323/194d/281e/5b16dd12bfb3d.pdf? [Müraciət tarixi: 21.05. 2020]
8. Haluk Y.Şehsüvaroğlu. Dolmabahçe Sarayı / "Tarihten sahifalar", 4 Haziran 1950. Mənbə: https://core.ac.uk/download/pdf/38306058.pdf [Müraciət tarixi: 21.05.2020]
9. Xəlilov Buludxan. Mənəvi təkamülün Türk qaynaqları // Azərbaycan məktəbi jurnalı, №6 2016, s.46-52. Mənbə: https://journal.edu.az/files/2016/%E2%84%966/Buludkhan%20Khalilov.pdf [Müraciət tarixi: 21.05.2020]
10. İklim Demir.Osmanlıda Kültürel Mirasın Korunması / Arkeofili, 3 Haziran 2019. Mənbə: https://arkeofili.com/osmanlida-kulturel-mirasin-korunmasi/ [Müraciət tarixi: 21.05.2020]
11. Namık Sinan Turan. 16.Yüzyıldan 19. Yüzyıl Sonuna Dek Osmanlı Devleti'nde Gayri Müslimlerin Kılık Kıyafetlerine Dair Düzenlemeler // Ankara Üniversitesi SBF Dergisi, 2015, 60-4, s.239-267. Mənbə: https://www.academia.edu/6116033/Osmanl%C4%B1_Devletinde_Gayr%C4%B1m%C3%BCslimlerin_K%C4%B1l%C4%B1k_K%C4%B1yafetlerine_Dair_D%C3%BCzenlemeler [Müraciət tarixi:

21.05.2020]
12. Osmanlı Edebiyatı / Osmanlı Tarihi Ansiklopedisi, Cilt 6. 1.Baskı. Türkiye Gazetesi Yayınları, 1993, s.224. Mənbə: http://www.ehlisunnetbuyukleri.com/Osmanli-Tarihi-Ansiklopedisi/Detay/OSMANLI-EDEBIYATI/476 [Müraciət tarixi: 21.05.2020]
13. Sina Akşin. Kısa Türkiye Tarihi. İstanbul, İş Bankası Kültür Yayınları, 2007, s.377. Mənbə: https://www.academia.edu/34881515/Sina_Ak%C5%9Fin-K%C4%B1sa_T%C3%BCrkiye_Tarihi [Müraciət tarixi: 21.05. 2020]
14. Selçuk Düğer. Batılı Kadın Seyyahlar İmgeleminde Osmanlı Kadını // KOSBED - Kocaeli Üniversitesi Sosyal Bilimler Fakültesi Dergisi, 2015, 29, s.71-90. Mənbə: http://kosbed.kocaeli.edu.tr/sayi29/5.pdf [Müraciət tarixi: 21.05.2020]
15.Tanju Cantay. Osmanlı Devletinin Kuruluşundan İstanbulun Fethine Kadar Osmanlı Sanatı // Mimarbaşı Koca Sinan, Yaşadığı Çağ ve Eserleri, 1988, s.53-68. Mənbə: https://core.ac.uk/download/pdf/50613629.pdf [Müraciət tarixi: 21.05.2020]

**FAKHRANDA MAMMADOVA**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

# THE OTTOMAN EMPIRE IS ONE OF THE CULTURAL CENTER OF THE WORLD

The Ottoman Empire was one of the states that had a say in the cultural sphere,as in all other spheres.During the historical period of its existence,the Ottoman Empire played a very important role in the formation of world culture with its architecture, style of dress and literature.While comparing the Turkish and Azerbaijan literature I used,I again came to conslusion that the idea was fully true.Despite the fact that the Europeans have long tried to embarce the Ottoman culturel heritages and throug these ways to separate the Ottoman

Empire from its culturel roots,it is an undeniable fact that the Ottoman culture has had an exemplary culture throughout its existance.Therefore,it is one of the most important points to make a research on the Ottoman Empire culture that always kept under fear other countries.

*Key words:* Ottoman culture, Architect Sinan, literature, Yunis Amre, Selimia mosque, kaftan, velvet.

*Daxil olma tarixi*: 21.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94(479/24); UOT 327(091)

**FİDAN GÖZƏLOVA**

***Bakı Dövlət Universiteti,***
***Avropa və Amerikanın yeni və ən yeni tarixi ixtisası üzrə magistrant***
**E-mail: fidan.gozalova@bsu.edu.az**

# "AZADLIĞA DƏSTƏK AKTI"NA 907-Cİ DÜZƏLİŞ KONTEKSİNDƏ ABŞ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNƏ BAXIŞ

*Elmi rəhbər*:
tarix elmləri doktoru Məmməd Fətəliyev
Bakı Dövlət Universiteti

*Azərbaycan-ABŞ münasibətləri bir sıra anlaşılmaz və ziddiyyətli məqamlar ilə səciyyələnir. Bu öz əksini ABŞ Konqresi tərəfindən "Azadlığı Dəstək Aktı"na edilən "907-ci düzəliş"də tapmışdır. Məqalədə bu düzəlişin Azərbaycan iqtisadiyyatına təsiri, ləğv edilməsi üçün atılmış diplomatik addımlar, Azərbaycana qarşı tətbiq edilən "ikili standartlar" nəticəsində ədalətin bərpa edilməməsi haqqında məlumat verilir.*

*Açar sözlər:* ABŞ, Konqres, Azadlığa Dəstək Aktı, 907-ci düzəliş, İkili standartlar

*Giriş.* Müstəqil xarici siyasət suverenliyin təminatıdır. Çünki müstəqilliyin qorunub saxlanması daxildən daha çox xarici amillərlə bağlıdır. Azərbaycan müstəqillik qazandıqdan sonra 1991-ci il dekabrın 25-də ABŞ Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etdi və tezliklə iki dövlət arasında diplomatik münasibətlər yaratmaq üçün addımlar atıldı (8, s.145).

ABŞ dövlət katibi Ceyms Beykerin 1992-ci ilin əvvəlində regionla tanışlıq xarakteri daşıyan səfərindən bir neçə gün sonra, fevralın 17-də onun şəxsi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Nikolos Sanqoya Bakıya səfər edərək, Azərbaycan Respublikasının müxtəlif dövlət rəsmiləri ilə görüşərək diplomatik əlaqələrin qurulması və Bakıda ABŞ səfirliyinin açılması məsələlərini müzakirə etdi. 1992-ci

il martın 17-də Bakıda ABŞ səfirliyi açıldı və Robert Finn müvəqqəti işlər üzrə vəkil, daha sonra isə Riçard Mayls ilk səfir vəzifəsinə təyin edildi. 1992-ci il noyabrın 13-də Hafiz Paşayev ölkəmizin ABŞ-da ilk səfiri təyin edildi və Vaşinqtonda səfirlik yaradıldı (1, s.363).

Qeyd etmək lazımdır ki, ABŞ-ın xarici siyasətində dörd qrup region və dövlətlər aydın seçilir:

1. ABŞ-ın maraqlarına zidd siyasət yeridən dövlət və regionlar:
2. ABŞ-ın maraqlarına heç bir təsiri olmayan dövlətlər;
3. ABŞ-ın mənafeyi dairəsində olan və dolayısı ilə onun maraqlarını təmsil edən dövlətlər qrupu;
4. ABŞ-ın maraqlarının bilavasitə təmsil olunduğu ölkələr.

Sözsüz ki, Vaşinqton bu ölkə və bölgələrə qarşı münasibətdə heç də hər zaman eyni prinsiplərdən çıxış etmir və məşhur "Amerika maraqları, demokratiya, insan hüquq və azadlıqları" ideyası bütün ölkələrə münasibətdə eyni standart üzrə tətbiq edilmir. Bunun əyani sübutu İraq-Küveyt, Ermənistan-Azərbaycan, keçmiş Yuqoslaviya münaqişəsi kimi problemlərə münasibətdə ABŞ-ın tutduğu mövqe hesab oluna bilər (8, s.142).

ABŞ-ın Azərbaycan siyasəti bir sıra anlaşılmaz və ziddiyyətli məqamları ilə səciyyələnir. Bu özünün açıq ifadəsini Konqres tərəfindən "Azadlığa Dəstək Aktı"na edilən "907-ci Düzəliş"də tapmışdır.

1992-ci il aprelin 3-də ABŞ prezidenti Corc Buş Konqresə müraciət edərək, SSRİ dağıldıqdan sonra yeni yaranmış müstəqil dövlətlərə yardım göstərilməsi haqqında qanun qəbul olunması təşəbbüsü ilə çıxış etmişdi. "Azadlığa Dəstək Aktı" adlanan qanunda keçmiş SSRİ-nin 12 ölkəsinə müstəqil dövlət quruculuğu, demokratiya və bazar iqtisadiyyatına keçidlə bağlı maliyyə yardımı göstərilməsi nəzərdə tutulurdu. Baltikyanı respublikalar - Latviya, Litva, Estoniya artıq 1991-ci ildən başlayaraq ABŞ-dan geniş miqyaslı yardımlar alırdılar (4).

Çox keçmədən 1992-ci il oktyabrın 24-də ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş qəbul edildi. Düzəliş ilk dəfə 1992-ci ildə Senator Con Makkeyn tərəfindən təklif edilmiş-

dir, ancaq daha sonra naməlum səbəblərə görə geri qaytarılmışdır. Lakin yenidən, Senator Con Kerrinin və erməni lobbi təşkilatlarının dəstəyi ilə Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürülmüşdür. Kiçik bir azlıq Senator Riçard Luqar (İndiana ştatı), Nensi Kassebaum (Kanzas ştatı), Mitç Makonnel (Kentukki ştatı) və keçmiş senator Terri Sanford düzəlişin qəbul edilməsinin əleyhinə çıxış etmişdir (11). Buna baxmayaraq, erməni lobbi təşkilatlarının güclü təzyiqi nəticəsində Konqres tərəfindən qəbul edilmişdir. Bu düzəliş Azərbaycana Amerikanın birbaşa dövlət yardımını qadağan edir və onu humanitar yardımdan məhrum edir, regionda insan hüquqlarına hörmət prinsipinə zərbə vururdu. Erməni seçicilərin sayca çox və güclü olduğu Massaçusets ştatından olan senator Con Kerrinin təqdim etdiyi bu düzəlişin qəbul edilməsinə təsir göstərən bəhanə və yalan isə Azərbaycanın "Ermənistanı və Dağlıq Qarabağı blokadaya alması" idi (2, s.158). Düzəlişin mətnində göstərilir:

MADDƏ 907. AZƏRBAYCANA YARDIM GÖSTƏRİLMƏSİNİN QADAĞAN EDİLMƏSİ

(A) QADAĞA – Prezident Azərbaycan Hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı blokadasının və digər güc tətbiqin aradan qaldırılması üçün addımların atdığını müəyyən etməsə və bu haqda Konqresə məruzə etməsə, Azərbaycan Hökumətinə ABŞ tərəfindən bu və ya digər qanunlarla nəzərdə tutulmuş yardım göstərilə bilməz.

(B) QEYD – Prezident qadağanın tətbiq edilməsinin ABŞ-ın milli maraqlarına uyğun olmadığına dair qərara gəlsə və bu haqda Konqresə təqdimat versə, (a) bəndində göstərilən qadağa tətbiq edilməməlidir" (12).

Ekspertlərin bir çoxu qeyd edir ki, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş əlavə edilərkən qanunvericilərin əksəriyyəti bunun əslində nə demək olduğunu bilməmiş və onu hansısa əhəmiyyətsiz bir sənəd kimi qəbul etmişdi. Əlbəttə, düzəliş ABŞ konqresmenlərinə ilk əvvəl əhəmiyyətsiz bir sənəd kimi görünsə də, əslində bu işğala məruz qalan tərəfin işğalçı kimi dəyərləndirilərək ittiham edilməsindən

başqa bir şey deyildi və burada vacib məqam bir şəxsin deyil, ölkənin günahlandırılmasıdır.

Təsadüfi deyildir ki, sonralar ABŞ Xarici Siyasət Şurasının baş elmi işçisi Stefen Blank kimi nüfuzlu ekspertlər müxtəlif platformalarda 907-ci düzəlişin ABŞ-ın regionda xarici siyasətini iflic etdiyini, ölkənin maraqlarını zədələməkdən başqa heç bir faydası olmadığını və Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etmədiyini bildirmişdir (1, s.361).

Göründüyü kimi "907-ci düzəliş" mahiyyəti və qəbul edilməsi üçün əsas gətirilən "dəlillər" baxımından olduqca ədalətsiz və mübahisəlidir. Burada qəbul edilən sənəd ilə reallıq arasında böyük bir uçurum vardır. Sənəd ABŞ parlamentarilərinin Ermənistan-Azərbaycan münaqişəsinin kökləri, ölkəmiz üçün törətdiyi faciəli nəticələr barədəki məlumatsızlığı, biganəliyi, qərəzliliyi və tərəfkeşliyindən xəbər verir. Hərbi təcavüzə məruz qalan Azərbaycan təcavüzkar hesab olunur. Eyni zamanda Azərbaycan Ermənistanı blokadaya almaqda ittiham edilir. Ermənistanın ərazi iddiaları və təcavüzü səbəbindən müharibə şəraitində olan Azərbaycanın işğalçı ilə ticarət-iqtisadi əlaqələrə girməsi, əlbəttə, mümkünsüzdür. Digər tərəfdən isə Ermənistan İran və Gürcüstan vasitəsilə xaricə yetərli çıxış imkanlarına malik olduğundan onun blokadaya alınmasından əsla söhbət gedə bilməz (9, s.382).

Sadalananlardan da aydın olur ki, "907-ci düzəliş" üç amilin üst-üstə düşməsi nəticəsində qəbul olunmuşdur:

1. ABŞ-dakı erməni diasporu və lobbisinin güclü təsir və təzyiqi;
2. Azərbaycan hökuməti və ictimaiyyətinin ABŞ-ın hakimiyyət dairələrini "Dağlıq Qarabağ problemi" barədə yetərincə məlumatlandıra bilməməsi;
3. ABŞ-ın bir sıra dövlət adamlarının, xüsusilə də konqresmenlərin Azərbaycanın demokratiya və Qərbə inteqrasiya yolundakı fəaliyyətini, ölkəmizlə bağlı bəzi məqamları nəzərə almamaları (9, s.382).

Sual yaranır ki, Azərbaycan düzəlişin qəbul edilməsi nəticəsində nə itirdi? Bu Azərbaycana necə təsir göstərdi?

Ümumilikdə, Azərbaycanın itkilərini iki formada qeyd etmək olar: Birincisi, ölkəyə qarşı beynəlxalq etimadın, ölkənin reputasiyasının zəifləndirilməsidir. Yəni mədəni və islahata can atan ölkələr siyahısından çıxarılma həmin ölkəyə olan demokratik inamın itirilməsidir.

İkincisi isə iqtisadi aspektdə olan itkilərdir. "907-ci düzəliş"in qəbul olunması nəticəsində yenicə dövlət müstəqilliyi qazanmış və böyük çətinliklərlə üzləşən Azərbaycan ABŞ-ın yardımından məhrum oldu. ABŞ tərəfindən müxtəlif formalarda Azərbaycana gələn yardımlar QHT-lər vasitəsilə həyata keçirilmişdir. Bu, Ermənistana edilən yardımla müqayisədə xeyli məhdud idi. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi, 1994-cü ildə isə ABŞ-ın neft şirkətləri ilə müqavilələrin imzalanmasından sonra 907-ci düzəliş əleyhinə fəaliyyət daha da gücləndi (4).

"Azadlığı Müdafiə Aktı" qanunu çərçivəsində 1992-2005-ci illərdə ABŞ Ermənistana 1,6 milyard dollar, Azərbaycana isə 600 milyon dollar yardım etmişdir. 2006-cı il üçün ABŞ-ın Azərbaycana ayırdığı vəsait 48, Ermənistana isə 82 milyon dollardır (3). Rəqəmlər arasında uçurumu sezmək elə də çətin deyil. Əhalinin sayına görə alınan yardımlar baxımından keçmiş postsovet ölkələri arasında lider mövqe Ermənistana məxsusdur. Bu ölkənin hər vətəndaşının payına ABŞ-dan alınmış $73 düşür. Müqayisə üçün deyək ki, Gürcüstanda həmin rəqəm $40, Qırğızıstanda - $27, Azərbaycanda isə $15-dir (4). Adambaşına düşən ABŞ yardımına görə Ermənistan postsovet məkanında birinci və dünyada isə İsraildən sonra ikinci yeri tuturdu.

Belə bir şəraitdə, Konqresin Azərbaycanla bağlı səhvinin düzəldilməsinə yönəlik cəhdlər edildi. Lakin ilk səylər uğursuz oldu. Ölkəmizə humanitar yardım göstərilməsini nəzərə tutan "Xelms layihəsi" 1995-ci ilin mayında Konqresdəki erməni lobbisinin güclü müqaviməti səbəbindən qanun qüvvəsi ala bilməyərək təxirə salındı. Amma az sonra 1996-cı ilin yanvarında Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında mühüm sənəd, yəni "Vilson düzə-

lişi" qəbul olundu. Erməni lobbisinin onu ciddi cəhdlərlə əngəlləməsinə baxmayaraq, "Vilson qanunu" prezident tərəfindən təsdiqləndi. Bu qanun Azərbaycana tətbiq edilən qadağaların yumşaldılması yolunda ilk uğurlu akt kimi dəyərləndirilə bilər. Lakin "Vilson düzəlişi" çox tezliklə "Porter əlavəsi" ilə üzləşdi (9, s.382).

1997-ci maliyyə ili üçün xarici əməliyyatlar barədə qanun layihəsi Nümayəndələr Palatasında müzakirə edilərkən İllinoys ştatından olan ermənipərəst konqresmen C.Porter ayrı-ayrılıqda həm Azərbaycanın, həm də "Dağlıq Qarabağ"ın qaçqın və məcburi köçkün düşmüş əhalisinə 7:1 nisbətində yardım edilməsini nəzərdə tutan bəndin sənədə salınmasını təklif etdi. Bu Dağlıq Qarabağı müstəqil subyekt kimi göstərərək Azərbaycanın maraqlarına uyğun olmayıb, onun müstəqilliyinə və suverenliyinə qarşı yönəlmiş sənəd idi. ABŞ Dövlət Departamenti iyunun 12-də "Porter düzəlişi" ilə bağlı bəyanat verərək qanun layihəsinin göstərilən şəkildə qəbul edilməsi cəhdini münaqişənin siyasi danışıqlar yolu ilə aradan qaldırılması istiqamətində cəhdlərə maneə kimi qiymətləndirdi. Azərbaycanın ali dövlət rəhbərliyinin də bu düzəlişə etirazlarından sonra ABŞ Senatı iyulun 26-da xarici dövlətlərə yardım haqqında qanun layihəsini müzakirə edərək onu "Porter düzəlişi" nəzərə alınmadan qəbul etdi (1, s.374).

1998-ci ildə düzəlişin ləğvi üçün səylər daha da artırıldı. 10 sentyabr 1998-ci ildə Nümayəndələr palatasının xarici yardımlar üzrə komitəsinin iclasında spiker R.Livinqstonun təşəbbüsü ilə Azərbaycana yardım edilməsinə qadağanı ləğv edən xüsusi düzəliş qəbul edildi. Burada M.Olbraytın Komitə üzvlərinə məktubla müraciəti də mühüm rol oynadı. Ancaq məsələnin Nümayəndələr Palatasında müzakirəsi Azərbaycanın xeyrinə olmadı. 907-ci düzəlişin ləğvinə 182, qüvvədə qalmasına isə 231 səs verildi. R.Livinqstonun təşəbbüsü uğurlu olmasa da, 1999-cu ilə dair xarici əməliyyatlar qanununa əsasən Azərbaycana ABŞ-ın xarici ticarət xidməti vasitəsilə yardım edilməsi razılaşdırıldı (9, s.383).

907-ci düzəlişin ləğvi istiqamətində digər bir cəhd respublikaçı senator S.Braunbek tərəfindən edildi. Senatın xarici işlər üzrə komitəsi 1999-cu il 23 martda onun təklif etdiyi "İpək Yolu strategiyası

haqqında Akt" adlı qanun layihəsini təsdiq etdi. Həmin sənədə əsasən Güney Qafqaz ilə Orta Asiyadakı 8 ölkəyə siyasi-iqtisadi yardımlar göstərilməsi nəzərdə tutulurdu. Burada Azərbaycan üçün ən önəmli məqamlardan biri də qanunun prezidentə 907-ci düzəlişi faktiki olaraq ləğv etmədən onun fəaliyyətini dayandırmasına imkan verməsi idi (9, s.383).

907-ci düzəlişin gündəliyə gətirilərək ABŞ-ın siyasi dairələri tərəfindən müzakirə edilməsi 1992-ci ildə qəbul edilmiş Azadlığı Müdafiə Aktının, hətta, yardım alan ölkələrə belə eyni cür tətbiq olunmadığını, Konqresin ölkənin əhalisini və ehtiyaclarını nəzərə almadan yardım ayırdığını üzə çıxardı. Məsələn, Rusiya əhalisinin Ermənistan əhalisindən 50 dəfə çox olmasına baxmayaraq, Ermənistan Rusiyaya nisbətən 3.5 dəfə az yardım almışdır. 2000-ci ildə bu akt üçün ayrılmış 835 milyon dolların yarısı ancaq 3 ölkəyə verilmişdir: Ermənistan (102 milyon $), Gürcüstan (108 milyon $) və Ukrayna (180 milyon $). Bu faktlar Azadlığı Müdafiə Aktının siyasi xarakterini bir daha açıqlayaraq, Azərbaycanın 907-ci düzəlişlə yalnız maliyyə yardımından deyil, hə də Konqresin dəstəyindən məhrum olduğunu göstərir (5, s.181).

Azərbaycan hökuməti 2001-ci ilin sentyabr ayına qədər ABŞ ilə keçirdiyi bütün görüşlərdə 907-ci düzəlişin ləğv edilməsini tələb etsə də, istədiyi nəticəni əldə edə bilməmişdir. Ancaq ABŞ hökuməti terrorun soyuq üzünü öz torpaqlarında gördükdən sonra bu düzəlişi nəzərdən keçirilməli olmuşdur.

24 oktyabr 2001-ci ildə Senat, 14 noyabr 2001-ci ildə Konqres arasındakı razılaşdırma komissiyasının rəyindən sonra 19 dekabr 2001-ci ildə Nümayəndələr Məclisi "2002-ci ilin sonuna qədər Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişin ləğv edilməsi haqqında" ABŞ Prezidentinə səlahiyyət verilməsi haqqında qərarı təsdiq etmişdir.

Diqqəti çəkən əhəmiyyətli məsələ düzəlişin tamamən yox, sadəcə 2002-ci ilin sonuna qədər ləğv edilməsidir. Buradan aydın görünür ki, ABŞ hökuməti hələ də bu tarixi ədalətsizliyi və iki dövlət arasındakı münasibətləri zədələyən 907-ci düzəlişi birdəfə-

lik ləğv etməyə tələsmir. 907-ci düzəlişin birdəfəlik deyil, bir illiyə ləğv edilməsi onu göstərir ki, ABŞ hökuməti bundan hər zaman Azərbaycana qarşı istifadə edə bilər (6).

Azərbaycanın ərazi bütövlüyünü və milli maraqlarını təhdid edən məqamlardan biri də erməni lobbisinin ABŞ-ın Dağlıq Qarabağa birbaşa yardım etməsinə nail olması idi. 2016-cı ilə qədər Konqresə təqdim edilən dövlət büdcəsində Dağlıq Qarabağa ayrıca yardım bəndinin olması ikitərəfli münasibətlərdə ən çox narazılıq doğuran məsələlərdən biri idi. Azərbaycan diplomatiyasının ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan və beynəlxalq hüququn prinsiplərinə zidd siyasətin aradan qaldırılması üçün hərtərəfli və uzunmuddətli fəaliyyəti öz nəticəsini yalnız 2015-ci ildə verdi və növbəti ilin büdcəsində Dağlıq Qarabağa birbaşa yardımı nəzərdə tutan maddə öz əksini tapmadı (1, s.368).

*Nəticə.* Sonda belə bir sual ortaya çıxır: 907-ci düzəliş, yoxsa yanlış? Məşhur İsveç alimi Svante Kornellisin qeyd etdiyi kimi *"ABŞ işğala məruz qalanı cəzalandırır, işğalçını isə mükafatlandırır"*. Bütün beynəlxalq qurumların, dünyanın super güclərinin Dağlıq Qarabağ münaqişə ilə bağlı həqiqətləri bildikləri halda ədalətsiz qərarlara imza atmaları Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "ikili standartlar" siyasətidir: *"Bütün beynəlxalq təşkilatlarda və dünyada fəaliyyətimiz nəticəsində həqiqətlərin çatdırıldığı bir zamanda biz yenə də bəzi hallarda Azərbaycana qarşı ədalətsizliklər görürük, həqiqətlərə göz yumulur. Bu reallıqlar nəzərə alınmır və müəyyən dairələr, xarici dairələr öz siyasətini uydurulmuş faktlar, təhrif edilmiş tarix əsasında aparmağa davam edirlər. Bu, "ikili standartlar" siyasətidir. Əfsuslar olsun ki, bu, dünyada bu gün və əvvəlki dövrlərdə də mövcud olan bir yanaşmadır. "İkili standartlar" ədalətsizlik deməkdir. İşğalçı ilə işğalın qurbanını, bir səviyyədə görmək nə qədər ədalətlidir?!"* (7). Eyni zamanda məlumdur ki, demokratiyada "ikili standartlar" qəbul olunmazdır.

İstənilən dövlət üçün ən dəyərli məfhumlar onun xalqı və ərazisidir. Məhz bu dəyərlər əsasında digər amillər formalaşır. Görünməmiş ədalətsizlik və qarşıdurma ondan ibarətdir ki, bütün dünyanın

gözü qarşısında beynəlxalq razılaşmalara və beynəlxalq hüquqa zidd olaraq, Ermənistan Azərbaycanın 20%-dən artıq ərazisini işğal edərək və orada yaşayan bütün əhalini doğma yurdundan didərgin salmışdır.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Azərbaycan dövləti sülhpərvərlik siyasətini daim davam etdirir, regionda sülhün olmasına, müharibəyə yol verilməməsinə çalışır. Lakin Azərbaycanın bütün həqiqətləri dünyaya, beynəlxalq təşkilatlara çatdırmasına, diplomatik səylərinə baxmayaraq 907-ci düzəliş qüvvədə qalmaqdadır və ədalət hələ də bərpa edilməmişdir. Deməli, ABŞ üçün "Amerika maraqları, demokratiya, insan hüquq və azadlıqları" ideyasında Amerika maraqları ön plandadır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /Məqalələr toplusu/. Bakı, "Poliart" MMC, 2017, s.904.
2. Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı, Mütərcim, 2015, s.664.
3. ABŞ Konqresinin "Azadlığı Müdafiə Aktı"na 907-ci əlavəsi və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin onun aradan qaldırılması ilə əlaqədar fəaliyyəti mövzusunda ümumi tarixi arayış. 22 noyabr 2006. Mənbə: https://lib.aliyevheritage.org/en/index.html [Müraciət tarixi: 20.05.2020]
4. ABŞ-ın ikili standartlar siyasəti. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyevin www.yap.org.az saytına müsahibəsi.İki sahil, 2010 13 aprel, s.12. Mənbə: http://anl.az/down/meqale/iki_sahil/2010/aprel/113837.htm [Müraciət tarixi: 20.05.2020]
5. Bəşirova A.B. Azərbaycan Respublikası-Amerika Birləşmiş Ştatları qarşılıqlı münasibətləri tarixi "WASHINTON POST", "NEW YORK TIMES" qəzetlərində xarici siyasət məsələlərinin tədqiqinin

siyasi istinad çərçivəsi kimi (1994-2001-ci illər) // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, №1 2015, s.173-186.
6. Cabbarlı H. Azərbaycan-ABŞ münasibətləri və 907-ci düzəliş. Mənbə: http://newtimes.az/az/politics/318 [Müraciət tarixi: 20.05.2020]
7. Dağlıq Qarabağın azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında İlham Əliyevin nitqi // Respublika qəzeti, 7 iyul 2010. Mənbə: https://president.az/articles/367/print [Müraciət tarixi: 20.05.2020]
8. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, Azərnəşr, 1998, s.315.
9. Heydərova X. ABŞ-Azərbaycan münasibətlərinə soyuqluq gətirən amillər // Tarix və onun problemləri, № 2 2013, s.381-386.
10. İbrahimova P. ATƏT-in Minsk qrupu və "ikili standartlar" // Tarix və onun problemləri, № 1 2014, s.255-259.
11. Thomas Goltz. A Montana Perspective on International Aid and Ethnic Politics in Azerbaijan // Livingston, Montana Mənbə: http://www.zerbaijan.com/azeri/goltz1.htm [Müraciət tarixi: 20.05.2020]
12. S.2532 - 102nd Congress (1991-1992), FREEDOM Support Act, Sec. 907. Restriction on assistance to Azerbaijan. Mənbə: https://www.congress.gov/bill/102nd-congress/senate-bill/2532/text [Müraciət tarixi: 20.05.2020]

**FIDAN GOZALOVA**
***Master's degree in New and Modern history of Europe and America, Baku State University***

# REVİEW OF US-AZERBAIJAN RELATIONS IN THE CONTEXT OF THE SECTION 907 TO THE FREEDOM SUPPORT ACT

US-Azerbaijani relations are characterized by a number of incomprehensible and contradictory points. This is reflected in the section 907 to the Freedom Support Act, passed by the US Congress. The article provides information on the impact of Section 907 on the

Azerbaijani economy, diplomatic steps taken to repeal it, and the failure to restore justice as a result of "double standards" applied to Azerbaijan.

*Keywords:* USA, Congress, Freedom Support Act, Section 907, Double standards.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

№4(4) 2020

UOT 7 (4/9)

**FİZZƏ MƏMMƏDOVA**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***
**E mail: fizzem19113@sabah.edu.az**

# TÜRK SAVAŞ SƏNƏTİNDƏ PSİXOLOJİ VƏ HƏRBİ TAKTİKALAR

*Elmi rəhbərlər:*
Ali Çırak
Türk Dünyası gənc tədqiqatçılar dərnəyi
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti



*"Türklər tarix yazmırdı, türklər tarixi yaradırdı. Buna görə də uzun müddət türklərin tarixini başqaları yazdı." Ancaq biz tarix yaradan irsin, tarixi yaşadan və yazan davamçılarıyıq. İnsanın güclü psixoloji dözümlülüyü, düşüncə tərzi və fiziki hərəkətlərinin vəhdətindən meydana çıxan Türk Savaş sənəti, araşdırması məhz bu baxımdan zəruri olan mövzulardan biridir. Türklər ucsuz-bucaqsız Turan çöllərinə uzun müddət nəzarət etmiş, onu qorumağa müvəffəq olmuşlar. Bu zəfərlərin və müvəffəqiyyətlərin təməlində sadəcə fiziki gücmü*

*dayanırdı? Əgər belədirsə nə üçün digər xalqların nümayəndələri savaş sənətinə türklər qədər böyük töhfələr verməmişdir? Türklərin situasiyanı düzgün təhlil etmə bacarığı, təbiətin qanunlarına bələd olmaları, əxlaqa arxalanan qanunlara riayət etmələri, çevik düşünmə bacarıqları, uşaqlarını da bu yöndə həm fiziki həm də psixoloji tərbiyə etmələri onların təkcə savaşda qalib gəlmələrinə deyil həm də müasir dövrə qədər mövcudiyyətlərini layiqincə qoruyub saxlamalarına səbəb olmuşdur.*

*Açar sözlər*: Türk savaş sənəti, Qurd qapanı, psixoloji savaş, türklərdə tərbiyə, saxta ricət, türklərdə əxlaq.

*Giriş*. Hər cəmiyyətin tarix boyunca ona həsr olunan müxtəlif xüsusiyyətləri olur. Bu xüsusiyyətlər millətlərin yaşayış tərzləri, mədəniyyətləri və keçmişləri ilə birbaşa əlaqəlidir. Türklər üçün də önə çıxan xüsusiyyətlərdən biri döyüş meydanındakı bacarıqlarıdır. Dünyada xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan daha çox, zamanın sosial-siyasi xarakterini müəyyənləşdirməyə, qlobal proseslərin arxasınca deyil, önündə getməyə cəhd etmişlər. Türkologiyanın banisi hesab olunan XI əsr müəllifi Mahmud Kaşğarlının sözləri ilə desək, Türklər bu bəlalı Yer kürəsinin cəfakeş övladları olmuş, Onlara «Yetkin İnsan» anlamına gələn «Türk» adını Tanrı Özü vermişdir (9). Türklər buna öz qəhrəmanlıqları və cəsarətləri ilə yanaşı, tətbiq etdikləri döyüş strategiyası ilə də nail olmuşlar. Döyüşlərdə istifadə etdikləri taktikaların möhtəşəmliyi, ən incə detallarına qədər düşünülmüş olması onlara nəinki qalibiyyətlər gətirmiş, həm də adlarının hərb sənətində qızıl hərflərlə yazılmasına səbəb olmuşdur. Fəzlullah Rəşidəddinin "Oğuznamə" əsərində türklərin uğurlarından və strateji planlarından bu cür bəhs olunur: "İki ordu qarşılaşıb döyüşdülər. Müharibə səkkiz gün sürdü və hər iki tərəfdən çoxlu əsgər qırıldı. Nəhayət, səkkizinci gün dəvələri və qatırları bir-birinə bağlayaraq bir cərgə düzəldib, əsgərlərin qarşısına qoydular. Çadırlardan, əşyalardan və yüklərdən səd yaratdılar. Bunun arxasından yağmur kimi ox yağdırdılar. Beləcə Oğuz qa-

lib gəldi və İnal xanı öldürdü" (11)[1]. Bəzən isə müəlliflər türklərə qərəzli mövqedən yanaşırlar. Onlar türkləri ancaq yağmalamaqla (qarət etməklə) məşğul olan barbar xalq adlandırır, ancaq buna rəğmən türklərin savaş qabiliyyətlərini də etiraf etməli olurdular: "Əlbəttə, bu var-dövlətin hamısı soyğunçuluq və talançılıq nəticəsində əldə edilmişdi. Lakin türkyutların dünyanın yarısına sahib olmasına imkan verən hərbi qələbələri təsadüfi deyildi. Onlar ümumi köçəri səviyyəsindən yüksəkdə dayanan elə bir ordu yaratmışdılar ki, tam əminliklə demək olar: türkyutlar bu qələbələrə layiq idilər" (10). Əl-Cahiz isə türklər haqqında belə demişdir. "Türk öz atına bir döyüşçü kimi yox, bir həkim kimi baxır. Türk ömrünün çox hissəsini at üstündə keçirir. Onlar ox atmaqda çox mahirdirlər. Türk atını çapa-çapa hər yana ox ata bilər. Türklər at üzərində irəli, geri və yanlara ox atma mövzusunda ustalaşmışdırlar". Türklər haqqında qədim Qərb mənbələrində də heyranedici məlumatlar əks olunmuşdur. Qərbi daim qorxu içərisində saxlamalarına baxmayaraq, Avropa tarixçiləri türklərin cəlbedici xüsusiyyətlərini vurğulamadan keçməmişdilər. Onlar hələ yeni ayaq açmış türk uşağının yanında yəhərlənmiş at olduğunu, at üstündə yeyib içdiklərini, söhbət etdiklərini, hətta yatdıqlarını qeyd etmişdirlər. Bu cür yaşayış tərzinə yad olan Avropalılar Türklərə olan heyranlıqlarını gizlədə bilməmişdirlər (4). Anna Komnenanın qələmə aldığı məlumatlar türkləri onların baxış bucağından izləməyə imkan verir: "Bir türk hücuma keçmişdirsə, düşmənini ox ataraq haqlar. Özü qovalanırsa, oxları sayəsində üstün gələr. Atdığı ox uçaraq ata və ya atlıya batar. Ox çox güclü bir əllə dartılmışdırsa, gövdəni deşib keçər. türklər həqiqətən çox usta oxçulardır". İstər türk, istərsə də digər millətlərin nümayəndəsi olan yazıçılar və tarixçilər türklərin döyüşkənliyini, şəxsiyyətlərinin təməlini təşkil edən vətənpərvərliklərini daim vurğulamışlar.

---

[1] *Burada Oğuz xanın Turqunlu və ya Turqanlı xanı olan İnal xanla mübarizəsindən bir parça verilmişdir. Bu taktikadan 1501-ci ildə Şərur döyüşündə Əlvənd Mirzə Şah İsmayıla qarşı istifadə etməyə çalışmışdır. Ancaq Şah İsmayıl bundan onun özünə qarşı istifadə etmişdir.*

*Türk gənci necə yetişdirilirdi?* Türklərin hərb sənətinə bəxş etdikləri taktikalar, döyüşlərdə istifadə etdikləri psixoloji silahlar haqqında danışmamışdan öncə onların bu sahədə professional olmalarının səbəblərini izah etmək daha məqsədəuyğundur. Necə olurdu ki, türklərin kiçiyindən böyüyünə qədər hər biri hərb sənətində xüsusi qabiliyyətə malik olurdu?



Görkəmli türkoloq alim Ziya Göyalpın bu məsələ ilə bağlı təhlilinə nəzər yetirək: “Yunanlar estetikada, romalılar hüquqda, israillilər və ərəblər dində, fransızlar ədəbiyyatda, türklər isə əxlaqda birincilik qazanmışlar”. Türklərdə vətən əxlaqı, məslək əxlaqı, ailə əxlaqı çox güclü olmuşdur. Məhz bu baxımdan türklər vətən üçün canlarından keçməyə daim hazır olmuş, uşaqlarını da bu ruhda tərbiyə etmişdilər. Bəzi cəmiyyətlərdə əsgərlik peşə xarakteri daşıyırdı. Bu peşənin verdiyi statusdan istifadə etmək üçün mütləq şəkildə orduya qatılmaq lazım idi. Ancaq türklərdə vəziyyət fərqli idi. Əsgər olmaq onlarda peşəyə yiyələnməkdən ziyadə, həyat tərzi idi. Köçəri yaşayış tərzi onlardan hər bir vəziyyətə hazır olmağı tələb edirdi. Qəfildən baş verə biləcək hücumlardan ailələrini və obalarını qorumaq üçün çevik düşünmək, həmçinin çevik hərəkət etmək əsas şərt idi. Əslində məsələnin həm psixoloji, həm də irsi tərəfi var.

Uşaqlar hələ üç-dörd yaşına gələrkən təbiətlə iç-içə olub, onun qanunlarını öyrənirdilər. Böyüklərinin savaş xatirələrini laylay əvəzi dinləyən uşaqlar kiçik yaşlarından döyüşlərə psixoloji olaraq hazırlanırdılar. Ancaq bu hazırlıq sadəcə psixoloji tərəfdən aparılmırdı. Uşaqların fiziki tərbiyəsinə də erkən yaşdan başlanılırdı. Böyükləri tərəfindən ilkin olaraq qoçlara mindirilən uşaqlar yaş aldıqca atlara minməyi də öyrənirdilər. Qədim türklərin həyat tərzində bahadır olmadan yaşamaq mümkün olmadığı üçün uşaqların körpəlikdən ən sərt qanunlarla və hərbi döyüşçü məşqləri ilə tərbiyə olunması məhz bahadır olmağa hesablanmışdı. Hərblə əlaqədar olaraq bütün əsgəri təlimlər, eyni zamanda əlbəyaxa döyüş sənəti qədim türklərdə uşaq yaşlarından başlanılırdı. Hunlar yeni doğulan uşağı qışda qarın üstünə atır, bir müddət keçdikdən sonra isə dəriyə bükürdülər. Yeniyetməni ən qorxulu səfərlərə göndərirdilər.

Çin mənbələrinin yazdığına görə: "Hunlarda döyüşçülərin güc və bacarığı ölçülər, kişilər savaş təlimi keçər, qəfil basqın və hücumlar edərdilər. Bu onların anadangəlmə fitrətindəndir". Bu başqa cür ola da bilməzdi, çünki "Bozqır türklərinin ayrıca bir ordu yaratmasına ehtiyacı yox idi, hər bir elatın özü bütövlükdə bir ordu idi". Məhz bu səbəbdən də istənilən əsgəri təlim forması tayfanın əsasını təşkil edən ailədən başlanırdı. Məsələn, Yakut mənbələrində təlimlər haqqında deyilir: "Təlim 3 yaşından başlayırdı. Öncə onun (təlim görən şəxsin) üzərinə qızarmış kömür atırdılar ki, onda zərbədən yayınmaq bacarığı yaransın. Bundan sonra silahla nə cür rəftar etmək lazım olduğunu öyrətməyə başlayırdılar. Dəyənəklə döyürdülər və ona yayınma bacarığı aşılayırdılar. Gənclər 18 yaşında hərbi hazırlığı bitirməli idilər. Öyrədilmiş gənci son sınaqdan da keçirirdilər. O, evdə oturarkən, mahir bir əsgər siyirmə qılınc ilə gözlənilmədən onun üzərinə hücum edərək haradan gəldi vururdu. Sonra Gəncin paltarını soyundurub, onun bədənini yoxlayırdılar. Əgər bədəndə qılıncdan dəymiş bir kəsik görünsəydi, təlim bitməmiş hesab olunurdu. Sınaqdan keçənə bacadan bir tikə ət atırdılar. Gənc əti bıçağın ucu ilə tutmalı idi. Bundan sonra onun bədəninə tikiş qoyurdular. Tikiş onun yaxşı əsgər olmasının işarəsi idi".

Sağlamlıq, möhkəm iradə, dözümlülük, cəsarət, tərbiyə işinin təməlini təşkil edən məsələlərdən olmuşdur. Qədim türk misalında deyilir: "Türk çadırda doğular, at üstündə ölər". Həmçinin onlarda məsuliyyət hissinin aşılanması da erkən yaşlardan başlanılırdı. Uşaqlar biraz böyüdükdən sonra heyvanları otlatmağa göndərilirdilər. Böyük sürüləri bir yerdə tutmaq, onları müxtəlif təhlükələrdən qorumaq uşaqlara həvalə olunurdu. Bununla da onlar idarə etməni, həmçinin təhlükə anında çevik düşünməyi, diqqətli olmağı öyrənirdilər. Yəni türklər məcburi olaraq nəyisə mənimsəməyə çalışmır, əksinə, təbii şəraitdə bunları öyrənib, tətbiq edirdilər. Uşaqların at minmələri də böyük sevinc və mərasimlə qeyd edilər, həmin gün onlara at bağışlanar, at yarışları keçirərdilər. Oğlan uşağının yetişdirilməsində və döyüş sənətinin öyrədilməsində atanın çox böyük öyrədici və təlimedici vəzifəsi var idi.

Türk gəncinin əsgər kimi yetişdirilməsinin səbəbini folklora üz tutaraq da açıqlamaq mümkündür. Əski çağlardan türklər arasında fiziki tərbiyəyə yönəlmiş xüsusi oyunlar olmuş, uşaqların oyunlarından böyüklərin rəqslərinə qədər hər oyunda az və ya çox dərəcədə hərbi mahiyyətli elementlər olmuşdur. Yallı, halay tipli oyunlar da ritual tərkibi ilə bərabər hərbi xarakterli olmuşdur. Ümumilikdə savaş xarakterli oyunlar eyni zamanda ritual mahiyyətlidir. Belə ki, savaşın təməlində ritual vardır (5). Savaş oyunları bir sınaq oyunudur. Gücü, dözümü, zəkanı, bacarığı, manevr etmə qabiliyyətini, çevikliyi yoxlamaq üçün oynanılan oyunlardır. Bunun ən tipik örnəyinə "Dədə Qorqud" oğuznamələrində rast gəlirik. Buğacın buğa ilə güləşi, Qanturalının üç vəhşi heyvanla savaşı da sınaqdır. Qanturalı Sarı donlu Selcan xatunla evlənmək üçün üç heyvanla savaşmalı olur. Oyunu uduzmaq ölməyə, qazanmaq da Selcan xatunla evlənmək kimi mükafata sahib olmağa adekvatdır. Oğuznamədə Qanturalının üç heyvanla müsabiqəsi birbaşa oyun adlanır. Həm də oyun insanla heyvan fərqini ortadan qaldırır, heyvanlar da insanlarla yarış səhnəsinə gətirilir. Əslində burada türklərin hətta vəhşi heyvanlarla belə mübarizə edə biləcək əzmi və bacarığı olduğu söylənilir. Nəhayətdə türklərin at belində doğulub, ox və qılınc sədaları altında yaşa dolan igidləri böyüyüb

cəsurluğun və qəhrəmanlığın elə bir həddinə çatmışdırlar ki, hər biri ayrılıqda böyük bir orduya sərkərdəlik edə bilərdilər.

*"Qurd qapanı" taktikası və onun işləmə mexanizmi.* İndi isə tarix boyu digər xalqları lərzəyə salan Türk ordularının istifadə etdikləri taktikaların qısa izahına keçək. Sözsüz ki, türklərin istifadə etdiyi taktikalardan bəhs edərkən ilk ağla gələn "Qurd qapanı" və ya "Turan taktikası"dır. Əvvəla taktikanın təbiətdə gizlənmiş sirrinə nəzər yetirək. Bu taktikanın ilk istafədiçisi adından da məlum olduğu kimi qurdlardır. Hansı ki, bu taktika qida əldə etmək məqsədilə qış aylarında həyata keçirilirdi. Bunun üçün qurdlar iki dəstəyə bölünürdülər. Birinci dəstə fədailər adlanırdı və vəzifələri itlərə hücum idi. Özlərini geri çəkilmiş kimi göstərib qaçmağa başlayan fədailər itləri öz arxaları ilə aparırdılar. Gizlənmiş dəstənin üzə çıxmasıyla artıq məsələnin iç üzü aşkara çıxırdı. Aypara formasında düzülən qurdlar itləri əhatəyə almağa başlayırdılar. Növbəti həmlədə qurdlar ayparanı dairəyə çevirmək məqsədilə bir-birlərinə yaxınlaşırdılar. Və beləliklə düşmən mühasirəyə düşürdü. Türklər bu taktikaya əsasən, döyüş zamanı ordunu üç hissəyə ayırırdılar. Ortada dayanmış mərkəzi qoşun düşmənə hücüm edib daha sonra sanki qaçırmış kimi geri çəkilirdilər. Türk ordusunun geri çəkildiyini görən düşmən hücum sürətini artırdığı vaxtda üç hissəyə ayrılan ordunun sağ və sol bölmələri tərəfindən mühasirəyə alınaraq məhv edilirdi (1). Bu strategiyadan Malazgird, Moxaç və Mərv döyüşləri kimi əhəmiyyətli döyüşlərdə istifadə olunmuşdur. Qurd qapanından dəfələrlə istifadə olunmasına baxmayaraq böyük əksəriyyətlə uğurla nəticələnmişdir. Bu taktikadan istifadə etmiş olan, həmçinin istifadə etməyə çalışan bir sıra xalqların və şəxsiyyətlərin adını çəkmək mümkündür. Məsələn Sezar da vaxtilə qəsdən geri çəkilmədən istifadə etmişdir. Ancaq bu taktika bütün ordularda işə yaramırdı. Çünki Qurd qapanı sürətli manevr qabiliyyəti və mükəmməl oxçuluq istedadı tələb edirdi. Məsələn bu taktikadan istifadə etməyə çalışan Roma ordusunun əsasını süvari yox, piyada qüvvələri təşkil etdiyinə görə onlar uğur qazana bilməmişdilər.

Dövrün mənbələrində türklərin gecəsi və gündüzünün həmahəng olduğu, onların uğurlu hərbi səfər etmələri üçün Günəşə ehtiyac duy-

madıqları kimi maraqlı faktlar qeyd olunur. İran əsilli elçi Hümeyd: "Hərbdə ilk hücumu türklər edər, düşməni hazırlıqsız yaxalayar, sürətli hərəkət edər və gecə səfərlərində səbrli davranarlar. İstədiklərini yaxalayar, ancaq heç kəsə yaxalanmazlar. Düşmənə yağma və basqın etməkdə mahirdirlər" sözləri ilə türklərin savaş anında necə davrandıqlarını, səbrlərini və əzmlərini təsdiq etmişdir. Ancaq türklər bəzən döyüş anında qarşı tərəfin məğlub edilməsinin çətin olmasıyla da qarşılaşırdılar. Belə məqamlarda onlar geri çəkilərək düşmənin ön səddinin pozulmasına səbəb olur, bu qarışıqlıqdan istifadə edərək geri dönüb ox atışlarıyla qarşı tərəfə böyük itkilər verirdilər (12).

Bizans tarixçisi Nikita Akominat türklər haqqında belə deyir: "Bunlar bütövlükdə quldur dəstəsi kimi durmadan Romalılara basqın edir və yağmalayırdılar. İş tez-tez savaşla nəticələnir və hər səfərində onlar ordumuzu məhv edirdilər. Türklər, atlarının sürətinə güvənərək bulud kimi gözlənilmədən romalıların üstünə çökür və romalılar hələ mizraqlarından belə istifadə etmədən külək kimi itirdilər". Hun imperatoru Mete xanın Çin imperatoruna qarşı istifadə etdiyi taktika da olduqca maraqlıdır. Mete xan Çin imperatoru Kaoya qarşı özünəməxsus döyüş fəndi işlətmişdir. O, Çin imperatoru Kaonu 320 minlik ordusu ilə birgə arxasınca sürərək, geri çəkilmə, "aldatma taktikası" ilə yorur, üç tərəfdən hündür dağlarla əhatə olunmuş bir yarğana təpir, mühasirəyə alaraq ordunun hər tərəfdən əlaqəsini kəsir, ərzaq tükənir, atların yemi qurtarır. Acından qırılmaq təhlükəsi yaranır. Mühasirə 7 gün çəkir. Mete gözlənilmədən mühasirəni açır. Metenin mühasirəni açmasının sirrini hələ də dəqiq arqumentlərlə izah etmək mümkün olmamışdır. Ancaq özündən böyük ordunu aclığa düçar etmək sözsüz ki, dərin və incə düşünülmüş strateji planın nəticəsi idi. Belə hadisələrlə Türklərin tarixində tez-tez rastlaşmaq mümkündür.

*Sultan və komandanların əsgərlərə psixoloji təsiri və bunun savaş meydanındakı üstünlükləri.* Türklərin uzun məsafələrə etdikləri səfərlər, iqlim dəyişikliklərinə qısa müddətdə uyğunlaşmaları, çətin coğrafi şəraitdə belə həyatda qalmaları, məsuliyyətli və əzmli olmaları ilk növbədə, o dövrlərdə heç bir xalq ilə müqayisə olunmayacaq bir genişlikdəki coğrafiyaya yayılmalarından aydın görünür. Burada

türklərin adət-ənənələri, qaydalara sadiq olmaları, böyüklərinə qoyduqları hörmət də az rol oynamamışdır. İnsanlar müəyyən edilmiş əxlaq normalarına əməl etmiş, törənin adət və ənənələrini, qayda-qanunlarını pozmamışlar. Bu məqamlar Orxon-Yenisey və Kültigin abidələri üzərində bu cür qeyd olunur: “Böyüyün sözünə, xaqanın sözünə qulaq as, onun məsləhətini dinlə…”! Kültigin abidəsi üzərində türk xalqının böyüklüyündən, qəhrəmanlığından, adət-ənənələrə sadiq olmalarında belə bəhs olunur: “Ey türk bəyləri! Türk milləti, eşidin! Üstdən göy basmasa, altdan yer dəlinməsə, türk milləti məhv olmaz, sənin elini, adətini heç kəs poza bilməz”.

Bəs yaxşı, necə olurdu ki, ordu başçısının bir əmriylə heç düşünmədən canını verməyə hazır bir neçə nəfər yox, bütöv bir ordu mövcud olurdu? Nəzərə alsaq ki, türklər ailəyə bağlı olduğu üçün hər biri ailə sahibi olmağa can atıb, həddi-büluğa çatan kimi evlənirdilər. Bəs ailələrinin gələcək həyatlarının onlarsız davam etməsi onları narahat etmirdimi? Köçəri həyat tərzi sürdükləri zamanlarda yurdlarını müdafiə üçün onlar ölümə getməyə bir an belə tərəddüd etmirdilər.




Bəs oturaq həyata keçdikləri dönəmdə də vəziyyətin dəyişməməsini nə ilə izah etmək olar? İzahı çox sadədir. Türklər şəhid olduq-

ları zaman ailələrinin və övladlarının himayə olunacağına əmin idilər. Yusif Balasaqunlunun ordu rəhbərlərinə verdiyi nəsihətlər məsələni qısa şərh edir. O, ordu rəhbərlərinə savaşda yaralanan əsgərləri müalicə etdirmələri, əsir düşənlərin xilas edilməsini, şəhid cənazələrinin hörmətlə dəfn etməyi, şəhid olanların ailələrinə və uşaqlarına baxmağı, savaşda faydalı olanları və əsir götürənləri mükafatlandırmağı məsləhət görmüşdür. Həmçinin o: "Qorxaq əsgərin cəsarət alması üçün Sübaşı qəhrəman və cəsur olmalıdır". Fikrinin də müəllifidir. Bunları etdikləri təqdirdə əsgərlərin savaş günü onlar üçün canlarını fəda edəcəyini bildirir (4).

İzzəddin Keykavusun sözlərinə də nəzər yetirək: "Əsgərlərinlə daim maraqlan, onların heyvanları yemləməsində köməklik göstər. Çünki əsgər mərdlik və igidlik mənbəyidir. Dövlətin və xalqın qoruyucusu, ölkənin qılıncı, sultanın nizəsi, şəhərlərin qalasıdır. Boşluqlar onlarla doldurular, işlər onlarla nizama salınar. Onlar fəlakətlərin qarşısını alar, düşmənləri uzaqlaşdırarlar. Başına bir iş gəlmədən onları sınaqdan keçir. Çünki əsgərin çoxu yox, cəsur və güclü olanı faydalıdır. Savaşda uğur qazananlara çoxlu qənimət ver, rütbəsini yüksəlt. Bir kimsə sənin bayrağın altda şəhid düşərsə, uşaqlarına qucaq aç. Ailəsinə və yaxınlarına onun yoxluğunu hiss etdirmə ki, çətin zamanlarda dövlətinə və sənə yardım üçün canlarını fəda etmək onlara asan gəlsin".

Türklər "İnsanı yaşat ki, dövlət yaşasın!" fəlsəfəsinə daim əsaslanmışlar. Əl-Cahiz türklərin komandanlarına olan bağlılığından bu cür bəhs etmişdir: "Türkün əl-qolunu bağlayıb quyuya atsan, yenə də oradan çıxar. Türklərin hər biri əsl igid olsa da, onlar birlikdə fəaliyyət göstərir, komandanlığa sözsüz tabe olur". Türklər üçün savaş meydanında ölmək qürur, yataqda ölmək isə utanc hesab olunurdu. Bununla bərabər Sultanlar döyüşdən öncə əsgərləriylə motivasiya verici danışıq aparır, onlara müraciət edərək savaşa cəsarətləndirirdilər. Məsələn Malazgir döyüşündən öncə Sultan Alparslan demişdir: "Ey əsgərlər! Əgər şəhid düşsəm, bu ağ libas kəfənim olsun!" Nəticə etibariylə şəhid düşməyə hazır liderə sahib ordu daha da şövqə gəlir, canlarını heçə sayırdılar. Sultanların qətiyyətli duruşu da əsgərləri

cuşa gətirən amillərdən idi. Onlar düşmən qarşısında qorxmaz dayanıb, məğlubiyyəti düşünmürdülər. Hun imperatoru Mete xan çinlilərlə savaşdan öncə təpənin üzərində qoşunların müqayisəsinə baxıb, qətiyyətinin nümunəsi, tarixin növbəti səhifələrində də xatırlanacaq olan bu sözləri söyləmişdir: "Mən bu qədər çinlini harada basdıracağam?" Hansı ki, qoşunları çinlilərin qoşunlarından qat-qat az idi. Bu özünəgüvən türk əsgərlərinə də sirayət edirdi.

*Türklərin savaşda istifadə etdikləri psixoloji təsirlər və strateji planlar.* Tarix səhnəsində ən çox dövlət quran, ən çox savaşlar keçirən, ən böyük imperiyaları diz çökdürən, krallara əl öpdürən, məhz savaş sənətinin ən yüksək pilləsində olduğunu sübut edərək, özündən on dəfə böyük və əzəmətli olan Çin imperiyasına "Çin səddi" kimi günümüzdə böyük bir möcüzəli əsər yaratmağa vadar edən, tarixin yaddaşında "məğlubedilməz" kimi yazılan türklərin qalibiyyəti təsadüfi deyildi. Onların zəfərlərinin sirrini yalnız bilək gücündə, döyüşkənlikdə görmək düzgün deyil. Zəfər güclə yanaşı, öngörücülük, strategiya və mövcud vəziyyəti düzgün analiz etməyi tələb edir. Necə olurdu ki, Türk adı gələndə insanlar vəlvələyə düşürdülər? Nə üçün türklər uzun müddət hansısa mifoloji varlıq qədər əfsanəvi və məğlubedilməz olaraq qəbul edilmişdir?

Əslində bu düşüncə təkcə qədim dövrə deyil həm də ötən əsrin əvvəllərinə də şamil idi. Birinci dünya müharibəsinə qatılmış Tatar süvari alayı Avropada əks səda doğurmuşdu. İnsanlar Qafqazın cəngəlliklərindən kentavra bənzər, keçdikləri yerdən ot bitməyən qəribə məxluqların gəldiyinə inanırdılar. Türklərin bu cür nüfuza sahib olmalarının səbəbi nə idi? Əslində cavab elə sualın içərisində gizlənmişdir. Türklər istər döyüş meydanında, istərsə də mühasirə zamanı düşmənlərinə unudulmaz psixoloji təsirlər etmiş, elə ki, sağ qalanlar da uzun müddət bunu unuda bilməmişlər.

İslamdan öncə Türk savaşçısı savaşlara birdən çox at aparmaqla, yəhərlərə bağlı çantalarda qurudulmuş ət daşımaqla qida problemini aradan qaldıra bilirdi. Bununla da uzunmüddətli mübarizə aparmaq onlar üçün daha da asanlaşırdı. Türklərin istifadə etdikləri silahlarla yanaşı, səsləriylə insanı dəhşətə salan oxlar düşmənləri heyrət

içində qoyurdu. Oxlarından çıxan səslər düşmənin diqqətini dağıdaraq onların özlərini itirmələrinə səbəb olurdu. Türklər kəmənd atmaqda da mahir idilər. Belə ki bəzən uzaq məsafədən gələn düşmənin və ya onun atının boğazına kəməndi keçirərək onları məhv edirdilər. Türk xalqlarının hər birinin müxtəlif döyüş tərzi var idi. Məsələn Bulqar türkləri ikili mübarizə üçün qılınclarını qoltuq altlarına alaraq hücum edir, bəzən isə düşməni hərəkətsiz qoymaq üçün üzərinə tor atırdılar. Peçeneqlərin ordugahlarında isə öküz dərisiylə örtülmüş arabalar olurdu. Bunlarla ailələrini daşımaqla yanaşı savaş zamanı arabaları bir-birinə bağlayıb önlərində xəndəklər qazardılar. Beləliklə, qəfil hücumlardan müdafiə olmuş olurdular. Türklər savaş anında "Allah! Allah!" deyərək qışqırır, bəlli olmayan formada qulaq batırıcı səs-küy yaradaraq qarşı tərəfi dəhşətə salırdılar. Bilinməz qışqırıqlar, ulama səsləri düşmənlərə görə tamamilə yad bir vəziyyət idi. Və qarşılarında insan olmayan bir varlığın olduğuna elə ilk dəqiqədən inanan düşmənlər bəzən döyüşün başından qaçmağa üz tuturdular. Anna Komnena vəziyyəti belə əks etdirir: "Rumların sırasını heç bir şəkildə poza bilmirdilər. O zaman çoxlu sayda ocaqlar yandırdılar və bütün gecə boyunca qurdlar kimi ulamağa başladılar. Bəzən də rumları təhqir edirdilər". Bəzən də Türklər az sayda olmalarına baxmayaraq çox görsənməyi bacarırdılar. Yüngül silahlarla təchiz olunmuş süvarilər və atlılar dağınıq halda düşmən üzərinə hücuma keçir və beləliklə olduqlarından qat-qat artıq görsənirdilər.

Qədim xristian tarixçisi Ammian Marsellin hunları belə təsvir edir: "Onlar öz arabalarında cəlayi-vətən adamlar kimi köç edirlər. Bu arabalar onların evidir. Orada arvadları oturur. Onlar paltar tikir və uşaqları saxlayırlar. Hunlar özlərinin yöndəmsiz, amma dözümlü atlarına elə bil bitiblər. Atdan düşmədən öz işlərini görürlər: alırlar, satırlar, ictimai yığıncaqlarda da atdan düşmürlər. Onlar cəlddirlər, atları isə çox sürətlidir. Döyüş vaxtı paz şəklində düzülüb hayqıraraq düşmənin üzərinə atılırlar". Ammian Marsellin yazır ki, hunlar kəmənddən silah kimi çox məharətlə istifadə ediblər. Qılıncları düz, hər iki tərəfi kəsici olub. Uzunluğu bir metrdən artıq olurmuş. Onlar həmçinin asimmetrik kamandan da istifadə ediblər. Bu kamanların

üst hissəsi alt hissədən uzun imiş. Bu cür quruluş kamanı daha elastik və at belində çaparkən atmaq üçün daha ələyatımlı edirmiş. Türklər bacardıqları qədər döyüşsüz istədiklərini əldə etməyə cəhd edirdilər və bunu da bacarırdılar. Yenə burada da psixoloji fəndlər onların istədiklərini almasına yardım edirdi. Məsələn Səlahəddin Əyyubi 1183-cü ildə Amidin mühasirəsində şəhəri almadan geri qayıtmayacağını, əgər razı olmasalar bütün şəhəri yandıracaqlarıyla bağlı təhdid məktubları yazdırtmışdır. Bu təhdid məktublarının yüzlərcəsini oxlarla qalanın içərisinə atdırdıqdan sonra xalq qorxmuş və çarəsiz vəziyyətdə qalmışdır. Bu vəziyyət isə şəhərin savaşsız alınmasını asanlaşdırmışdır (3).

Qalanın mühasirəyə alınması və ondan sonra baş verənlər demək olar ki, oyunu xatırladır. Və daima bunları oxuyan insanlarda qəribə bir maraq oyadır. Vəziyyəti detallarıyla incələyək. Əvvəla qala mühasirəyə alınmamışdan öncə qida və silah ehtiyyatı diqqətlə hazırlanırdı. Bundan sonra əsas məqsəd qalanın kənardan gələ biləcək bütün dəstəklərdən məhrum qoyub, onların qarşısına seçimlər qoymaq idi. Bir qalanı ələ keçirməyin ən asan forması kəmənd atmaq və ya nərdivanlarla bürclərə dırmaşmaq idi. Və yaxud da qala qapılarını müxtəlif alətlərlə qırmaq qalanı ələ keçirməyin bir digər yolu idi. Qalanın ən zəif nöqtəsi təməlləri hesab olunurdu. Təməllərə lağım atmaqla qalanı ələ keçirmək ən məntiqli üsullardan biri hesab olunurdu. Hansı ki, bu taktikadan Şah İsmayıl, Çingiz xan, Əmir Teymur kimi görkəmli şəxslər istifadə etmişdir.

Belə bir nümunə olaraq Şah İsmayılın Bakı qalasını mühasirəyə alması və sonrasında baş verən hadisələri misal göstərə bilərik. 1501-ci ildə Bakı qalasının ələ keçirilməsi üçün Şah İsmayıl Mahmudabaddan Bakıya bir-başa özü gəlmişdir. Qalaya Fərrux Yasarın oğlu olan Qazı bəyin arvadı başçılıq edirdi. Onun qətiyyətli xanım olması qalanın təslim edilməsi təklifini gətirən səfiri edam etdirməsindən aydın şəkildə görünürdü. Mühasirədə olanların geri addım atmaması qalanın hücumla alınmasını zəruri edirdi. İbrahim Əmini qeyd edir ki, İsmayıl döyüşçülərin bir hissəsinə özlərinə torpaq təpələr düzəltməyi (murçal) və onlardan mühasirədə olanlara atəş açmaq

üçün istifadə etməyi əmr etmişdir. Digər qrupa isə qoşunların qala xəndəklərindən asanlıqla keçə bilməsi üşün onları torpaq və daşla doldurmaq barədə göstəriş verilmişdi. "İstehkamçılar" (nəqəbçiyan) qala bürcünün altından lağım atdılar və onun özülündən böyük bir daşı vurub parçalayanda bürc uçdu, divarda iri yarıq əmələ gəldi. Hətta bundan sonra da bakılılar silahı yerə qoymadılar; onlar divardakı yarığı keçə çadırla (yaxud xalça ilə) tutdular və daha üç gün davam gətirdilər. Nəhayət Şah İsmayılın qoşunları şəhəri ələ keçirdilər (6). Ancaq lağım qazanlar həmişə müvəffəqiyət qazana bilmirdilər. Bunun üçün də digər strateji fikirlər ortaya çıxırdı.

Bəzən qala haqqındakı əfsanələri dəyərləndirmək belə mövcud vəziyyətdən çıxış yolu tapmağa yardım edirdi. Bu cür əfsanələr əsasən qalanın daxilinə keçmək üçün gizli bir keçidin mövcud olmasıyla bağlı idi. Məsələn Xarput qalasının yaxınlığındakı bir kilsədən həqiqətən də qalaya gedən yeraltı keçid mövcud idi. Qalanın mancanaqlar vasitəsilə dağılması da dövr üçün aktual üsullardan biri idi. Ancaq bu hər zaman işə yarayan vasitə deyildi. Tarixin müxtəlif dövrlərində hətta bəzi təsadüflər də fəthə aparmışdır. Məsələn Ani qalasının mühasirəsi zamanı qalanın bir hissəsi durduq yerə bəlkə də zəlzələyə görə uçmuşdu. Bəzən qalanın strateji mövqeyi onun işğalını qeyri mümkün qılırdı. Bu zamanlarda ediləcək ən təsirli şey qalanın su və qida ehtiyyatını kəsməklə onların müqavimətini qırmaq idi. Dəməşq şəhərinin mühasirəsində uğursuzluğunu görən Suriya Səlcuq hökmdarı Adsız da bu cür taktikadan istifadə etmişdir. Dəməşqə bağlı əraziləri 4 il ərzində biçin zamanı yağmalayıb məhsulu ələ keçirmiş, beləliklə də öz ordusu güclənmiş, Dəməşq camaatının isə müqaviməti qırılmışdır (2). Qalanın müqavimətini qırmaq üçün psixoloji təsirlərin də mühüm rolu olmuşdur. Mancanaqlar sadəcə qalanın uçurulması üçün istifadə olunmamış həm də qalada olanları qorxuda saxlamaq üçün də istifadə olunmuşdur. Mancanaqlarla torbalara qoyulmuş kəsik başlar, ilan, əqrəb, zəhərli həşərat, ölü atlar, hətta vəbadan ölən insanların cəsədləri belə qalanın içinə atılırdı. Sonuncu bioloji silah hesab olunurdu. Hərb tarixində bir çox taktikaların memarı olan Çingiz xan elə bioloji silahdan da ilk istifadə edən şəxs kimi tarixə dü-

şüb. Daha sonra onun nəvəsi Batu xan Moğol ordusuna rəhbərlik edən zaman Krımı tutmaq istəyir. Lakin Krım qalası güclü Moğol ordusuna həmən təslim olmaq istəmir. Onlara qarşı müqavimətin gərəksiz olduğunu düşünən Batu xan babasının bioloji silah taktikasından istifadə edir. O, əsir kimi saxladıqları vəba xəstələrini öldürüb onların cəsədlərini mancanaqla qalaya atdırır. Aramsız ox axını səbəbindən qaladakılar cəsədlərdən dərhal qurtula bilmirlər. Beləcə, mancanaqlar vasitəsilə qalaya atılan xeyli vəbalı cəsədlər orada ölümcül mikrobları yayır. Nəticədə qaladakı sağlam döyüşçülərin əksəriyyəti bu yoluxucu xəstəliyə düçar olur. Krım qalası məhz bu cür-bioloji silahın sayəsində alınır. Savaş anında istifadə olunan taktikalar, atılan addımlar insanda qeyri ixtiyari xof yarada bilər. Ancaq bunlar türklərin mətin xalq olduğu gerçəyini dəyişdirmir.

Türkün xasiyyəti və psixologiyasının xüsusiyyətlərinin əsasları: hər bir türk demokratiya prinsiplərinə bağlıdır, intizamı sevəndir, ailə və namus anlayışı onda müqəddəs dərəcəsinə yüksəlmişdir, qonaqsevəndir, mütavazidir, sülhsevəndir, Vətən və millət xidmətində daima hazır bir əsgərdir (7). Türklərin bu yüksək insani və mədəni xüsusiyyətləri, onların milli hərəkatındakı və millətlərarası münasibətlərindəki rolunu müəyyən etmişdir. Təbii və tarixi şəraitin dəyişilməsilə özündə yeni bir vətən qurmaq istəyini duyması, qurduğu yeni vətəndə yeni dövlətlər yaratmaq qüdrətini göstərməsi, başqalarında gördüyü yenilikləri qəbul edib yeni mədəniyyət nümunələri meydana gətirməsi bu xüsusiyyətlər sayəsindədir. Türklər bu xüsusiyyətlər sayəsində dünyanın bir çox bölgəsini işıqlandırmış, idarə etmişdir.

*Nəticə.* Türk dünyası dedikdə, gözümüzün önündə böyük bir düha, sonsuz bir cahan, yenilməz bir qüvvə canlanır. Türk dünyası dedikdə, mərdlik, vətənpərvərlik, igidlik və səxavət mücəssəməsi olan xalqlar anılır. Yayıldıqları geniş areal, əldə etdikləri qələbələrlə düşmənləri daim narahat etmiş Türklər bu qələbələri öz dərin zəkaları və biləklərinin gücünün vəhdətindən əldə etmişlər. Türklər savaş sənətində həm taktika, həm də psixoloji təsir vasitələrindən mükəmməl şəkildə istifadə edərək düşməni məğlub etməklə yanaşı, qalibiyyətin sirrlərilə düşməndə dərin maraq oyatmışlar. Savaş iki qəzəbli

qrupun toqquşmasından daha geniş mənaya sahibdir. Bəzilərinə görə fikirlərin, sistemlərin və yaxud dinlərin yayılmasındakı mühüm faktorlardan biridir. Siyasi tarixi müəyyənləşdirən təməl daşlarıdır. Bir düşüncəyə görə isə savaş, cəmiyyətin balansda saxlanılmasını mümkün qılan təbii seleksiyadır. Bu şəkildə dəyərləndirmələrin səbəbi savaşların mütləq nəticələrinin olmasından aslıdır. Nəticə etibarilə hər savaşda tərəflər, qazanmaq üçün bütün bacarıqlarını ortaya qoymaq məcburiyyətindədirlər. Türklər bu bacarıqlarına görə seçilən xalqlardan biri bəlkə də birincisidir. Ancaq çox təəssüf ki, doğulduqları andan savaşçı kimi yetişdirilən bu insanlar, xüsusilə komandanlar haqqında yazılı mətnlərin azlığı məsələnin onlar tərəfindən olan qisimini müəyyənləşdirməkdə çətinlik törədir. Əlimizdə olan taktika və strateji planlarla bağlı məlumatların çoxu digər xalqlar tərəfindən qələmə alınmış materiallardır. Türklər hadisələrdə baş rolda olmalarına baxmayaraq olanları qeyd edənlər ya düşmən komandanları ya da eşitdiklərini qələmə alan tarixçilərdir. Beləliklə də onların planlarıyla qarşı-qarşıya gələn düşmənin düşüncə və hisslərini aydın gördüyümüz halda türklərin vəziyyətindən bixəbər qalırıq. Ancaq türkün savaş meydanına qədər və savaş meydanında olan psixoloji və hərbi vəziyyəti uzun inkişaf yolu keçmişdir. Üstəlik Türk savaş sənətinin əsas xüsusiyyəti onun "sürətli" dəyişimə məruz qalmasıdır. Hansı ki, bu dəyişim düşmənin sayından tutmuş mühasirədə olan qalanın strateji mövqeyinə qədər müxtəlif amillərdən aslıdır. Məhz bu amillərə görə tarixin böyük zaman kəsiyində türklər böyük bir areala sahib olmuş, tarixin axışına yön vermişlər.

ƏDƏBİYYAT:

1. Adnan Güney. Türk siyasal milli kültüründe devlet anlayışı. Yüksek lisans tezi. İsparta, 2002, s.106. Mənbə: https://core.ac.uk/download/pdf/35314152.pdf [Müraciət tarixi: 20.05.2020]
2. Ahmet Nurullah Özdal. Selçuklu coğrafyasında türklerin savaş sanatı (XI-XIV.YY). Yüksek lisans tezi. İstanbul, 2005, s.166. Mənbə:

https://katalog.marmara.edu.tr/eyayin/tez/T0052658.pdf [Müraciət tarixi: 20.05.2020]
3. Ahmet N.Özdal. Türklerin savaş sanatı. İstanbul, Timaş Yayınları, 2019, s.240.
4. Ali Çırak. Kısa Tarih. E-kitab, 2020, s.25.
5. Bayat Füzuli. Atlı savaş oyunları / F.X.Gözəlov, M.K.İmanov, İ.F.Rüstəmzadə, T.T.Orucov, E.H.Abbasov. Qarabağ xalq oyunları və meydan tamaşaları kitabında. Bakı, AR Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, s.18-45. Mənbə: http://www.sdf.gov.az/development/uploads/qrantlar_uzre_neshrler/eif_kitabrlar/xalq_oyunlari_f_gozelov.pdf [Müraciət tarixi: 20.05.2020]
6. Əfəndiyev Oqtay. Azərbaycan Səfəvi dövləti. Bakı, Şərq-Qərb, 2007, s.407.
7. İbrahim Sarı. Türkün ahlakı. Antalya, NoktaE-book, 2016, s.94. Mənbə: https://books.google.az/books?id=KyfcDQAAQBAJ&pg=PA93&lpg=PA93&dq=%C4%B0brahim+S.+T%C3%BCrk%C3%BCn+Ahlak%C4%B1&source=bl&ots=diHwflk4-y&sig=ACfU3U3tUP1mw3B9pmL_oMVE8PggF1vCvA&hl=ru&sa=X&ved=2ahUKEwjGjNTKhYfqAhXjwosKHdJ0CswQ6AEwCHoECAoQAQ#v=onepage&q=%C4%B0brahim%20S.%20T%C3%BCrk%C3%BCn%20Ahlak%C4%B1&f=false [Müraciət tarixi: 20.05.2020]
8. Kayrat Belek. Eski türklerde at ve at kültürü // Gazi Türkiyat, Bahar 2015, Sayı: 16, s.114-128. Mənbə: http://gazi.edu.tr/posts/download?id=133599 [Müraciət tarixi: 20.05.2020]
9. Qasımlı Aydın. Türklər (tarixi oçerklər). Bakı, “E.L.”, 2012, s.527. Mənbə: http://anl.az/el/Kitab/2013/Azf-272414.pdf [Müraciət tarixi: 20.05.2020]
10. Qumilyov L.N. Qədim türklər. Bakı, Gənclik, 1993, s.544
11. Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı, Azərbaycan Milli Ensiklopediya NBP, 2003, s.108. Mənbə:

http://www.ebooks.az/view/0TXex1uq.pdf [Müraciət tarixi: 20.05.2020]
12. Sefa Özkaya. Hunlardan Günümüze Türk askeri kültürü (Kutulu): Tarih, Strateji, İstihbarat, Teşkilat, Tekholoji. İstanbul, Kronik Kitap, 2019, s.880.

**FIZZA MAMMADOVA**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

# PSYCHOLOGICAL AND MILITARY TACTICS IN TURKISH MARTIAL ARTS

The history of the Turkish nation is almost as old as human history. Turks have been part of history for thousands of years. Since ancient times, the Turks rode horses over vast areas from sunrise to sunset, building dozens of empires and forcing the most invincible commanders to bow before them. The elites and ruling classes of the Central and East Asia have been the Turks for thounds of years. What could be the reason behind it? The mass of people? Not exactly. The number of Chinese and Indian people alone is often higher than the combined number of all other nations on earth. Nevertheless, why the Turks had been ruling China, India, Afghanistan, Iran and Arab countries for centuries? Having skill, strength, and competence to lead an entirearmy is one of the reasons and regulations of the Turks led to their strict discipline. The impact of their role on modern Turkish societies is impossible to miss: the way they prioritized their families and followed moral norms. In addition, their knowledge of human psychology, or their handling, making use of the psychological effects (handling very well emotionally challenging situations) if to be exact, led them to pursue absolute victories. The role of physical strength should also be mentioned. We should forget mentioning their physical strength. The physical strength of a Turkish soldier, who has been trained under challenging conditions since childhood, has been the main topic of prmary sources of

Turkish history for centuries. All these factors led the Turks to make records of the victories that have been talked about for millemnia.

*Keywords:* Turkish martial arts, Wolf trap, pyschological warfare, education in Turks, morality in Turks.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94"19/..."

**GULJANNAT HUSEYNLI**
***Master's degree student at the University of Rome Tor Vergata***
**E-mail: guljannat.huseynli@students.uniroma2.eu**

# THE NEW GLOBAL ORDER AFTER WWII: ESTABLISHMENT OF THE INTERNATIONAL ORGANIZATIONS AND TURKEY'S COOPERATION WITH DEMOCRATIC WEST

*Academic Advisors:*
PhD Sevinj Ruintan
Baku State University
Javid Alisgandarli
Young Researchers Association of Turkic World

*This article researches the transition from the hot war to the cold war after the Second World War. It draws attention to the bipolarization of the global order between the US and the USSR as well as discusses different attempts to global peace and security from two diverse ideologies – democracy and marxism, through the international organizations and global cooperation. Furthermore, it tents to clarify the issues of pro-democratic and pro-Western characteristics of the Turkish foreign policy from the beginning of the Cold War to the events of the in the framework of global cooperation.*

*Keywords*: WWII, Cold war, ideological struggle, world socialist system, Truman doctrine, Marshall plan, Turkey

*Introduction.* After WWII, the world faced the worst humanitarian crisis of history. After WWII, global powers and smaller countries got hesitated regarding the future of humanity and our planet. It brings along the big question "what to do in order to avoid this kind of war again?". The answer was not easy to find in the bipolar world. Thus, the change in the world order has become utmost important. International cooperation and non-nationalistic ideologies were the keys to the harmony of humanity. The world should have cooperated along with changing the political regimes and ideological

approaches and ensure that every human in the world has equal access to their rights, and they feel safe.

15. Özgül Esin. 1917 Balfour Deklarasyonu ve Filistin`e Yahudi Göçü. Yüksek Lisans Tezi. Balıkesir, 2018, 233 s. Kaynak: http://dspace.balikesir.edu.tr/xmlui/bitstream/handle/20.500.12462/3342/Esin_%c3%96zg%c3%bcl.pdf?sequence=1&isAllowed=y [Erişim tarihi: 20.05.2020]
16. Rubinstein A. The Kibbutz & Moshav: History & Overview / Jewish Virtual Library, July 10, 2007. Kaynak: https://www.jewishvirtuallibrary.org/history-and-overview-of-the-kibbutz-movement [Erişim tarihi: 20.05.2020]
17. Telushkin J. Zionism:BILU / Jewish Virtual Library. 1991. Kaynak: https://www.jewishvirtuallibrary.org/bilu [Erişim tarihi:20.05.2020]
18. The Balfour Declaration / Web site of Israel Ministry of Foreign Affairs. Kaynak: https://mfa.gov.il/mfa/foreignpolicy/peace/guide/pages/the%20balfour%20declaration.aspx [Erişim tarihi:20.05.2020]

19. Wimalaratana W. International Migration and Migration Theories // Social Affairs, Vol.1, No.5, Fall 2016, p.13-32. Kaynak: https://www.researchgate.net/publication/312211237_INTERNATIONAL_MIGRATION_AND_MIGRATION_THEORIES [Erişim tarihi: 20.05.2020]
20. Yetkin Ömer. Yahudi Diasporası İletişim Stratejisi: ABD Örneği. Ankara: Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, 2014, s.133. Kaynak: https://ytbweb1.blob.core.windows.net/files/resimler/thesis/oemer-yetkin-yahudi-diasporasi-iletisim-stratejisi.pdf [Erişim tarihi: 20.05.2020]

**LALA NAGHIYEVA**
***Master Programme in Migration Policy and Researches***
***Ankara Yildirim Beyazit University, Turkey***

## JEWISH EMIGRATION TO ISRAEL IN THE POST-BALFOUR DECLARATION ERA

As Jerusalem city`s known land of three holy religions and has a great geopolitical and geo-strategic importance for global powers, all the time political, religious and cultural conflicts are being observed in these lands. From this point of view, the relations between Palestine and Israel are being argued, are being investigated as a significant problem for conflict resolution. If we consider that the conflicts have arisen after the establishment of the state of Israel, we need to examine the Jewish migration, which has become a mass with the Balfour Declaration that has supported the establishment of the state. Jewish migration before and after the Balfour Declaration, Jewish Diaspora and the situation in the region are studied in this article.

*Key words:* Palestine, Israel, Balfour Declaration, Diaspora, Migration.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 7(4/9)

**LAMİYƏ SADIQOVA**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: lamiyes19113@sabah.edu.az**

# PROTO-TÜRKLƏRDƏ YAZI

*Elmi rəhbər*:
fəlsəfə doktoru Talqat Moldobay
L.N.Qumilyev adına Avrasiya Dövlət Universiteti,
Qazaxıstan

*Türklər hər zaman köçəri xalqlar olaraq tanıdıldığından, onlarda yazının, oturaq həyatın, dövlət quruluşunun çox gec meydana gəldiyi düşünülür. Türklərə aid ən qədi yazılı mənbələrinin " Orxan-Yenisey" abidələri olduğu bir çox tarixçilər tərəfindən qəbul edilir. Lakin Türklərin Göytürklərdən öncə də yazıya malik olması haqqında tarixi abidələrin mövcudluğu bu fikir haqqında yenidən düşünməyə səbəb olur. Bu məqalədə Göytürklərdən öncə türklərdə yazının olması barədə bir çox Türkiyə və Qərb tarixçilərinin, tarixi abidələrin tədqiqi nəticəsində gəlinən ümumi fikirlərdən bəhs ediləcək.*

*Açar sözlər*: Proto-Türk, Damğa, Yazı, Əlifba.

*Giriş*. Türk xalqları tarix boyu geniş coğrafiyalara yayılaraq mədəniyyətlərini yaymış, dövlət qurmuş və mövcudlarını tarixin dərinliklərindən bugünə qədər davam etdirmişlər. Tarix boyu millətlərin iki cür sərhədləri olmuşdur: siyasi sərhədlər, mədəni sərhədlər. Siyasi sərhədlər dövlətlərin rəsmi olaraq dünya xəritəsi üzərində qəbul edilən sərhədlərdir. Mədəni sərhədlər isə hər hansı bir millətin tarixin müəyyən zamanlarında yaşadığı, bu gün də yaşadığı və mədəniyyətlərini yaydıqları ərazilərdir. Siyasi sərhədlər zaman-zaman dəyişir, genişlənir, kiçilir, yəni qalıcı olmur. Mədəni sərhədlər isə daima qalıcı olur və yayılır. Bu səbəbdən hər bir millət öz mədəni sərhəddini genişləndirmək, inkişaf etdirmək üçün çalışır. Çünki dövlətlərin davamlılığı, inkişafı və dünyadakı yeri mədəniyyətinin qədimli-

yindən və yayılmasından asılıdır. Türk millətinin mədəni sərhədləri Asiya, Avropa, Afrika, Amerika qitələrinə qədər yayılmışdır. Bu gün belə bir geniş əraziyə yayılmış türkləri bir-birinə bağlayan ən vacib əlaqə dil, yazı, mədəniyyətdir. Sadə bir tərif ilə mədəniyyət: "Tarixi və ictimai inkişaf prossesində yaradılan maddi və mənəvi dəyərlərdir. Bir milləti digər millətlərdən fərqləndirən xüsusiyyətlərdir". Türk xalqları yaşadıqları yerlərdə öz mədəniyyətlərinə aid kurqan, bəngü daş, qaya rəsmləri, damğa., yazı kimi bir çox maddi abidələr buraxmışlar və bunlardan ən önəmlisi yazıdır. Yazıya tarixi gerçəklərin işıqlandırılmasında böyük ehtiyac vardır. Bu yazılar obyektiv olaraq yazıldığından daha dəyərli mənbələrdir. Türklərin yazılı mənbələri geniş şəkildə tədqiq olunmadığından təəssüf hissi ilə qeyd etməliyik ki biz öz tariximizi başqa xalqların yazılı mənbələrinə əsaslanaraq birtərəfli və təhrif olunmuş şəkildə öyrənirirk (4, s.186-189).

*Proto-Türklər kimdir?* Fransız türkoloq Jan-Pol-Ruya görə, bir çox tarixçilər yanlış edərək, Göytürk imperatorluğunun yaranması ilə hunların özlərinə ilk dəfə rəsmi olaraq türk adını qəbul etməsinə əsaslanaraq, türk sözünün bizim eranın VI əsrində yarandığını və ondan öncə olan hadisələrin türk xalqlarına aid olmadığını bildirirlər. Əlbəttə, türklər eradan əvvəlki zamanlarda da mövcud idi və bir çox tarixi faktlar bunu sübut edir. Qədim Çin mənbələrində "Tue'kue" adlı xalqlardan bəhs edilir, bu sözün mənası türk sözüdür və bu fakt "Türk" foneminin eradan əvvəlķi dövürlərə də aid olduğunun əyani sübutudur. Jan-Pol-Ru öz tədqiqatlarına əsaslanaraq VI əsrdən əvvəlki dövürdə yaşayan türkləri Proto-Türk və ya Ön-Türklər adlandırır (6, s.5).

Proto-Türklər Türk dil ailəsinə mənsub dildə danışan anerlik sonra isə digər toplumların təsiriylə ataerlik topluma çevrilən qədim tüklərdir. Proto-Türklərin bir qismi Mərkəzi Asiyada_quraqlığın və qıtlığın olması səbəbiylə Alyaskadakı Berinq körfəzi vasitəsiylə e.ə. 20000-1700-ci illərdə Şimali Amerika qitəsinə getmişlər və orada daimi olaraq yaşamışlar. Sonrala e.ə.1200-1000-ci illərdə Cənubi Amerikaya gedən Proto-Türklər orada Maya, İnk, Astek sivilizasiyalarını yaratmışlar və X.Kolumbun Amerikaya gedişinə - XV əsrə

qədər öz mövcudluqlarını qoruyub saxlamışlar. Amerika yerlilərinin dini ayinlərində, məişət və adət-ənənələrində, sözlərində, yazı sistemlərində türklərlə oxşarlıq buna sübutdur. Türklər və Amerika yerlilərinin eyni soya mənsub olmaları 2019-cu ildə DNA testləri nəticəsində elm adamları tərəfindən təsdiq edilmişdir (11, s.24-25).

Proto-Türklərin yaratdıqları Anau mədəniyyəti Mərkəzi Asiyada tapılan ən qədim mədəniyyət mərkəzidir. Bu abidələr Türkmənistanın paytaxtı olan Aşqabad şəhərinin yaxınlığındakı qazıntılar nəticəsində aşkar edilmişdir. Proto-Türklər burada oturaq həyat yaşamış, kərpicdən evlər tikmiş, saxsı qablar düzəltmiş, bir çox əşyaların üzərini damğalar və naxışlarla bəzəmişlər. Türkiyə tarixçisi Z.V.Toğan Anau mədəniyyətinin e.ə.9000-ci illərdən başlaya biləcəyini bildirir. Proto-Türklər e.ə.25000-1700-ci illər arasında Afanisiyevo, e.ə.1700-1200-ci illərdə Andronovo mədəniyyətini yaratmışlar, sonra isə Altay dağları və Tanrı dağlarının ətəklərinə köç etmişlər. Afanasyevo, Andronovoda türk damğalarından geniş şəkildə istifadə etmişlər. Bu mədəniyyət abidələri türklərin sadəcə köçəri xalq olduğu inancını təkzib edir. Çünki türklər burada öz mədəniyyətlərini yaratmış, evlər inşa etmiş, dulus istehsal etmiş, qızılla işləmiş, metaldan əşyalar hazırlamış və onların üzərinə yazılarını həkk etmişlər (8, s.69-70, 101-102).

Proto-Türklərin bir qismi e.ə.I minilliyin əvvəllərində Ön Asiyaya, Şimali Qafqaza, Cənub-Şərqi Avropaya yürüşlər etmiş və orada məskunlaşmışlar. Getdikləri ərazilərdə öz damğalarının, yazılarının izlərini qoymuşlar. Proto-Türk tədqiqatçıları kimi Türkiyə tarixçiləri Kazım Mirşan, Xaliq Tarcan, Reyha Oğuz Türkkan, Fransız Türkoloq Jan-Pol-Ru və Azərbaycan tədqiqatçısı Firudin Ağasıyevin adlarını qeyd etmək olar.

*Proto-Türk yazıları nə zaman yaranmışdır?* Göytürk run yazıları haqqında VI əsrdə yaşamış görkəmli Suriya tarixçisi Zaxariya Riton bildirir ki, “Bizim zamanımızdan çox əvvəllərdən hunların öz dillərində yazıları yaranmışdı”. Həmçinin VI əsr Bizans tarixçisi N.V.Piqulevskayanın yazdığına görə, Türklər 568-ci ildə Konstantinopola məktub göndərmişlər. Və bu məktubun hansı yazıyla yazıl-

ması barədə bildirmişdir ki, "Çox güman ki, bu yazı Hun yazısı, skif yazısı adlandırılan türk yazısı və ya soğd yazısı ola bilər". Bu tarixi mənbələr Göytürk-run yazısının VI əsrdə artıq mövcud olduğunu və bu yazıların digər xalqlar və dövlətlər tərəfindən tanındığını təsdiq edir (12, s.7-8).

Proto-Türk tədqiqatçısı olan K.Mirşan Orxan-Yenisey kitabələrindəki dil və nöqtələmə işarələrinin bu əlifbanın ən yüksək inkişaf etmiş səviyyədə olduğunu göstərdiyini bildirmiş, belə bir əlifbanın formmalaşması üçün ən azı 3000 ilə ehtiyac olduğunu bildimişdir. Qazaxıstanın Alma-Ata şəhəri yaxınlığındakı e.ə.V-IV əsrlərdə yaşamış İskit şəhzadəsinə aid Eşik kurqanında tapılmış türk-run yazıları buna ən gözəl nümunələrdən biridir. "Qızıl Adam"ın (Altın Adam) məzarındakı əşyaların üzərində türk-run əlifbasıyla "Xanın oğlu 23-ündə öldü, İskit xalqının başı sağolsun" yazılmışdır. Bu yazı nümunəsi Orxan-Yenisey yazılarıyla eynilik təşkil edir, bu fakt türk-run yazılarının e.ə.V əsrdə də istifadə edildiyini göstərir (7, s.45-50).

*Proto-Türk yazılarına hansı ərazilərdə rast gəlinir?* Türk xalqları zamanla piktoqrafik, piktoqram, ideoqrafik və fonetik yazı sistemlərindən istifadə etmişlər. Türk-run yazısı öz təməlini Proto-Türklərin damğa işarələrindən götürmüşdür. Damğalar qayaüstü rəsmlərin inkişaf etdirilib, stilizə edilməsi nəticəsində yaranmışdır. Elmə məlum olan ən qədim damğalar 16000 il bundan əvvəl yaradılmışdır, bunu mağaralarda, əşyaların üzərində aşkar edilən damğalar sübut edir. Qədim ornamentlərin ilk nümunələri Paleolit dövrünə aid qayaüstü təsvirlərdə, arxeoloji qazıntılar nəticəsində aşkar olunan saxsı qablar, daş, sümük, bəzək əşyalarında rast gəlinir. Altayda Taşık çayı sahilində qayaların üzərində eramızdan əvvəllərə aid türk-run yazılarındakı hərflərə oxşar çoxlu damğa işarələri aşkar edilmişdir (16, s.311).

Göytürk dövlətinə məxsus Kül-Tigininn (732), Bilgə xaqanın (735), Tonyukukun (716) şərəfinə qoyulan abidələrdə türk-run əlifbasından istifadə edilmişdir. Bu yazılara Altay, Şimali Monqolustan ərazilərində rast gəlinir. İlk Yenisey yazılarını 1721-1722-ci illərdə I Pyotrun xidmətində olmuş isveçli D.Messerşimid və onu müşayiət

etmiş F.I.Tabbers tərəfindən aşkar edilmişdir. Türk-run yazılarının oxunması tarixi 1893-cü ildən başlayır. Bu sahədə İsveç alimi V.Tomsen, Rus türkoloqları V.V.Radlovun və S.E.Malovun böyük xidmətləri olmuşdur (3, s.37-41).

Türk-run yazılı daşlar haqqında XIII əsrin görkəmli nümayəndəsi olan Ata Məlik Cüveyni "Müqavilə" əsərində "Monqolustanda dikili daşların olduğunu və daşların üzərində bilinməyən damğalarla yazıların yazıldığını və bu yazıları heç kimin oxuya bilmədiyini bildirmişdir". 1983-cü ildə Vilhelm Tomsen Göytürk-run əlifbasını oxumuş və bu əlifbanı "tenqri" və "türk" sözləri əsasında açmışdır. V.Tomsen 38 hərfin mənasını izah edə bilmiş və bu əlifbanın tamamilə türk əlifbası olduğunu bildirmişdir (12, s.7).

Mərkəzi Asiyada, Sibirdə, Şərqi Türküstanda-Toyotda, Qırğızıstanda-Tamqalı Sayda, Macaeıstanda-Müqəddəs Nikola kəndində, Qazaxıstanda-Talas çayı vadisində, İssık gölü hövzəsində, Cambul bölgəsində, Şimali Monqolustanda, Aşağı Volqaboyunda və Şimali Qafqazda minlərlə türk-run əlifbasına aid abidələr aşkar edilmişdir və bu yazıların bir qismi oxunduqda bu yazıların Proto-Türk yazıları olduğu sübuta yetirilmişdir. Karbon testləriylə bu yazıların e.ə.I minillik və daha öncələrinə aid olduqları və türklərin axınları zamanı yazıldıqları təsdiq edilmişdir (12, s.50-53).

Anadolunun Girit, Qars, Ərzincan, Iğdır, Samsun, Hakkari bölgələrində qayaların üzərində, mağaralarda, bəngüdaşlarda e.ə.VII minilliyə və sonralara aid türk-run yazıları, damğalar aşkar edilmişdir. Qədim mağaralarda bu yazıların mövcudluğu türklərin Anadolunun gəlmə xalq olmadığına və Proto-Türklərin burada qədimdən məskunlaşmasına sübutdur. Qars Kağızmanda türklərin Anadoludakı izlərini sübuta yetirən 70-ə yaxın qaya rəsmləri aşkar olunub. Qaya rəsmlərində at təsvirləri, süvari rəsmləri, həyat ağacı təsvirləri, damğalar və başqa motivlər xüsusi yer tutur. Atatürk Universitetinin professoru Alparslan Ceylan türk dünyasına aid tarixi və arxeoloji araşdırmalardan belə bir nəticəyə gəlmişdir ki, Qars qədim zamanlardan "Mərkəzi Asiya ilə Anadolu arasında körpü rolunu oynamışdır". Kömürlü, Çiçəkli, Tunçkaya kimi qaya rəsmləri sübut edir

ki, türk boyları Anadoluya gələrkən onların yazı sistemləri mövcud olmuşdur. Adadoluda aşkar edilən Proto-Türk qəbir abidələri və bəngüdaşların üzərindəki yazılar da bunu sübut edir (15, s.72-78).

Azərbaycan ərazisində Proto-Türk yazılarına Kür-Araz mədəniyyəti zamanında rast gəlinir, bu mədəniyyət e.ə.IV-III minillikləri əhatə edir. Azərbaycanda bu dövrə aid Babadərviş, Kültəpə, Qaraköməktəpə, Göytəpə, Üçoğlan kimi yaşayış məskənləri salınmışdır. Gürcü tarixçi Nino Şanşaşvili "Kür-Araz mədəniyyəti keramikasında sişarələr və simvollar" adlı tədqiqat əsərində bildirir ki, "Kür-Araz mədəniyyətinə aid keramikaların üzərində piktoqrafik yazılardan istifadə olunmuşdur və bu yazılar naxışlardan kəskin şəkildə fərqlənir. Görünür, bu qablar müəyyən məqsəd üçün yazılmış və üzərindəki işarələr sadəcə dekorativ mahiyyət daşımır". Tədqiqatçının fikirinə görə, bu yazılar üzə çıxar-çıxmaz, dərhal alimlərin diqqətini çəkmiş və bu damğa və işarələrin ən qədim yazı nümunələri olması barədə fikirlər ortaya çıxmışdır. Üzərində yazılar olan bir qab Ürmiya gölü yaxınlığındakı Kür-Araz mədəniyyətinə aid Yanıqtəpə yaşayış məskənindən tapılmışdır. Ç.Barneyin sözlərinə görə, bu qabın üzərində cızılmış işarələr yerli xalqların öz yazısını yaratmaq cəhdidir. Onun fikrincə, e.ə.III minillikdə İran yaylasında yaşayan türklər yazıdan istifadə edib, bu yazı Erkən Tunc dövrünə aid keramikada rast gəlinən ideoqrmalardan-damğalardan təşəkkül tapıb. S.Bayner həmin yazıların Urmiya gölü ətrafında yerləşən Təpə-Sialkdan tapılmış Proto-Elam yazılarından fərqli yazı olduğunu təsdiqləşimdir. Bu yazılarla tanış olan alimlər bunların Proto-Türklərin istifadə etdiyi yazı olduğu qənaətinə gəliblər. Maraqlıdır ki, Kür-Araz mədəniyyəti dövrünə aid keramik qablar üzərindəli türk damğaları öz bolluğu ilə fərqlənir. Bu tip damğalara Kür-Araz mədəniyyətinin yayıldığı bütün ölkələrin ərazilərində: Azərbaycan, Ermənistan, Gürcüstan, Şərqi Anadolu, Cənubi Azərbaycan, İran, Şimali Qafqazda rast gəlinir. Bu işarələrin bir qismi piktoqram, bir qismi piktoqramla damğalar arasında keçid mərhələsinin işarələri, bəziləri isə sırf damğa xüsusiyyəti daşıyır. Bilavasitə damğalara gəldikdə isə, onlardan daha çox eyni dövrün maldar əhalisi istifadə etmişdir. Üstəlik onların fəaliyyət göstərdik-

ləri coğrafiya Kür-Araz mədəniyyəti dövrünün əkinçilərinin yaşayış arealından çox-çox geniş olmuş, məhz onlar Kür-Araz mədəniyyətini Avrasiyaya yaymışlar. Metallurgiya, mədənçilik, dulusçuluq, at minmək, araba düzəltmək, şalvar geyinmək onlardan başqa xaqlara keçmiş, yazı mədəniyyətini yaymışlar. Getdikləri hər yerə öz boy damğalarını həkk etməti də, təbii ki, unutmamışlar.

Dilçi alim F.Ağasıyev "Azər xalqı" əsərində bildirir ki, "XIX əsrdən bəri V.Tomsen, İ.Aristov, A.Emre, İ.Batmanov kimi alimlər türk-run əlifbasının Proto-Türk damğalarından yaranması fikirini bəzən güman, bəzən də qəti şəkildə söyləmişlər və örnəklərlə fikirlərini əsaslandırmışlar". Onlardan daha əvvəl damğaların inkişaf etdirilərək türk-run əlifbası yaradılması fikirini Türkmən şairi Əndalip "Oğuznamə" əsərində qələmə almışdır və damğaların qədim türklərə aid olduğunu bildirmişdir. Çünki xalq arasında qədim zamanlardan yazının 24 boyun damğasından törəməsi, boylara isə damğaların Oğuz xan tərəfindən verilməsi inamı vardı. Türk-run yazılarının damğalardan törəməsi fikirinin bir çix türkoloqlar tərəfindən müdafiə edildiyini S.Klyaştornıy təsdiq edir. Onun sözlərinə görə, bu fikir türk-run yazıları deşifrə edilməmişdən öncə də mövcud idi. Bu sahədə söz sahibi olan XIX əsr alimlərdən N.Aristov və Q.Vamberi Yenisey yazı işarələrinin Sibir tatarlarının soy damğaları ilə üst-üstə düşdüyünə diqqət çəkərək, türk-run yazılarının həmin damğalardan törədiyi fikirini irəli sürmüşlər. A.Aristov yazmışdır: "Çox qədim zamanlarda mövcud olmuş soy damğaları türk-run əlifbasına tətbiq olunub". Məsələ burasındadır ki, bir çox tanınmış dilçi alimlər təkcə türk yazısının deyil, ümumiyyətlə, ilk fonetik yazı işarələrinin damğalardan yarandığını və onlar üçün qaynaq rolunda isə Proto-Türk damğa və işarələrin çıxış etdiyini bildirir. Proto-Türk damğa işarələrinə Qobustan və Gəmiqayanın Son-Eneolit - Erkən Tunc dövrünə aid qayaüstü rəsmləri arasında da rast gəlinməkdədir. Və onların böyük əksəriyyəti ayrı-ayrı türk soy və boylarının damğalarıdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, qəbilə və soylar özünün saydığı ərazilərin, ilk növbədə otlaq sahələrinin sərhədlərini işarələmək üçün damğalardan istifadə etmişlər. Professor Cəfər Cəfərovun yaz-

dığına görə, türk boyları və qəbilələri vətənlərini müəyyənləşdirmək üçün həmin damğalardan istifadə edirdilər (13, s.22-33).

Avropada - Norveç, İsveç, Danimarka, Skandinaviya ölkələri, Fransa, Almaniya, Britaniya, İtaliya, İslandiya, İrlandiyada 5000-dən çox e.ə.I minilliyə və bizim eranın I minilliyinə aid Proto-Türk damğaları olan qaya mətinləri aşkar edilmişdir. Skandinaviya ölkələrində eyniylə türk-run yazılarına oxşar yazılar vardır. Skandinaviya ölkələrində tapılan və bizim eranın IV əsrinə aid olan Kvlyer daşları üzərindəki ilk 7 türk-run hərflərindən "Furhark"run Skandinaviya əlifbası yaranmışdır. Bu yazılar Skandinaviya xalqlarının dilində "runa" adlandırılır. "Edda dastanları"nda və Skandinav mifologiyasında bu yazıların türklərdən Avropaya yayıldığı bildirilir. Furhark-run əlifbasının 18 hərfi türk-run əlifbasıyla eynilik təşkil edir (şəkil 1). Furhark-run yazılarına eramızın II-XII əsirlərində Qərbi Skandinaviyada, Qotlandda, İngiltərədə döyüş zamanı şəhid olan əsgərlərin qəbir daşları üzərində rast gəlinir. Avropada Furhark-run yazılarına Vikinglər zamanında (763-1064) da 6500 qayaüstü yazılarda rast gəlinir (11, s.8-14).




*Şəkil 1.*

Messerşimid Sibirdə tapılan qədim türk yazılarına baxaraq bu yazıları Furhark-run yazı damğalarına bənzədiyi üçün "run" yazısı adlandırır. Çünki run sözü qərb dilində"sirr" deməkdir. Damğalar

əsasən iki hissədən ibarətdir: iç tərəf, çöl tərəf. İç tərəf - damğanın səslənməsi, çöl tərəf - damğanın görünüş hissəsidir. Furhark-run yazısının da türk-run yazılarıyla bağlantısı çöl tərəfidir, yəni görünüş bənzərliyidir (şəkil 2).




*Şəkil 2.*

Buradakı üçbucaq "yazı tamğalarının semantik analizidir" damğa şəkli o xalqın rəsm edilən şəkil adıyla, o yazı sistemindəki yazı şəklinin fonetik səsi eyni olmalıdır. Məsələn, insanın iki əli şəklindəki damğaya "el" və bu "l" səsini verir. Bu qədim türk-run yazısının türklərin öz yazı sistemi olduğunu göstərir (9, s.83-93).

Fransanın Viçi bölgəsində bir mülk sahibi 1924-cü ildə üç min parçadan ibarət bir kitabə aşkar etmişdi. Qlozen muzeyində saxlanılan bu kitabələrin oxunması problem olaraq qalırdı. E.ə.2500-ci illərə aid edilən bu kitabələr Türkiyə tarixçiləri Haluk Tarcan və Kazım Mirşan tərəfindən oxundu və K.Mirşan bu abidələrdəki yazının Proto-Türklərə aid yazı olduğunu bildirdi. Sarbon Universitetində keçirilən "Əlifba, yazının başlanğıcı və Qlozen kitabələri" konfransında iştirak edən elm adamları tərəfindən yazının Proto-Türklərə aid olduğu təsdiq edildi (şəkil 3). K.Mirşan bildirdi ki: "Kitabələrdəki əlifba etrusk əlifbasına çox yaxındır, etrusk əlifbası Proto-Türk yazılarına əsaslanır. Etrusk əlofbasıyla yanaşı Finikya, kril, yunan əlifbaları

da Proto-Türk yazılarına əsaslanır. Bütün bu tədqiqatlar Orxan-Yenisey əlifbasının bizim eramızın məhsulu deyil, çox qədim dövrlərdən inkişaf edib gələn əlifba yazısı olduğunu sübut edir" (14, s.22-33) (şəkil 3).




*Şəkil 3.*

1926-cı ildə Bakıda keçirilən Türkoloji qurultayda iştirak edən Osman Akçokralı Krımda qırxa yaxın kənddən, o cümlədən Azərbaycan xalqının soykökünü təşkil edən as, xalac, bağa adlarını daşıyan Böyük-As, Kiçik-As, Baqa-Sadır kəndlərindən 400-ə damğa toplamış, Abuzlar kədi yaxınlığındakı qayalardan 60-a qədər damğa toplamış. Və belə nəticəyə gəlmişdir ki, Abuzlar kəndi ərazisi qədimdə Proto-Türk boylarının toplantı yeri olmuşdur. Rus arxeoloqları Sibirin İrkuts bölgəsində tapdıqları Livan qayaüstü rəsmlərin, damğaların e.ə.14000-12000-ci illərdə Proto-Türklər tərəfindən yazıldığını bildirmişlər (2, s.136).

Portuqaliyanın "Les Dossiers'd Arxeologiya" jurnalının 1994-cü il №198 saylı yazısında e.ə.6500-ci illərdə Qərbi Portuqaliya ma-

ğaralarında məskunlaşan və aşirət halında yaşayan xalqların Proto-Türklər olduğunun və onların buraya öz yazılarıyla gəldiyinin və e.ə.3800-ci illərdə dövlət rejmi ilə idarə olunduqlarının bir çox tarixçilər tərəfindən təsdiqləndiyi yazılmışdır (10, s.5-6).

Roma dövlətinin qurucusu olan Etruskların istifadə etdikləri etrusk əlifbası e.ə.IX-VII əsrlərdə yaranmışdır və latın qrafikalı əlifbanın kökündə etrusk əlifbası durur. “Etrusk əlifbası da Proto-Türk əlifbasıyla eyni qaynaqdandır”- bunu ilk dəfə Etrusk əlifbasını oxuyan K.Mirşan bildirir. O, 1970-ci ildə etrusk əlifbasını türk-run əlifbasına əsaslanaraq oxumuşdu. K.Mirşan etrusk əlifbasının türk-run əlifbasından yarandığını və etrus əlifbasının türk-run əlifbasıyla yaxınlığını hər iki əlifbada olan ortaq hərflərlə sübut etmişdir, bu ortaq hərflər hər iki əlifbada eyni səsi ifadə edir (1, s.76-82), (şəkil 4).




*Şəkil 4.*

*Nəticə.* Türkiyə tarixşünasları (K.Mirşan, Haluk Tarcan) və bir çox qərb türkoloqları (Jan-Pol-Ru) Cənub-Şərqi Avropa çöllərində bu günə qədər oxunmamış türk-run yazılarının Proto-Türklər tərəfindən Avropaya türk axınları zamanı və ondan öncələri də aparıldığını bildirirlər. Lakin əksər qərb tarixçiləri bunu qəbul etmirlər və bu yazıların yazı yox sadəcə dini ayinlərdə istifadə edilən işarələr və naxışlar olduğunu bildirirlər.

Tədqiqatçıların apardıqları araşdırmalardan belə nəticəyə gəlmək olur ki, qədim türklərdə yazı heç də Göytürk-run əlifbasıyla başlamır. Proto-Türklərdə zəngin yazı mədəniyyəti olmuş, bu yazıyı Avropa Asiya qitələrinə yaymışlar. Bu baxımdan, Atalarımızın tarixini

bilmək üçün Avropada, Asiyada olan Türk damğalarını, türk-run yazılı abidələrini, Proto-Türk yazılarını tam və sistemli şəkildə tədqiq etməli və öz tariximizi, mədəniyyətimizi daha geniş imkanlarla və obyektiv şəkildə öyrənməli və gələcək nəsillərə ötürməliyik.

ƏDƏBİYYAT:

1. Ağasıoğlu Firudin. Etrusk-Türk bağı. Bakı, 2010, "..." basımı, s.180. Mənbə: https://m.kitapyurdu.com/index.php?route=products/productdetail&product_id=315809 [Müraciət tarixi: 20.05.2020]
2. Ağasıoğlu Firudin. Azərbaycan Türklərinin islamaqədərki tarixi (Doqquz Bitik). I Bitik: Tarixi qaynaqlar. Bakı, 2014, «…», s.370. Mənbə: https://turuz.com/storage/Turkologi/Tarix/2015/1101_Turkoloji_Tarix_Doqquz_Bitik_I_Firudin_Aghasioghlu.pdf [Müraciət tarixi: 20.05.2020]
3. Ali Bademci. Eski Türk yazıtlarında tarih ve sosyal tarih üzerine bir deneme / I.Uluslararası Türklerde Tarih Bilinci Ve Tarih Yazıcılığı Sempozyumu. 23-25 Ekim 2014, Zonguldak / Türkiye. Bildiriler Kitabı. Zonguldak, Bülent Ecevit Üniversitesi Yayınları, No7, 2015, s.37-41. Mənbə: https://w3.beun.edu.tr/dosyalar/tarih.pdf [Müraciət tarixi: 20.05.2020]
4. Ali Nazmi Çora. Tarih Türklerle Başlar. KDP, Amazoncom, 2014, s.466. Mənbə: https://www.academia.edu/41606159/TARİH_TÜRKLERLE_BAŞLAR [Müraciət tarixi:20.05.2020]
5. Haluk Tarcan. Ön Türk Uyqarlığı. İstanbul, "Ön Türk araşdırma qrupu və Töre yayın", 2005, s.364. Mənbə: http://m.kitapyurdu.com/index.php?route=products/productdetail&product_id=54317 [Müraciət tarixi: 20.05.2020]
6. Jan-Paul-Ru. Qədim Türk mifologiyası. Ankara, "Bilgəsu nəşriyyat", 2011, s.149. Tərcüməçi: Musa Yaşar Sağlam. Mənbə: https://play.google.com/store/apps/details?id=com.kryptow.bookread [Müraciət tarixi: 20.05.2020]

7. K.Mirşan. Proto-Türkçe yazıtlar. Istanbul, "Türk Kültür Araşdırma İnstutu", 1966, s.94.
8. Muxtarova Əsməd. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, Adiloğlu nəşriyyatı, 2013, s.449.
9. Молдабай Т. Түрік бітіг (руника) жазу таңбалары архетипі, семантикалық болмысы // "Рухани жаңғыру және байырғы түркілік руханият" атты түркі жазбалары күніне арналған республикалық ғылыми-теориялық конференция. Астана, 2018, Б.83-93.
10. Nihat Yiğit. Ön-Türk devletleri. Ankara, "Maturidi Yesəvi ocağı, Elimi və Kəlami Araşdırmalar Derneyi", 2016, s.99. Mənbə: https://www.maturidiyeseviotagi.com/on-turk-devletleri/ [Müraciət tarixi: 20.05.2020]
11. Nejdet Keleş. Kuzey German / İskandinav Runik alfabe "Furhark"ın Türk damgaları/Göktürk alfebesi ile ortak kökeni", 17. Uluslararası Deyişbilim Sempozyumu, 26-27 Eylül 2017, Pamukkale Üniversitesi, E-Bildiri Kitabı,s.68-84. (Onlayn). Mənbə: https://www.researchgate.net/publication/330263147_KUZEY_GERMENISKANDINAV_RUNIK_ALFABE_FUTHARKIN_TURK_TAMGALARIGOKTURK_ALFABESI_ILE_ORTAK_KOKENI [Müraciət tarixi: 20.05.2020]
12. Rəcəbli Əbülfəz. Qədim türk yazısı abidələrinin dili. I hissə. Bakı, Nurlan, 2006, s.648. Mənbə: http://elibrary.bsu.az/books_ay/N_66.pdf [Müraciət tarixi: 20.05.2020]
13. Reha Oğuz Türkkan. Türkler və Kızılderililer. İstanbul, Peqasus yayın, 2008, s.301. Mənbə: https://issuu.com/toluhan/docs/reha_o_uz_t_rkkan_-_t_rkler_ve_k_z_ [Müraciət tarixi: 20.05.2020]
14. Tuncay Bəxtiyar. Kür-Araz mədəniyyəti və türk damğaları: Damğadan yazıya keçid // 28 dekabr 2013, s.83. Mənbə: https://bextiyartuncay.wordpress.com/2013/12/28/kur-araz-m%c9%99d%c9%99niyy%c9%99ti-v%c9%99-turk-damgalari-damgadan-yaziya-kecid/ [Müraciət tarixi: 20.05.2020]

15. Bilgehan Atsız Gökdağ. "Tuncer Gülensoy. Orhun'dan Anadolu'ya Türk Damğaları. Istanbul, Türk Dünyası Araştırmaları Vakfı Yayını, 1989, s.180" // Milli Folklor, Sayı: 11, 1991 Güz, s.59-61. Mənbə:
http://www.millifolklor.com/PdfViewer.aspx?Sayi=11&Sayfa=61 [Müraciət tarixi: 20.05.2020]
16. Tankut Ilter. Gizlenen Türk Tarihi // Güncel Qastrenteroloji, Cilt: 19, Sayı: 4, Aralık 2015, s.295-331. Mənbə:
http://guncel.tgv.org.tr/index.asp?sayfa=9;
http://guncel.tgv.org.tr/index.asp?islem=makaledetay&sayfa=100433
[Müraciət tarixi: 20.05.2020]

**LAMIYA SADIGOVA**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

## WRİTİNG İN PROTO-TURKS

The concept of Proto-Turkic is the name given to the ancient Turk people lived before the 6 century by the French Turkologist of the 20 century Jean-Paul Rue. Proto-Turks had a great deal of high culture and one of the examples of it is the writing culture. The history and distribution area of pictographic, pictogram, ideographic and phonographic scripts belonging to Proto-Turks found in South-Easten, Western Europe, Anatolia, the Caucasus, Siberia and Central Asia will be discussed in the article. The article also deals with the ideas of such prominent historians as K.Mirshan, H.Tarjan, Reyha Oguz about these scripts.

*Keywords*: Proto-Turk, Stamp, Writing, Alphabet.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

№4(4) 2020

UOT (5-012)
**MƏLAHƏT EYNƏLİZADƏ**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: melahete19113@sabah.edu.az**

# "RƏNGLİ İNQİLABLAR" KONTEKSTİNDƏ "ƏRƏB BAHARI" VƏ TÜRKİYƏ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev
Bakı Dövlət Universiteti

*2010-cu ilin dekabrında Tunisdə başlayan və sürətlə Yaxın Şərq və Şimali Afrikadakı digər ərəb ölkələrinə yayılan xalq çıxışları XX əsrin ortalarından sonrakı dövrdə bölgədəki ən dramatik siyasi dəyişiklikləri ortaya qoydu. Məqaləmizdə Rəngli inqilabların mahiyyəti, Ərəb Baharının rüşeymlərinin yaranması və digər bölgələrdə yaşanması, onun internet vasitəsilə ildırım sürətilə yayılması, regionun güc dövlətlərindən olan Türkiyəyə təsiri və Türkiyənin bu proseslərdə rolu və Suriyada baş verən hadisələr əks olunmuşdur.*

*Açar sözlər*: Ərəb baharı, Suriya, İnternet-inqilablar, Rəngli inqilablar, Türkiyə Cümhuriyyəti

*Giriş*. Orta Şərq və Şimali Afrika minlərlə illərdir dünyanın ən vacib strateji bölgələrindən biri kimi tanınmışdır. Tarixi, mədəni və yeraltı sərvətlərinə baxmayaraq, yoxsulluğun yüksək olduğu bölgənin təhsil sistemi illərdir Avropa ilə müqayisədə aşağı səviyyədədir. Geostrateji mövqeyi və enerji qaynaqlarına hakim olmaq istəyən böyük güclərin daima qarşılaşdığı bu bölgədə tez-tez daxili qarşıdurmalar və iğtişaşlar olur. Siyasi ədəbiyyat və diplomatik ritorikada "Ərəb Baharı" adı verilən proses 2010-cu ilin dekabr ayında Tunisdə başladı. Nəticədə Tunisdən Misirə, ardınca da Liviya və Suriyaya domino effekti ilə yayılan xalq çıxışları Yaxın Şərq tarixində böyük dəyişikliklərə səbəb oldu.

*Rəngli inqilablar*. Siyasi diskursda "rəngli inqilab" dedikdə, adətən, kütləvi küçə etirazlarının təzyiqi altında və xaricdən maliyyə-

ləşdirilən qeyri-hökumət təşkilatlarının dəstəyi ilə hakim rejimlərin dəyişdirilməsi prosesi başa düşülür. Əlbəttə, xarici oyunçuların maraqlarının olması özlüyündə belə inqilablara səbəb olan daxili amillərin olmasını inkar etmir. Hətta tarixi təcrübə göstərir ki, istənilən inqilab zamanı kütləvi küçə etirazları baş verir və xaricdən rejimi dəyişməyə çalışan müxalifət hərəkatlarına dəstək göstərilir. Ekspertlər "rəngli inqilablar"ın siyasi hakimiyyətin dəyişdirilməsi üzrə yeni siyasi texnologiyalar kimi şərh etdikləri texnoloji mahiyyətinə diqqət çəkirlər. Bəzi yerlərdə bu proseslər "rəngli inqilablar" formatında, nisbətən hamar şəkildə, demək olar ki, qan tökülmədən cərəyan etmişdirsə də, Liviya və Suriyada hakim qüvvələr, konstitusiya rejimləri bu proseslərə, qiyamçılara və müxalifətin qanunvericilik çərçivəsindən kənara çıxan addımlarına qarşı güclü müqavimət göstərmişdir.




*Ərəb Baharı bölgəsi*

Burada haqlı olaraq sual yaranır: "Ərəb baharı" adlandırılan hadisələr zamanı Qərb nəyə görə məhz Liviyadakı hadisələrə müdaxilə etdi? Axı nə Misirdə, nə Tunisdə, nə Yəməndə, nə də Bəhreyndə hərbi müdaxilə müşahidə edilməmişdi. Rəngli inqilablar nəzəriyyəsinə görə, bu inqilablar yumşaq, "məxməri" mərhələdən başlayır. Dəyişdirilməli olan hakimiyyət müqavimət göstərsə, onda sərt ssenari tətbiq edilir, yəni kütləvi iğtişaşlara keçən ciddi küçə toqquşmaları başlayır. Bu da kömək etmədikdə, tədricən silahlı qiyama çevrilən xalq etirazları başlayır. Liviyada və Suriyada hadisələr məhz bu isti-

qamətdə inkişaf etmişdi (11). Başqa sözlə, rəngli inqilab eyni bir layihənin həyata keçirilməsində müxtəlif mərhələlərdir. Onun başlanğıcı yumşaq, soft-power, zərurət yarandıqda reallaşan son mərhələsi isə hardpower mərhələsi adlanır ki, bu da birbaşa xaricdən hərbi təcavüzə keçid edir.

*"Ərəb baharı", onu doğuran başlıca səbəblər.* Şimali Afrika və Yaxın Şərqdə baş verən "Ərəb baharı"nın 2010-cu ilin dekabrından ərəb ölkələrində işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığı, bürokratik əngəllər və aşağı həyat səviyyəsi ilə əlaqədar başlayan etiraz nümayişləri olduğu bildirilir (5, s.161).

"Ərəb inqilabları" adını alan bu hadisələr heç də təsadüfi baş verməmişdir. Bunlar bəzi Qərb siyasətçilərinin və KİV-lərinin göstərdiyi kimi, kortəbii etirazlar, demokratik islahatlar, vətəndaşların hüquq və azadlıqları uğrunda mübarizə də olmayıb, dünyanın qlobal səviyyədə yenidən qurulması üzrə hazırlanmış konkret layihələrin nəticəsi olmuşdur və onların həyata keçirilməsi zamanı istifadə olunan əsas üsul və texnologiyalardan asılı olaraq "narıncı", "lalə", "yasəmən", "tvitter" inqilabları və s. kimi adlarla təqdim edilən "rəngli inqilablar"dır (11).

"Ərəb Baharı" çərçivəsində ilk qiyam 2010-cu il 18 dekabrda Tunisdə başlamış və 1987-ci ildən hakimiyyətdə olan dövlət başçısı Zeynalabdin bin Əlinin ölkəni tərk etməsi, onun qurduğu siyasi sistemin çökməsi ilə nəticələnmişdir (4, s.263). Daha sonra hadisələr Misir, Yəmən, Əlcəzair, Suriya və digər ölkələrə də sürətlə yayıldı. Lakin Tunis xalqını küçələrə çıxmağa təşviq edən səbəblər yalnız bu ölkəyə xas deyildi, eyni problemlərlə üz-üzə qalan digər Yaxın Şərq xalqları da Tunisdən ilhamlanaraq öz oxşar iqtidarlarına qarşı üsyana qalxdılar. Beləliklə, siyasi ədəbiyyat və diplomatik ritorikada "Ərəb Baharı" adı verilən proses başladı (9, s.4).

*"İnternet-inqilablar".* Aparılan araşdırmalara görə, Ərəb qiyamlarının geniş vüsət almasına informasiya və rabitə texnologiyalarının inkişafının da mühüm təsiri olmuşdur. Araşdırmalar göstərir ki, xüsusilə Misirdə və Tunisdə iğtişaşlar zamanı sosial media televiziya və üzbəüz ünsiyyət vasitəsindən sonra iğtişaşçılar arasında ən çox

istifadə edilən ünsiyyət vasitəsidir. Televiziyanı izləmək və ya radio dinləmək vasitəsilə xəbər alan iğtişaşçılar isə, başqa bir mediyaya çıxışları olmadığından onlardan istifadə etdiklərini deyirdilər. İğtişaşçılar sosial medianın bu qiyamlarda roluna işarə edərək, ənənəvi mediadan daha çox sosial mediyaya etibar etdiklərini söyləyirdilər. Çünki mətbuat, televiziya və radio dövlətin nəzarəti altında idi (3, s.204).



"Ərəb baharı"nın ilk günlərindən Facebook, Twitter və YouTube saytlarının mitinqlərin və nümayişlərin təşkilində, xəbərlərin ötürülməsində əsas rol oynadığı qeyd edilir. Noutbook, BlackBerry və iPhoneların vasitəsilə insanların bir-birini məlumatlandırdığı, həmfikirləri ilə əlaqə saxladığı, məlumat ötürdüyü, etiraz aksiyaları təşkil etdiyi bildirilir. Misirdə hətta hökumət nümayəndələrinin də internetdən istifadə etdiyi haqda məlumatlar var. Fəqət, məsələlərin başqa tərəflərini də görmək lazımdır. Belə ki, internet sadəcə "barıt dolu çəlləyin partlamasına səbəb olan kibrit çöpü funksiyasını yerinə yetirib" (5, s.164).

Tunisdəki qarşıdurmalarda Twitter daha çox istifadə edildiyi üçün bu çevrilişə "Twitter çevrilişi" də deyilir. Misirdə isə gənclərin Facebooka olan maraqları səbəbi ilə çevriliş "Sevrebook çevriliş kitabı" olaraq adlandırılıb (2, s.11).

*"Ərəb Baharı"nın düyün nöqtəsi - Suriya*. Ərəb Baharının yalnız daxili amillərin təsiri ilə baş verdiyini qəbul etməyin tam doğru olmadığı, hətta ABŞ-ın "Böyük Orta Doğu Projesi"nin tərkib hissəsi olduğu haqda müxtəlif ehtimallar irəli sürülür. Layihənin rəsmi olaraq elan edilən əsas məqsədinin "azad olmayan ölkələrə demokratiya gətirmək" olduğunu bilirik. ABŞ prezidentininköməkçisi Dik Çeyninin sözlərinə görə, Böyük Orta Doğu Projesinin məqsədi bütünlükdə bölgədə demokratiyanı yaymaq, regionu inkişaf etdirmək və sülhü qarantiya altına almaqdan ibarətdir. ABŞ-ın keçmiş dövlət katibi K.Rays isə layihəni "Mərakeşdən Çin sərhəddinə qədər 22 ölkənin

siyasi və iqtisadi coğrafiyasını dəyişdirəcək" layihə kimi səciyyələndirmişdi (10). Bu açıqlamalara əsaslanaraq, bəzi şərhçilər "Ərəb baharı"nın daha çox xaricdən idarə edilən proses olduğu haqda fikirlərdə haqlı olduqlarını iddia edirlər ki, bunu Suriyanın da nümunəsində çox açıq şəkildə müşahidə etmək mümkündür.

Belə ki, müasir dövrdə islam dünyasının geosiyasi əhəmiyyəti gündən-günə artır. Buna səbəb İslamın hakim din olduğu Yaxın və Orta Şərq ölkələrinin yerləşdikləri əlverişli coğrafi ərazi və yeraltı sərvətlər baxımından zənginliyidir. Buna görə bu dövlətlər böyük güclərin geostrateji maraqlarının daim hədəfində olmuşlar. Bu maraqlar təmin olunmadıqda onlar ölkədə qarşıdurma yaratmaqdan, vətəndaş müharibələri törətməkdən və məqsədə çatmaq üçün təkcə islama aid deyil, qeyri-islami dinlərə aid maddi mədəniyyət nümunələrini məhv etməkdən belə çəkinmirlər. Bu mənada islamın beşiyi sayılan Suriya dediklərimizə bariz nümunədir (7, s.215).

"Ərəb baharı" Afrikanın şimalında "müvəffəqiyyətlə" həyata keçirilsə də, Misirdə ləngidi, Suriyada isə düyünə düşdü. Səbəblər müxtəlifdir. Suriyada prosesin ləngiməsinə bir səbəb də regional və qlobal güclərin münaqişəyə cəlb olunması oldu. Suriyada vətəndaş müharibəsinin başlanmasının səbəbi də məhz xarici faktor oldu (8, s.186). Suriyada vətəndaş müharibəsi davam etdikcə səhnəyə yeni aktorlar meydana çıxdı və ölkənin mövcud profili bu aktorların fəaliyyət sahələri çərçivəsində böyük dəyişikliyə uğradı. Habelə zaman keçdikcə Suriya qlobal və regional güclərin vəkalət savaşlarının meydanına çevrildi və bu vəziyyət səhnədəki aktorların quruluşunu da çeşidləndirib, əlaqələr şəbəkəsinin daha da qarışıq vəziyyət almasına gətirib çıxardı. Bu illər ərzində bir çox regional və qlobal aktorun müdaxilə etdiyi Suriya böhranında uzun müddət bir tərəfin digər tərəf üzərində mütləq üstünlüyü mümkün olmamışdır (9, s.5). Çünki Suriya cəmiyyətində həmin anadək sosial partlayışa səbəb ola biləcək şərtlər yox idi. Xarici təzyiqlərə baxmayaraq B.Əsəd iqtidarı ölkənin daxilində sabitliyi qoruya bilmişdi. Suriyada o anadək heç zaman etnik və konfessional zəmində ciddi münaqişələr də baş verməmişdi. Məhz buna görə də, Qərb Suriyada "ərəb baharının" əsas

qayəsi olan və B.Obamanın təbirincə desək, ABŞ-ın maraqlarına uyğun olmayan dövlət başçılarının dəyişdirilməsini xarici müdaxilə ilə həyata keçirmək istədi. Bəs Qərbin məqsədi nə idi? Bu suala cavab vermək üçün Suriya düyününün açılmasında maraqlı olan dövlətlərin milli maraqlarını, bu dövlətlərin Suriya barəsində planlarını bilmək vacibdir. Bunun üçün Suriya məsələsində maraqları toqquşan dövlətlərin özlərini qruplaşdırmağa ehtiyac duyulur. Məsələyə qlobal yanaşsaq, iki güc mərkəzini göstərməliyik: ABŞ və Rusiya. ABŞ-a bu məsələdə Qərb dövlətləri açıq dəstək verirdisə, "Rusiya Çin tərəfindən dəstəklənirdi", bəzən də BMT qətnamələrinin müzakirəsində onun neytrallığını qazanmaqla dəstəklənirdi (8, s.186).

Suriyada böhranın başladığı andan etibarən Rusiya Yaxın Şərqdəki ən əhəmiyyətli müttəfiqi Əsəd rejiminin devrilməməsi üçün ciddi fəaliyyətə başlamışdır. İlk dəfə 2011-ci ilin aprel ayında BMT Təhlükəsizlik Şurasında gündəmə gələn Suriya hökumətini qınama qərar layihəsinə veto qoyan Rusiya daha sonra bir çox dəfə Çinlə birgə gündəmə gətirilən digər qərar layihələrinə də veto hüququndan istifadə etmişdir. Böhran vəziyyətini Suriyanın daxili məsələsi kimi xarakterizə edən Rusiya, həmkarlarına gözdağı vermək üçün 2011-ci ilin noyabr ayında üç müharibə gəmisini Tartus limanına göndərmiş, bundan əlavə Admiral Kuznetsov kreyser də Suriyaya göndərəcəyi istiqamətində xəbərləri mətbuata sızdırmışdır (9, s.59-60).

ABŞ Prezident administrasiyanın bəyanatlarına inansaq, ABŞ-ın Suriyada əsas məqsədi əsl demokratiyanı insan haqları və demokratiyanın boğulduğu Suriyada tətbiq etməklə 40 il davam edən ata-oğul Əsədlərin hakimiyyətinə son qoymaq və Suriyanı demokratik sivil ölkələr səviyyəsinə qaldırmaqdır. ABŞ-ın planlarında Suriyanın ərazi bütövlüyü məsələsi gündəmə gətirilmir və onun toxunulmazlığı Rusiyanın hərbi əməliyyatlara başlamasından sonra, 2015-ci ilin dekabrında 2254 saylı BMT qətnaməsi ilə rəsmiləşir. ABŞ B.Əsəd iqtidarını dünyada terror təşkilatları kimi tanınan Hizbullah, Həmas və İslam cihadı təşkilatlarını maliyyələşdirməkdə günahlandırır.

Iran regional güc olaraq Suriya məsələsində konfessional əlamətə üstünlük verərək şiə Əsəd iqtidarını dəstəkləməklə yanaşı ərəb

ölkələri içərisində özünün ən əhəmiyyətli müttəfiqini saxlayır. Ona görə də, İran Suriyanın ərazi bütövlüyünün toxunulmazlığı məsələsində Rusiya ilə həmfikirdir. Məhz buna görə Rusiyanın vasitəçiliyi ilə 2016-cı il fevralın 26-da atəşkəsə nail olunduqdan sonra İran və Türkiyə onun qarantı kimi siyasi prosesə cəlb olunmuşdular. Və əslində məhz Rusiya-Türkiyə-İran üçlüyü Suriyanın ərazi bütövlüyünün qarantına çevrilmişlər. Türkiyə öz təhlükəsizliyi üçün vacib hesab etdiyi məsələlərin həllində bəzən ABŞ-la Rusiya arasında manevrlərə əl atsa da, Suriyanın ərazi bütövlüyü və Əsəd iqtidarının legitimliyi məsələsində Rusiyanın təsiri ilə sabit mövqe nümayiş etdirir. Bu mövqe 2019-cu ildə Soçidə imzalanmış "Memorandum"da da öz əksini tapdı. Ümumilikdə, Soçi Memorandumunun imzalanması ilə Suriya düyününün açılması üçün real şansların yarandığı hesab edilirdi (8, s.187-188).

*"Ərəb baharının" Türkiyəyə təsiri.* Əslində, Ərəb baharının gec-tez regionda fərqli istiqamətdə inkişaf edəcəyi heç kimdə şübhə doğurmurdu. Hətta Türkiyə kəşfiyyatının keçmiş analitiki Mahir Kaynak ölkə mətbuatına verdiyi açıqlamada "Ərəb bahar"nın Türkiyəyə təsir edəcəyini də vurğulamışdı və belə də oldu. Türkiyə bu prosesdə ən çox fəallıq göstərən dövlətlərdən biri oldu (1). Belə ki, bu günə kimi, Ərəb dövlətlərində Türkiyəyə qarşı münasibət birmənalı olmayıb. Ərəb baharının ilk illərində Türkiyə bu proseslərdə daha aktiv, sülhpərvər və əməkdaşlığa hazır bir dövlət kimi qəbul edilirdi. Hətta Türkiyənin ərəb dövlətləri üçün model halına gəldiyi; Türkiyənin Qərblə yanaşı Şərqə də aktiv şəkildə inteqrasiyası, Avropa qarşısında öz maraqları naminə sərt duruşu onun Ərəb dünyasında nüfuzunu artırmaqla bərabər, regionda proseslərə birbaşa qatılmaq və söz sahibi olmaq, eləcə də regional problemlərlə bağlı hesablaşılmalı dövlət olmaq mövqeyinə qalxdığı haqda fikirlər də irəli sürülürdü. Həmçinin Türkiyənin İsrail siyasətində mövqeyinin Ərəb dünyasında demək olar ki, dəfn edilmiş olan "Anti-Siyonizm", "İsrail düşmənliyi", "Müsəlman birliyi" kimi hissləri yenidən qaytardığı düşünülürdü (6, s.163).

Ərəb baharının yaşandığı ilk gündən Türkiyə tərəfindən 2 prinsip irəli sürülüb və bu prinsiplər bu gün də dəyişməz olaraq qalmaqdadırlar. 1-ci prinsip, Türkiyə ərəb ölkələrində demokratik dəyişikliklər tələb edən xalqların yanında olacaq. 2-ci prinsip, bu dönəmin qan tökülmədən başa çatması üçün mümkün olan bütün diplomatik yollardan istifadə edilməsinə çalışacaq (1).

Türkiyəli araşdırmaçılar belə hesab edirlər ki, "Ərəb Baharı" prosesi əslində, soyuq müharibənin başa çatmasından sonrakı dönəmdə beynəlxalq aləmdə baş vermiş 3 böyük sarsıntının tərkib hissəsidir. Bunlar aşağıdakılardır:

1. 199l-ci ildə SSRİ-nin dağılması ilə yaşanan geopolitik sarsıntı. Bu sarsıntı Asiyada yeni mənzərənin yaranması ilə nəticələndi. Bu dövrdə azadlıq və demokratiya yüksələn dəyərlər oldu;

2. 2001-ci il 11 sentyabr hadisələri ilə yaşanan sarsıntı sonrası təhlükəsizlik məsələləri. Bu dönəmdə ümumilikdə qlobal təhlükəsizlik sistemi prioritet oldu;

3. 2008-ci ildə ilk dalğaları hiss olunan 2010-cu il Avropa böhranı və ona paralel yaşanan Ərəb baharı sarsıntısı (4, s.270).

Sonuncu mərhələyə aid etdiyimiz "Ərəb baharı"nın Yaxın Şərq ölkələri və Şimali Afrikada mühüm əhəmiyyət kəsb etdiyini qeyd yuxarıda qeyd etmişik.

*Nəticə.* "Ərəb baharı"nın yaşandığı ölkələrdə "diktator rejimlərinin" mövcudluğu, insan haqları ilə bağlı problemlər, sosial-iqtisadi çətinliklər və s.-nin inqilabın baş verməsi üçün ilkin şərtlər olduğu göstərilsə də, araşdırma nəticəsində bunların əsas səbəb olmadığı qərarına gəldik. Araşdırmamızda böyük dövlətlərin və əsasən də ABŞ-ın Ərəb ölkələrinə vəd etdikləri "demokratiya", "rifah" anlayışlarının arxasında dayanan əsil niyyətlərini də müəyyən qədər anlamış olduq. Ərəb dünyasında baş verən hadisələrin ərəb xalqlarının həyat şəraitinin aşağı olması və işsizliyin yüksək olması kimi sosial problemlərdən meydana gəlməyidiyini, sadəcə bu problemlərin maraqlı tərəflər vasitəsilə internet və sosial media vasitəsilə qabardılaraq qanlı çıxışlar səviyyəsinə qaldırılması ilə əlaqələndiyini aydınlaşdırdıq. Aparılan araşdırmaların yekunu olaraq, nə rəngli inqilabların, nə də onun

tərkib hissəsi olan Ərəb baharının Ərəb xalqlarına heç də bahar gətirmədirmədiyini anlamış olduq.

ƏDƏBİYYAT:

1. Ahmet Davutoğlu. Tarihin arkasında koşulmaz, içinde koşulur, önünde gidilir // "EkoAvrasiya" Ekonomik ve Srtatejik Araştırmalar Dergisi , №-1 (21) 2013, s.30-32.
2. Afaq Cabbarova. Arap Bahar'na Sosyal Medya'nın etkisi. Azerbaycan Devlet İktisat Üniversitesi Sosyal Bilimler Enstitüsü. Yüksek Lisans Tezi. Bakı, 2015, s.115.
3. Aktaş Murat. Arap Ayaklanmaları ve Sosyal Medyanın Rolü" // Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt:11, Sayı: 61, Yıl: 2018, s.199-208.
4. Cavid Əlisgəndərli. "Ərəb baharı": geosiyasi və geoiqtisadi maraqların qarşılıqlı təsiri // Tarix və onun problemləri, №4 2013, s.263-272.
5. Cavid Əlisgəndərli. "Ərəb Baharı" (analitik baxış). "Ərəb Baharı" konteksində Türkiyə və İran // Tarix və onun problemləri, №1 2014, s.161-169.
6. Günel Mustafayeva. Yaxın Şərqdə siyasi proseslər: fərqli maraqlar və mövqelər" // Tarix və onun problemləri, №3 2013, s.161-166.
7. İqbal Ağayev. "Ərəb baharı" və Suriya hərbi qarşıdurmadan danışıqlar masasına /"İslamı dəyərlər: Tarix və Müasirlik – "Ərəb baharı". İslam Həmrəyliyi - 2017: Reallıqlar və Perspektivlər" mövzusunda Respublika Elmi-Metodik konfransının materialları. Bakı, 2017, s.215-216.
8. İqbal Ağayev. Suriya qlobal və regional güclərin planlarında / Azərbaycanda Müasir ərəbşünaslığın banisi, Əməkdar elm xadimi, professor Ələsgər Məmmədovun anadan olmasının 100 illiyinə hərs olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika Elmi Konfrasının materialları. Bakı şəhəri, 18-19 dekabr , 2019-cu il . "Elm və təhsil", 2019, s.186-188.
9. Nicat Ələkbərov. Beynəlxalq münasibətlərdə Suriya böhranı. Magistr Dissertasiyası. Bakı, 2018, s.136. Mənbə:

http://unec.edu.az/application/uploads/2018/11/Nicat-R-fael-o-lu-kb-rov.pdf [Müraciət tarixi: 17.05.2020]
10. Mahdi Darius Nazemroaya. Plans for Redrawing the Middle East: The Project for a "New Middle East". Mənbə: http://www.globalresearch.ca/plans-for-redrawing-the-middle-east-theproject-for-a-new-middle-east/3882 [Müraciət tarixi: 17.05.2020]
11. Rövşən Aslanov. Suriya "Ərəb baharı" fenomeni sistemində: Suriyada və Şimali Afrika ölkələrində "Rəngli inqilabalar". Mənbə: http://newtimes.az/az/relations/3648/ [Müraciət tarixi: 17.05.2020]

**MALAHAT EYNALIZADE**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

## "ARAB SPRING" AND TURKEY IN THE CONTEXT OF COLOR REVOLUTIONS

The public speeches, which began in Tunisia in December 2010 and spread rapidly to other Arab countries in the Middle East and North Africa, revealed the most dramatic political changes in the region since the middle of the twentieth century. Our article describes the essence of the Color Revolutions, the emergence of the Arab Spring and its occurrence in other regions, its spread through the Internet at lightning speed, its influence on Turkey, one of the powers in the region, and Turkey's role in these processes and events in Syria.

*Keywords*: Arap Spring, Syria, İnternet-Revolutions, Color Revolutions, The Republic of Turkey.

*Daxil olma tarixi*: 17.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 327(091)

**NİGAR ABBASOVA**

***Bakı Dövlət Universiteti,***
***Regionşünaslıq (Qafqaz üzrə) ixtisası II kurs tələbəsi***
**E-mail: nigar.abbasova-4@bsu.edu.az**

# II DÜNYA MÜHARİBƏSİ SONRASI BEYNƏLXALQ MÜNASİBƏTLƏR: "İSTİ MÜHARİBƏ"DƏN "SOYUQ MÜHARİBƏ"YƏ KEÇİD

*Elmi rəhbər*:
Elmar Axundov
Bakı Dövlət Universitetinin müəllimi

*II Dünya müharibəsi başa çatdıqdan sonra beynəlxalq münasibətlər sistemində Soyuq müharibəyə keçid baş verdi. Bu müharibə silahsız, qarşıdurmayan, fikir ayrılığı və rəqabət dövrünə verilən addır. Bu dövrdə dünyada iki təzadlı quruluş forması arasında gərgin ideoloji mübarizə getmişdir. Müharibənin bir tərəfi SSRİ, digər tərəfi ABŞ idi. Dünya dövlətləri də bu güclərin ətrafında birləşməyə can atırdılar. 45 il davam edən soyuq müharibə nəticəsində dünya dövlətləri müxtəlif böhranlarla üz-üzə qaldılar. Soyuq müharibənin ən böyük nəticəsi 1990-cı illərdə SSRİ, ardınca dünya sosialist sisteminin çökməsi oldu. Kapitalist və sosialistlərin uzun sürən qarşıdurma nəticəsində sosializm sistemi məğlub oldu, kapitalizm qalib gəldi. Lakin Soyuq müharibənin qarışıqlıqları hələ də davam etməkdədir və bu baxımdan, araşdırmaçıların da diqqətdən kənarda qalmamaqdadır.*

*Açar sözlər:* İkinci Dünya Müharibəsi, Soyuq Müharibə, SSRİ, ABŞ, Qərb bloku, Şərq bloku, diplomatik mübarizə

*Giriş*. İkinci Dünya müharibəsinin başa çatmasından artıq 75 il keçir. Bugün demək olar ki, Soyuq müharibə bəşəriyyətin son 75 illik tarixinin ən mühüm hadisəsidir. Soyuq müharibə silahlı qarşıdurma olmadan, fikir ayrılığı və rəqabətin davam etdiyi dövrə verilən addır. Nəzərə alsaq ki, bir çox dünya dövlətlərinin iştirak etdiyi İkinci Dünya müharibəsi 1939-cu ildə başlamış və 1945-ci ildə faşizm

üzərində qələbə ilə başa çatmışdır. Bu müharibədən sonrakı 45 il isə, yəni, Sovet İttifaqının parçalanması ilə başa çatan dövr "Soyuq müharibə" kimi yadda qalmışdır. Məqalədə Soyuq müharibə dövründə mövcud vəziyyətdən bəhs ediləcəkdir.

*Soyuq müharibənin başlanması*. İkinci Dünya müharibəsindən sonra dünyada bir-birinə zidd olan 2 quruluş formalaşdı: kapitalizm və sosializm. Kapitalist dövlətləri sosializmi məhv etməyə çalışır, SSRİ isə əksinə olaraq onu bütün dünyaya yaymaq niyyəti ilə hərəkət edirdi. Dövlətlər arasında baş verən bu ziddiyyətlər və anlaşılmazlıqlar vəziyyəti siyasi-ideoloji, diplomatik müharibəyə, yəni, Soyuq müharibəyə gətirib çıxardı. Bəzi mənbələrdə bu prosesin 1945-ci ildə SSRİ-nin Türkiyəyə olan bir sıra tələblərindən sonra kəskinləşməsi bildirilir. Belə ki, Avropa ərazisində də müharibə bitdikdən sonra SSRİ İran Azərbaycanı ərazisi üçün bir sıra gizli qərarlar qəbul etmiş, daha sonra isə Türkiyəyə qarşı iddialar ilə çıxış edərək müxtəlif tələblər irəli sürmüşdür (2, s.3). Bu tələblər Boğazlara birgə nəzarət etmək, burada özünün hərbi bazasını formalaşdırmaq, Türkiyənin şərq vilayətlərinə ərazi iddialarından ibarət idi. Həmin əraziləri Ermənistan və Gürcüstan arasında bölüşdürmək də planları arasında idi.




XX əsrdə Türkiyə-SSRİ münasibətləri müəyyən daxili və xarici faktorların təsiri ilə mürəkkəb və ziddiyətli xarakter daşımışdır. II Dünya Müharibəsi dövründə və ondan sonra ikili münasibətlər gərgin olmuşdur. Bu münasibətlər yalnız 1964-cü ildə yaxşılaşmağa başlamışdır. 1980-1990-cı illərin başlanğıcı Türkiyə və SSRİ arasındakı yaxınlaşmalar, Türkiyə ixracatının sürətli inkişafı və iqtisadiyyatının irəliləməsi ilə xarakterizə olunur. Türkiyə üçün Rusiyanın qaz ixracatı, yükdaşıma və körfəz boyunca konteyner gəmiçiliyinə aid bütün işlər xüsusi ilə mühüm əhəmiyyət kəsb etdiyi halda, mal-əmtəə, xidmət sektorunda Türkiyə bazarına investiya qoyuluşunun gələcək üstünlükləri də rusiyalı biznesmenlərin diqqətini cəlb etmişdir. Beləliklə, XX əsrdə SSRİ və Türkiyə əlaqələrini 2 istiqamət üzrə ayırmaq olar: siyasi və iqtisadi. İki ölkə arasındakı ticarət və iqtisadi əlaqələr bazar iqtisadiyyatının inkişafına təkan vermişdir.

*Açar sözlər:* Türkiyə-SSRİ münasibətləri, İkitərəfli münasibətlər, iqtisadi münasibətlər, ticarət münasibətləri.

*Daxil olma tarixi*: 15.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94

**NURTAC SÜLEYMANLI**
***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimi ixtisası üzrə ll kurs tələbəsi***
**E-mail: nurtacs19113@sabah.edu.az**

# "ERMƏNİ MƏSƏLƏSİ"- "ŞƏRQ MƏSƏLƏSİ"NİN BİR QOLUDUR

*Elmi rəhbər*:
tarix elmləri doktoru Qabil Əliyev
Bakı Dövlət Universiteti

*Dünyanın ən qədim mədəniyyətləri, qədim dinlərin əksəriyyəti, tarixin axarını dəyişdirən imperotorluqların çoxu Şərqdə yaranmışdır. Bu imperatorluqlardan ən güclülərindən biri Osmanlı dövləti olmuşdur. Osmanlı imperotorluğu yarandığı dövrdən Yeni Çağa qədər bir çox Avropa ölkələri ilə müharibələr aparmış, onları məğlub etmiş, geniş torpaqlar ələ keçirmişdir. Ona qarşı Avropa ölkələri ittifaqlar qurmuş – "Müqəddəs Birlik", "Müqəddəs İttifaq" "Balkan İttifaqı", "Xaçlı İttifaqı" və s., zəiflətmək üçün müxtəlif planlar hazırlamışlar. Bu planlardan, bizim fikrimizcə, ən önəmlilərindən biri "Şərq məsələsidir". Ona görə ki, "Şərq məsələsi" sadəcə Osmanlı imperatorluğuna deyil, Yaxın və Orta Şərqə, Qafqaza, xüsusilə də Azərbaycana ciddi təsir göstərmişdir. Məqalədə "Şərq məsələsi"nin mahiyyəti, onun Osmanlıya və Azərbaycana təsirindən danışılacaq.*

*Açar sözlər*: "Şərq məsələsi", "Erməni məsələsi", Rusiya, Qarabağ problemi

*Giriş.* "Erməni məsələsi" bu gün ən aktual olan mövzulardan biridir. "Erməni məsələsi" adlandırılan məsələnin meydana gəlməsini heç də təsadüfi hesab etmək olmaz. Bu məsələnin Ermənistan-Azərbaycan münaqişəsi baxımından yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. Bizim düşüncəmizə görə, Dağlıq Qarabağ probleminə "Erməni məsələsi"nin bir hissəsi kimi baxılmalıdır. "Erməni məsələsi" isə daha öncə irəli sürülmüş "Şərq məsələsi"nin bir hissəsidir. XIX əsrin sonu - XX əsrin əvvəllərində bu məsələyə bir çox əsər və

məqalələr həsr olunmuşdur. Rusiya-sovet tarixçisi, şərqşünas V.A. Qurko-Kryajinin 1926-cı ildə nəşr edilmiş Böyük Sovet Ensiklopediyasında dərc olunan məqaləsi bu araşdırmalar içərisində xüsusi yer tutur. V.A.Qurko-Kryajin məqaləsinin sonunda ümidvar olduğunu bildirərək yazırdı ki: "…erməni mühacirləri arasında ən vicdanlıları özlərinin əvvəlki istiqamətlərini dəyişir və keçmişdən əl çəkərək, təqsirlərini boyunlarına alıb Vətənə qayıdırlar. Sovet çevrilişindən sonra Daşnaksutyun tam ölümə məhkumdur". Lakin tarixçi aldanmışdı.

*Şərq məsələsinin mahiyyəti.* XIX əsrin ortalarında Rusiyanın xarici siyasətində “Şərq məsələsi” mühüm yer tuturdu. Şərq məsələsinin mahiyyətini Osmanlı sultanının hakimiyyəti altında olan torpaqların bölüşdürülməsi və Yaxın Şərqdə nüfuz qazanmaq uğrunda Avropanın iri dövlətləri arasında gedən mübarizə təşkil edirdi. Yaxın Şərq uörunda rəqabətdə Rusiyanın İngiltərə və Fransa kimi qüdrətli rəqibləri var idi. Onlar Yaxın Şərqdə Rusiyanın güclənməsini istəmirdilər (9).

XIX yüzilliyin ortalarında baş verən Krım müharibəsində bu dövlətlərin köməyi ilə Osmanlı dövlətinin Rusiya üzərində tarixi qələbəsi həm Şərqdə, həm də Avropada qüvvələr nisbətini Türkiyənin xeyrinə xeyli dəyişdi və Vyana konqresindən sonra dövlətlər arasında yaranmış balansa ciddi təsir göstərdi. Bu məğlubiyyət Rusiyanın xarici siyasət kursuna, beynəlxalq nüfuzuna ağır zərbə vurdu, hərbi qüdrətini xeyli zəiflətdi. Nəticədə Rusiyanın beynəlxalq nüfuzu aşağı düşdü, Avropada rolu zəiflədi, Qara dəniz və boğazlar məsələsində yaxına buraxılmadı. Bundan başqa Krım müharibəsində acı məğlubiyyət dadan Rusiya Balkanlarda üstün hüquqlardan məhrum edildi.

Rusiyanın o zamankı hakim dairələri bu vəziyyətlə barışmaq istəmir və ölkənin təklənməsinin qarşısını almaq üçün çıxış yolları axtarırdılar. Bunun üçün yeni xarici siyasət proqramı hazırlandı və bu strategiyanı həyata keçirmək üçün Avropa dövlətləri ilə və Türkiyə ilə intensiv danışıqlar, beynəlxalq görüşlər və konfranslar aparılmasına başlandı. Nəticədə, XIX yüzilliyin 70-ci illərində həm Rusiya dövlətinin, həm də Avropa dövlətlərinin marağında olan Şərq böhranı yarandı, getdikcə mürəkkəbləşdi və “Qordi düyünü”nə çevrildi.

Avropa ölkələri isə Şərq məsələsində və Şərq böhranında daha çox Rusiyanı qızışdırır və onu daha ciddi tədbirlər həyata keçirməyə təhrik edirdilər (9).

Osmanlı imperiyasının süqutunun sürətləndirilməsi və Türkiyənin hakimiyyəti altında olan torpaqların bölüşdürülməsi uğrunda Avropanın böyük dövlətləri arasında gedən mübarizə ilə bağlı beynəlxalq ziddiyyətlər dünya tarixşünaslığına "Şərq məsələsi" adı ilə daxil olmuşdur. Qısaca olaraq qeyd etmək lazımdır ki, ilk dəfə olaraq 1815-ci ildə Vyana konqresində rus diplomatları tərəfindən işlədilən "Şərq məsələsi" ifadəsi bundan sonra Avropa diplomatiyasına yol açmış oldu. XIX əsrin I yarısında xarakterinə görə "Şərq məsələsi" Osmanlı imperiyasının ərazi bütövlüyünün qorunmasını nəzərdə tuturdusa, XIX əsrin II yarısından bu siyasət türklərin Avropadakı ərazilərinin qərbin iri müstəmləkəçi dövlətləri arasında bölüşdürülməsinə, XX əsrdən etibarən isə Osmanlı imperiyasının bütün ərazilərinin ələ keçirilməsinə yönəlmişdi (1, s.36).

*Erməni məsələsi nə deməkdir?:* Erməni məsələsi soyğunçuluq, qan, nifrət, dəhşət və fəlakətlər mənbəyi mənalarını ifadə edən bir məfhumdur ki, bu xəstə ideya uğrunda çarpışmalardan Yaxın Şərqdə, Anadoluda və Qafqazda insanlar əsrlərlə əziyyət çəkmiş və hələ də yeni-yeni zülmlərə düçar olmaqdadırlar. Erməni Şovinizmi müasir dövrdə bütün dünya siyasətinə sirayət edir, imkan tapdığı dövrlərdə təxribatçılıq, terrorçuluq, böhtançılıq fəaliyyətini əldən qoymur. Onun əsas təzahür formalarından biri də ondan ibarətdir ki, yaşadıqları dövlətlərin siyasi, iqtisadi, ideoloji durumuna zərbə endirmək, onlardan öz maraqları üçün istifadə etmək.Son iki əsr Azərbaycan türklərinin həyatında ən ağır və dözülməz işgəncələr, qırğınlar və deportasiyalarla yadda qalmışdır. Bu da təsadüfi deyildir. 1801-ci ildə rus qoşunlarının Lori-Pəmbək bölgəsindən İrəvan xanlığının ərazisinə daxil olması anından soydaşlarımız qaçqınlıq faciəsini yaşamağa məcbur olmuşlar. Məhz həmin vaxtdan etibarən indi Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından soydaşlarımız planlı şəkildə, mərhələ-mərhələ deportasiya edilmiş, soyqırımlara və kütləvi repressiyalara məruz qalmışlar (8, s.9).

Türkiyə və Azərbaycandan ərazilər tələb etməklə yanaşı, Ermənistanda nəşr olunan kitablarda Azərbaycan xalqına qarşı hörmətsizlik edilir və gerçək tarix saxtalaşdırılırdı. Həmin "əsərlər"in başlıca məqsədi Azərbaycanın tarixi Naxçıvan, Zəngəzur, Qarabağ və digər ərazilərinin guya erməni torpağı olduğunu "sübut etmək", Ermənistana birləşdirmək idi. Məsələn, 1946-cı ildə İrəvanda Marietta Şaginyanın "Sovet Zaqafqaziyası" adlı kitabı nəşr edilmişdi. Çoxlu sayda səhvlər olan bu kitabda tarixi həqiqətlər kobudcasına təhrif edilir və Cənubi Qafqaz xalqlarına böhtan atılırdı. Azərbaycanın Dağlıq Qarabağ regionunu saxtakarlıqla "qədim erməni torpağı" kimi qələmə verən M.Şaginyan burada heyvandarlığın geriləməsini "köçəri müsəlmanların" iranlılarla ticarət edərək xəstə heyvanları gətirmələri, bunun nəticəsində mal-qaranın qırılması ilə əlaqələndirir, böhtan ataraq Azərbaycan xalqını geri qalmış, kobud hesab edir, M.Füzulinin əsərlərini ərəbcə yazdığını vurğulayır və Azərbaycan qadınını çadrada təsvir edirdi.

Bu iftiralarla dolu yazı Azərbaycanın narazılığına səbəb oldu. Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov M.Şaginyanın kitabına qəti etiraz etdi. Səhvini başa düşən müəllif 1947-ci il mayın 26-da M.İbrahimova yazdığı məktubunda kitabında təhqiredici deyil, iyrənc yerlərin olduğunu etiraf etdi, buraxdığı səhvlər üçün üzr istədi. Üzr istəməsinə baxmayaraq, kitab artıq nəşr edilmişdi və ermənilər tərəfindən oxunurdu. Azərbaycan rəhbəri M.Bağırov da bu saxtakarlığa kəskin münasibət bildirdi. M.Şaginyanın kitabı haqqında A.A.Jdanova bir məktub göndərdi. Lakin bu məktubun ciddi bir təsiri olmadı. Mərkəz sanki (əslində faktik olaraq belə idi) özü belə nəşrlərə rəvac verirdi (7, s.263).

*Rusiyanın "Şərq məsələsi"ndə rolu.* Rusiyanın xarici siyasətinin ana xəttinə çevrilən "Şərq məsələsi" XVIII əsrin II yarısında rəsmən daxil edildi və beynəlxalq münasibətlər sisteminə bir problem kimi əlavə olundu. Beləliklə, XVIII əsrin sonlarından etibarən "Şərq məsələsi" rəsmi ideoloji və diplomatik bir problemə çevrildi. "Şərq məsələsi"ni Rusiya, İngiltərə, Fransa və Avstriya dövlətləri yaratmışdılar. Ancaq başlıca maraqlı tərəflər Rusiya və İngiltərə idi.

Rusiya imperatoru I Pyotr xarici siyasət məsələlərini işləyib hazırlayarkən, Qara dəniz boğazları məsələsinə, isti dənizlər məsələsinə, İstanbulun ələ keçirilməsinə və bütövlükdə "Şərq məsələsi"nə xüsusi diqqət verirdi ki, bu məsələnin öz xeyrinə həllində erməniləri öz tərəfinə çəkmək üçün yollar axtarırdı. Bilirdi ki, erməniləri vədlər hesabına ələ almaq çox asandır. "Şərq məsələsi"nin əsas hədəfi orta əsrlərin ən qüdrətli dövləti olan Osmanlı imperatorluğuna qarşı çevrilmişdir. Xüsusilə XIX yüzilliyin ortalarında baş verən Krım müharibəsində Osmanlı dövlətinin tarixi qələbəsi həm Şərqdə, həm də Avropada qüvvələr nisbətini Türkiyənin xeyrinə xeyli dəyişdi və Vyana konqresindən sonra dövlətlər arasında yaranmış balansa ciddi təsir göstərdi. Bu nisbət Rusiyanın xarici siyasət nüfuzuna zərbə vurdu, beləliklə Balkanlarda üstün hüquqlarından məhrum edildi. "Şərq məsələsi"ni ərsəyə gətirənlər onun həlli üçün müxtəlif yollar axtarırdılar. Bu baxımdan Rusiya və Qərb dövlətləri öz mənafelərinə uyğun olan "Kipr problemi"ni, "erməni məsələsi"ni gündəmə gətirmişlər. Onların sırasında "erməni məsələ"si daha çox qabardılaraq beynəlxalq problemə çevrilmişdir. "Şərq məsələsi"nin tərkib hissəsi olan "erməni məsələsi"nin meydana gəlməsi guya ki, onların Türkiyədə və Azərbaycanda acınacaqlı durumları ilə əlaqədar idi (6, s.363).

*İngiltərənin geosiyasi planlarında "erməni məsələsi"nin yeri.* İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqları, ümumilikdə Qafqaz siyasəti-tarixi Şərq məsələsi‖nin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməlidir. İnkaredilməz həqiqətdir ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. XX əsrin əvvəllərində İngiltərənin istər Osmanlı ərazilərində, istərsə də Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də məhz ermənilər idi. Qeyd etmək lazımdır ki, ermənilər XIX əsrin sonları və XX əsrin əvvəllərində İngiltərənin geosiyasi maraqlarının icraçısına çevrilsələr də, öz növbəsində dünyanın bu böyük gücündən gələcəkdə qurulması planlaşdırılan Ermənistan Dövləti üçün öhdəlik-

lər də tələb etmişdilər. Yəni ingilis-erməni əlaqələrini bir növ qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində xarakterizə etmək olar. Qeyd olunduğu kimi, İngiltərə erməni məsələsinin ortaya çıxmasında və millətlərarası problemə çevrilməsində başlıca rol oynamış, özünün Osmanlı torpaqları ilə bağlı ekspansionist siyasətində, o cümlədən Cənubi Qafqazla bağlı geosiyasi maraqlarında ermənilərdən əsas vasitə kimi istifadə etmişdir (3, s.9).

XVIII əsrin sonlarndan etibarən Osmanlı dövlətinin ərazi bütövlüyünü müdafiə etmək siyasətini yeridən İngiltərə 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsindən sonra Osmanlı imperiyasının ərazi bütövlüyünə əsaslanan ənənəvi siyasət prinsiplərindən zahirən ayrılmasa da, bu dövlətin özü üçün strateji əhəmiyyət daşıyan ərazilərinə sahib olmaq və ya ən azından bu ərazilər üzərində nəzarət və təsirini gücləndirmək siyasətinə yönəldi. Digər bir ifadə ilə, əvvəllər Osmanlı dövlətinin ərazi bütövlüyünü müdafiə edən İngiltərə XIX əsrin ikinci yarısından etibarən Osmanlı dövlətini yıxmaq məqsədini daşıyan bir siyasəti mənimsəməyə başladı. Bunun əsas səbəbi də ondan ibarət idi ki, İngiltərənin siyasi xadimləri əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin ərazi bütövlüyü ilə təminat altına alınacağı fikrini mənimsəmişdilər. Lakin XIX əsrdən etibarən bu dövlətin çox qısa bir müddətdə dağılacağını dərk edən İngiltərə Osmanlı dövlətinin torpaqları üzərində yeni dövlətlər yaratmağı və bu sayədə Hindistanı və Hindistan yolunu təminat altına almağı qarşısına məqsəd qoydu. İngiltərənin əsas məqsədi bunlar idi:

a) Öz ərazi bütövlüyünü qoruya bilməyən və itirən Osmanlı dövlətinin torpaqlarının İngiltərənin maraqlarına zərər verə biləcək və müstəmləkələrini təhdid edə biləcək bir ölkənin əlinə keçməsinə mane olmaq;

b) Rusiyanın Aralıq və Qara dənizə enməsinin qarşısını almaq üçün əvvəllər Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq istəyən İngiltərənin artıq bu dövlətin sonunun yaxınlaşdığını gördüyü üçün Osmanlı imperiyasının torpaqları üzərində özündən asılı dövlətlər yaratmaqla müstəmləkələrinin təhlükəsizliyini təminat altına almaq.

Erməni məsələsi də İngiltərənin bu siyasətinin bir parçası idi və qlobal xarakterli həmin məsələnin ortaya çıxmasında İngiltərə-Rusiya rəqabətləri böyük rol oynamışdır. Erməni məsələsini ortaya atmaqla İngiltərə sadəcə Osmanlı torpaqlarını parçalamağı və parçalanmış ərazilər üzərində hegemonluq qurmağı hədəfləməmiş, eyni zamanda Rusiyanın Aralıq dənizinə enməsinin qarşısını almaq istəmişdir. Məlum olduğu kimi, İngiltərə dünyanın ən böyük dəniz gücünə sahib idi və dünya ticarətini əlində saxlayırdı. Qazandığı zəfərləri ilə rəqibsiz bir gücə çevrilmişdi. Osmanlı imperiyasının torpaqları İngiltərəni çox maraqlandırırdı. Buna görə də Balkanlarda Bolqarıstanı, Anadoluda Ermənistanı, Yaxın Şərq torpaqlarında da özündən asılı ərəb dövlətləri yaratmaqla Rusiya, Fransa və Almaniyaya qarşı rəqabət və güc mübarizəsində ingilis maraqlarına uyğun olaraq üstünlük əldə etmək istəyirdi. İngiltərə baxımından "erməni məsələsi"nin mənası da bu üstünlüyə nail olmaq üçün ondan vasitə kimi istifadə etməkdən irəli gəlirdi (4, s.206-208).

*"Erməni məsələsi" "Şərq məsələsi"nin bir qoludur.* V.Qurko-Kryajin Böyük Sovet Ensiklopediyası üçün yazdığı "Erməni məsələsi" məqaləsində "Erməni məsələsi"ni "Şərq məsələsi"nin bir hissəsi adlandırmaqla, "Erməni məsələsi"nin mahiyyətinə iki nöqteyi-nəzərdən baxılmasını zəruri hesab edir: "Zahiri mahiyyət: böyük dövlətlər Türkiyəni daha asanlıqla istismar etməkdən ötrü onun mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə, ölkəni zəiflətməyə çalışırdılar. Daxili mahiyyət: öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqəddəratın müstəqil təyin edilməsi uğrunda, elə siyasi-iqtisadi amillər əldə olunması uğrunda mübarizə aparırdılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin" (2, s.54).

Erməni məsələsinin zəmini hələ XVIII əsrdə, Konstantinopolun maliyyə aristokratiyası erməni millətinə rəhbərlik etməyə başlayanda yaranmışdı (2, s.55).

"Şərq məsələsi"nin ən dəhşətli qolu - "Erməni məsələsi" adlanan məsələ tarix səhnəsində arasıkəsilməz faciələr mənbəyinə çevildi. Tarixi hadisələrə bələd olan hər kəsə yaxşı məlumdur ki, bu məsələ Osmanlı imperiyasını zəiflətmək və son nəticədə Şərqin siyasi

xəritəsinin dünyanın iri dövlətlərinin mənafeyinə uyğun şəkildə formalaşmasını təmin etmək məqsədi ilə yeridilən siyasətin mühüm tərkib hissəsidir. Erməni xalqının öz müqəddəratını özü təyin etməsi pərdəsi altında dünya siyasətinə daxil olan bu məsələ əslində xarici kapital ilə sıx bağlı olan erməni millətçilərinin mənafeyinə uyğun olaraq Türkiyə və Azərbaycan torpaqları hesabına "dənizdən dənizə Böyük Ermənistan" imperiyası yaradılması haqqında tarixdə oxşarı olmayan avantürist, hiyləgər və məkrli bir siyasətdir. "Erməni məsələsi" Rusiya və İngiltərə tərəfindən ortaya atılan bir məkrli siyasətdir ki, onu bəhanə edib orta əsrlərin qüdrətli dövləti olan Osmanlı dövlətini zəiflətsinlər, torpaqlarını ələ keçirsinlər. V.F.Mayevskinin təbirincə desək, ermənilər "... hər halda başqa dövlətlərin Türkiyənin işlərinə qarışması üçün bəhanə olsun deyə ağlasığmaz, təsəvvürə gəlməz anarxiya yaratmaqdan ötrü əllərindən gələn hər şeyi etmişlər..." (9).

Beləliklə, "erməni məsələsi" XIX-XX yüzilliklər boyu böyük dövlətlərin əlində bir vasitə olmuş və sözün əsl mənasında Osmanlı Türkiyəsinə çevrilmişdir. Türkiyə alimləri haqlı olaraq göstərirlər ki, "erməni məsələsi" əslində ermənilərin deyil, türk torpaqları üzərində mənafeləri toqquşan böyük dövlətlərin - Çar Rusiyası ilə İngiltərənin məsələsi kimi siyasi həyata atılmışdır. Tarixi hadisələrin gedişi göstərir ki, bütün XX əsr boyu azərbaycanlılar üçün əsl tarixi fəlakətə çevrilmiş olan "erməni məsələsi", sonralar isə uydurma Qarabağ problemi zəngin sərvətə malik olan Qafqazda öz nüfuzunu itirmək istəməyən Rusiya imperiyasında siyasi hadisələrin gedişi ilə bilavasitə bağlı olmuşdur. "Erməni məsələsi" Rusiyanın xarici siyasətinin gündəliyində həmişə olmuşdur. İmkan tapdıqca bu məsələnin həyata keçirilməsi, ya da ondan Osmanlı dövlətinə qarşı istifadə etməyin yolları araşdırılırdı (7).

*Nəticə.* Son olaraq qeyd etmək istəyirəm ki, tarixdə yaranmış "erməni məsələsi" uydurulmuş bir mif, heç bir sosial əsası və bazası olmayan yalançı nəzəriyyədən başqa bir şey deyildir. "Erməni məsələsi"nin uydurulması dünyanın böyük dövlətlərinə öz işğalçılıq planlarını həyata keçirmək üçün lazım idi. Hətta "erməni məsələsi" olmasaydı belə, Avropanın böyük dövlətləri digər bir "məsələ" uydu-

racaq və nəhəng Osmanlı dövlətinin ixtiyarında olan torpaqları işğal etməyənə qədər cəhdlərinə davam edəcəkdilər. Tarix ondan ibrət dərsi götürməyənləri cəzalandırır. Erməni daşnakları və təbliğatçıları dəfn edilmiş "erməni məsələsi"ni XX yüzilliyin 80-ci illərinin ortalarında başqa bir adla - "Qarabağ problemi" adı ilə yenidən meydana atdılar**.** Əvvəl "Şərq məsələsi"ni, sonra "Erməni məsələsi"ni, daha sonra isə "Qarabağ problemi"ni ortaya atanlar bu gün tarix qarşısında cavab verməlidirlər, bütün dünya dövlətləri tarixi həqiqətlərdən və canlı tarixin özündən ibrət dərsi almalıdırlar. Beləliklə, tarixi araşdırmalar və tədqiqatlar nəticəsində bir obyektiv həqiqət meydana çıxır ki, Rusiya və onun kimi digər böyük dövlətlərin köməyi olmasaydı, ermənilər heç vaxt bugünkü süni dövlətlərini əldə edə və Azərbaycan torpaqlarını işğal edə bilməyəcəkdilər.

ƏDƏBİYYAT:

1.Cəfərov Taleh Vəzir oğlu. Qondarma erməni soyqırımı faktların dili ilə. Bakı, "Kitab aləmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, s.235. Mənbə: https://ebooks.azlibnet.az/book/zL8WJHYr.pdf [Müraciət tarixi: 20.05.2020]

2.Dağlıq Qarabağ münaqişəsi. Tammətnli elektron materiallar məcmuəsi. AR Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Bakı, 2005, s.378. Mənbə: http://files.preslib.az/site/karabakh/gl1.pdf [Müraciət tarixi: 20.05.2020]

3.Emin Arif (Şıxəliyev). İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920) (Böyük Britaniyanın arxiv materialları əsasında). Naxçıvan, Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2016, s.144. Mənbə: http://anl.az/el/Kitab/2017/2016-1652.pdf [Müraciət tarixi: 20.05.2020]

4.Hacıyev İsmayıl, E.A.Şıxəliyev, E.Y.Cəfərli, M.S.Şabanov. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2017, s.300. Mənbə: http://www.sdf.gov.az/development/uploads/qrantlar_uzre_neshrler/eif_kitabrlar/boyuk_gucler_i_haciyev.pdf [Müraciət tarixi: 20.05.2020]

5.Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, s.192. Mənbə: http://elibrary.bsu.az/books_460/N_169.pdf [Müraciət tarixi: 20.05.2020]
6.Hacıyeva Ş. Türkiyə-Ermənistan münasibətlərində Azərbaycan amili // Tarix və onun problemləri, № 2 2013, s.362-368. Mənbə: http://static.bsu.az/w8/Tarix ve onun problem/2013 2/seh.362-368.pdf [Müraciət tarixi: 20.05.2020]
7.Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994 cü illər)". Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında Elmi İnkişafı Fondu, 2016, s.520. Mənbə: http://www.sdf.gov.az/development/uploads/qrantlar_uzre_neshrler/eif_kitabrlar/musa_qasimli_erm_sovetleshmesinden_az_erazilerinin_ishg__2002.pdf [Müraciət tarixi: 20.05.2020]
8. Qazıyev Y. Erməni məsələsi: yalanlar və gerçəklər. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009, s.344. Mənbə: http://anl.az/xocali/kitablar/Azf-262337.pdf [Müraciət tarixi: 20.05.2020]
9.Məmmədov Nuru. "Erməni məsələsi" necə yarandı? / "Respublika" qəzeti, 2015, 8 mart. № 54, s.6; 11 mart. № 55, s.6. Mənbə: http://www.elibrary.az/docs/qazet/qzt2015_793.pdf [Müraciət tarixi: 20.05.2020]

**NURTAJ SULEYMALİ**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

# "THE ARMENİAN İSSUE" – İS A BRANC OF "THE EASTERN İSSUE"

The Eastern Hemisphere has been the focus of such attention, both politically and culturally, in every period of history, and even now. In the Middle Ages and the New Age (XVIII-XX), the "Eastern Question" was implemented under a special name. European and American countries have always tried to seize the East and its

strategic capabilities. From these European countries, Great Britain, Russia, and France tried to increase their economic and political power from the strategic importance of capturing the lands of the Ottomans, one of the most powerful states in the East. For this purpose, the "Eastern Question" plan was officially prepared in the 18th century, and European countries were officially united around this issue in the 19th century. The "Eastern question" is not only the Ottoman question, but also the question of Azerbaijan, the ancient state of the East. Because European countries wanted to create a "Greater Armenia" state in Anatolia to shake the Ottoman Empire, and when the Ottomans did not allow it, they created these states in Western Azerbaijan, the lands of ancient Azerbaijan. From this point of view, it is necessary to look at the "Armenian issue" as a branch of the "Eastern issue" and show this historical reality to every Azerbaijani with evidence. Because, as they claim, Armenians have not settled in the lands of Azerbaijan since ancient times, they were moved here on the basis of a plan established in the XVIII century, and the "Eastern question" itself is proof of this fact. The article deals with the "Armenian issue", a branch of the "Eastern issue" based on historical facts and evidence, and explains the essence of this issue.

*Keywords: “*Eastern issue", "Armenian issue", “The Armenian issue is a branch of the Eastern issue”, Karabakh problem.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

№4(4) 2020

UOT 94

**TƏRANƏ BABAZADƏ**

***Bakı Dövlət Universiteti,***
***"Türk düynası tarixi" ixtisası üzrə magistrant***
**E-mail: tarana.babazada@bsu.edu.az**

# OSMANLI TARİXİNDƏ DURĞUNLUQ DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİ

*Elmi rəhbər*:
tarix elmləri doktoru İsmayıl Məmmədov
Bakı Dövlət Universiteti

*Təkrarlanan tarixin, təkrarlanmaz imperiyası olan Osmanlı imperiyasının keçirmiş olduğu durğunluq mərhələsinə ölüm və qalım mərhələsi desək, yanılmarıq. Durğunluğun məntiqi nəticəsi tənəzzül olsa da, 1579-1699-cu illəri əhatə edən bu mərhələ daxili və xarici münasibətlərdə olan rəngarəng məsələlərlə tarixə həkk olunmuşdur. Təəssüflər olsun ki, məsələlərin və problemlərin müxtəlifliyinə görə mərhələni rəngarəng adlandırsaq da, Osmanlı üçün rəng tonları daha çox bədbin rənglərə qərq olunmuşdu. Bu mərhələ də III Mehmed Avstriya üzərinə səfərə çıxıb, Eğri Qalasının fəthi ilə "Eğri Fatehi" adlanması, IV Muradın kiçik yaşda taxta çıxmasına baxmayaraq, bir müddət sonra anası Kösəm Sultanın təsirindən qurtulub, idarəçiliyi əlinə alması, tez-tez geyimini dəyişərək xalqın arasına qarışması ilə durğunluqda belə yüksəlişə keçid üçün müəyyən irəliləyişlər ola biləcəyinə işarə kimidir. Fəqət, daxildə olan üsyanlar, rüşvət, səltənətin qadınların əlinə keçməsi, xaricdən isə ərazilərin itirilməsi kimi mənfi nüansların olması, 1699-cu ildə durğunluqdan tənəzzülə keçidlə şərtləndi.*

*Açar sözlər:* Osmanlı imperiyasının durğunluq mərhələsi, Sokollu Mehmet Paşa, "Qadınlar səltənəti", Cəlali üsyanları, Yeniçəri Ocağı, Timar sistemi, Müqəddəs İttifaq dövlətləri, Karlovitsa sülhü

*Giriş*. Osmanlı imperiyasının sultanları 1299-cu ildən 1922-ci ilə qədər qitələrarası geniş bir imperatorluğu idarə edirdilər. 623 il mövcud olmuş bu imperatorluq çox sayda padşahlar tərəfindən idarə

olunub. Həm ərazi, həm də potensial olaraq güclü olan bu imperiya bir-birinin məntiqi nəticəsi olaraq 3 mərhələdən - Yüksəliş, Durğunluq və Tənəzzül - keçmişdir. Mövzu etibarı ilə toxunacağımız əsas məsələ imperiyanın durğunluq dövrüdür. Bu dövrdə idarəçilikdə olan padşahlar, imperiyanın daxili və xarici məsələləri, habelə onu durğunluq vəziyyətinə gətirib çıxaran daxili və xarici səbəblər haqqında müəyyən qədər məlumat alacağıq. 1579-cu ildə Sokullu Mehmed paşanın (qeyd edək ki, Sultan Süleyman Qanuninin dövründə Ədirnə sarayına gətirilən bu Serb əsilli şəxs "Don-Volqa" və "Süveyş kanalı" layihələri ona aid olduğu üçün əks mövqeli şəxslər tərəfindən qətl edilib) ölümü ilə başlayan bu dövr, 1699-cu ildə Karlovitsa sülh müqaviləsi ilə başa çatır. Toxunulan hər mövzuda səbəblər, nəticələr və analiz edilərək ən sonda məqsədlər əldə olunur. Belə ki, Osmanlını durğunluq dövrünə gətirib çıxardan əsas səbəbi, yüksəliş dövründəki qurumların pozulması ilə nəticələndirir və bu qurumların əvvəlki vəziyyətinə qayıtmasının durğunluğun sonu olacağını bildirirdilər. Osmanlını Durğunluq dövründə 11 padşah idarə etmişdir ki, bunlardan III Mehmed, IV Murad, IV Mehmed daha ön planda olmuşdur. III Mehmedin – "Validə, biz Sultan oğlu sultanıq, istifadə etməyəcəyiksə Eyup Sultan Camisində bu qılıncla niyə silahlandıq? Qərarımız qərardır, səfərə çıxacıq. Taxt-tac uğruna görə dövləti hədər etməyəcik" - deyərək, nəfsini taxt-taca qurban etməyərək, xalqı üçün fədakarlığa hazır olmasından, Sultan IV Muradın – "Kömək almağa adət edən, əmr almağa da adət edir!" – deyərək, vəziyyətin müsbət və yaxud gərgin olmasına baxmayaraq, sona qədər mübarizəni davam etdirməyin, öz gücünə inanmağının önəmindən danışaraq, imperiyanı qorumaq üçün əllərindən gələni əsirgəməməsinin bir növ şahidi oluruq. Mövzu etibarı ilə, durğunluqda daxili və xarici səbəblərin adlarını lakonik olaraq qeyd edib, müəyyən qaranlıq məsələlərə isə nəticədə aydınlıq gətirməyə vəsilə olacağıq.

*Osmanlı tarixinin inkişaf mərhələləri*. Tarix keçmişlə yanaşı, gələcəyin bir növ özü, bünövrəsi deməkdir. Tarix təkrarlanandır, fəqət təkrar olunmaz dərəcədə qüvvətli imperiyaları da tozlu səhifələrində saxlamaqla yanaşı, həmin tarixi mövzuların bu gün belə aktual

olması məsələsi daima gündəmdədir. Dövləti, imperiyanı var edən faktorlardan biri, onun ərazi bütövlüyüdür. 623 il mövcud olmuş Osmanlı imperiyası, türklərin tarixi nüfus dairəsi baxımından böyük nailiyyəti olmaqla yanaşı, Aralıq və Qara dənizləri əhatə edən Asiya, Avropa və Afrika qitələrində hökm sürmüş, müxtəlif irq və dinlərdən olan xalqları öz torpaqlarında məskunlaşdırmışdır. 1299-cu ildə yaranmış Devlet-i-Aliyye-yi Osmaniyye, imperiya mərhələsinə qədəm qoyduqdan sonra inkişafında 4 mərhələdən keçmişdir. Bunlar:

1) *Yüksəliş dövrü: İmperiyanın yaranması*. Qeyd edilən mərhələ 1451-1579-cu illəri əhatə etməsi ilə yanaşı, imperiyanın yaranması, Konstantinopolun fəthi kimi mühüm tarixi proseslər burada əksini tapıb.

2) *Durğunluq dövrü*. Haqqında ətraflı danışacağımız bu mərhələ 1579-1699-cu illəri əhatə edir.

3) *Tənəzzül dövrü*. Qeyd edilən mərhələ 1699-1792-ci illəri əhatə etməsi ilə yanaşı, daxili siyasətdə inkişafa vəsilə olan Lalə dövrünü, habelə inkişafa zərbə olan üsyanların, Qərb dövlətlərindən iqtisadi aslılığın artması kimi prosesləri özündə əks etdirir.

4) *Dağılma dövrü.* 1792-1922-ci illəri əhatə edən bu mərhələdə müxtəlif illərdə və müxtəlif formalarda Osmanlını xilas etmək məqsədilə bir neçə cəhd edilsə də (Tənzimat islahatları, Konstitusiyanın qəbulu və s.), istənilən nəticəni əldə etmək mümkün olmadı.

Tarixdə baş verən hadisələrin, proseslərin məntiqi nəticələri olur. Həmin nəticələrə gətirib çıxardan isə, əsaslı səbəblərin olmasıdır. Osmanlı imperiyasında yüksəliş dövründən durğunluq dövrünə keçidin səbəblərinə nəzər salmaqla, müəyyən qədər bu tarixi dövr haqqında əsaslı biliyə sahib ola bilərik. Hələ Yüksəliş dövründən Osmanlı dövlətində mütləqiyyət rejimi olduğu üçün, bu da bir növ dövlət idarəçiliyini mənfi istiqamətə doğru çəkirdi. Yüksəliş dövrü eyni ilə adı kimi olan güclü mərhələsini Sultan Süleyman Qanuniyə qədər keçirmişdir. Fəqət Qanunidən sonra hakimiyyətə gələn Səlimin, həmçinin III Muradın dövründə idarəçilik onların deyil, baş vəzir Sokollu Mehmed paşanın əlində cəmləşmişdir. Əlbəttə, bu nüans durğunluğa yol açan mühüm səbəblər sırasında özünə məxsus yer tutur.

Durğunluq mərhələsinə keçidi şərtləndirən digər faktor, daha az yaşlı şəxslərin padşah olması və bundan sui-istifadə edən qadınların səltənət idarəçiliyində söz sahibi olması idi. Bu nüans, nəinki Osmanlı imperiyasında, tarixin müxtəlif dövrlərində var olan bəzi başqa dövlətlərdə də müşahidə edilib. Burada qeyd edilməlidir ki, bir sıra hallarda və dövlətlərdə qadınların hakimiyyəti ələ keçirməsi uğursuzluğa gətirib çıxarmış olsa da, bu hakimiyyətin inkişafa vəsilə olduğu dövlətlər və dövrlər də olub.

Osmanlı tarixi xatırlananda, bu tarixin zirvəsi olaraq görünən hadisə, 1453-cü il 29 mayda II Mehmed tərəfindən Konstantinopolun fəthi nəzərdə tutulur. Bu hadisə Osmanlıların yalnız Bizansın mərkəzini, paytaxtını ələ keçirməsi deyil, eyni zamanda Osmanlının imperiya pilləsinə qədəm qoyması demək idi. Bundan sonra Mehmed imperator kimi Konstantinopolun fəthi ilə daha da yüksəlməsi ilə yanaşı, "Fateh" tituluna layiq görülən ilk Osmanlı sultanı olmuş və bu yüksəlişi özünəməxsus şəkildə davam etdirən Sultan Süleyman Qanuni olmuşdur (1, s.225). Yuxarıda qeyd etdiyim kimi, Sultan Süleymandan sonra yüksəlişdə olan vəziyyət durğunluqla, daha sonra tənəzzüllə nəticələnmişdir. Durğunluq dövrü Yüksəliş dövrünün bir növ məntiqi nəticəsi olduğu kimi, tənəzzül dövrünə gətirib çıxaran mərhələ kimi də təcəssüm olunur. İndi isə durğunluq dövründə baş verən hadisələrlə yanaşı, bu dövrə keçidə səbəb olan məsələlərə daha da təfsilatı ilə nəzər salaq.

*Osmanlı tarixinin durğunluq mərhələsinin səbəbləri.* Daxili səbəblərə - vərasət sisteminin dəyişməsi, sancaq sisteminin qaldırılması, beşik üləmalığı, qəfəs sistemi, timar sisteminin pozulması, təhsilin pozulması, Anadoluda meydana çıxan Cəlali üsyanları, mərkəzi idarəçiliyin pozularaq rüşvətə gətirib çıxarması, qadınların səltənəti ələ keçirməsi, iqtisadiyyatın pozulması məsələləri daxildir. Xarici səbəblərə - Dövlətin ərazilərini daha da genişləndirməməsi (çölləri, dağları, okeanları keçə bilməməsi), mərkəzi və güclü dövlətlərlə qonşu olunması (Avstriya, Rusiya, İran) və bu kimi dövlətlərin Osmanlıya qarşı ittifaq yaratması, Avropa dövlətlərində coğrafi kəşflər, Renesans və Reform hərəkəti nəticəsində iqtisadiyyat, düşüncə və bilik

mövzusunda yüksəlişdə olmasına baxmayaraq, Osmanlının bu inkişafı izləyə bilməməsi, həmçinin, Avropadakı döyüş texnologiya dəyişikliyini tətbiq edə bilməməsi kimi məsələlər aiddir. Çətinlikləri aşa biləcək potensiala malik olmaqla yanaşı, bunu dərk edə bilən Osmanlı imperiyasının, bu dövrdəki vəziyyəti, durğunluğa gətirib çıxaracaq səbəbləri və bu səbəblərin yaratdığı nəticələrinin bilavasitə təfsilatı ilə artıq tanış ola bilərik.

Dövlətin, imperiyanın güc qaynağının əsasını ordu təşkil edir. Osmanlı ordusunda da, XIV-XIX əsrlərdə yeni döyüşçü dəstəsi, daimi piyada qoşunu yarandı ki, onun təməlini Osmanlıların tutduqları ərazilərdə 8-18 yaşlı xristian uşaqları təşkil edirdi. 12 il hərbi təlimlər keçdikdən sonra, bu cür əsgərləri "yeniçəri" adlandırırdılar. Həmin Yeniçəri ocağınının qayəsinin zədələnməsi, mövcud hakimiyyətin zədələnməsinə səbəb olmuşdu (3).

Durğunluğa səbəb olan əsas məsələlərdən digəri timar sisteminin çökməsi hesab olunur. Belə ki, timar Osmanlıda hərbi xidmət qarşılığında əsgərlərə və məmurlara verilirdi. Timar sisteminin çöküşünə - timarın paylanmasında rüşvətə və bərabərsizliyə yol verilməsi, daha sonra timar əsgərlərinin sayının azalması və maaşlı əsgər sayının artması səbəb olmuşdur ki, bu da büdcəyə mənfi təsirsiz ötüşməmişdir. Bunun ardınca, Anadoluda 1550-1610-cı illəri əhatə edən Cəlali üsyanları baş vermişdir ki, bu da dini məqsəd daşımırdı. Bu yeni üsyanlar Sultan Süleymanın uzunmüddətli hökmranlığının sosial-siyasi, iqtisadi siyasətinin bəhrəsi idi və bir növ dövlətin zəifləməsinin sürətlənməsinə səbəb olmuşdur. Cəlali üsyanlarının baş vermə səbəbi – yeniçərilərə çox sayda maliyyə vəsaitinin ayrılması və bunun nəticəsində dövlətin maliyyə sisteminin pozulması, həmçinin bunlarla yanaşı vergilərin qayda-qanunsuz toplanması da, daxili ticarətlə yanaşı, xarici ticarətə də öz mənfi təsirini göstərmişdi. Bu üsyanlar dini xarakter daşımasa da, üsyancı qüvvələrin tərkibini kəndlilərlə yanaşı, yüksək təbəqədən olan şəxslər də təşkil edib. Tarixçi Mustafa Akdağ, Şeyx Cəlal, Baba Zinnun, Seydinin idarəçiliyi müddətində baş verən kəndli üsyanlarının, dövlətin aldığı vergiləri yük-

səltmək məqsədi ilə Süleymanın hazırladığı torpaq sayımının yerləşməsi ilə başladığını qeyd edir (3).

Tarixdə baş verən üsyanlara ümumi baxışdan nəzər saldığımız zaman, bir çox qisminin uğursuzluqla nəticələndiyini görə bilərik. Cəlali üsyanları da sərt şəkildə yatırılsa da, ondan sonra baş verəcək üsyanlar üçün mayak rolunu oynaya bildi.

Dövlətin gücünün mühüm amillərindən biri, onun güclü maliyyə bazasına malik olmasıdır. Osmanlı dövlətinin də güclü olmasına bu nüans böyük təsir göstərmişdir. Bu vəzifəni dəftərdarlar həyata keçirirdilər, II Mahmudun dövründə isə Maliyyə Nazirliyi qurulmuşdur. Pul çapı üçün Avropadan qurğular gətirilsə də, bu inkişafın sabitliyini qoruyub saxlaya bilməmişdir (2, s.402). Və sözsüz ki, inkişafdan qalma öz mənfi təsirini açıq büruzə vermişdir. Belə ki, hərbi və iqtisadi sıxıntıların artmasının, yerli sənayenin inkişaf etməməsinin nəticəsi olaraq, lazımı məhsullar xaricdən alınırdı. Gəlirlərin azalması isə yuxarıda qeyd etdiyim kimi, timar sisteminin pozulmasına, bu hadisənin mənfi təsirinin döyüşlərə göstərməsi də, dövlətin gəlirinə, maliyyəsinə sarsıdıcı zərbə vurmuşdur. Maliyyəni sarsıdan mühüm faktordan bir digəri isə, coğrafi kəşflər nəticəsində yeni yolların aşkar olunması və Osmanlı ölkəsindən keçən İpək və Ədviyyat Yolu ticarətinin azalmasıdır (3).

Maliyyə bazasının dövlətin, imperiyanın qüvvətini stabil və inkişafa aparacaq istiqamətdə olmasının nə qədər mühüm olmasını yuxarıda qeyd etdik. Şəksiz ki, bu fikrin mənfiyə köklənməsi durğunluğa səbəb olacaq mühüm amildir. Fəqət, nəzərdən qaçırmamalıyıq ki, maliyyə qədər, təhsil də dövləti formalaşdırmaq potensialına malikdir. Bu məsələ yalnız Osmanlı imperiyasına aid spesifik özəllik deyil, bu gün də aktual olan məsələdir. Təhsil sistemi çökmüş vəziyyətdədirsə, yüksəlişə çatmaq qeyri-mümkündür. Osmanlıda təhsil sisteminə rüşvətin daxil olması, Avropada başlayan təhsil və texniki tərəqqi prosesinə, Osmanlının ayaq uydurmaması, təhsil sistemi səviyyəsinin çöküşünə səbəb olmuşdur.

Durğunluğa bais olacaq digər amil isə, Osmanlı dövlətinə qarşı Avropada ittifaqların qurulmasıdır. Avropa dövlətləri Osmanlı kimi

güclü dövləti özlərinə rəqib hesab etdikləri üçün, daima digər dövlətləri ona qarşı ittifaqa səsləyiblər. Hər bir Avropa dövlətinin fərqli maraqları olsa da, Osmanlını işğal etmək ortaq maraq daxilində idi. Xatırladaq ki, hətta bir çox türk dövlətlərini avropalılar qarşı-qarşıya gətirərək, arzularına nail olmağa çalışırdılar.

1571-ci ildə Osmanlı Venesiya-İspaniya ittifaqından qorxurdu. Osmanlı dövləti Ağ dənizdə İspaniyaya qarşı bir dəniz səfərimi, yoxsa Orta Avropada Avstriya Habsburqlarına qarşı müharibə etmək fikrində qərarsız idi. Bu dövrdə İngiltərə, İspaniyaya qarşı Osmanlıların donanma göndərməsi üçün İstanbulda diplomatik cəhdlər göstərir və bu məqsədlə İspaniya-Osmanlı atəşkəsi üçün atılan addımları baltalayırdı. Bir sözlə, İstanbul Avropanın siyasətinin mərkəzi vəziyyətinə gəldi. 1593-cü ildə Macarıstan məsələsinin də ortaya atılması Osmanlının siyasətini tam formalaşdırır və Habsburqlara qarşı səfərə qərar verilir (1, s.374). Vəziri-əzəm Sinan Paşa Avstriyaya qarşı 1593-cü ildə yürüşə başlayır, 1594-cu ildə Vyana yolu üstündə Raabı (Yanık-Kale) ələ keçirir. Amma Avstriya önəmli olan Estarqon qalasını ələ keçirir. III Mehmedin ordusu mühüm qələbələr qazansa da, Venetsiya elçiləri belə qeyd edirdilər ki, türklərdə zəiflik, qarışıqlıq, qorxaqlıq olduğu üçün onlara sülh arzulayırdılar. 1603-cü ildə Şah Abbasın hücuma keçməsi, Osmanlıları daha da zəiflətdi. Həmçinin, Osmanlının 1595-ci ildən etibarən sülhə istiqamətlənmiş addımları, Avropanın yeni döyüş texnikası, at üstündə döyüşən Avstriya əsgəri qarşısında qılınc-qalxanla döyüşən timarlı sipahilərin çatışmazlığı ortaya çıxmış və Osmanlı hökuməti Anadoluda xalqdan tüfəng istifadə edən yaşlı əsgərləri istifadə etmək məcburiyyətində qalmışdır (1, s.378).

1699-cu ildə Osmanlı ilə Müqəddəs İttifaq dövlətləri (Avstriya, Venesiya, Reç Pospolita) arasında Karlovitsa müqaviləsi imzalandı. Bu saziş, Balkanlar və Mərkəzi Avropadakı Osmanlı hakimiyyətinin (türklərin Avropadan sıxışdırılması) sona çatmasına, Habsburq hakimiyyətinin başlaması oldu. Karlovitsa müqaviləsinə gətirib çıxaran, 1667-ci ildə Avropa dövlətlərinin Andrusov sülhündə Osmanlı imperiyasına qarşı koalsiya yaratması mühüm rol oynamışdı. Osmanlıya ən böyük zərbə Macarıstanı və Transilvanyanı itirməsi oldu (4).

Bununla da Osmanlı tarixinin durğunluq dövrü başa çatdı, ardınca növbəti – dağılma mərhələsinə keçid baş verdi.

*Nəticə.* Uzun müddət mövcud olmuş, geniş əraziləri əhatə etmiş, durğunluq dövründə ərazi itirməsinə baxmayaraq mübarizə ruhundan çəkilməmiş Osmanlı imperiyasının məqsədi, hər nə qədər yüksəlişə yenidən qayıtmaq olsa da, nəticə onları tənəzzülə gətirib çıxardı. Osmanlı imperiyasının daxildə buraxdığı səhvlər, xaricə mənfi təsirini ötürməyə bilməzdi. Daxili səbəblərin tam mərkəzində duran əsas problem olan Vərasət sisteminin dəyişməsi ilə (taxta keçid sistemi), taxt-tac davasının bu yolla yox edilməsinə çalışılsa da, təəssüflər olsun ki, təcrübəli və bilikli padşahların idarəçilik gücünün qarşısına sədd olmuşdur. Əlbəttə, düzgün və məntiqi qərarlar verən, eləcə də güclü idarəçilik bacarığı olmayan şəxslərin hakimiyyət başında olmaması ən böyük, hətta ən birinci səbəbdir ki, bunun nəticəsini Osmanlı ağır şəkildə yaşadı. Xalqdan qopuq, biliksiz, idarəçilik bacarığı olmamağa bais olan digər səbəb Qəfəs sistemi, şahzadələrin Topqapı sarayında həbs həyatı yaşayaraq, xarici əlaqələrin qısaldılmasına, təcrübəli və bilikli padşahların yetişməməsinə gətirib çıxarmışdır ki, bunun nəticəsi olaraq, saray qadınlarının, saray ağalarının, üləma sinfinin güclənməsinə yol açılmışdır. İqtisadiyyat dövlətin, imperiyanın dayaq sütunlarından biridir. Yəni Osmanlı durğunluq mərhələsindədirsə, deməli, iqtisadiyyatda da çöküş özünü göstərib. Belə ki, coğrafi kəşflər nəticəsində İpək və Ədviyyat yollarının istiqamətini dəyişdirməsi, gömrük gəlirlərinin azalmasına, Avstriya və İran ilə aparılan müharibələr xəzinənin boşalması və qənimətin azalmasına, çətin iqtisadi vəziyyətdə xalqdan alınan vergilərin ağırlaşması isə kəndlilərin tarım ərazisini tərk edib, şəhərlərə köç etməsinə gətirib çıxarmışdır. Digər toxunacağımız və günümüzün aktuallığı ilə səsləşəcək problem isə öz işini, vəzifəni tam görmədən,digər vəzifəyə yiyələnmək həvəsidir. Osmanlıda bu məsələ III Murad dövründə Qapıqulu ocağına əsgərlərin saysız olaraq alınması ilə başlandı. Əlbəttə, əsgərlərin sayının artması, maaşlarının ödənilməsinə çətinlik törətdi. Lakin vəziyyəti daha da alovlandıran məsələ isə maaşlarını ala bilməyən əsgərlərin qazanc əldə etmək üçün digər işlərə yönəlməsi idi. Dövlətin daxilini

və xaricini tam şəkildə qüvvətləndirən mühüm faktorlardan biri ordusunun güclü olmasıdır. Timar torpaqlarının haqq etməyənlərə verilməsi, yeniçərilərin timar torpaqlarını ələ keçirməsi, timar sisteminin pozulmasına yol açdı. Nəticədə, əyalət əsgərlərinin sayı azaldı. Qərbdə olan döyüş texnikasının inkişafından Osmanlının geridə qalması dövlətin hərbi sitemi pozdu. Timar sisteminin pozulması ilə yanaşı, Anadoluda Cəlali üsyanlarının baş verməsi, kəndlilərin torpaqlarını tərk etməsinə, kənddən şəhərə köçə səbəb oldu. Bunun nəticəsi, şəhərlərdə işsizliyin artması və təhlükəsizliyin pozulması idi. Dövlətin bir digər dayaq sütunu isə təhsil, elmdir. Osmanlı imperiyasında mədrəsə təhsilinin pozulması, tibb, fəlsəfə kimi dünyəvi elmlərin mədrəsədən çıxarılması və bu fənni tədris edən müəllimlərin yetişdirilməməsi təhsilə çox böyük zərbə oldu. Osmanlıdan fərqli olaraq, Avropada təhsil və elm dini anlayışdan ayrı inkişaf edirdi ki, Osmanlı bu yüksəlişdən geri qalırdı. Təhsildə bu pozulmanın nəticəsi, bir müddət sonra dövlətin bütün qurumlarına və xalqın yaşantısına mənfi təsirini göstərdi. Bu mərhələdə dövlət adamları xalqdan qopurdu. Bunlar xalqın siyasi, sosial, iqtisadi inkişafının qarşısını alırdı.

Sonda, yuxarıda deyilənləri ümumiləşdirsək qeyd edə bilərik ki, Osmanlı imperiyasının durğunluq dövründə baş verən daxildən zədələnmə, dövlətin ümumilikdə inkişafdan geri qalması ilə yanaşı, həmçinin onun var olan gücünün də itiriləməsi və bu kimi nüansların da öz növbəsində xarici inkişafa mənfi təsir göstərməsi ilə nəticələndi.

## ƏDƏBİYYAT:

1.Halil Inalcık. Devlet-i Aliyye. Osmanlı İmparatorluğu üzerine Araştırmalar-I. Klasik Dönem (1302-1606): Siyasal, Kurumsal ve Ekonomik Gelişim. Ankara, Türkiye İş Bankası Kültür Yayınları, 2009, s.377.

2.Hamit Bozarslan. Türkiye tarihi. İmparatorluktan günümüze. 1.Baskı. İstanbul, İletişim Yayınları, 2015, 444 s. Mənbə: https://docplayer.biz.tr/50229563-Hamlt-bozarslan-turkiye-tarihi.html [Müraciət tarixi: 20.05.2020]

3.Temel Anver. Osmanlı Devletinin Duraklama Nedenleri Maddeler Halinde / Mini Bilgi Sitesi, 20 Şubat 2017. Mənbə:

https://www.iwikisitesi.com/osmanli-devletinin-duraklama-nedenleri-maddeler-halinde.html [Müraciət tarixi: 20.05.2020]
4. Osmanlı Devleti Padişahları: Duraklama Dönemi / Ani Yüzük Tarih, 09 Şubat 2017. Mənbə: https://www.aniyuzuk.com/osmanli-devleti-padisahlari-duraklama-donemi.dhtml [Müraciət tarixi: 20.05.2020]

**TARANA BABAZADA**
***master's degree in History of the Turkic Peoples,***
***Baku State University***

## CHARACTERISTICS OF THE STAGNATİON PERIOD IN OTTOMAN HISTORY

We are not mistaken in calling the period of stagnation of the repeated history, the period of stagnation of the Ottoman Empire, a unique empire, a period of death and survival. Although the result of the downturn in the recession, which covers the period 1579-1699, which is the stage of internal and external relations issues colorful history is engraved. Unfortunately, although we called the stage colorful due to the variety of issues and problems, for the Ottomans, the color tones were more pessimistic. This stage, when Mehmed III traveled to Austria and was called the "Eğri Fatehi" with the conquest of the Eğri Qalası, despite the fact that Murad IV ascended the throne at a young age, escape from his mother's influence of Kosem Sultan, who soon took over the reins, often changed his clothes and mingled with the people, suggesting that there could be some progress in such a stagnation. However, internal revolts, bribery, the transfer of power to women, and the loss of territory from abroad led to the transition from stagnation to decline in 1699.

*Key words*: The stagnation period of Ottoman history, Sokollu Mehmet Pasha, "The realm of women", Jalali uprisings, Janissary Hearth, Timar system, Holy Alliance States, Peace of Karlovitsa.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94"19/..."

**TÜRKAN ƏLİSƏFALI**

***Bakı Dövlət Universiteti***
***Türk Dünyası tarixi ixtisası üzrə magistrant***
**E-mail: turkan.alisafali.e@bsu.edu.az**

# SOVET DÖNƏMINDƏ AHISKA TÜRKLƏRININ DEPORTASIYASI HAQQINDA

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sənubər İsmayılova
Bakı Dövlət Universiteti

*Bu tədqiqatda Sovet dönəmində Ahıska türklərinin məruz qaldığı deportasiya siyasətindən bəhs edilir. Ahısk türkləri bu deportasiya nəticəsində qarşılaşdıqları problemlərə baxmayaraq vətənə dönmək üçün daim mübarizə aparmışlar. Birinci deportasiyanın törətdiyi fəsadlar bitməmiş, ikinci dəfə də sürgünə məruz qaldılar və bütün bu olanlara baxmayaraq Ahıska türklərinə repatriasiya hüququ verilmədi. Hal-hazırda onlar dünyanın 10-15 ölkəsində: ABŞ, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya, Şimali Qafqaz, Ukrayna və Gürcüstanda və s. böyük maddi və mənəvi sıxıntılar yaşayaraq həyatlarını davam etdirirlər.*

*Açar sözlər:* Ahıska türkləri, deportasiya, Sovet ittifaqı

*Giriş*. 1921-ci ildə Sovet İttifaqına bağlı olan Ahıska türklərinin tarixində yeni bir dövr başladı. Sovet İttifaqı Abxaz, Osetin və Acara muxtariyyət versə də, Ahıska türkləri bu muxtariyyətdən məhrum edildilər. 1921-ci ildən başlayaraq Sovet İttifaqı tərəfindən Ahıska türklərinə fərqli təzyiq və şiddət tətbiq edildi. 1944-cü ildə Ahıska türklərinin əhəmiyyətli bir hissəsi (100.000-120.000 nəfər) Stalin hökuməti tərəfindən Orta Asiyaya sürgün edildi. Bu tarixdə sürgün edilən Ahıska türkləri bir daha vətənlərinə geri dönə bilmədilər. Bu gün sayı təxminən 600.000 nəfər olan Ahıska türkləri, dünyanın 10-15 ölkəsində və təxminən 100 bölgəsində mühacir olaraq yaşayırlar.

*Əsas hissə*. Çar Rusiyası və Sovetlərin yürütdüyü siyasət Qafqaz ərazisində yaşayan müsəlman türk icmalarına, eləcə də Ahıska

türklərinin tarixi inkişafında dərin iz buraxmışdır. 1921-ci ildə Ahıska ərazisinin Sovet İttifaqına bağlanması ilə Ahıska türkləri üçün yeni bir dövr başladı. Sovet rəhbərliyi Gürcüstan sərhədləri daxilində Abxaz, Osetin və Acara muxtar respublika qurmaq üçün icazə verərkən, Ahıska türkləri bu hüquqdan məhrum edildilər. Bir qrup araşdırmaçılar (məsələn, Rəhman Səfərov, Ayhan Akış və b.) hesab edirlər ki, Rus hökumətinin məcburi köç və sürgün proqramları bu torpaqlarda potensial türk birliyinin qarşısını almağı hədəfləyirdi (8, s.6).

Gürcüstanın sovetləşməsindən sonra 1927-ci ilə qədər ilk altı il ərzində Ahıskanın görkəmli ziyalıları Sovet rəhbərliyi tərəfindən həbs edildilər. Qədim əkinçilik ənənələrinə malik olan bu xalq, "elliklə kollektivləşmə"dən imtina edirdi, çünki, təsərrüfat ənənələrini itirməklə qarşı-qarşıya qalmışdılar (11, s.12). 1927-ci ildə qurulmağa başlanan kolxozlarda işləməkdən imtina edən Axıska türkləri yeni hökumətin düşmənləri elan edildilər. Qurulan yeni qaydalara qarşı çıxan ziyalılar müxtəlif bəhanələrlə sürgünə göndərildi ki, bu da Ahıska türklərinin lidersiz qalmasına gətirib çıxardı (1, s.14). 30-cu illərdə özbaşnalıqlara, ədalətsizliyə dözməyən ahıskalıların bir hissəsi sərhədi keçərək Türkiyəyə getdilər. Hökumətin düşmənləri elan olunmalarının bir səbəbi də bu idi. Sovet rejimi bu xalqı özü üçün təhdid kimi qəbul etdiyinə görə ahıskalıları rəsmi millətlər arasında saymırdı. Hətta siyasi muxtariyyət hüququndan da məhrum etmişdi. Onlara gürcü soyadları verilir, "İslamlaşmış gürcülər" olduqları iddia edilirdi.

Xüsusilə, 1930-cu illərdə başlayan təzyiq və zorakılıq illərində minlərlə ziyalı və ruhanilər "Kamalist və Pantürkist" ittihamları ilə evlərindən çıxarıldılar və bu insanlardan bir daha xəbər alınmadı. Sonralar Stalinin dəstəyi ilə gürcü şovinizmi gücləndi və Ahıska türklərinin əksəriyyətinin soyadları gürcüləşdirildi. Hətta bu dövrdə II Dünya müharibəsinin başlaması və Sovet İttifaqının da müharibəyə qatılması ilə 1938-1940-ci illərdə Ahıska və ətrafına, sərhədin qorunması adı altında, on minlərlə Sovet əsgərləri yerləşdirildi (8, s.7).

Əsas məqsədi sərhəd bölgəsini türklərdən təmizləmək olan Stalin, İkinci Dünya müharibəsi illərində əvvəllər orduda xidmətə cəlb

edilməmiş 40 minə yaxın Ahıska kişisini hərbi xidmətə çağıraraq alman cəbhəsinə göndərdi (4, s.361). Göründüyü kimi, Sovet rejimi etibarsız adlandırdığı xalqları istədiyi kimi istifadə edirdi.

Orduya göndərilənlərin qohumları Borcomda dəmir yolu tikintisində işləyirdilər. Borcomdan - Valeya ərazisinə qədər 70 km uzunluğunda dəmir yolunun inşası zamanı ağır vəziyyətlə əlaqədar minlərlə Ahıska türkü həyatını itirdi.




L.Baratașvili və K.Baratașvili "Biz mesxetilərik" yazısında belə bir maraqlı fakt gətirir ki, sürgün olunanlar 1941-1945-ci illər ərzində tikdikləri Borcom - Vale dəmir yolu ilə öz doğma torpaqlarını tərk etməli oldular. Ancaq işin ən pis tərəfi bundan ibarət idi ki, Stalinin «Marksizm və milli məsələ» əsərində deportasiyaların səbəbini elə "əsaslandırırdı" ki, hətta köçürülənlər özləri də bu sürgünə öz xilasları kimi baxırdılar. Onlar fikirləşirdilər ki, əgər Türkiyə ilə müharibə olarsa, hər kəs məhv olacaqdır. Düşünürdülər ki, bu sürgün onların təhlükəsizliyi üçündür və Stalin müharibə zamanı dinc əhalinin qırılmasını istəmir (11, s.14).

1944-cü ilə qədər ahıska türklərinin hakim olduğu bölgə, 1944-cü ildə əhalinin deportasiyası ilə boşaldıldı. Stalinin Ahıska türklərinin Orta Asiyaya sürgün edilməsi haqqında əmri, Daxili İşlər Nazirliyinin Xalq Komissarı L.Beriya tərəfindən yazılmış 24 May 1944-cü

il qərar ilə elan edildi. Gürcülər və ermənilər bu bölgəyə köçürüldü. Ancaq Ahıska bölgəsi və onun ətrafında əhali seyrek məskunlaşmışdı (3, s.3).

İlk əvvəllər Ahıska türklərinin Orta Asiyaya deyil, Şərqi Gürcüstana deportasiyası planlaşdırılırdı. Bu səbəbdən Şərqi Gürcüstanda yaşayan yerli azərbaycanlılar və kürdlər zorla köçürülərək, Kvemo Kartli bölgəsinə yerləşdirildilər. Ancaq Sovet Daxili İşlər Naziri Beriya yeni bir təklif irəli sürdü. Onun təklifi ilə ahıska türklərinin Orta Asiya Respublikalarına sürgün edilməsinə qərar verildi. Birinci qərara görə ahıskalılar kollektiv yerləşdirilməli idilər. Ancaq ikinci qərarda onların kiçik yaşayış məntəqələrində dağınıq bir şəkildə məskunlaşdırma qərara alındı. Bu qərarları müqayisə etsək görərik ki, ilkin qərarda assimilyasiya niyyəti yox idi, ikinci qərara və nəticələrinə baxdıqda isə, tamamilə "assimilyasiya" mahiyyəti daşıdığı aydın şəkildə görünür. Başqa sözlə, sürgün qərarına imza atan Stalinin fikrincə, dağınıq halda yaşamağa məhkum edilmiş ahıska türkləri tezliklə yerli əhali arasında assimilyasiya olacaqdılar (6, s.11).

Ahıska türkləri Stalinin əmri ilə 14 noyabr 1944-cü ildə Ahıska bölgəsindən heyvan vaqonlarına doldurularaq Orta Asiyaya sürgün edildilər. Sürgün edilən Ahıska türklərinin sayı haqqında Sovet mənbələrində fərqli rəqəmlər göstərilir. Məsələn, 1944-cü il noyabr ayının qeydlərində 91.095, 1944-cü il dekabr ayının qeydlərində 92.307, 1945-ci il yanvar ayının - qeydlərinə görə isə 92.374 Ahıska türkünün sürgün edildiyi göstərilir (7, s.9). Təxminən 100 min olaraq bildirilən bu rəsmi qeydlərə əlavə olaraq, sürgün edilmiş Ahıska türklərinin sayının 200 min olduğunu ifadə edən mənbələr də var [9, s. 64-65].

Sürgün edilən vaxt keçdikləri bölgələrdə qış fəsli olduğu üçün çox əziyyət çəkmişlər. Bir ay yarımlıq səfər ərzində Ahıska türkləri sözün əsl mənasında həyat uğrunda mübarizə apardılar. Sürgünə göndərildikləri heyvan vaqonlarında heç bir istlik sistemindən söz belə gedə bilməzdi. Çox sayda insan soyuqdan donaraq öldü. Hətta, qızlar və qadınlar tualet ehtiyaclarını ödəyə bilmədikləri səbəbindən həyatlarını itirirdilər. Yemək və içki çox məhdud miqdarda verilirdi. Va-

qonların qapıları gündə bir dəfə açılırdı. Qatarların hərəkətinin müxtəlif vaxtlarda olması, daha çox itkiyə, daha az sərnişinə səbəb olurdu. Bəlkə də bu böyük planın bir hissəsi idi. Ölənlərin dəfn olunmasına icazə verilmirdi. Bir çox insanlar öz yaxınlarının öldüyünü gizlədir, qatar dayanan zaman çox məhdud bir vaxtda dinlərinə uyğun bir şəkildə dəfn etməyə çalışırdılar. Rus əsgərləri bir insanın öldüyünü gördükləri zaman, ölüləri zorla alaraq qatardan çölə atırdılar. Bu dövrdə Ahıska türklərinin bir hissəsi soyuq vaqonlarda (20.000), bir hissəsi Rusiya-Alman müharibəsində (25.000), bir hissəsi isə xəstəlik və aclıqdan öldü (30,000) (2, s.45).

Məlum olduğu kimi, bəzi ailələr Qazaxıstanda, bəziləri Özbəkistanda, bəziləri isə Qırğızıstanda məskunlaşmışdı. Vətənindən didərgin düşmüş bu xalq yeni coğrafiya ilə tanış deyildi. İqlim, təbiət, insanlar fərqli idi. Bu ölkələrin dili və mədəniyyəti ahıskalılara yad idi. Sürgün nəticəsində ailələr parçalandı, valideynlər bir yerə, övladlar başqa bir yerə yerləşdirildi. Ailələrindən ayrı olanların evlərindən başqa yerə getməsi qadağan idi. Ahıska türkləri, təxminən 12 il sərt polis rejimi altında yaşamağa məruz qaldılar. Onların yaşadıqları yerdən çıxması qadağan idi. 1956-cı ilə qədər heç bir Ahıskalı xüsusi icazə olmadan yaşadığı kənddən başqa kəndə gedə bilməzdi. Müharibədən sonra Qazaxıstanda sürgün həyatı yaşayan Ahıska türkləri aclıqdan ölməmək üçün təbiətdən ot toplayıb, yeməyə məcbur olurdular. Ancaq bu da bir həqiqətdir ki, çox adam yediyi otlardan zəhərlənərək ölürdü (5, s.4).

Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən qurultayında Xruşov, Stalinin sürgün siyasətini tənqid etdi və sürgün edilən insanların hüquqlarının geri qaytarılmasının vacib olduğunu söylədi. Bundan sonra, 1956-cı il 29 aprel tarixində 135/142 saylı qərarnaməsinə görə deportasiya edilmiş xalqlar bəraət aldılar. Lakin onlara repatriasiya hüququ verilmədi. SSRİ Ali Sovetinin 31 oktyabr 1957-ci il tarixli yeni bir qərarı ilə Acar Muxtar Sovet Sosialist Respublikası, Ahıska, Ahılkelek, Adıgön, Aspinza və Bogdanovkadan olan “azərbaycanlı” vətəndaşlığını daşıyan Sovet vətəndaşlarının Azərbaycana gedə biləcəyi bildirildi. Bir-birinin ardınca qəbul edilən

bu iki sərəncamın əsas məqsədinin Ahıska türklərinin vətənlərinə qayıtmasını təxirə salmaq və fərqli bir ölkəyə yönəltmək idi. Ancaq nə Moskva, nə də Tiflis Ahıska türklərinin vətənlərinə qayıtmaları üçün heç bir müsbət addım atmadılar. 1960-cı illərin sonlarına doğru Ahıska türkləri Gürcüstana qayıtmağa cəhd göstərsələr də, (ilk dəfə bəzi Ahıska türkləri 1960-cı illərin sonlarına doğru öz vasitələri ilə Gürcüstana qayıtdılar. Bəzi mənbələrdə 400 ailəyə sahib olan bu qrupun Gürcüstanın Qali bölgəsində məskunlaşmasına baxmayaraq, yerli hakimiyyətin təzyiqləri səbəbindən Gürcüstanı tərk etmək məcburiyyətində qalmışlar), sovet rejimi xüsusilə 1968-ci ilə qədər Ahıska türklərinin vətənlərinə qayıtmalarına imkan verən heç bir addım atmamışdı (12, s.22-23).

1989-cu ildə Ahıska türklərinin ikinci deportasiyası baş verdi. Bu dəfə onlar 1944-cü ildə sürgün edildikləri Fərqanə vadisindən qovuldular. 1989-cu ilin iyununda Fərqanədə, Ahıska türkləri ilə özbəklər arasında qısa müddətdə bu qarşıdurmalar başladı. Beləliklə, Özbəkistanda yüzlərlə Ahıska türklərinin evinin yandırılması və sökülməsi, insanların ölümü və xəsarət alması kimi hadisələr nəticəsində: 100 mindən çox Ahıska türkü (yalnız Fərqanədə 20-30 min nəfər) sürgün edildi. Beləliklə, minlərlə Ahıska türkü Sovet əsgərlərinin müşaiyəti ilə Fərqanəni tərk etdi. Bununla da Fərqanə vadisində 45 illik sürgün həyatı tamamlandı (8, s.9). İş o yerə çatmışdı ki, Ahıska türklərinə qarşı düşmənçilik Özbəkistanın yerli mətbuat orqanlarında da özünə göstərirdi. "Fərqanə küçələrində ahıskalılar məhv edilib", "Onların başı kəsilib", "Onları yandırdılar"-kimi böhtanlara əsaslanan təbliğat aparılırdı. Ancaq, Sov. İKP MK-nın 1989-cu il may-iyun aylarında keçirilən XXVII qurultayın onuncu iclasına sədrlik edən R.Nişanov soyuqqanlı şəkildə demişdir: "Orada böyüdüləcək bir şey yoxdur, bazarda çiyələk üstündə dava düşmüş, o xəbər də gəlib bura çatmışdır" - Axıskalıların dəhşətli faciəsinə ali rəhbərlik bu cür formada sovet ictimaiyyətinə yalan şəkildə çatdırmaqla, əslində bu faciənin daha da qızışdırırdı (10, s.79).

Özbəkistanı tərk etməyə məcbur qalmış 74 min ahıska türkündən 17,5 mini Qazaxıstanda, 16 mini Rusiyanın cənubundakı Kras-

nodar və Rostov bölgəsində, həmçinin Kurs, Belqorad, Tula və Smolensk şəhərlərində, 40 min nəfərdən çoxu Azərbaycanda özünə sığınacaq tapa bildi (13, s.82). Ancaq bu bölgələr yaşayış üçün əlverişli deyildi və əkinlən torpaqların sayı az idi. Əlverişsiz iqlim şəraiyində yaşaya bilməyən Ahıska türkləri Rusiyanın mərkəzi vilayətlərindən Cənubi Qafqaza, yəni, Kabardin-Balkar, Çeçen-Inguş Muxtar Respublikaları, Krasnodar və Stavropol vilayətlərinə köçdülər.

Rusiyanın Krasnodar bölgəsinə köç edən Ahıska türkləri rus millətçilərinin həddindən artıq təzyiqi səbəbindən buranı da tərk etmək məcburiyyətində qaldılar və ABŞ hökuməti tərəfindən verilən yaşayış icazəsi səbəbiylə Birləşmiş Ştatlara köçdülər. Ahıska türklərinin bəziləri Rostov vilayətinin şimal çöllərinə köçməyə məcbur oldular. Bəziləri isə Dağıstandan Azərbaycana, digər hissəsi qərbdən Ukraynaya köç etdi. Ancaq Ukrayna digər ölkələrə nisbətən Ahıskalıların sayının daha az olduğu bir ölkədir. Fərqanə hadisələrindən sonra burada məskunlaşan Ahıska türklərinin sayı 10 minə yaxındır. Buraya gələnlər əsasən Azərbaycanda və Cənubi Rusiyada yaşamaq üçün yer tapmayanlardır. 266 nəfər Donetsk, Kiyev, Xarkov şəhər mərkəzlərində və ətraflarında yaşayırlar. 267 nəfər Slaviyansk qəsəbəsində, 2000 nəfər Artyomovskda, 1000 nəfər Krasnolimanda və 1000 nəfər Kersonda yaşayır (5, s.8).

Gürcüstandakı iqtisadi vəziyyətin əlverişli olmaması, gürcülərin fikrincə, Ahıska türklərinin Gürcüstana qayıtmasına imkan vermir. Lakin beynəlxalq təşkilatlar bildirmişdir ki, Gürcüstan belə bir miqrasiyaya başladıqda Gürcüstanın iqtisadiyyatına dəstək verəcəklər. Xüsusilə, Avropa Şurasının başlatdığı işlər nəticəsində son zamanlar Gürcüstan Ahıska türklərinin vətənlərinə qayıtması üçün proqramlar hazırlamağa başlamışdır.

Gürcüstan 29 aprel 1999-cu ildə Avropa Şurasına üzv oldu və daxil olma şərtlərindən biri olaraq Ahıska türklərinin öz vətənlərinə qayıtmalarına imkan verən qanunu qəbul edəcəyi və Ahıska türklərinə Gürcüstan vətəndaşlığını almaq hüququnu verəcəyi elan edildi. Danışıqlara əsasən, Gürcüstan Ahıska türklərinin 1999-cu ildən vətənə qayıtması üçün əlindən gələni edəcək və 12 il ərzində, yəni 2011-

ci ildə vətənə qayıtma prosesi başa çatacaqdı. Ancaq, Gürcüstan indiyə qədər heç bir vacib iş görməmişdir (12, s.15).

Problemin həllinə mane olan əsas amillər:

1. Ən vacib amillərdən biri Ermənistan amildir. Ermənistan tərəfi Gürcüstana diplomatik təzyiqlər edir. Əsas iddiaları odur ki, Ahıska türklərinin gəlişi ilə bölgədə sosial iğtişaşlar və etnik qarşıdurmalar ortaya çıxacaqdır.

2. İkinci vacib amil onların türk və müsəlman olmaları göstərilir. Gürcüstan tərəfi bildirir ki, Ahıska türklərinin geri qaytarılması yalnız gürcü dilini qəbul edib, gürcü soyadlarını aldıqları təqdirdə mümkündür. Ermənilərin təzyiqi də var. Ahıskaların vaxtilə boşaldılmış torpaqlarında ermənilər yerləşdirilib. Lakin 2012-ci ilin sonlarına gəldikdə görürük ki, Ahıska türklərinin vətənlərinə qayıtması ilə bağlı ciddi addımlar atılmadığı göz qabağındadır. Göründüyü kimi problemi yaradan Rusiyanın və həll yolu ilə razılaşmayan Gürcüstanın maraqlarının birləşməsi bu problemin həllində çətinliklər törədir.

*Nəticə*. Sovet dönəmində Ahıska türkləri iki dəfə deportasiyaya məruz qalmışdır. İlk olaraq Stalinin əmri ilə 1944-cü il 14 noyabr tarixində Ahıska bölgəsindən Orta Asiyaya sürgün edildilər. Bundan sonra 1956-cı il 29 aprel qərarrnaməsinə görə deportasiya edilmiş xalqlar bəraət alsa da, lakin repatriasiya hüququ almayan iki xalqdan (ikinci xalq kırım tatarları idi) biri oldular.İki deportasiya arasındakı keçən müddət ərzində Ahıska türkləri vətənlərinə geri dönmək uğrunda çox mübarizə aparıblar. 1989-cu ildə Ahıska türklərinin ikinci deportasiyası baş verdi. Bu dəfə onlar 1944-cü ildə sürgün edildikləri Özbəkistan ərazisindən qovuldular. 1990-cı ildə "deportasiya olunmuş xalqların repatriasiyası haqqında" qanun qəbul edilməsinə baxmayaraqm Ahıska türkləri hələ də buna müvəffəq ola bilməyiblər. Nəticə olaraq Ahıska türkləri sürgün müddətində əlverişsiz şəraitdə yaşamalarına baxmayaraq, öz adət-ənənələrini, türk adını və kimliklərini yaşada bilmişlər.

ƏDƏBİYYAT:

1. Anaç Özge, Serhat Keskin. Ahıska Trüklerinin 1944 Sürgünü'nden Günümüze Gürcistan'a Geri Dönüş Mücadelesi ve 2007 Yılına

Kadar Dönenlerin Durumu. "Gürcistan'daki Müslüman topluluklar Azınlık Hakları, Kimlik, Siyaset" kitabında. Editörler: Aydıngün Ayşegül, Asker Ali, Şir Aslan Yavuz. Ankara, Avrasya İncelemeleri Merkezi, Haziran 2016, s. 275-294. Mənbə: https://www.researchgate.net/publication/313821311_Gurcistan'da_Musluman_Topluluklar_Azinlik_Haklari_Kimlik_Siyaset [Müraciət tarixi: 20.05.2020]
2. Aydıngün Ayşegül, Aydıngün İsmail. Ahiska Türkleri Ulusötesi Bir Topluluk Ulusötesi Aileler. Ankara, Hoca Ahmet Yesevi Uluslararası Türk-Kazak Universitesi Yayınları, 2014, s.216. Mənbə: https://www.ayu.edu.tr//yayinlar/ahiska_turkleri.pdf [Müraciət tarixi: 20.05.2020]
3. Yılmaz Ali, Mustafa Rüstem. 1992 Sonrası Türkiye'ye Göçen Ahıska Türklerinin Göç, İskan ve Uyum Sorunlarına İlişkin Bir Araştırma. Bursa Örneği // Studies of Ottoman Domain, Cilt:4, Sayı: 6, Şubat 2014, s. 19. Mənbə: https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2580744 [Müraciət tarixi: 20.05.2020]
4. Özkoşar Burhan, Kahvecioğlu Adalet. Ahiska Türkleri ve Vatana Dönüş Mücadelesi. Türk Dünyası Sivil Toplum Zirvesi, Bildiri Kitapçığı. Ankara: KAV Yayınları, 2014, s.361-366. Mənbə: http://www.gelisimveinsan.com/wp-content/uploads/2015/12/3.pdf [Müraciət tarixi: 20.05.2020]
5. Devrisheva Khalida. Ahıska Türklerinin Bitmeyen Göçü // Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi,Yıl: Nisan 2019, Cilt, Sayı 45, s.333-352. Mənbə: https://dergipark.org.tr/tr/pub/sutad/issue/49621/636251 [Müraciət tarixi: 20.05.2020]
6. Üren Mustafa. Çıkar ve Türk Dengesi Kıskacındaki Ahıska Türkleri Sorunu // Üsküdar Üniversitesi Sosyal Bilimler Dergisi, Yıl: 2016, Cilt:0, Sayı: 2. s.1-39. Mənbə: https://dergipark.org.tr/tr/pub/uskudarsbd/issue/38449/445817 [Müraciət tarixi: 20.05.2020]

7. Uravelli Orhan. Sovyet Resmi Belgelerinde Ahıska Sürgünü // Bizim Ahıska, Yıl: Sonbahar 2011, Sayı: 16, s. 8-10. Mənbə: http://www.ahiska.org.tr/wp_pdf/sayi16/parcali/09_sayi16.pdf [Müraciət tarixi: 20.05.2020]
8. Seferov Rehman, Akış Ayhan. Sovyet Döneminden Günümüze Ahıska Türklerinin Yasadıkları Cografyaya Göçlerle Birlikte Genel Bir Bakıs // Selçuk Üniversitesi Türkiyat Araşdırmaları Dergisi, Yıl: 2008, Cilt, Sayı 24, s.393-411. Mənbə: https://dergipark.org.tr/tr/pub/sutad/issue/26266/276708 [Müraciət tarixi: 20.05.2020]
9. Conquest Roberts. The Nation Killers-The Soviet Deportation of Nationalities. London, Macmillian, 1970, p.222.
10. Sasiev N. Söndürülmüş ocaqlar. Bakı, «BSU»-nun nəşriyyatı, 2001, s.175.
11. Piriyeva Sevil. Ahıska türkləri Azərbaycanda (tarixi, sosial-mədəni həyatı). Bakı, «Elm», 2005, s.264. Mənbə: http://elibrary.bsu.az/yenii/ebookspdf/RZtwVhmy.pdf [Müraciət tarixi: 20.05.2020]
12. Keskin Serhat, Gürsoy Hazar Ege. Sovyet ve Sovyet Sonrası Dönemde Ahıska Türklerinin Karşılaştıkları İnsan Hakları İhlalleri ve Ayrımcılıklar // Uluslararası Suçlar ve Tarih, Yıl: 2017, Sayı: 18, s.13-46. Mənbə: https://dergipark.org.tr/tr/pub/ustich/issue/44800/557248 [Müraciət tarixi: 20.05.2020]
13. Юнусов Ариф. Месхетинские турки: Дважды депортированный народ. Баку, «Заман», 2000, с.164.

**TURKAN ALİSAFALI**
***master's degree in History of the Turkic Peoples,***
***Baku State University***

## THE DEPORTATION OF AKHISKA TURKS ABOUT IN THE SOVIET PERIOD

This aricle deals with the deportation of Ahiska Turks during the Soviet period. It has been revealed during the investiggation thet

the policy pursued by the Soviet Union had a major influence on Ahiska Turks. The purpose of the intentional and violent migration and deportation policy of russians was to prevent the Turkic peoples from living in these territories. The history of Ahiska Turks turned out to be difficult and brought them into a bad situation in all aspects.

*Keywords*: Ahiska Turks, deportation, Soviet Union.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.
*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

UOT 94

**ÜLVİYYƏ HƏZİYEVA**

***Bakı Dövlət Universiteti SABAH Qrupları***
***Tarix müəllimi ixtisası üzrə II kurs tələbəsi***
**E-mail: ulviyyeh19113@sabah.edu.az**

# UYĞUR XAQANLIĞININ TARİXİNƏ BAXIŞ. UYĞUR XAQANLARI VƏ ADLARININ ONOMASTİKASI

*Elmi rəhbər*:
tarix elmləri doktoru Əsməd Muxtarova
Bakı Dövlət Universiteti




*Qədim Uyğur dövlətinin tarixinin və mədəniyyətinin öyrənilməsi baxınmından böyük önəm daşıyan bir sıra məsələlər vardır. Həmin məsələlərə nümunə olaraq Uyğur xaqanlarına qonşu dövlətlər tərəfindən verilən adları, verilən adların izahlarını, ad qoyma adətlərini, ad ilə bağlı inanclarını, yer adlarını, etnos adlarını, bunların bir biri ilə əlaqələrini göstərə bilərik. Qədim Uyğurlarda xaqanların adlarınının qoyulması əsasən Göytürk qayda-qanunlarına əsaslandırılmışdır. Uyğur kaqanlarının ad və titullarının verilməsi çox zaman Çin imperatorlarının təşəbbüsü ilə həyata keçirilmişdir (4, s.151). Eyni zamanda bəzən bu titulların verilməsi mübahisəli olurdu, qonşu dövlətlərin başçıları tərəfindən qəbul edilmirdi. Xaqanların ad və titullarını, qonşu dövlətlər tərəfindən verilən adları və titulları, abidələrdə*

*xaqanların adları, yürütdükləri siyasətin qalibiyyətli və qabilliyyətsiz nəticələri, Uyğur xaqanlığında maniheizim dinin yayılmasıvə s. məsələlərə məqaləmizdə aydınlıq gətirməyə çalışacağıq.*

*Açar sözlər*: Uyğur xaqanlığı, Maniheizm, Uyğur türkləri, Yağlakar ailəsi

*Giriş*. Uyğur xaqanlığı 745-ci ildə sonuncu Göytürk hökmdarına qalib gələn Qutluğ Bilgə Kül kağan tərəfindən yaradılmışdır. Yaradılmış bu türk dövlətinin əsas etnosunu uyğur türkləri təşkil edirdi. Uyğurlar Göytürklərin yaratdığı mirasın üzərində öz dövlətlərini qurmuşlar (3). Tədqiqatçılara görə, Uyğur xaqanlığı məhz maldar tayfaların ittifaqının siyasi qurumu kimi təşəkkül tapmışdır və ona görə də eynilə Türk xaqanlığının idarə aparatını mənimsəmişdir. Dövlətin başında xaqan dururdu. Uyğurlarda xaqan titulu “idikut” sözü ilə ifadə olunurdu. Idikut ömürlük hakimiyyətə malik idi. Dövlət idarəçiliyi yazılmış qanunlara deyil, adətlərə əsaslanırdı (9, s.82). Yüksək mədəniyyətə sahib olan Uyğur türkləri Hun türklərinin "Töləs" qoluna mənsub idilər. Bəzi tədqiqatçılara görə (məsələn, Əsməd Muxtarova, Aydın Mədətoğlu və b.) "Uyğur" sözünün mənası "müttəfiq, uyuşan" deməkdir. Doqquz uruqdan meydana gələn Uyğur Türkləri birləşib bir bəylik qurduqları üçün özlərinə bu adı vermişlər. Oğuzlardan doqquz uruq (Doqquz Oğuzlar) da bunlara qoşulunca boy sayı ona çatmış və beləcə "On Uyğur" (On müttəfiq) deyə anılmışlar. Hər baxımdan yüksək mədəniyyət yaradan Uyğur türkləri elm, sənət və idarəçilik baxımından bütün Asiya xalqlarına təsir etmiş, ərəblərə və qərblilərə bir çox sahədə örnək olmuş, bəşər mədəniyyətinə öz qiymətli töhfələrini bəxş etmişlər.

*Çin mənbələrində Uyğurlar haqqında məlumatlar*. Ilk dəfə 717-ci ildə "Orxon kitabələri"ndə zikr edilən Uyğurlar Çin mənbələrində çox qədim zamanlardan başlayaraq müxtəlif adlarla qeyd edilmişlər. Çin qaynaqlarında "Şahin sürəti ilə hərəkət edən", "İzləyən" mənalarında işlədilən ho-ei-ho, Vei-ho, Hu-ho Uyğurlara Çinlilər tərəfindən verilən adlardır. Bəzi tarixi mənbələr Uyğurların e.ə.III əsrdən sonra tarix səhnəsinə çıxdıqlarını bildirməkdədirlər. Hər ba-

xımdan son dərəcə qabiliyyətli olan Uyğur türkləri sayəsində Çinlilər tərəfindən zaman-zaman boşaldılan Doğu Türküstanda türklər qısa zamanda çoxalmış, bu gün də bölgənin əsas etnosu sayılmaqdadırlar (9, s.169-170).

Uyğur xaqanlığının sərhədlərini ingilis tarixçisi Ceyms Cercvardın qədim kitablara əsasən tərtib etdiyi xəritədə izləyə bilərik: "Böyük Uyğur imperiyasının şərq sərhəddi Sakit okeana, qərb sərhəddi bugünki Rusiyada Moskva yaxınlığına dayanmış, cənubdan Çin, Birma, Hindistan və Pers ölkələrinin bir hissəsini öz içərisinə almışdır. Avropa torpaqlarının bir çox hissəsi də Uyğur imperatorluğunun tərkibinə daxil idi. Cənubda həmçinin Qara dəniz və Xəzər dənizi ətrafıda bu səltənətin içərisində idi" (10, s.1).

*Uyğur xaqanları haqqında məlumatlar*. Uyğur dövlətinin ilk kağanının adı qədim türk kitabələrində "Kül beg", "Bilge kağan", "Kül tarkan", "Kül Bilge kağan" şəkillərində qeyd olunmuşdur. Bu adları əmələ gətirən komponentlərin bir qismi titullardan təşkil olunur. Bu antroponimlərin tərkibindəki "bilge" onomastik vahidi ilə əlaqədar onu da bildirməliyik ki, uyğur dövlətinin ilk kağanları "bilge kağan" formatından istifadə edirdilər və bu xanədan adı ilə tanınırdı. Ancaq Tes abidəsində və Karabalqasun abidəsinin türkcə mətnində bunun yerinə "uyğur kağan" formulu yer almışdır. Kül Bilge kağanın adı Karabalqasun abidəsinin çincə mətnində "Kutluğ" şəklində qeyd olunmuşdur. Türkiyə tədqiqatçısı Saadettin Yağmur Gömeç bunun "Kül boyla" şəklində oxunmasını məqsədəuyğun sayır. L.N.Qumilyov isə bu kağanın adını "Peylo" olaraq göstərir. "Peylo" sözü, çox ehtimal ki, qədim türk yazılı abidələrində rast gəlinən "boyla" titulunun bir fonetik variantıdır. Tan sülaləsinin imperatoru tərəfindən Kutluğ Bilgə Kül kağana 745-ci ildə "Feng Wang" adı, daha sonra isə "Huai-Jen Kağan" adı vermişdir (6, s.19-20). Çin mənbələrinə əsasən bu kağanın zamanında Uyğur dövlətinin sərhədləri genişlənmişdi. Dövlətin ərazisi Altay dağlarından Baykal gölünə qədər uzanmışdır. Beləliklə, Şərqi Göytürk dövləti torpaqlarında yaranmış yeni dövlət Uyğurlar dövləti hökm sürürdü. Yəni bir zamanlar hunların sahib olduğları ərazilərin bütün hissəsi tutulmuşdu. Eyni

zamanda da bu kağanın dövründə paytaxt şəhər Yuxarı Orxon çayı üzərində olan Karabalsagun şəhərini ("Ordu-Balık şəhəri olaraq da qeyd edilir) seçmişlər. Yeni yaradılan Uyğur dövləti boz çöllərə tamamilə hakim oldu. Bu dövlətə köçəri Uyğur dövləti də demək olar, çünki Ötükən dağlarında məskən salan uyğurlar bir müddət köçəri həyat tərzi sürmüşlər (qədim türk dilində «yer tanrısı» mənasını verən Ötükən toponimi indiki Xanqay sıra dağlarının bir hissəsini əhatə edirdi). Qutluğ Bilge Kül Kağan üç illik hökmranlığına baxmayaraq Uyğur xaqanlığın birliyi üçün qalibiyyətli işlər görmüşdür. O, 747-ci ildə vəfat etmişdir (5, s.8).

Qutluğ Bilge Kül Kağanın ölümündən sonra iki qardaş, Tay Bilgə Tutuk və Moyun Çor Uyğur taxtı uğrunda mübarizə etməli oldular. Əslində taxtın rəsmi varisi Tay Bilgə Tutuk idi.Amma xanlığın qurulmasında atasına ən çox kömək edən Moyun Çor olduğu üçün qardaşının xanlığını tanımaq istəmədi və beləliklə onunla mübarizə etməyi üstün tutdu. Bu iki qardaş Ötükənin fərqli bölgələrində bir neçə dəfə vuruşdular və hər vuruşma zamanı Tay Bilgə Tutuk məğlub oldu. Bu mübarizənin sonu Moyun Çorun taxta çıxması ilə nəticələndi (13). Bu hadisələr Moyun Çor abidəsində təfsilatı ilə təsvir olunmuşdur. Moyun Çor şəxs adı qədim türk abidələrində işlənmir, buna ancaq Çin mənbələrində təsadüf edirik. Ehtimal ki, bu antroponim kağanın taxta çıxmadan əvvəl daşıdığı addır (11, s.20). Bu Uyğur xaqanı Çin mənbələrində Moyun Ço və Ko-lo kağan adı ilə tanınır. Mo-yen-ço şəklində olan Çin heroqliflərindən XVIII-XIX əsr Alman ədəbiyyat tarixçisi, tərcüməçi Avqust Vilhelm Şlegel fərziyyə ilə "Moyun Çor" türk variantını meydana çıxarmış, ancaq sonralar XIX-XX əsr Fransa şərqşünası, Çin tarixi üzrə mütəxəssis Pol Pellio bunun "Bayan Çor" şəklində olduğunu təsbit etmiş, isbatlamışdır (11, s.20). Moyun Çor adının "zəngin və güclü" mənasına gəldiyi kimi, "Bodun Çor" formasından yaranmış olması mülahizəsi də irəli sürülməkdədir. Onu da qeyd edək ki, sovet və rus şərqşünası S.Q.Klyaştornı Moyun Çor kağanın gənclik adının Turyan olduğunu və bunun Terhin abidəsində işləndiyini iddia edir. Həmin tarixdən az sonra eyni abidəyə müraciət edən Türkiyəli türkoloq Tələt Tekin hə-

min hərfi işarələri şəkilçili zərf olaraq oxuyur və onu “ayağa qalxaraq” şəklində tərcümə edir. Bizcə, həmin məsələ haqqında sonuncu fikir daha inandırıcıdır. Çünki Moyun Çorun belə bir gənclik adı daşıdığı haqqında Çin mənbələrində heç bir məlumata rast gəlmirik. Digər tərəfdən, qədim türk abidələrində adətən xaqanların ancaq hakimiyyəti dövründə aldığı rəsmi ad və titullar qeyd edilirdi. Moyun Çor kağan taxta çıxdığı zaman türkcəsi “Tengride bolmış El etmiş Bilge kağan” olan titul almışdır (6, s.20-21). Moyun Çor xaqan hakimiyyəti dövründə önəmli işlər görmüşdür. Onun zamanında, Uyğurlar arasında şəhərləşmə, oturaqlaşma işlərinə başlanmışıdır. Moyun Çor xaqan səfərlərini dörd istiqamətdə aparmışdır. Qərb səfəri: Qərbdə Uyğur xaqanlığına qarşı başlıca olaraq müqavimət göstərənlər Karluklar və Türkəşlər idi. 744-cü ildə Uygurların hakimiyətinə tabe olan Karluklar zaman zaman üsyan edərək Türkeşlərlə birləşirdilər. Moyun Çor xaqan Türkəşləri məğlub etdi. Beləliklə, Uygur dövlətinin sərhədləri qərbdə Sırdərya çayına qədər genişləndirildi. Digər səfəri Şimal səfəri olmuşdur. Şimal səfərləri Kem çayı boyunca uzanan dağları aşmaq məqsədi ilə edilmişdir. Bu səfərlərə Qırğız səfərləri adını da verə bilərik. Qırğızlarla Uyğurlar arasındakı ərazidə Çik adlı türk tayfası məskunlaşmışdır. Moyun Çor xaqan Çik tayfasını xaqanlığa tabe edə bilmişdir, lakin qırğızları məğlub edə bilməmişdir. Oğuz səfərləri ilə bağlı məlumatı Moyen Çor yazılarından öyrənə bilərik. Məlumata əsasən, Selenqa çayının ətrafında məskunlaşan Sekiz Oğuz ve Dokuz Tatarların məğlub olmuşdurlar. Dördüncü səfəri çinlilərlə olan siyasi münasibətlərə aid edilir. Moyun Çor xaqanın zamanında Çin dövlətinin daxili vəziyyəti gərgin idi. 756-cı ildə An Luşan adlı bir sərkərdə üsyan qaldırıb Tan sülaləsinə məxsus hakimiyyəti ələ aldı. Hakimiyyətdən uzaqlaşdırılan Çin imperatoru uyğurlardan kömək istədi. Çinə sahib olmaq arzusunda olan Bayan Çur xaqan böyük qüvvə ilə Çinin paytaxtını ələ keçirərək, imperatorun hakimiyyətini bərpa etdi. Bayan Çur Çin imperatorunun qızı ilə evlənərək, əlaqələri daha da möhkəmləndirdi. Əldə edilmiş razılığa görə çinlilər uyğurlara 20 min top ipək verməli oldular. Lakin çox çəkmədi ki, uyğurlarla çinlilər arasında münasibət pisləşdi. 757-ci ildə onla-

rın arasında baş vermiş döyüşlərdə çinlilər ağır itki verdilər və yenidən uyğurlardan asılılığı qəbul etmək məcburiyyətində qaldılar (5, s.8-10).

Moyun Çor kağanın böyük oğlu xəyanət etdiyi üçün edam edildiyinə görə, 759-cu ildə hökmdar öldüyü zaman onun ikinci oğlu, haqqında yuxarıda bəhs etdiyimiz Bilge tarkan taxta oturmuşdur. Əsl adı Bögü olub, taxta çıxdıqdan sonra Bilgə adını qəbul etmişdir. Bəzi mənbələrdə Idigən Buğu olaraq da yazılır. İdigən xaqan Uyğurların üçüncü xaqanıdır. Taxta çıxarkən adını Tarxan Bögü xaqan olaraq dəyişdirdi. Daha sonra isə Alp Külük Bögü xaqan adını qəbul etdi. Tam titulu isə Tenqridə Qut Bolmuş İl Tutmuş Alp Külüg Bilgə Xaqandır. Bu kağan türk tarixində mühüm rol oynamış, Çin dövləti ilə sıx əlaqə yaratmışdır. Məhz buna görə həm qədim türk mətnlərində, həm də Çin qaynaqlarında bu xaqanın bir neçə ad və titulları öz əksini tapmışdır. Çin mənbələrinə görə bu yeni uyğur xaqanı Teng-li Meuyü titulu ilə taxta oturmuşdur. Bu qaynaqlarda onun gənclik titulu İdigyan və ya İ-ti-chien şəklində əks olunmuşdur. Yeri gəlmişkən, Bögü/Bügü onomastik vahidinin apelyativi, onun ifadə etdiyi məna xüsusiyyətləri haqqında müxtəlif fikirlər vardır. Bəzi tədqiqatçılar bögü/bügü leksik vahidini qüdrətli, igid kimi izah etsələr də bizcə bu söz burada alim, həkim, sehirbaz mənasını ifadə edir. Bu uyğur hökmdarının Bögü adını alması ehtimal ki, onun Mani dinini uyğurlar arasında yayması faktı ilə bağlıdır. Bəllidir ki, 763-cü ildə Bögü kağanın təkidiylə uyğurlar Mani dinini qəbul etmişlər. Bu hadisələr uyğur əlifbası ilə yazıya alınmış Manixey dini məzmunlu Bögü xan şərəfinə mətn abidəsində bəlağətli bir dillə təsvir edilmişdir. Manixey rahibləri bu dini himayə etdiyinə görə Bögü xaqanı təbliğ edib ideallaşdırmış və elə bu abidədə onu Tenqri ilig Bögü kağan və Bögü kan Tenqriken şəklində təqdim etmişlər. Mani dini dindarları onu həm də Tenqri kağan adlandırırdı (8, s.105). Digər bir Mani mətnində Bögü kağanın daha dəbdəbəli titulu da öz əksini tapmışdır: "Uluğ iliğ Tenqridə kut bolmış erdenin il tutmış alp kutluğ bilge uyğur xaqan zahaqı-Mani "Burada zahagi-Mani Maninin varisi, xələfi mənasını ifadə edir (4, s.155). Terxin abidəsində Bögü kağanın kiçik qardaşı

765-766-cı illərdə uyğurların Çinə yürüşünə başçılıq edən Alp uluğ tutuk Yaklakar (Çin mənbələrində Alp ışbara senqün Yaklakar şəklində adı keçir. Buradakı ışbara titulu qədim türk abidələrinə sanskrit dilindən keçmiş bir leksik vahiddir, cənab, hökmdar mənasını bildirir (6, s.21-23). Mani dinini Uyğur Xaqanı Bögü Xan rəsmi dövlət dini elan etdikdən sonra İslam və Xristianlıq qarşısında çökməyə başlayan bu dinə yenidən həyat verildi. Bu dinin insanlar arasında daha tez yayılmasının bir sıra səbəbləri var idi. Mani tərəfdarları prinsipcə torpağın adamlar arasında bərabər bölüşdürülməsini tələb etdiklərinə görə xalq kütlələri onları müdafiə edirdi. Digər bir səbəb isə Mani dini insanları sülh içində yaşamağa dəvət edirdi, pisliyə qarşı yaxşılığı tövsiyə edirdi, ruhların birindən digərinə keçməsinə inanmağı əmr edirdi. Uyğurlara bu din Mərkəzi Asyadan soqdlar vasitəsilə keçmişdi. Maniçilik o dərəcədə güclü təsirə malik olmuşdu ki, hətta şamanizmi sıxışdırmışdı (8, s.234). Beləliklə, Uyğurlar Manixeizmi qəbul etməklə öz mədəniyyət və həyatlarını da ona uyğunlaşdırmağa çalışmış, bu dinin təsiri ilə gözəl ədəbi-bədii və sənət əsərləri yaratmışlar. Uyğur Xaqanı Mani dinini rəsmi dövlət dini elan etməklə başqa dinlərin də sərbəst fəaliyyətinə icazə vermişdi. Bunu nəzərə alan orta əsr səyyah və tarixçiləri Uyğurustanda Mani, Budda, Xristian, İslam və Şamani Türklərin bir arada, əmin-amanlıq içərisində yaşadıqlarını yazmışlar. Məşhur ərəb tarixçisi Cahiz göstərmişdi ki: "Uyğurlar Mani dinini qəbul etdikdən sonra savaşçı qabiliyyətlərini itirmişdilər". Əslində, Cahizin Uyğurlar haqqındakı bu fikri bir az mübaliğəlidir. Belə ki, X əsr İslam qaynaqlarında göstərilir ki, Uyğurlar daha kiçik bir dövlət olduqları halda öz dindaşları Manixeistləri himayə etmək məqsədi ilə Samaniləri və Çinliləri təhdid etmişlər. Dinlərin qövmlər üzərində təsiri olduğu kimi qövmlərin də dinlər üzərindəki təsirləri tarixi bir həqiqətdir və sosioloji qanunlara uyğundur (7, s.171). Bögü xaqandan ehtibarən xaqanlar sarayda oturmağa başladılar. Qadınlar makiyaj etməyə, gözəl geyimlər geyinməyə maraq göstərdilər. Bir cox vərdişləri dəyişdi. Əvvəllər həyat yoldaşı ilə birgə hərbi döyüşlərdə iştirak edən qüvvətli qadınların sayı getdikcə azalmağa başlamışdı (15). Bögü xaqanın hakimmiyyəti dövründə

Çində üsyanlar baş verir, Bögü xaqan oz ordusu ilə birgə Çində baş qaldırılmış üsyanları yatırmağa kömək edir. Çində ciddi bir idarəetmə boşluğunun olduğunu düşünən Bögü Kağan Çinə hücum edərək bu dövləti öz hakimiyətinə daxil etməyi düşünürdü. Lakin Çinli qaynatası Puqu Xuanye onu bu düşüncəsindən yayındırmağa çalışırdı. Puqu Xuanyenin ölümündən sonra Bögü xaqan yenə Çinə hücum etməklə bağlı düşünməyə başladı. Çində üsyanların olması, İmperator Tai Tsungun ölümü (762-779), yeni imperatorun təcrübəsizliyi kimi səbəblər Bögü xaqanın belə düşünməsinə vadar edirdi. Ancaq Bögü Kağanın vəziri Tun Baga Tarkan onun bu düşüncəsinin yalnış olduğunu, Çinin onlara heç bir zərər vermədiyini, bu torpaqları fəth etmək mümkün olsa da, sahiblik etmənin çətin olmasını bildirdi. Bu xəbərdarlıqları nəzərə almadığını görən Ton bağa Tarkan Bögü xaqanı öldürdü (2, s.6). Bögü xaqan öldürüldükdən sonra 779-cu ildə Ton Bağa tarkan IV uyğur xaqanı oldu. Beləliklə, uyğur Yağlakar qəbiləsinə mənsub olan xaqan sülaləsinin hakimiyyətinə son qoyuldu.

Ton Bağa tarkan taxta çıxdıqdan sonra Alp kutluğ Bilgə kağan titulunu almışdır. Bu hökmdar Terxin abidəsində "iç buyrukların başçısı Inançu bağa tarkan" titulu ilə göstərilir. Bu hökmdarın adı Karabalqasun abidəsində də öz əksini tapmışdır. Bu titulların tərkibində işlənən "ton" "ilk, birinci" mənasını, "bağa" yüksək vəzifə adını, "ınançu" isə inanılmış mənasını bildirir. Onu da qeyd etmək lazımdır ki, Terxin abidəsinin müəllifi də Bögü xaqanın oğlu Bilgə kutluğ tarkan senqündür (6, s.23). Xan olandan sonra ilk olaraq Çinlə siyasi münasibətlərini düzəltməyə üstünlük verdi. Tun Baga Tarkan hakimiyyəti zamanında Uyğur-Çin münasibətlərində ciddi problemlər yaranmış olur. Belə ki, özlərini bu bölgədəki uyğurların nümayəndəsi kimi görən İmperator Tai Tsung dövründə Çinin paytaxtında yaşayan Dokuz Oğuz ilə Çin rəhbərliyi arasındakı ixtilaflar qarşıdurmaya çevrilir. Doqquz Oğuzların lideri və Tun Baga Tarkanın dayısı olan Tudun bu qarşıdurmada çinlilər tərəfindən öldürülür. Bu hadisə Çin-Uyğur münasibətlərinin gərginləşməsinə səbəb olur. Lakin Çin imperatoru yaranmış bu gərginliyi aradan qaldırmaq üçün bir çox elçilər

göndərməkdə davam edir. Tun Baga Tarkana qarşılıqlı olaraq elçilərin göndərilməsi eyni zamanda da "Qutluq Bilgə Konçuy" adlı göndərilən Yünan münasibətlərin yaxşılaşmasına səbəb olur. Yünan adlı şazadə ilə evliliyindən 1 il sonra Tun Bağa Tarkan vəfat edir (2, s.7). Karabalsagun kitabəsində Tun Bağa Tarkan cəsarətli, qüvvətli olmaqla yanaşı öz məharəti ilə siyasət işlərini asanlıqla həll edə bilən bir xaqan kimi qeyd edilir (11, s.33).

Ondan sonra Çin qaynaqlarının verdiyi məlumata görə Taras/ Taraz Uyğur xaqanı oldu. Mənbələrdə adı Tolosu olaraq qeyd edilir. Bu hökmdarın adı, titulu Karabalqasun abidəsinin Çin mətnində Alp Kutluğ külüg Bilge kağan şəklində keçir. Tolosu xaqan Uyğurların beşinci xaqanıdır. Onun zamanında uyğurların Çinə təsiri zəiflədi. Nəticədə, Çindən asılılıq və üsyanlar artmağa başladı. Cəmi bir il hakimiyyətdə qalan Tolosu həyat yoldaşı tərəfindən zəhərləndi.

Karabalqasun abidəsinə görə, Tolosudan sonra taxta oğlu Kutluğ Bilge keçir. Onun adı Çin mənbələrində A-ço (A-çor) şəklində qeyd edilib. Bu xaqanın hakimiyyəti dövründə dövlətin ən güclü adamı İl ögesi Inançu Bilge olmuşdur. O, dövləti xaqanın adından idarə edirdi. S.Göməçin ehtimalına görə Açura kitabəsi də bu şəxsin şərəfinə qoyulmuşdur. Kitabədə İl ögesi lnançu Bilgənin saysız malamülkə sahib olduğu, ölkəsi üçün yorulmadan çalışdığı, bəylərinin də ərdəm sahibi olduğu zikr edilmişdir (14, s.261). Xaqanın ən mühüm işlərindən biri Qırğız səfərləri olmuşdur. Orta Asyanın şimalında məskunlaşan və bir Türk qəbiləsi olan Qırğızlar cəsur, qüvvətli bir tayfa idi. Uyğurlar bu günki Turfan bölgəsinə qədər hakim olanda artıq Qırğızlar şimal bölgələr ilə əlaqələrini tamamilə kəsilmişdir. Bu baxımdan Qırğızlar daha da şimala çəkilməyə başladılar. Karabalsagun abidəsində qeyd edilənlərə əsasən, bu dövrdə qırğız ovçuları 400.000-dən çox idi. Döyüş zamanı Qırğız xaqanı öldürülmüşdür. Abidəki məlumatlara əsasən Qırgızlar burada tərk edilən atlarının, silahlarının sayı bir dağ yüksəkliyindəymiş (11, s.35-36).

Kutluğ Bilge xaqandan sonra taxta Aşide boyundan olduğu ehtimal edilən, Çin qaynaqlarmda adı qısaca Kutluk şəklində göstərilən Ton Bağa tarkanın nəvəsi oturmuşdur. Bu xaqanın adı Karabalqasun

abidəsində Tenqride ülüg bolmış alp kutluğ Bilge kağan şəklində göstərilir. Karabalsagun yazısındakı məlumatlara görə, Kutluk Bilge xaqanın güclü idarəsi sayəsində möhkəmləndi və uyğurlar üçün böyük təhlükə yaradan Qırğız xaqanı aradan qaldırıldı. Kutluk müdrik və cəsur bir insandır. Maniheizimin yayılıb inkişaf etməsi üçün çalışmışdır (11, s.37). Əvvəlki dövrlərdə Tibetlilər və Karluklar tərəfindən tutulan Beş-Balık bölgəsinin mühüm bir hissəsi geri alındı. Bu fəthlər Karabalsagun Yazısında ifadə edilmişdir. Kağan bu ekspedisiyadan sonra öldü və Alp Külüg Bilge Kağan 805-ci ildə Uyğur taxtına keçirildi. 821-ci ilə qədər hakimiyyətdə olan bu xaqanın türk mədəniyyəti tarixində xidməti ondan ibarətdir ki, adına üç dildə yazılmış Karabalqasun abidəsi ucaldılmışdır. Burada 824-cü ilə qədərki Uyğur dövlətinin və xaqanlarının qısa tarixi əks edilmişdir. Abidənin türkcə mətnində bu xaqanın titulu Tenqriken tenqridə kut bolmış alp bilgə tengri uyqur kağanı şəklində açıqca oxunmaqdadır.

Ondan sonra Küçlüq Bilgə kağan taxta çıxmışdır. Çindexan olaraq da qeyd edilir. Onun haqqında məlumat Çin mənbələrindən və Karabalasagun yazısından əldə edilmişdir. Karabalasagun *Yazısına* görə, adı *"Tengride Kut Bolmuş Küçlüg Bilge Kağan"dır.* Küçlüg Bilge Kagan səmimi olaraq Uyğur xanlığının daxili vəziyyətini yaxşılaşdırmağa çalışdı. Xüsusilə Uyğur-Çin münasibətlərinə böyük əhəmiyyət verdi. Ancaq dövrdə ölkədə iqtisadi bir sərvət olsa da, Uyğur xanlığı, xüsusən də lazımsız toy xərcləri ilə ölkə aktivlərinin tullantıları səbəbiylə tənəzzül dövrünə qədəm qoydu. Küçlüg Bilge Kağan Dövründə Uyğur cəmiyyətində Manisizm hakim idi. Küçlüg Bilge Kağan, Mani dininin döyüş xüsusiyyətlərinə qarşı çinli həmkarının dövlətin daxili işlərində yaratdığı məğlubiyyəti nəticəsində daxili sülhü təmin edə bilmədi. Küçlüg Bilge Kağan 824-cü ildə vəfat etdi. Ölümü ilə taxta qardaşı Kasar xan keçdi. Böyük ehtimalla söyləmək olar ki, bu antroponim doqquz uyğur boybirləşməsinə daxil olmuş kasar (xəzər) qəbiləsi ilə əlaqədardır. Qeyd edək ki, Xaqanın adının Xəzər dövləti ilə eyni ad daşıması ayrıca təqdiq edilməli məsələdir. Kasar Kağan, Kasar (Hesa) Tuğluk (Teley) Kağan, Çjaolixan və ya Çin mənbələrinə görə Çyaoli Kehan Hesa Teley 824-832 arasında

Uyğur xanlığını idarə edən hökmdardır. 825-ci ildə Çin imperatoru yeni Uygur Xağanını təbrik etmək üçün elçiler ve hediye olaraq on iki araba dolusu ipək parça göndərdi. Kasa Xaqanın zəyif iradəsi səbəbindən Uygur Dövlətinin süqutu surətlə artmağa başladı. Bu Xaqanın dövründəki Çin mənbələrinə gəlincə, iki ölkə arasında bol bol elçilər gelib getmiş, Çin Imperatoru tez-tez Uyğur elçiləri şərəfinə ziyafətlər vermiş, At ticarəti qarşılığında cox miqdarda ipək parça hədiyyə etmişdir. Bu dövürdə diqqətimizi cəkən bir digər önəmli məsələ də Çin Sarayı bir tərəfdən uyğurları zəyiflətmək üçün muüxtəlif siyasi oyunlar çevirirkən digər tərəfdən isə Uygurların şüpəsini çəkməmək üçün, Uygur atlarına qarşılıq olduqca yüksək məbləglər ödəməyə, qiyməti hədiyyələr göndərməyə davam edirdi. Bu dövrdə daxili qarşıdurmalar və sui-qəsd planları böyük siyasi böhranlara səbəb oldu. Üsyanlar nəticəsində xaqan öldürüldü (5, s.25-26). Külüg Beg və ya Qalig Tigin, Uyğur xanlığını 832-839 illəri arasında idarə edən hökmdardır. Hökmdarlığın adı "Tengride Ayı tapan Alp Külüg Bilge Kağan"dır. Taxta çıxdıqdan il sonra Çin imperatoru Külügü təbrik etmək üçün Uyğur paytaxtına bir heyət göndərdi. Ayrıca, 833-cü ilin aprel ayında Çin sarayında nəşr olunan bir hökmdə Külüg bəy gələcəyi görə bilir və Çin üçün etibarlı dost və bacarıqlı xaqan kimi təsvir olunur. Əks təqdirdə, Çinlə çox yaxın siyasət səbəbi ilə öz vətəndaşları tərəfindən təsdiqlənməmiş, Külüg Beg, hakimiyyətə gələn kimi, Çinlə əvvəllər qohumluq yolu ilə qurulan dostluğu möhkəmləndirmək üçün addımlar atdı. Buna cavab olaraq Kasar Kağanın ölümündən sonra Çin sarayında böyük bir anım mərasimi keçirildi və üç günlük matəm elan edildi. Ancaq zaman keçdikcə Uyğur xaqının Çin ilə həddindən artıq sədaqətli olması, dövlətin ticari yönündə təsirli olan Uyğur zadəganları və Soqukidlər arasında iğtişaşlara səbəb oldu.ümumi olaraq deyə bilərik ki, Uyğur xanlığı Külüg bəy dövründə böyük dövlət statusunu tamamilə itirərək Çinin vassalizasiya siyasətinin bir hissəsinə çevrildi. 839-845-ci illər arasında Uyğur Xaqanlığını idarə edən Uyğur Kağanının, tarixçilərə görə Üge sonuncu qanuni Uyğur xaqanıdır. Yaşadığı müddətdə Uyğur xanlığı dağılma dövrünü başa vurdu və tam dağılma mərhələsinə qədəm qoydu.

Yenisey qırğızı Are xanın başçılığı ilə Ordu Balıq şəhərini ələ keçirdi və yandırdı. Uyğurlar Uge xanın başçılığı ilə cənuba köçdülər. Uyğurların köçə məcbur olması Çini narahat edirdi. Txyan-Te qalasını mühasirəyə alan uyğurlar çinlilərin elçilərini qəbul etmədilər. İmperator uyğurların köçündən qorxurdu. 841-ci ildə xaqan Şofan başda olmaqla onlarla Çin şəhərini yağmaladı və yürüşünə davam etdi. Xaqanın 100.000 əsgəri var idi. Lumunşan dağı yaxınlığında 30.000 əsgərdən 4 aymak da ona qoşuldu. 841-ci ildə Uyğur ordusunda sərkərdə olan Külüg Bəyin qardaşı Umus Çin ordusunda fəaliyyət göstərməyə başladı və Li Sişonq adını aldı. Umusun Çinin tərəfinə keçməsini görən digər sərkərdələr Aliçji, Sivuçjo, Ulosi və s. də Çinin tərəfinə keçdi. 846-cı ildə Monqolustana çəkilən Uge orda yerli qəbilələr tərəfindən öldürüldü (11, s.46).

*Xaqanlığın süqutuna şərait yaradan səbəblər*. Beləliklə, 744-cü ildə yaranmış böyük bir xaqanlıq birdən-birə süqut etmədi. Uyğur xaqanlığının çöküşünü bir səbəbə bağlamaq da doğru deyildir.Yəni səbəb olaraq, yalnız qırğızların hücumlarını göstərmək düz olmaz. Saadettin Yağmur Gömeç hesab edir ki, bəlkə də qırğızların hücumları ən sonuncu səbəb olmuşdur (12, s.107). Xaqanlığı zaman-zaman süquta aparan bır sıra səbəblər var idi və bu səbəblər digər dövlətlərin xaqanlığın üzərinə hücum etməsinə şərait yaratmış oldu. 839-cu ildə xaqanlığın daxilində meydana gəlmiş aclıq, qıtlıq, şiddətli soyuqlar, xəstəliklər xaqanlığın zəifləməsinə təsir etdi (16). Çinlilərin ənənəvi olaraq Türk qüvvələrini parçalanmasına yönəlmiş siyasətləri, dövlət adamları arasındakı çəkişmələr və hətta digər dövlətlərlə taxta sahib olmaq uğrunda mübarizələri eyni zamanda da yaşadıqları coğrafi bölgənin sərt problemləri, dövlətin tənnəzzülünə yaxın qış ayının çox çətin keçməsi, siyasi böhranlardan sarsılan dövlətin iqtisadi durumunun zəifləməsi, digər bir səbəb Maniheizm dinin insanlar arasında geniş vüsət alaraq oturaq həyat tərzinin əsasını qoyması, bunun nəticəsində döyüş qabilliyyətlərini zaman keçdikcə itirmələri və düşmənlərlə mübarizə etməkdə acizlik göstərmələri Uyğur xaqanlığının süqutuna doğru aparan əsaslı səbəblərdən idi (1, s.91).

*Nəticə*. Gəldiyimiz nəticəyə əsasən Tarixi hadisələrin gedişatını aydın şəkildə dərk etdikdə, uyğurların özlərinin özlərini məhv etmələrinin şahidi oluruq. Xaqanlar arasında olan çəkişmələr ətraflarında olan düşmənləri görə bilməmələrinə səbəb oldu. Digər tərəfdəndə Bögü xaqanın hakimiyyəti dövründə dəyişmişdirilmiş uyğur ənənələrini də qeyd etmək lazımdır. Xaqanın özünü xalqdan ayıraraq, saraylarda yaşamağa başlaması illərlə davam etdirilmiş ənənin məhv olmasının sübutudur. Çünki at belində savaşaraq köçəri halda yaşamaq qədim türklərin fərqli özəliklərindən idi. Onların bu özəlliklərindən imtina etmələrində Mani dinin təsiri də çox olmuşdur. Mani dinini qəbul etmələri uyğurların həyatında müsbət cəhətlərlə yanaşı, mənfi dəyişikliklərə də səbəb oldu. Oturaq həyat tərzinə keçmələri onların savaş qabiliyyətlərini unutmalarına gətirib cıxardı. Fikrimizcə, əgər Uyğur xaqanları uyğur adət-ənələrinə uyğun qərarlar versəydilər Uyğur xaqanlığı öz qüdrətini davam etdirə bilərdi. Məhz Uyğur xaqanlarının verdikləri yanlış qərarlar Göytürk mirası üzərində qurulmuş Uyğur xaqanlığının süqutuna səbəb oldu.

ƏDƏBİYYAT:

1. Ali Ahmetbeyoğlu. Uyğurlar. Tarih Lisans Programı. Istanbul, İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi, 2010, s.242. Mənbə: http://auzefkitap.istanbul.edu.tr/kitap/tarih_ao/uygurlar.pdf [Müraciət tarixi: 20.05.2020]
2. Cengiz Alyılmaz. Karı Çor Tigin Yazıtı // Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, Sayı: 2/2 2013, s.1-61. Mənbə:http:///static.dergipark.org.tr/article-download/imported/5000013701/5000013940.pdf? [Müraciət tarixi: 20.05.2020]
3. Doğuhan Murat Yücel. İlk Yerleşik Türkler - Uyğurlarda Devlet Yönetimi - Anlayışı // Felsefe, Siyaset, Tarih. Toplum. Türkoloji, 1 Ağustos 2013. http://www.dmy.info/uygurlarda-devlet/ [Müraciət tarixi: 20.05.2020]
4. Ebulfez Kulı Amanoglu. Uygur Devletinin ilk Kaganlarının (744-840) Ad Ve Unvanları üzerine // A.Ü.Türkiyat Araştırmaları Enstitü-

sü Dergisi Sayı 16, Erzurum, 2001, s.151-155. Mənbə: https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://dergipark.org.tr/en/download/article-file/32681&ved=2ahUKEwiPm764jIToAhXywcQBHXI9C6UQFjAAegQIAxAB&usg=AOvVaw0n9dzOK_9JVkndsR2jc9NO&cshid=1583437687279 [Müraciət tarixi: 20.05.2020]
5. Gülçin Çandarlıoğlu. Uygur Devletleri Tarihi ve Kültürü // Genel Türk Tarihi. 10 Clilddə. 2-ci cild. İkk Çağ. Editörler: Hasan Celal Güzel, Prof.Dr. Ali Birinci. Ankara, Yeni Türükiye Yayınları, 2002, s.6-43
6. Quliyev Əbülfəz. Qədim Uyğur türklərinin onomastikası. Bakı, AzAtaM, 2014, s.150. Mənbə: http://www.ebooks.az/view/VGmRSXzt.pdf [Müraciət tarixi: 20.05.2020]
7.Mədətoğlu Aydın . Qasımlı Türklər (Tarixi oçerklər). Bakı, [MMC], 2012, s.545. Mənbə: http://anl.az/el/Kitab/2013/Azf-272414.pdf [Müraciət tarixi: 20.05.2020]
8. Muxtarova Əsməd .Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, "Adiloğlu" nəşriyyatı, 2015, s.448.
9. Muxtarova Əsməd . Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər). Bakı, Nurlar, 2002, s.136.
10. Namazov Qara. Böyük Uyğur Imperiyası // Tarix və onun problemləri, № 1-2 2009, s.404-410. Mənbə: http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2009%201-2/404-410.pdf [Müraciət tarixi: 20.05.2020]
11. Özkan Izgi. Kutluk Bilge Kül Kagan - Bögü Kagan Ve Uygurlar. Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1986, s.133.
12. Saadettin Yağmur Gömeç. Geçmişte Ve Günümüzde Uygur Türklerine Genel Bir Bakış / Prof. Dr. Vahdet Keleşyılmaz Armağanı. Bilim Uğrunda 30 Yıl. Ankara, 2018, s.101-120. Mənbə: https://www.academia.edu/39081592/GE%C3%87M%C4%B0%C5%9ETE_VE_G%C3%9CN%C3%9CM%C3%9CZDE_UYGUR_T%C3%9CRKLER%C4%B0NE_GENEL_B%C4%B0R_BAKI%C5%9E [Müraciət tarixi: 20.05.2020]

13.Saadettin Gömeç. Moyun Çor / Türk Tarihi, 7 Şubat 2010. Mənbə: https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.altayli.net/turk-buyukleri-22-boru-kun-moyun-cor.html&ved=2ahUKEwiVjr3yrc3pAhVuw4sKHRGqDXkQFjAAegQIBhAC&usg=AOvVaw03DXuv73kJSQSor9OOuCmH&cshid=1590352925834 [Müraciət tarixi: 20.05.2020]
14. Saadettin Gömeç. Uyğur Kagan Soyunun Problemleri // Hacettepe Üniversitesi Türkiyat Araştırmaları (HÜTAD), Yıl 2008, Cilt, Sayı 9, s.257-264. Mənbə: http://static.dergipark.org.tr/article-download/b04b/796b/a7a0/5c581a432c1df.pdf? [Müraciət tarixi: 20.05.2020]
15. Saadettin Gömeç. Türk taraihinin kahramanları: XXIV Tun Baga Tarkan // Orkun, 82.Sayı, 1 Aralık 2004. Mənbə: https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.altayli.net/turk-buyukleri-23-tonga-tun-baga-tarkan.html&ved=2ahUKEwiAto7ir83pAhXKcJoKHQxDBdAQFjAKegQIDhAB&usg=AOvVaw2KjDA9wpdYHkGsykrd-LU1&cshid=1590353368591 [Müraciət tarixi: 20.05.2020]
16. Uyğur Devleti (745-840) / Uyğur Akademisi. Mənbə: https://akademiye.org/tr/?p=1 [Müraciət tarixi: 20.05.2020]

**ULVIYYA HAZIYEVA**
***Baku State University SABAH Groups***
***2nd year student of the speciality of History teacher***

## REVIEW THE HISTORY OF THE UYGHUR KHAGANATE. ONOMASTICS OF UYGHUR KHAGANS AND NAMES

The ancient Uyghur khaganate was one of the oldest Turkic states in Central Asia, that achieved cultural and political development. We have tried to clarify the controversial and interesting policy pursued by the Uyghur khagans in our article. The sources in Turkish and Azerbaijan languages were used in the article. Issues such as the names and titles of the khagans, the names and titles given by

neighboring countries, the names of the khagans in the monuments, the victorious and incompetent results of their policy, the spread of Manichaeism in the Uyghur khaganate had been found its explanation in this article. You can read the article for much more wider information.

*Keywords*: Uygur khaganate, Manichaeism, Uyghur Turks, Yaglakar dynasty.

*Daxil olma tarixi*: 20.05.2020-ci il.

*Çapa imzalanma tarixi*: 05.06.2020-ci il.

---

Çapa imzalanmışdır: 10.06.2020.
Kağız formatı: 60x84 1/16 Həcmi: 16,5 ç.v. Sayı: 200

Ləman poliqrafiya müəssisəsində hazır pozitivlərdən çap olunmuşdur

Çapa imzalanmışdır: 10.06.2020.
Kağız formatı: 60x84 1/16 Həcmi: 16,5 ç.v. Sayı: 200 ədəd

Ləman poliqrafiya mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur

